**ABBAS HACIYEV**

# *SƏNƏTİN İŞIĞINDA*

***(Əli Rza Xələfli - yaradıcılığın portret cizgiləri)***

**BAKI - 2010**

**A(010)**

**Redaktor:** **Mahmud ALLAHMANLI,**
**filologiya elmləri doktoru**

**Abbas HACIYEV (**Hacıyev Abbas Məhəmməd oğlu), **"**Sənətin işığında**"** ***(Əli Rza Xələfli - yaradıcılığın portret cizgiləri)***. Bakı, "Adiloğlu" nəşriyyatı, 2010, 240 səh. (əlavə şəkillər 32 səh.)

İSBN 9952-425-11-10

**"Adiloğlu" nəşriyyatı, 2010**



ABBAS HACIYEV

**(Hacıyev Abbas Məhəmməd oğlu )**

**1 yanvar 1933-cü ildə Borçalı mahalının Sarvan kəndində (indiki Marneuli rayonunun Marneuli şəhəri) kəndli ailəsində anadan olmuşdur. O, 1970-ci ildən filologiya elmləri doktoru, 1973-cü ildən professordur. Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorudur.**

**Professor Abbas Hacıyev onlarca elmi və ədəbi-tənqidi məqalələrdən başqa, "Tiflis ədəbi mühiti", "Mirzə İbrahimov", "Tiflis**

**Azərbaycan teatrı", "Yazıçı şəxsiyyəti və bədii qanunauyğunluq", "Ədəbiyyatşünaslığın əsasları", "Sənətkarın yaradıcılıq fərdiliyi", "Bədii əsərin strukturu", "Ədəbi növlər və janrlar", "Ədəbiyyat nəzəriyyəsi", "Tiflis Azərbaycan və Adıgün Türk Teatrı", "Həyat və ədəbi tale" və "Ədəbi meyllər və cərəyanlar" adlı monoqrafiyaların, dərslik və dərs vəsaitlərinin müəllifidir.**



Əli Rza XƏLƏFLİ

**(Əzizli Əlirza Zal oğlu)**

**1953-cü ildə Cəbrayıl rayonunun Xələfli kəndində doğulmuşdur. 1975-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, doğulduğu rayonun Şahvəlli, Tatar və Aşağı Xələfli kəndlərində müəllim işləmişdir. Həmin illərdəki pedaqoji fəaliyyətinə görə "Qabaqcıl maarif xadimi" fəxri adına layiq görülmüşdür.**

**80-ci illərin əvvəllərindən mətbuatda çalışır. "Xudafərin", "Qoşa qanad", "Qaradağ" və "Həyat" qəzetlərində xüsusi müxbir, şöbə müdiri və redaktor əvəzi vəzifələrində işləmişdir.**

**Əli Rza Xələfli zəngin yaradıcılıq yolu keçmişdir. "Karvan körpüdən keçir" (1997), "Baş daşımın yazıları" (1998), "Yurdun**

**övladları" (E.Kamalla birlikdə, 2000) ədəbi-bədii publisistik, "Sözə doğru" (2003) ədəbi-tənqidi, "Ocağımın işığı" (2001), "Həsrət körpüsü" (2003) şeirlər və poemalar kitablarının müəllifidir. O, "Mənəviyyatın ekologiyası" (2005), "Fənayənin sualları" (2006), "Yana-yana yaşadım" (2006), "Koroğlu - Hoydu dəlilərim, hoydu" (şair İslam Sadıqla birlikdə, 2006) kitablarının tərtibçi müəllifidir.**

**Ə.Xələflinin "Daş yazısı" (2008) şeirlər və poemalar, "Arzulara dəyən güllə" (2008), "Meyar" (2008), "Adı Şadiman olanın..." (2009), "Dilimiz - varlığımız" (2009), və "Dünya yazana qaldı" (X.Xəlilovla birlikdə, 2009) ədəbi-publisistik, kitabalrı da oxucularla yeni görüşləridir. "Araz ağrısı" şeirlər və poemalar kitabı da nəşrə hazırlanır.**

**Ə.Xələflinin ədəbi-publisistik yazıları və şeirləri dövri mətbuatda müntəzəm çap olunur. "Qızıl qələm" və "Araz" ali ədəbi mükafatları laureatıdır. Azərbaycan Yazıçılar Birliyi Bədii Ədəbiyyatı Təbliğ Bürosunun "Qılınc və qələm" yaddaş mükafatına (2004) layiq görülmüşdür. O, ədəbi yaradıcılığına və "Kredo" qəzetindəki fəaliyyətinə görə (2008) Beynəlxalq Rəsul Rza mükafatı laureatıdır və Prezident təqaüdçüsüdür.**

**Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.**

**Hazırda öz yolu və özünəməxsus dəst-xətti ilə seçilən "Kredo" (1999) qəzetinin baş redaktorudur.**

***REDAKTORDAN***

# DÜNYA SƏNƏTİN İŞIĞINDA

Müasir ədəbi prosesdə bütün olanları izləmək, onlara münasibət bildirmək özü müşkül bir işdir. Çünki mövcud şəraitdə bir qapışıqlıq hökm sürür. Kitab adı ilə hər cür yazılar çap olunur. Bunu izləməyə isə nə tənqidçinin, nə də yazıçı, şair olanın fiziki imkanları çata bilməz. Ancaq etiraf edək ki, son dövrdə kifayət qədər uğurlu işlər görülməkdədir. Bunların bir hissəsini böyük yaradıcılıq təcrübəsi olan, zaman-zaman sözün keşiyində duran yaşlı nəslin yazıb yaratdıqları təşkil edir. Müasir ədəbiyyatın ağırlığı da, bütün problemləri də sözün həqiqi mənasında onların çiyinlərindədir. Canını, qanını, bütün varlığını bu yolda şama döndəriblər. Daha doğrusu ömürlərini şam kimi əridiblər. Nəsillər üçün örnək olacaq ömür yaşayıblar. Haqqında danışdığım, "Sənətin işığında" kitabına redaktordan adı ilə ön söz yazmaq istədiyim tənqidçi, ədəbiyyatşünas Abbas Məhəmməd oğlu Hacıyev məhz həmin şəxslərdəndir. O, ədəbiyyata gəldiyi ilk gündən indiyə qədər öz istedadı, zəhmətkeşliyi, yaradıcı duyumu ilə həmişə diqqət mərkəzində olub. Bütün tərəfləri ilə ədəbiyyatı, ədəbi prosesi içindən keçirib. Hər kəsin layiq olduğu qiyməti tənqidçi kimi verməyə çalışıb. Hələ keçən əsrin 80-ci illərinin əvvəllərində, tələbəlik illərimdə onun mətbuat səhifələrində bir-birinin ardınca çıxan silsilə yazılarını oxuduğum yadımdadır. Tələbə yoldaşlarım arasında onun yazdıqları əl-əl gəzirdi. Necə olur-olsun tapıb oxumağa çalışırdıq. Hər birimiz imkanımız daxilində həmin məqalələri dərk edir, diskusiyalar aparırdıq. Onlar indi də yadımdadır. Ancaq bütün təfərrüatı ilə vermək fikrində deyiləm. Sadəcə olaraq filologiya elmləri doktoru, professor Abbas Hacıyevin bugünkü zəngin yaradıcılı fonunda xatırlamalarımdı. Bir istiqamətdə tələbəlik illərimin təəssüratıdır. O təəssüratdı ki, bugünkü orta nəsil bütün qazandıqları, nailiyyətləri üçün həmin nəslə borcludu.

Düşüncələrimin böyük bir hissəsi, bəlkə də bəzi istisnalar nəzərə alınmazsa hamısı onun son dövrlərdə çıxan yazıları ilə bağlıdır. Bu yazılarla bağlı təhlilə keçməmişdən öncə bir məqamı da qeyd edim. Tale elə gətirdi ki, tələbəlikdə uca bildiyim və böyük qibtə ilə izlədiyim Abbas Hacıyevlə bir yerdə işlədim. Onunla fikir, sənət, söz, yol yoldaşına çevrildim. Onu daha yaxından öyrəndim. Bir növ onun və onun kimi ucalardan uca olan ziyalıların qayğısında yaşadım. İndi də şükr edirəm ki, onların əhatəsindəyəm. Təkrar qeyd edirəm, taleyimdə, düşüncəmin, fikirlərimin formalaşmasında etiraf edim ki, onların müstəsna rolu olub və yenə də var.

Abbas Hacıyev çoxlu sayda kitablar müəllifidir. "Tiflis ədəbi mühiti", "Mirzə İbrahimov", "Tiflis Azərbaycan teatrı", "Yazıçı şəxsiyyəti və bədii qanunauyğunluq", "Ədəbiyyatşünaslığın əsasları", "Sənətkarın yaradıcılıq fərdiliyi", "Bədii əsərin strukturu", "Ədəbi növlər və janrlar", "Ədəbiyyat nəzəriyyəsi", "Tiflis Ahərbaycan və Adıgün türk teatrı" adlı monoqrafiyaları, dərslik və dərs vəsaitləri buna nümunədər. Bu kitabların hər biri uzunmüddətli araşdırmaların, uğurlu tədqiqatların nəticəsidir. "Tiflis ədəbi mühiti", "Tiflis Azərbaycan teatrı" adlı araşdırmaları bütünlükdə Azərbaycan ədəbi nəzəri fikrinin uğurudur. A.Hacıyev heç nə yazmayıb bu tədqiqatı ilə kifayətlənsə belə yenə onun yeri ucalıqdı. Bu xidmətləri ilə o özünə əlçatmazlıq abidəsi ucaltmışdır. Heç kəsin görə bilmədiyi işləri görmüşdü. İndi Tiflis ədəbi mühiti, Tiflis Azərbaycan teatrı haqqında yazmağa nə var. Abbas müəllim onu arxivlərdən, arxiv materialları, sənədlər əsasında işləyib təzədən elmi, ədəbi ictimaiyyətə təqdim etdi. Ondan sonra yazılanlar A.Hacıyevin dediklərindən bir addım belə o yana gedə bilmir. Daha doğrusu onun ətrafında fırlanır. Bu gün Tiflis ədəbi mühitindən, Tiflis Azərbaycan teatrından danışılanda ilk öncə A. Hacıyevin tədqiqatları yada gəlir. Eləcə də A.Hacıyevdən danışılanda Tiflis ədəbi mühiti, Tiflis Azərbaycan teatrı xatırlanır. Bu bir həqiqətdir. Son dövrlərdə yazdığı "Tiflis Azərbaycan və Adıgün

türk teatrı" (Bakı, Borçalı, 2006) adlı tədqiqatı da həmin uğurlu işlərin davamıdır. A.Hacıyev burada təkrarən Tiflis Azərbaycan və Adıgün türk teatrının tarixinə diqqət yetirmiş, ona əlavələrini etmiş, bir sıra dəqiq faktlar əsasında məsələlərə aydınlıq gətirmişdir.

A.Hacıyevin çoxşaxəli fəaliyyətinin mühüm bir hissəsi tələbə auditoriyası ilə bağlıdır. Onun bu istiqamətdə yazdığı dərslik, dərs vəsaitləri indiki şəraitdə olan boşluğu doldurmağa xidmət edir. M.Rəfilidən, M.Cəlaldan, P.Xəlilovdan gələn ənənənin davamı kimi görünür. "Ədəbiyyatşünaslığın əsasları", "Sənətkarın yaradıcılıq fərdiliyi", "Bədii əsərin strukturu", "Ədəbi növlər və janrlar", "Ədəbiyyat nəzəriyyəsi" kitabları buna nümunədir. Digər bir məqamı da qeyd edək ki, bunlar təkcə dərslik və dərs vəsaiti kimi əhəmiyyət kəsb etməklə kifayətlənmir. Eyni zamanda Azərbaycan ədəbi-nəzəri fikrinin səviyyəsini nümayiş etdirir. Və son olaraq dünya ədəbi-nəzəri fikrinin təqdimi kimi görünür. Bunlar A.Hacıyevin araşdırmalarının bizim düşüncəmizdə yaratdığı təəssüratın bir qismidir.

Son dövrlərdə prof. A.Hacıyev bir-birindən maraqlı yazıları ilə mətbuat səhifələrində görünür. Mən deyərdim ki, bunların hər birisi ədəbi hadisə, ədəbi-nəzəri fikrə töhfə xarakterlidir. "İlk qastrol tamaşaları" ("Kredo" qəzeti, 6 fevral 2010-cu il), "Yaradıcılıq birdən-birə qırıldı" ("Kredo" qəzeti, 20 fevral 2010-cu il) və s. adlı məqalələri buna nümunədir.

Prof.A.Hacıyevin yaradıcılığının mühüm bir hissəsini müasir ədəbi proseslə bağlı yazdığı məqalələr təşkil edir. "Sənətin işığında" adı kitabı da bu sıradadır. Kitabda ədəbiyyatşünas alim Abbas Hacıyev istedadlı şair, publisist Əlirza Xələflinin yaradıcılığı ilə bağlı son dövrlərdə yazdığı məqalələri vermişdir. Onu da əlavə edək ki, bu məqalələrin hər biri kitaba gəlincəyə qədər mətbuat səhifələrində çap olunub ədəbi ictimaiyyətə çatdırılmışdır. Kitab şəklində çapa hazırlanıncaya qədər bu məqalələri mətbuat səhifələrində oxumuşam. Bir tənqidçi kimi

müəllif Ə.Xələflinin yaradıcılığını diqqətlə izləmiş, onun nəşr olunan kitablarına, mətbuat səhifələrində çıxan məqalələrinə diqqət yetirmiş və ətraflı təhlilini verməyə çalışmışdır. A.Hacıyevin nəzər-diqqətini Ə.Xələflinin yaradıcılığı xeylit əvvəl cəlb etməyə başlamışdır. Çünki "Həyat və ədəbi tale" (Bakı, Səda nəşriyyatı, 2008) adlı kitabında təxminən altı məqalə Ə.Xələflinin yaradıcılığının müxtəlif istiqamətlərdən təhlilinə həsr olunmuqdur.

Həm professor Abbas Hacıyevin, həm də şair, publisist Əlirza Xələflinin yaradıcılığı mənə çox yaxşı tanışdır. Bu dərin zəka sahiblərinin yaradıcılığını ardıcıl izləməyə çalışmışam. Bu düşüncədə olmuşam ki, hər iki ədib sözün və sözünün qədrini bilən şəxsiyyətlərdəndir. Müasir mərhələdə, Azərbaycanın müstəqilliyindən sonrakı dövrdə sözə sədaqət göstərmək, lazım olanı deyə bilmək zamanın və dünyanın qarışıqlığında çox çətindir. Buna sədaqət göstərib, axıra qədər əməl etmək hər yaradıcıya nəsib olmur. Lakin mənim tanıdığım Abbas Hacıyev və Əlirza Xələfli bütün vəziyyətlərdə əlahəzrət sözün ucalığına, ülvülüyünə xidmət edib və indi də etməkdədir. A.Hacıyev müasir ədəbi tənqidin, Ə.Xələfli bədii düşüncənin siması olan şəxslərdəndir. Bu gün biz onları və bu silsilədən olan şəxsləri lazımınca qiymətləndirə bilmirik. F.Köçərli hələ keçən əsrin əvvəllərində M.V.Vidadi və M.P.Vaqifin yaradıcılığını təhlil edərək belə qənaətə gəlirdi: "…Bizim türklərdə bu hissiyyat və qədirşünaslıq yoxdur. Şan və şərafətimizə, vətən və millətimizin sərəfrazlığına səbəb olan, dilimiz və ədəbiyyatımıza rövnəq verən əziz və möhtərəm vücudların qədr və mənzilətini bilmirik və onların asari-kuzidələri ilə iftixar etmirik. Əzbəs ki, avamıq və avamlığımızdan milliyyət hissi bizdə ayılmayıbdır, vətənimizin, dilimizin, ədəbiyyatımızın qədrini bilmirik". Təxminən yüz il əvvəl deyilmiş bu sözlər indi də yüzə-yüz öz dəyərini, əhəmiyyətini saxlayır. Sanki indi deyilmiş kimi görünür. Təkrar qeyd edək ki, bunu adi sıradan olan bir kəs deyil, ədəbiyyatımızın, ictimai, siyasi, mədəni mühitimizin bütün

ağırlığını çiyinlərində çəkən Firidun bəy Köçərli deyirdi. Təkrar bir də qeyd edək ki, bunu türk şeir ənənəsini, türk düşüncə tərzini bütün tərəflərilə özündə əks etdirən M.V.Vidadi və M.P.Vaqif haqqında deyirdi. Bu sözlər bizim günümüzün, mədəniyyətə, ədəbiyyata, vətən sevgisinə munasibətin baş şüarı olmalıdır. Və bütün Azərbaycan boyu yazılmalıdır.

Əlirza Xələflinin yaradıcılığı bütün tərəfləri ilə mənə və ədəbi ictimaiyyətə, Azərbaycan oxucusuna yaxşı tanışdır. Onun hər bir yazısı zamanın, insanların mənəvi ehtiyacının, sıxıntılarının, iztirablarının, iç dünyasının ifadəsi kimi dəyərlidir. Bu gün Azərbaycan mühitində bir kitab, şeir, nəsr, publisistika, siyasət bolluğu var. Eyni zamanda bu gün Azərbaycan mühitində bir kitab, şeir, nəsr, publisistika, siyasət kasadlığı da var. Çünki mühitin qarışıqlığı hələ sovuşmayıb. Azərbaycan gərginliklərin, ağrıların içində çırpınır, təngnəfəs olur. Ağız deyəni qulaq eşitmir. Hərə öz atını minib köndələn çapır. O boşluğu dolduracaq adamların bir hissəsi öz küməsinə çəkilib. Yolun hayana olacağı məqamı gözləyir. Şair, publisist Əlirza Xələflinin isə yolu tamamilə fərqlidi. O, bütün varlığı, düşüncəsi, cəfakeşliyi, böyük istedadı ilə meydandadı. Xalq, millət, vətən deyə hayqırır, onun ağrılarla dolu rübabını bir an belə durmadan çalır. Yurd, torpaq, vətən sevgisilə alışıb yanır. Özü bu yolda bir nümunəyə çevrilir. Prof. A.Hacıyev məqalələrinin birinin adını "Arazı çağlar gördüm" qoyub. Kifayət qədər uğurlu başlıqdı. Yazı da elə şair, publisist Ə.Xələflinin bu çağlayan səsini bütün Azərbaycan boyu səpmək amalına xidmət edir. Bir növ tənqidçi A.Hacıyev də bu yazısı ilə həmin səsə qoşülür. Bu Əlirza Xələflinin şeirlərində də var. Ə.Xələfli sözün həqiqi mənasında Araz kimi çağlayır. Araz bir çay ömrünü, Əlirza Xələfli bir insan, şair ömrünü çağlayır. Bunları birləşdirən vətən, yurd, Azərbaycan ağrılarıdır. Hər ikisi eyni ağrıları həsrət, ümid dolu sabaşlara daşıyır.

Əlirza Xələflinin zəngin yaradıcılığının mühüm bir hissəsi "Kredo" qəzeti ilə bağlıdır. Bu qəzet özlüyündə bütünlüklə

Azərbaycan ədəbiyyatına, ədəbi mühitin düşüncələrinin ifadəsinə xidmət edir. Müasir vəziyyətdə belə bir funksiyada çıxış eləməyin özü qəhrəmanlıqdı. Müstəqillik Azərbaycana bütün istiqamətlərdə demokratiya gətirdi. Qəzetçilikdə də özünü göstərdi. Ancaq bu demokratiya bəzən bir bayağılıqla göründü. Hərc-mərclikdə üz-üzə qaldı. Məsələn, qəzetçilikdə hər yerindən duran qəzet yaratmaq iddiasına düşdü. Lakin özünün yolu, dəqiq müəyyənləşmiş mövqeyi olan qəzetlər az oldu. Onlardan biri, bəlkə də birincilərdən biri "Kredo" qəzetidir ki, bu gün də böyük ziyalı kütləsini ətrafında toplaya bilib. Azərbaycan ədəbiyyatının, ziyalı mühitinin, mədəniyyətin tribunasına çevrilib. Sözün həqiqi mənasında ədəbiyyatımızın kredosu funksiyasında çıxıh edir. Bir həqiqəti etiraf edək ki, dövlət səviyyəsində ədəbi prosesə xidmət edən, dövlətdən maliyyələşən qəzet və jurnallar "Kredo" qəzetinin yüzdə biri qədər ədəbi mühitə yaramır. Təkəbbürlük, mənəm-mənəmlik onları qapalılıqla üz-üzə qoyub. Ancaq müəyyən qrupa xidmət kimi bir düşüncə ilə yaşamağa gətirib çıxarıb. Əlirza Xələfli məhz bu qəzetlə Azərbaycan mühitində olan boşluğu doldurmaq kimi müqəddəs funksiyanı yerinə yetirdi. Abbas Hacıyev kitabda müxtəlif məqamlarda Ə.Xələflinin zəngin yaradıcılığını təhlil edərkən onun qəzetçilik fəaliyyətinə də diqqət yetirir. Bu zəngin yaradıcılıqda mühüm bir hissəni onun jurnalistlik fəaliyyəti tutduğunu yazır. "Kredo" yeni dünyabaxışlı, yüksək elmi-mədəni, ədəbi-estetik zövq və duyumlu, qayğıkeş və nəzakətli Vətən, xalq və Qarabağ sözləri dilindən düşməyən peşəkar jurnalistlərin nəşr etditkləri məzmunlu qəzetdir. Bu nüfuzlu qəzetə politoloqlar, tarixçilər, ədəbiyyatşünas-tənqidçilər, iqtisadçılar, bədii söz ustaları, sənətşünaslar, müəllimlər, tələbələr, inamla, təmiz etiqadla üz tuturlar… Ona görə də "Kredo" bizim ömür-gününü, istedadını, yaradıcı axtarış və tapıntılarını xalqın həyatından ayırmayanların mənəviyyatı vətənpərvərlikdən, milli qürur və təmizlikdən yoğruldanların qəzetidir". Bu prof.A.Hacıyevin

"Arazı çağlar gördüm" məqaləsindən bir parçadır. Lakin kitabın müxtəlif səhifələrində Əlirza Xələflinin yaradıcılığı təhlil olunarkən bir istiqamət kimi onun jurnalislik fəaliyyəti, qəzetçiliyi ön plana çəkilir. "Güclü fikir axarı, rəng və boyaların əlvanlığı" adlı məqaləsində isə məsələyə ümumi kontekstdə yanaşma var. A.Hacıyev yazır: "Əli Rza Xələfli ötən əsrin 80-ci illərindən istedadını, hələ əlində möhkəm dayanmayan titrək qələmini mətbuatda sınaqdan çıxarmışdır. "Xudafərin", "Qoşa qanad", "Qarabağ" və "Həyat" qəzetlərində xüsusi müxbir, şöbə müdiri və redaktor əvəzi vəzifələrində işləmişdir. Şeirləri və ədəbi-publisistik əsərləri mətbuatda müntəzəm çap olunmuşdur. "Qızıl qələm", "Araz" ali ədəbi mükafatına layiq görülmüşdür. "Kredo" qəzetinin baş redaktoru vəzifəsini tutandan sonra Əli Rza Xələfli milli mündəricəsinin, ədəbi-bədii zövqünün aliliyi ilə göründü, nüfuzunun üstünə nüfuz gətirdi". Bütün bunlar bir istiqamətdə Əli Rza Xələflinin jurnalistlik fəaliyyətini açıqlayır. Ancaq onu da etiraf edək ki, bu zəngin fəaliyyətin hər biri, jurnalistlik, bədii yaradıcılıq və s. nə varsa biri digərini tamamlayır. Ə.Xələfli yaradıcılığının, istedadının imkanlarını ortaya qoyur. H.Zərdabidən, C.Məmmədquluzadədən, Ə.Cəfəroğlundan, Ə.Hüseynzadədən, Ə.Ağayevdən və başqalarından gələn yolun müasir dövrdə layiqli davamçısı vəzifəsini yerinə yetirir. Cəfakeş rolunda çıxış edir. Ancaq bir təəssüfümüzü də deyək. Çox təəssüflər ki, bu cür fədakarlar bütün mühit, xalq səviyyəsində uca tutulur, ancaq dövlət və hökumət səviyyəsində heç nəyə sahib çıxa bilmirlər. Daha doğrusu qohum-əqrəbaya, yaxın bilinənə səxavətlə paylanan dürlü adlar Ə.Xələfli olana nədənsə layiq bilinmir.

A.Hacıyevin çapa hazırladığı "Sənətin işığında" kitabında Əlirza Xələflinin yaradıcılığı bütün tamlığı ilə əksini tapır. Orada bu tamlıq bir növ Azərbaycanın, Qarabağın, düşdüyümüz bugünkü vəziyyətin mahiyyətini açmağa yönəlib. Əlirza Xələfli bunları, bir jurnalist, nasir, şair kimi təkcə demir, eyni zamanda vətəndaş olaraq yaşayır, içindən keçirərək yazıya

gətirir. Məhz bu səbəbdən də A.Hacıyev təhlillərində xüsusi olaraq vurğulayır. "Ədəbiyyat və incəsənət, öncə şeir Əlirza Xələflinin taleyidir, həyatının, yaşayışının mənasıdır, ürəyinin çırpıntısı, nəbzinin döyüntüsüdür. O şeirlə düşünür, şeirlə yaşayır, istəyini, idealını misralara, bəndlərə düzür, fikirsiz, məzmun-qayəsiz şeir yazmır". Bu doğurdan da belədir. Ə.Xələflinin bütün düşüncəsi, varlığı onun poeziyasından keçir. Şair ilhamı onun varlığını tərpədir, parça-parça olan Azərbaycanımız, onun bir hissəsi olan Qarabağımız, Göyçəmiz, Zəngəzurumuz kimi dərd daşıyır. Sabahkı savaşlara ovxarlı görünür. Ona görə də o, poeziyada sona qədər deyib çatdıra bilmədiklərini, publisistikada deyir, publisistikada deyə bilmədiklərini şeirdə söyləməyə çalışır. Əlirza Xələflinin publisistikası üçün bir xarakterik keyfiyyət var. Bu publisistikada üslubların qovuşmasıdır. Şeirlə elmilik onun publisistikasının ruhuna çöküb. Bir növ biri digərini tamamlayan fakta çevrilib. "Kredo" qəzetinin səhifələrini bəzəyən məqalələri, redaktordan adı ilə gedən yazıları hər biri bir tədqiqat əsəri qədər dəyərlidir. Bugünkü Azərbaycan ədəbiyyatının bütün istiqamətlərdə uğurudur. Əlirza Xələfli məqalələrinin mühüm bir hissəsi ədəbi mühiti xarakterizə etmək səciyyəsi daşıyır. Burada müasir ədəbiyyatın, dilçiliyin, folklorşünaslığın ayrı-ayrı problemləri ilə bağlı yazılar, eləzə də ayrı-ayrı tədqiqatçıların fəaliyyətinə həsr olunmuş məqalələr diqqəti cəlb edir. Məsələn, aşıq ədəbiyyatının görkəmli sənətkarları Dirili Qurbani, Aşıq Ələsgər, Mikayıl Azaflı, Aşıq Əkdər, Aşıq Hüseyn Saraclı, Aşıq Əhməd Sadaxlı və s. haqqında dedikləri foklorşünaslığa əlavələrdi. Konkret faktlardan çıxış etmə, yaradıcı duyumu burada bir aydınlıqla hiss olunur. Müəllifin ədəbiyyatı, ədəbi prosesi ardıcıllıqla izləməsini göstərir. Prof.A.Hacıyev Dirili Qurbani haqqında məqaləni oxuduqdan sonra maraqlı bir qənaətlə yazır: "Ə.Xələflinin səbrli və təmkinli elmi axtarışlarında Qurbani XV-XVI əsr Azərbaycan poeziyasının, xüsusilə aşıq poeziyasının,

sazın müşaiyəti ilə oxunan şeirlərin ən qüdrətli müəllifi kimi Azərbaycan ədəbiyyatı tarixində önəmli yer tutur. Hiss olunur ki, Qarabağı, eləcə də Cəbrayılı Ə.Xələfli dağları, dərələri, kəhrizləri, qəsəbə və kəndlərilə tanımış Qurbaninin ayağı dəyən yerləri gəzmiş, müşahidələrini gözlərinə yığmışdır. Bunlardan və yazılı mənbələrdən hünərlə istifadə məqalənin tarixi-elmi dəyərini artırmışdır. "El arasında Qurbani yurdunun hər dərəsinin, hər təpəsinin, bulağının, çalasının-çökəyinin adı var. Dem dağından üzüaşağı Qurbani qəbristanlığına tərəf... bu qəbristanlıqda Qurbaninin qəbri var, ən başlıcası çay daşlarından çəkilmiş hasarın içində qoşa qəbir- Qurbani və Pəri məzarlığı kimi tanınır, ocaq kimi həmişə ziyarət olunurdu". Qurbani haqqında çox araşdırmalar aparılıb, müxtəlif tipli mülahizələr söylənib, şeirləri toplanıb kitab şəklində çap olunubdur. Bunların bir hissəsi məqalə və kitab səviyyəsində olan araşdırmalardır ki, orada kifayət qədər maraqlı ümumiləşdirmələr var. Əlirza Xələfli isə öz mülahizələri ilə həmin tədqiqatlara əlavələrini edir. "Aşıq Ələsgərli düşüncələr" məqaləsini də prof.A.Hacıyev kifayəi qədər elmi kontekstə təhlil edir, Aşıq Ələsgər böyüklüyünü, Azərbaycan şeirində yerini bir publisist -şair kimi göstərə bilməsi bacarığını xüsusi olaraq vurğulayır. "Aşıq Ələsgərli düşüncələr" kiçik bir məqalədir, çox ifadəli, lakonik və şairanə yazılmışdır. Burada Aşıq Ələsgər də, onun sazı da, səsi də Ə.R.Xələflinin ruhundadır, fikir və xəyalındadır, mənəvi yaddaşının özül daşıdır, bünövrəsidir. "Aşıq Ələsgər heyrətamiz bədii güc, istedad idi. Aşıq hərarətlə, ürəyinin bütün yanğısıyla sevirdi, xalqını, vətənini, el-obasını sevirdi, insanlara vətənpərvərlik hissləri aşılayırdı. Haqq aşığı şeir dünyasında zirvə idi, təmiz məhəbbətin, təbii gözəlliyin, insani münasibətlərin pərvanəsi idi". Ə.R.Xələflinin söylədiyi bu fikirlər Aşıq Ələsgərin şeir aləminin məzmunudur, poetik mündəricəsidir. Elə şair-puğlisistin özünün də mənəviyyatı, ruhu, ürəyi sazla, hikmətlə, bədii sözlə çırpınır". Bu prof. A.Hacıyevin "Meyar" sözün

ölçüsüdür. Bunu Seyid Nigari də deyərdi" adlı məqaləsindəndir. Doğurdan da Ə.Xələfli ürəyi sözlə çırpınan, sözlə yaşamağı, nəfəs almağı bacaran şəxslərdəndir. Elə tənqidçi-ədəbiyyatşünas A.Hacıyev də bu ucalıqda dayanan lardandır. Onun hər bir sözü, mülahizəsi dəqiqliyi, yüksək dəyəri, müdrikliyi ilə səciyyələnir. Ə.Xələfli təkcə xalq ədəbiyyatının ayrı-ayrı janrları, aşıq sənətinin ustadları ilə bağlı mülahizələr söyləmir. Bütün bundan əlavə ayrı-ayrı folklorşünaslar haqqında dedikləri də mühüm dəyər kəsb edir. Onun prof.M.H.Təhmasib, prof.P.Əfəndiyev, prof.İ.Abbaslı, mənim və başqalarının haqqımda yazdıqları folklorşınaslıqda gedən prosesə bələdliyini, nəşr olunan kitabları ardıcıllıqla izlədiyini göstərir. Bu yazılarda publisistik üslub, son dərəcə poetik dil, elmi düşüncə bir-birinə qarışır, müəllifin istedadının imkanlarını açıqlayan fakta çevrilir. Yeri gəlmişkən bir məsələni də qeyd edək. Bu Əlirza Xələflinin xalqın zəngin yaradıcılığından bol-bol bəhrələnmə bacarığıdır. Xalq yaradıcılığı elə bir xəzinədir ki, ona əl uzadanların heç birinin əli oradan boş qayıtmayıb. Hər kəs öz imkanı, istedadı müqabilində ondan bəhrələnir. Ondan istifadə etməyən sənətkar yoxdur. Əlirza Xələflinin yaradıcılığında isə bu bir istiqamət, ruhun ifadəsi kimi daşınır. Daha doğrusu onun yaradıcılığının mahiyyətini əks etdirir. Klassiklərimiz, X.Şirvani, N.Gəncəvi, M.Füzuli, Şah İsmayıl Xətai, M.V.Vidadi, M.P.Vaqif, C.Cabbarlı, S.Vurğun, O.Sarıvəlli, H.Arif və başqaları xalqın yaradıcılığından bəhrələnməklə özlərinin ölməz sənət əsərlərini yaratmışlar. Dastanlarımız, nağıllarımız, əfsanə, rəvayət, atalar sözü və məsəllərimiz, bayatı və laylalarımız, xalq mərasimləri, mahnılarımız, aşıq şeiri onların yaradıcılığı üçün bir ilham mənbəyi olub. Əlirza Xələflinin publisistikasında, poeziyasında da bu əsas olan istiqamətdir. Məhz onun bütün yazılarına çökən dil, üslub şirinliyi mən deyərdim ki, yüzə-yüz buradan gəlir. Burada qanla gəlmə, gen yaddaşı məsələsi də var.

Gen yaddaşı kontekstində Əlirza Xələflinin yaradıcılığına

baxanda türkün şərəfli tarixi gözlərimiz önündə birər-birər canlanır. Xan Qazanın, Manasın, Uralbatırın, Canqarın, Alpamışın, Corabatırın, Babəkin, Qoç Koroğlunun qəhrəmanlığının, türk ruhunun səsi gəlir. Bu səs bir növ kodlaşdırılmış bir dəyər kimi Əlirza Xələflinin və bu silsilədən olanların ruhunda sabahlara daşınır. Türklər bütün zamanlarda ruhun ölməzliyinə inanmışlar. Bu türk qəhrəmanlıq ruhunda daha aydınlıqla müşahidə olunur. Bir istiqamətdə bu məhəbbət dastanlarımızda, onun qəhrəmanlarında özünü göstərir. A.Hacıyev "Azərdən Turanacan" adlı məqaləsində bir maraqlı məqamı xüsusi olaraq vurğulayır: "Əlirza Xələfli şeirlərini, poemalarını, publisistik əsərlərini sərištə və vərdişlə yazmaz. Yazmaq bu sənətkarda təbii, daxidi tələb və ehtiyacdır, Allah vergisidir, humanist, vətənpərvər ideyalar yaymaq, xalqın həyatını, istək və arzularını ifadə etmək, nəsilləri hərtərəfli zənginləşdirmək istəyidir. Milli-bədii mədəniyyətin Xətib Təbrizi, Xaqani, Nizami, Nəsimi, Füzuli, Vaqif və Səməd Vurğundan üzü bəri süzülüb gələn həmişəyaşar ədəbi ənənələri yaymaq, ümumiləşdirmək arzusudur. Buna görə də bu geniş düşüncəli şair-publisist həm klassik ədəbiyyatdan, həm də yeni ədəbi prosesdən qiymətli məqalələr yazır. Müəyyən ədəbi şəxsiyyətlərin yaradıcılığı, ayrı-ayrı əsərləri haqqında söz deyir, fikir söyləyir, onların ədəbi mövqeyinə maraq oyadır. "Yana-yana yaşadım", "Ədəbiyyatın İsmayıl Şıxlı zirvəsi", "Zəlimxan Yaqub - Azərdən Turanacan", "Sevinc və kədərin arasında elegiya", "Azərbaycançılıq", "Vətəndaş Fuad: şair, nasir, rəssam idi", "Böyük Çölün Dədə qorqudu", "Hökmü tarix verir", "Azər Turan: Ölməz ruhun axtarışında" "Yerlə göyün arasında", "Zahid Xəlil: özü, sözü və izi ilə", "Sənətin Firuzəsi", "Söz mələk olanda", "Karvan yolunda bir müsafir", "Gözlə məni körpüdə" və digər məqalələrində bədii ədəbiyyatın onlarla problemlərindən yaradıcı söhbət açır". Ə.Xələfli ədəbi, ictimai-siyasi mühitin bütün problemlərinə yaxıqdan bələd olan sənətkarlardandır. Məhz bu səbəbdən də müasir ədəbi-mədəni,

ictimai-siyasi mühitimizin bütün tərəfləri ilə bağlı məsələlərinə münasibəti orada izləmək olar. Sözün həqiqi mənasında bir məsələni də etiraf edək ki, Ə.Xələfli bu gün birmənalı olaraq ədəbi mühitimizin güzgüsü, funksioneri rolunda çıxıh edir. Daha doğrusu özünün rəngarəng zəngin fəaliyyəti ilə mühit yaratmış şəxslərdəndir. Bu isə hər yaradıcıya nəsib olan hal deyil.

Prof. A.Hacıyev bütün yazılarında Ə.Xələflini publisist-şair kimi təqdim edir. Eyni zamanda onun zəngin fəaliyyətinin birini digərindən ayırmır. Lakin düşüncə etibarilə daha çox poetik duyğulara köklü olduğunu vurğulayır. Biz də bu qənaətdəyik. Tribunal çıxışları, publisistikası özlüyündə bir istiqamətdə buradan qaynaqlanır. Poeziya onun mahiyyətini, hiss və duyğularını, çox-çox dərin qatlardan gələn genetik qatlarını aşkarlayır. Fikrimizcə, Ə.Xələfli dünyaya şair kimi gəlib. Ulu tanrı onun içini sözlə, şairlik duyğusu, hissilə doldurmuşdur. Prof.A.Hacıyev "Lirik-epik şeirin axarında" adlı məqaləsində çox dəqiqliklə bu məsələləri vurğulayaraq yazır: "Ə.Xələfli yeni dünyabaxışlı, müasir duyum və dərkli, orijinal üslublu şair-publisistdir. Ölkədə yaxşı tanınan, şöhrət tapan şair-vətəndaşdır. Onun yüksək şeiriyyətli, səmimiyyətlə dolu lirik, epik-lirik poeziyası yayılır, ədəbi mühitdə ciddi maraq oyadır. "Bir Xələfli var imiş", "İçərişəhər: Daşlar-insanlar", Araz ağrısı", "İnsan, tarix və zaman"… onun yaradıcılığında bir qol, bir şaxədir. Bu şaxə kəmiyyət baxımından çox da tutumlu, əhatəli deyildir. Ancaq poemalar ifadəlidir, lövhələrin, mənzərələrin, detalların poetik imkanları yığcamdır, konkretdir, dinamikdir, gəlimlidir. Müəyyən detal və lövhələrin təsvirində qan yaddaşına epizodik qayıdışlar xalqın yaşayışına, ruhuna, mənəviyyatına və düşüncəsinə Ə.Xələflinin öz nəzəri, öz milli stixiyası ilə baxımı poemaları bir-birinə yaxınlaşdırır; millətin gələcəyinə, qanunauyğun inkişafına keçid onun keçmişindədir - inamı poetikləşir, ideya-estetik pafos təsiri bağışlayır". Ə.Xələflinin bütün şeirlərində türk ruhu, türkün vətən, torpaq, yurd və dünya sevgisi bir aydınlıqla görünür. "Bir

Xələfli var imiş" poeması eləcə də digər lirik, epik-lirik əsərləri bu mənada onun mahiyyətinin ifadəsidir.

***O salamı sözə büküb öpürəm,***
***Yollarına sözdən çiçək səpirəm.***
***Ruhum acdı, gözlərimə təpirəm.***
***Bu yoxüşü bəlkə bir cür diklənəm,***
***O salamın ruhu üstə köklənəm.***

Bu şeir Ə.Xələflinin "Bir Xələfli var imiş" poemasındandır. İlk öncə prof. A.Hacıyevin dediyi bir reallığı təkrar deyim ki, Xələfli dünən olub, bu gün var, sabah da olacaq. Elə yurd, yer, tarixi şəxsiyyət adları, tarixi hadisələr, mədəniyyət faktları var ki, xalqla, xalqın yaddaşı ilə daşınır. Bu gün sinəsi övlad, oğul, qız həsrətilə cadar-cadar olan Xələfli də həmin yurd yerlərindəndir. "Salamı sözə büküb öpən", "salamın ruhu üstə köklənən" Ə.Xələflinin "Bir Xələfli var imiş" kövrəkliyində görünüşü başa düşüləndi. Bu duyğu Xələfli timsalında yaxın-uzaq keçmişimizdə itirilən yurd yerlərinin ağrısıdır. Bütövlükdə türkün iç göynərtisidir. Burada Qarabağ, Qərbi Azərbaycan, Dərbənd, Təbriz, Kərkük və s. və s. ağrıları toplaşır. Ona görə də Ə.Xələflinin bütün şeirlərindən Xan Qazanın, Babəkin, Qoç Koroğlunun, Cavad xanın və bu silsilədən olanlarımızın əsrlərin o üzündən günümüzə çatacaq harayı, düşmən üstünə gedişinin səsi gəlir. Bu gün Ə.Xələfli öz ilhamı, ruhu ilə həmin sıradadır. "Qürbət eldə qərib məzar", "Gümana gedən yol", "Başaq buğdasıyam", "Şairin günahı", "Qorxuram", "Dərdə boyanan dağ", "Özüm azmaram", "İllərin ağrısı", "Söz", "Görünməyən ağrı", "Alnıma yazılanlar", "Vəsiyyət", "Mənim döyüş meydanım", "Kəndimin borcu", "Sınmış güzgünün bəxti", "Bir yuxu görmüşəm", "Qarabağın qapısında düşüncələr", "Anamın ocaq daşına", "Yazmadığım nəğmə", "Ürək yandıran səs", "Ricət" və digər şeirlər torpağımızın bir parçasının - Qarabağ acılarının dinamik məzmun-forma axarında kədərli, sirayətedici boyalarla ifadəsidir". Ə.Xələfli bu şeirləri ilə günümüzün tarixini yazır. Ədəbi, ictimai, siyasi, mədəni mühitin hansı ağrılarla

yaşamasını, hansı duyğulara köklü olmasını poetik boyalarla fakta çevirir. Mənə belə gəlir zamanın istənilən vaxtında, lap elə yüz il, iki yüz il sonra da bu şeirlərdə həmin ağrıları, bu gün şahidi olduğumuz hadisələri, insanların üzləşdiyi faciələri aydınlıqla duymaq, anlamaq kifayət edəcək. Burada sinəsi cadar-cadar olmuş yurd yerlərinin göynərtisi, qərib məzarlar, öz sahibini gözləyən ocaq daşları, dağların sinəsinə qıvrılan həsrət yollar, dərdini çaylara sıxan yaylaq yerləri və o yerlərə dönmək üçün canından, qanından keçməyə hazır olan şair, publisist Ə.Xələfli var. Ə.Xələflinin yaradıcılığı sevginin böyüklüyü, sonsuzluğu anlamında əvəzsizdi. Bütün bu sevgidə görünən ağrılar onu ümidsizliyə aparmır, əksinə qətiyyətə, mübarizəyə, sabahkı savaşa hazırlayır. Bu onun bütün yaradıcılığında, fəaliyyətində Qarabağ savaşından tutmuş bugünkü sonuncu şeirinə qədər aydınlıqla görünür. Bu səbəbdən də Ə. Xələfli bütün fəaliyyəti, yaradıcılığı ilə ədəbiyyatımız, ictimai, siyasi, mədəni mühitimiz üçün örnəkdi. Prof.A.Hacıyevin məhz ardıcıl olaraq onun yaradıcılığını izləməsi, silsilə məqalələr yazması təsadüfi deyildir. Bu yazılar A.Hacıyevin yurdumuza, ədəbiyyatımıza, Ə.Xələfliyə, onun zəngin yaradıcılığına olan tənqidçi münasibətinin ifadəsidir. Tənqidçi-ədəbiyyatşünas Abbas Hacıyev bu kitabı ilə şair, publisist Əlirza Xələflini müasir ədəbiyyatımızın uğurları timsalında içindən keçirdib. Mən isə professor Abbas Hacıyevə və şair, publisist Əlirza Xələfliyə olan sevgimi bir redaktor sözü qədərincə deməyə çalışdım.

**Mahmud ALLAHMANLI**
**filologiya elmləri doktoru**

# HƏYAT VƏ ƏDƏBİ TALE

## *Birinci hissə*

# GÜCLÜ FİKİR AXARI...

***Birinci məqalə***

Əli Rza Xələflini şəxsən çox gec tanımışam. Bu orijinal üslublu şairlə çörək kəsməmişəm, çay içməmişəm; iki-üç il bundan əvvəl özü ilə bir neçə dəfə əhatəli söhbət aparandan, lirik şeirlərini, epik-lirik poemalarını, ədəbi-publisistik məqalələrini diqqətlə oxuyandan sonra məndə - bir ədəbiyyatşünas tənqidçidə belə fikir hasil olmuşdur: Ədəbiyyat və incəsənət, öncə şeir Əli Rza Xələflinin taleyidir, həyatının, yaşayışının mənasıdır, ürəyinin çırpıntısı, nəbzinin döyüntüsüdür. O, şeirlə düşünür, şeirlə yaşayır; istəyini, idealını misralara, bəndlərə düzür, fikirsiz, məzmun-qayəsiz şeir yazmır. Məzmunu hərtərəfli yaşayanda, hisslər və duyğular aləmindən keçirəndə, yəni istedadını zorlamayanda oxucunu düşündürür, onu "qürbət eldə qərib məzarı" dərdə-qəmə bürünən əzəmətli bir dağı, müdrik bir ananın Xələflidə sahibsiz qalan od-alov arzulayan ocaq daşını görməyə aparır:

***Ay anamın ocaq daşı, bikefsən,***
***Ocaq yoxdur, üzün yaman soyuyub.***
***Dərdlərindən dür-düşüncə bükübsən,***
***Məlhəm yoxdur, yaraların soyulub.***

***Ay anamın ocaq daşı, de görüm,***
***Qapıları külək necə süpürür?***
***Mümkün olsa çapar göndər bir sorum;***
***Gündüz qorxur, bəlkə, gecə süpürür.***

Müsahibələri, çoxsaylı ədəbi-publisistik məqalələri və ədəbi qeydləri imkan verir deyək ki, Əli Rza Xələfli yüksək bədii zövqlü ədəbi şəxsiyyətdir. Onun həyat, cəmiyyət, insan, adət-ənənə, sənət və ədəbiyyat anlayışı genişdir, tutumludur. Söhbət edəndə inanırsan ki, o, şair-vətəndaşdır, xalqın bir parçasıdır. Həssas, kövrək, nisgilli, fasiləsiz düşünən, zorla, nəzakət xatirinə gülən insandır; ancaq sadədir, istiqanlıdır, ümidlə yaşayan, el-obanın sabahına inanan təbii, kamil mündəricəli vətənpərvərdir.

Bütün bunlar ona görə belədir ki, Əli Rza Cəbrayıl rayonunda Xələfli kəndində, şairin özünün bədii məntiqində isə "Xudafərin üstə doğulmuş", "həsrət ağrısı ilə yoğrulmuş"dur.

Əsrarəngiz gözəlliyin, mədəniyyət və incəsənət beşiyinin - Qarabağın bir ovuc yırtıcı qəsbkarın - erməninin tapdağında qalması, yurd-yuvanın gözlərinin yol çəkməsi intizarla sahiblərini - azərbaycanlıları gözləməsi Əli Rza Xələflini sıxır. Qürur və heysiyyətinə toxunur. Lakin şair təmkinini saxlayır, "Hər ağrı qəlbini didə", parçalaya bilmir. "Həsrət körpüsü ilə üz-üzə, göz-gözə durur", dərindən nəfəs alır, köks ötürür, ağrını-acını içində, narahat poetik aləmində boğur, böyük milli kədəri - Qarabağ faciəsini sarsıntılarla yaşayır. Fərəhlə kədəri, səadətlə ələmi, sevinclə tənhalığı, arzuyla həsrəti varlığında, fərdi yazı laboratoriyasında cəmləşdirir. Bunlar da şairi yeni fikir və düşüncələrlə zənginləşdirir, mübarizləşdirir, qələminin kəsərini, sözünün təsirini artırır, inamının üstünə sarsılmaz inam gətirir:

***Yuxuma gəlmişdin həsrət körpüsü,***
***Dinmədim sükutla baxışdıq elə.***
***Burum-burum qalxan siqar tüstüsü,***
***Halımı, günümü danışdı sənə.***

***Necə gəlmişdinsə, elə də getdin,***
***Dərdli xatirələr qaldı mənimlə.***
***Gözümə qor töküb, dumanda itdin,***
***Qəmin dəryasında batdım gəmimlə.***

"Həsrət körpüsü" Əli Rza Xələflinin yaradıcılığında rəmz, işarə və əlamət deyildir, tarixi reallıqdır, yaddaşdır. Bu reallıq - Xudafərin körpüsü Əli Rza Xələflinin nə lirikasından, nə epik poeziyasından, nə də publisistikasından üzülmür. Daxili kədər və acılarını hərəkətə gətirir, istedadını tərpədir, duyğu və düşüncələrini oyadır, onu tənhalaşmağa, yazı otağında siqarı-siqara calayıb yazmağa istiqamətləndirir. Çünki "Həsrət körpüsü" Əli Rza Xələflinin poetik dünyasında qaynar ehtirasdır, idraki-tərbiyəvi məzmunlu pafosdur. Ümumiləşən səciyyəvi əlamətlərilə görünən, yaddaşa hopan Qarabağın müvəqqəti əsirliyi haqqında təsəvvürü bir az da genişləndirən təsirli bədii obrazdır:

***Əsir kəndin acısıdı,***
***Qarabağın ağrısıdı.***
***İçilməyən acı sudu,***
***Qürbət eldə qərib məzar.***

***Vətən üçün göz yaşıdı,***
***İldən-ilə qəm daşıdı.***
***Sual, nida - baş daşıdı,***
***Qürbət eldə qərib məzar.***

"Qürbət eldə qərib məzar", "Gümana gedən yol", "Başaq buğdasıyam", "Şairin günahı", "Qorxuram", "Dərdə boyanan dağ", "Özüm azmaram", "İllərin ağrısı", "Söz", "Görünməyən ağrı", "Alnıma yazılanlar", "Vəsiyyət", "Mənim döyüş meydanım", "Kəndimin borcu", "Sınmış güzgünün bəxti", "Bir yuxu görmüşəm", "Qarabağın qapısında düşüncələr", "Anamın ocaq daşına", "Yazmadığım nəğmə", "Ürək yandıran səs", "Ricət" və digər şeirlər torpağımızın bir parçasının - Qarabağ acılarının dinamik məzmun-forma axarında kədərli, sirayətedici boyalarla ifadəsidir. Şeirlər məzmunludur, məna-fikir tutumludur, xırda obrazlar həyatdan alınmış və onlar bədii təşəkküllərini həyatın özünəbənzər tapmışlar. Bu səbəbdən də şeirlər oxucunu çəkir, ilk oxunuşdan hafizələrə köçür, yaddaşdan silinmir.

Əli Rza Xələfli dünyaya dərd çəkməyə, fikir içində yaşamağa gəlmişdir. Orta məktəbdə oxuyanda bir az ərköyün, bir az nadinc, yarısentimental-yarıromantik olmuşdur. Xudafərinə, Qarabağın qeyri-adi gözəlliyinə baxmış, özü-öz daxilinə qürurla "yurdum-yuvam" - deyə pıçıldamışdır. Ədəbi, elmi-pedaqoji fikrə bəllidir: Əli Rza Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində oxumuş və buranı fərqlənmə diplomu ilə bitirmişdir. Sonralar anadan olduğu mahalın Şahvəlli, Tatar və Aşağı Xələfli kəndlərində müəllim işləmiş, "Qabaqcıl Maarif Xadimi" adına layiq görülmüş, kədəri, dərdi və qəmi həndəvərinə buraxmamışdır. Düşüncəsinə, hisslərinə, iç aləminə Qarabağın özü ağırlıqda kədər hopandan, özünün, qohum-əqrəbasının, ümumən qarabağlıların qaçqın talelərini hərtərəfli yaşayandan sonra Əli Rza Xələflinin poetik məni titrək, həyəcanlı, bir qədər də əsəbi, evində belə qərar tuta bilməyən bir şəxsiyyətə bənzəyir. O, həsrəti, qəribliyi gözün-

də daşıyan "çadır evli" insanların qapısının açılmadığını görəndə məlhəmsiz yarasını hicran dağlayır, əlində qələm ağlayır, od-alovda "dağlanan kəlmələri içinə axır", "ürəyi dərdinin qanında çimir", miflərin ehtiraslı rəqqasəsi Menadanın nəfəsini duymur, hissi-emosional nəğmələrini eşitmir:

***Bir nərin dizini dərdi qatlayar,***
***Arxalı namərdlər mərdi qatlayar.***
***Körpü daşlarının bağrı çatlayar,***
***Üstündən adlayıb keçəni yoxsa.***

***Sinəmdə baş-başa dayanan dağın,***
***Xələfli dərdinə boyanan dağın.***
***Yetməz harayına burda dağ dağın,***
***Bircə şad xəbərə qaçanı yoxsa.***

Kədərli hiss və müşahidələri ifadə edəndə, sözlə milli qüruru və qəzəbi hərəkətə gətirmək istəyəndə Əli Rza Xələfli tamam emosionallaşmır. Mövzunu duya-duya, onun sosial mənasını yaşaya-yaşaya yazır: çünki bu şair əsərin məntiqini, ideya estetikliyini, necə təsir oyadacağını əsas alır. İnanır ki, "bütün qələbələrin mayası sözdür. Qələbə təfəkkürdə hazırlanır, yalnız sözün qələbəsindən sonra döyüşçü döyüş meydanında yağını yenə bilir. Bu mənada mən şeirlərimi Qarabağda, Xudafərin üstündə, elə doğulduğum Xələflidə yazmışam" (Ə.R. Xələfli). Bədii təfəkkürü gücləndirmək üçün Ə.R.Xələfli metaforalardan, epitet, metonimiya, təşbeh, mübaliğə, simvol-rəmz, kinayə və tənzimlərdən, nida, xitab və bədii suallardan məqamında sıx-sıx istifadə edir. Dədəm Qorquddan mübarizə aparmaq əzmi, dözüm və sarsılmazlıq ruhu diləyir. Oxucuda belə bir inam oyatmağa çalışır: torpaq əcdadlarımızın əcdadlarından mirasdır, onu qorumaq vətəndaşlıq borcudur, müqəddəsliyi, etiqad və imanı, milli şərəfi qorumaqdır. Əli Rza Xələfli onu da söyləyir ki, çadır şəhərciklərini görmək, ya kənardan müşahidə etmək, illərlə qapısı açılmayan bir ixtiyara baxıb təəssüflənmək azdır, dərdi dərd, ana torpaq müqəddəsliyi kimi duymaq, yaşamaq və qorumaq gərəkdir:

***Boylanır yollara ümid müntəzir,***
***Həsrət əlçim-əlçim soyur dərdimi.***

*On ildir gözlərim axtarır, gəzir,*
*Boyuma biçilmiş qəbir yerimi.*

*Ümidim göyərir, bitir sözlərim,*
*Bu səhər xoş xəbər gətirdi bəlkə.*
*Səhər küləyini öpüb gözlərim,*
*Yurdun nəfəsidi, ətirdi bəlkə?*

Əli Rza Xələflinin tutumlu, xəlqi bədii yaradıcılığında çadır şəhərciklərində yaşamağın, ömür-gün keçirməyin qeyri-mümkünlüyü, qaçqınların səbir və dözümlərinin tükənməsi reallıqdır, acı həqiqətdir. O, əsərlərinin heç birində bu bəlli həqiqətə əlavə boyalar vurmamış, müəyyən bir lövhəyə detal artırmır, bədii ümumiləşdirməni güclü, hərtərəfli aparır. Bunlar da şeirlərin məzmununa, ideyasına, ahəng və ifadə tərzinə həsrət, nisgil, ayrılıq, həm də özünü vətənə, onun sərhəd bütövlük və müqəddəsliyinə həsr etmək pafosu gətirir:

*Bərdə torpağına ayaq basanda,*
*Başımdan min ilin havası keçdi.*
*Qəlbimin qanıydı qismət kasada,*
*Bəxtim bu kasadan qəm-kədər içdi.*

*...Quş südü tapılan yurdu öyürlər,*
*Bu yurddan o yana bağlıdı yollar.*
*Qarabağ qapısı Bərdə deyirlər,*
*Bir addım o yana ağladı yollar.*

Qatı kədər və həsrət Əli Rza Xələflinin həm lirikasında, həm epik əsərlərində, həm də publisistikasında güclü bir xətt, istiqamətdir. Bu axarı onun yaradıcılığına qədər hər gün görüşdüyü, üns tutduğu qaçqınların, evsiz-eşiksiz insanların taleyi gətirir. Ancaq bunlar Əli Rza Xələflinin tamam kədər, bəxtindən küsən və inamsız yaşayan sənətkar olması demək deyildir. Onun poetik "mən"i həyatın, Qarabağ döyüşlərinin qaynar axarında formalaşan, ölümdən belə qorxmayan, özünü xalqa, onun bu gününə və sabahına həsr etmək istəyən kamil, harmonik, sarsılmaz əqidəli insandır.

Hissi-emosional əsərlərini dərindən mənimsəyəndə, oxucuya elə gəlir ki, sənətkar öz-özünü, yaşayışını unudur, ancaq xalqı,

Qarabağı, qaçqınların istəklərini, onların böyük arzularını - ata-baba yurdlarına qovuşmaq düşüncələrini yaşayır.

Lirik "mən" sənətkarın əsərlərində gerçəkliyi, mənəviyyatı və psixologiyanı hərtərəfli duyan, dərk edən, düşünən, müasirlərimizin səciyyəvi cizgilərini işində, əməlində, hissiyyatında və dünyagörüşündə daşıyan bir humanist - qayğıkeşdir, vətənpərvərdir.

Vətənpərvərliyi gücləndirmək, xalqa sevgini dərinləşdirmək niyyətilə Əli Rza Xələfli bir sıra şeirlərində - "Sən Tanrıdan murad istə", "Təbriz küçələrində böyüyən oğul", "Ehey, Amur", "Arzularım keçən yollar", "Mənim döyüş meydanım", "Kəndimin borcu", "Bir yuxu görmüşəm"də tarixi əhvalatlarla düşünür və düşündürür. Tarixi-fəlsəfi ahənglə, şirin və oynaq ifadə tərzi ilə hissə, duyğuya, daxili fikir aləminə, əhval-ruhiyyəyə təsir etməyə çalışır:

***Atam mənim,***
***çörəyini halal eylə.***
***Anam mənim,***
***sən südünə halallıq ver.***
***Ürəyini halal eylə.***
***Öz oğlundan keçməlisən,***
***Kədərini şərbət bilib***
***içməlisən.***

Parça, bütövlükdə bu səpkili şeirlər sərbəst ölçü ilə yazılmamışdır. Əli Rza Xələfli çağırış pafosunu gücləndirmək, misraları əngərləndirmək üçün bu oynaq formanı seçmiş, xitablardan, bədii suallardan, nidalardan poetik amalına uyğun istifadə etmişdir. Ən dəyərli şeirlərində - "Sən Tanrıdan murad istə", "Ehey, Amur", "Arzularım keçən yollar", "Bir yuxu görmüşəm"də... şair sözləri sərrast, müdrikanə seçir, fikirin misradan misraya müdaxiləsiz keçməsinə qayğı ilə yanaşır:

***Əmrini ver,***
***Ulu babam.***
***Mənim ruhum,***
***Mete Xaqan.***
***Qoca türküm,***
***Bilgə Xaqan -***
***Tunyu-Kukum -***

***böyük insan.***
***Nə yaxşı ki, bu dünyada,***
***Sən olmusan, yenə varsan!***
***Şüurumda,***
***varlığımda,***
***genimdəsən.***
***...Bilirəm ki,***
***Bir amala, bir istəyə,***
***yol gedirik.***
***Qarabağa,***
***od-ocağa,***
***o tüstüyə yol gedirik.***

Azərbaycan şeirinin zəngin ənənələrinə söykənən, ondan məharətlə yaradıcı bəhrələnən Əli Rza Xələfli məhsuldardır, orijinal yaradıcılıq yolu keçən sənətkardır. O, "Baş daşımın yazıları", "Ocağımın işığı", "Yurdun övladları" (Elçin Kamalla birlikdə), "Sözə doğru", "Həsrət körpüsü" kitablarını çap etdirmiş, ümumxalq hörmət və sevgisini qazanmışdır. Bu şairin redaktorluğu, məzmunlu müqəddimələri ilə nəşr olunan "Fənayənin sualları", "Hoydu, dəlilərim, hoydu" və "Yana-yana yaşadım" topluları da əhəmiyyətli ədəbi hadisələrdir.

Əli Rza Xələfli ötən əsrin 80-ci illərindən istedadını, hələ əlində möhkəm dayanmayan titrək qələmini mətbuatda sınaqdan çıxarmışdır. "Xudafərin", "Qoşa qanad", "Qarabağ" və "Həyat" qəzetlərində xüsusi müxbir, şöbə müdiri və redaktor əvəzi vəzifələrində işləmişdir. Şeirləri və ədəbi-publisistik əsərləri mətbuatda müntəzəm sap olunmuşdur. "Qızıl Qələm", "Araz" ali ədəbi mükafalarına layiq görülmüşdür. "Kredo" qəzetinin baş redaktoru vəzifəsini tutandan sonra Əli Rza Xələfli milli mündəricəsinin, ədəbi-bədii zövqünün aliliyi ilə göründü, nüfuzunun üstünə böyük nüfuz gətirdi. Çoxistiqamətli fəaliyyətini müxtəlif sahələr arasında "paylanması" Əli Rza Xələflini bədii yaradıcılıqdan ayırmır. Son zamanlar tez-tez çap olunur, lirik mövzu bütün janrlarda məzmunlu əsərlər yazır. Bədii məzmunu həyatın, ictimai-siyasi münasibətlərin rəngbərəng sahələrindən alır. Gümana gedən yollarda, qurdun ulamasına, insanların tənhalığında, sınan adi bir güzgüdə, əsən küləkdə, nar dənələrində... həyati və hikmətamiz məna tapır,

belə lirik şeirlərdə məzmun da, surətlər də, söz, ifadə və detallar da ümumiləşir, oxucuda təzə fikirlər, təzə düşüncələr oyanır:

***Bir daş var,***
***bir qardaş...***
***Biri cansız,***
***Biri canlı.***
***Biri qansız,***
***Biri qanlı.***
***Hər ikisi ikicanlı.***
***Birinin sözü yoxdur,***
***dözümü var;***
***Birinin dözümü yoxdur,***
***sözü var.***
***Birinin gözündə yaş,***
***o birinin dözümü daş...***
***İki qardaş,***
***çaş-baş***
***İki qardaş***

Şeirin məzmununun - predmetini, mənə elə gəlir ki, şair uzun müddət xəyal və düşüncələrində gəzdirmiş, onu duyğularından keçirəndən sonra yazı laboratoriyasına gətirmişdir. Ustalıqla böyük bir mətləbi "sıxmış", onun cövhərini xırda bir şeirdə ifadə edə, ümumi maraq səviyyəsinə qaldıra bilmişdir.

Əli Rza Xələfli qaçqın taleyi və qismətini kədərlə, bitib-tükənməyən sarsıdıcı fikir və düşüncələrlə yaşayan zərif, xəlqi və novator lirika ustasıdır. Onun onlarca lirik şeiri tamam lirik, poemaları isə bütövlükdə epik yöndə yazılmamışdır. Süjetlərin, hadisə və əhvalatların inkişafında lirik söyləmələrə epik, epik təhkiyələrə isə lirik və dramatik ünsürlər qarışmışdır. Bunlar da bütün hallarda əsərlərə yüksək bədii məziyyət gətirmişdir.

***"Kredo" qəzeti,***
***№ 27-28 (442-443) 26 may 2007-ci il***

## RUHLAR DİLƏ GƏLƏR...

### *İkinci məqalə*

Bizim günlərin vətənpərvər şairi - Əli Rza Xələfli şeirlər də, poemalar da, ədəbi-publisistik məqalələr də yazır, Qarabağ həsrəti, Qarabağ kədəri, yurdda qalan od-alov-ocaq daşı nisgili ilə yazır. Yol gedəndə də, yaradıcı səfərə hazırlaşanda da, dost-tanışla söhbət edəndə də, mübahisələr aparanda da, ailəsinin ehtiyaclarını nəfəs dərə-dərə düşünəndə də Qarabağı xatırlayır. Qarabağı ürəyində, mənəviyyatında, gözlərinin içində gəzdirir. Çünki bu şair "doğulduğu yurdun bir parçasıdır, daşıdır, torpağıdır, çiçəyidir, ağacıdır, gülüdür, yarpağıdır... Mən Cəbrayıldan çıxandan sonra "Karvan körpüdən keçir; "Baş daşımın yazıları", "Yurdun övladları" (Elçin Kamalla birlikdə) ədəbi-publisist kitablarımı yazmışam. Bu kitabların bütün səhifələrində doğulduğum yurd bir canlı olaraq yaşayır. Hər halda, insanın doğulduğu yurda dönə bilməməsi böyük faciədir. Heç nə ilə əvəz olunmayacaq, heç bir məlhəmlə sağalmayacaq yaradır". Bunların nəticəsidir ki, "hər bir insanın içində çox orijinal, heç vaxt tükənməyəcək bir kitab var. Bu kitabın adı "Yurd"dur. İnsanın doğulub-böyüdüyü, müəyyən həddə çatdığı yer onun mənəviyyatında dərin iz buraxır. Bu mahiyyət hardasa insanın həyatının mənasına çevrilir".

Seyid Məhəmməd Hüseyn Şəhriyar ustad sənətkar olmuş, zaman-zaman Şərq xalqları bədii mədəniyyətini güclü ədəbi təsirdə saxlamışdır. Aydındır ki, bizim niyyətimiz Əli Rza Xələflinin Şəhriyardan nə dərəcədə təsirləndiyini, ya təsirlənmədiyini müəyyənləşdirmək deyildir. Sadəcə söyləmək istəyirik ki, şair taleyi Şəhriyarı qürbətə, başqa bir ədəbi-sosial mühitə çəkib aparmışdır. Tehran bu görkəmli söz ustasını sıxmış, illər boyu doğulduğu yurdun həsrətini çəkmişdir. Ahıllaşandan, qeyri-adi sənətkar

şöhrəti qazanandan sonra doğulduğu kəndə gəlmiş, Heydər baba dağının vəsfini vermişdir. Müqəddəs "salam" kəlamı ilə yurda, el-obaya, qohum-əqrəbaya, tanış-bilişə sevgi və ehtiramını bildirmişdir. Heydər baba dağını tərənnüm edəndə də, məhəbbətini aşkarlayanda da Şəhriyar daxilində - görünməyən bir aləmdə kədərlənmiş, fərəhini təəssüf və həyəcana bürümüşdür.

Əli Rza Xələfli "Bir Xələfli var imiş" (yox, əzizim Əli Rza, Xələfli var və olacaq) poemasının ekspozisiyasında özünün acı, könül yandıran, ürək dağlayan qaçqın taleyi ilə Şəhriyarın yurd həsrəti arasında bir bənzərlik, ya bir yaxınlıq aramışdır. Ancaq məzmunlu və orijinal bir poemanı bədii təsirlə yazmamışdır. "Salamı kəlama büküb" Şəhriyara göndərməsi şaxələnmiş, dərin sosial-fəlsəfi məna almışdır. "Salam" canlı bədii söyləmədə Cənubda yaşayan azərbaycanlıların Xələflilərə - qarabağlılara sevgi və qayğıları kimi ümumiləşdirilmişdir.

Əli Rza Xələfli "Heydər babaya salam"ın ruhunu, məzmun-ideyasını yaradıcı duymuş, "Bir Xələfli var imiş" əsərinin ilk bəndlərində həzin, musiqiyə yatımlı ahəng seçmiş, oxucunu özü ilə bərabər "salamın" "ruhu üstə kökləmək", onu yoxuşların, aşırımların keçilə biləcəyinə, Qarabağın sahiblərinə qaytarılacağına inandırmaq istəmişdir:

***Gün-güzəran taleyimi boğmalar,***
***Ömrü-günü qansız-qansız yağmalar.***
***Heç bilmirəm harda qalıb doğmalar,***
***Elə biz də laübalı Xəyyamıq,***
***Füzulidən betər keçən əyyamıq.***

Həm "Bir Xələfli var imiş"də, həm "İçərişəhər: Daşlar-insanlar" poema-essesində, həm də "İlin qara bayramı", "Qurdağzı duası" qəsidə-poeması, "Rəssam, şair, şəhid atası" lirik-epik söyləmələrində Əli Rza Xələfli bədii mahiyyətin tələbi ilə tarixi şəxsiyyətlərin, Qarabağ döyüşçülərinin, şəhidlərin, neçə-neçə

abidənin, inam-etiqad yerlərinin, kəndlərin, məhəllələrin ya adlarını çəkmiş, ya da onlara ifadəli səciyyə vermişdir.

Real həyati faktlar, adlar və əhvalatlar çoxluğu, birinci halda poemalara ağırlıq və pərakəndəlik, fikri istiqaməti dərk çətinliyi gətirməmişdir. Ancaq müəllif bu amildən ehtiyatlanmış, "Bir Xələfli var imiş"ə səksən doqquz, "İçərişəhər: Daşlar-insanlar"a altmış bir elmi, etnoqrafik və ədəbi-tarixi izahlar-şərhlər vermişdir. Digər tərəfdən də, faktlar ədibi təsvirçiliyə, sistemsizliyə, əhvalatları və tərcümeyi-hal materiallarını xırdalamağa apara bilməmişdir.

Həm "Bir Xələfli var imiş" və "Qurdağzı duası" qəsidə-poemasına, həm də "İçərişəhər: Daşlar-insanlar" poema-essesinə lakonik, yığcam və bənzərsiz quruluş vermişdir. "Bir Xələfli var imiş" poemasında əhvalatdan-əhvalata süjet axarlandırılmış, onun şaxələnməsinə, qol-budaq atmasına ehtiyac duyulmamışdır. Bədii niyyətin tələblərinə uyğun neçə-neçə faktdan və əhvalatdan yer və məqamında istifadə edilmişdir.

Bir də poemaların güclü bədii məntiqlərini nəzərdə tutmaq gərəkdir ki, Əli Rza Xələfli təfərrüata varmağı, tez-tez ricət və haşiyələrə çıxmağı, müəyyən bir əhvalatı hərtərəfli səciyyələndirməyi, onlardan nəticə çıxarmağı bəyənmir; təhkiyəni dinamik, ifadəli aparır, ustalıqla əhvalatları sıxır, onları canlı maraq səviyyəsinə qaldırır, təkcə məzmunun aktuallıq və müasirliyini, obrazların mündəricə və portretlərinin kamilliyini vacib amil saymaqla kifayətlənmir. Sənətkar poemalarına məzmunu hərtərəfli təzahür etdirə bilən çevik, oynaq və ifadəli forma seçir, adi bir faktı, detalı, lövhə və mənzərəni ümumiləşdirir.

Real gerçəklik materialı - məzmunu uzun müddət yaşanılan, hisslər aləmindən keçirilən "Bir Xələfli var imiş" böyük fikir tutumlu lirik poemadır. Əsər bütövlükdə şairin dayısı oğlu Qəşəm Məmmədova xitab-müraciət formasında yazılmışdır. Qəşəm ifallı, müdrik, ömrü el-obaya bağlı, övladlarını ağır zəhmətlə bö-

yüdən bir insandan - atası Məmmədhəsən kişidən çox şey öyrənmiş, özünü Xələflidə və Xələfliyə qonşu kəndlərdə gedən döyüşlərə həsr edən şəxsiyyət - milli biçimli vətəndaş kimi nüfuz qazanmışdır; Cəbrayıl rayonunun Quşçular kəndinin müdafiəsinin təşkilatçısı, döyüşə əsas yön verənlərdən biri olmuşdur. Onun qəhrəmanlığı və cəsarəti ilə böyük bir kənd Qarabağın işğalına qədər azğın erməni yırtıcıları ilə vuruşmuş və döyüşçülər itkilər versələr də, inamlarını itirməmişlər.

Qəşəm Məmmədov "Bir Xələfli var imiş" poemasının qəhrəmanı, ideya daşıyıcısı deyildir. Poemada Qəşəm Məmmədov Qarabağ müharibəsinin cəsarətli, ölümdən belə qorxmayan canlı, xatirə və təəssüratlarla zəngin iştirakçısıdır. Döyüş günlərində o, xələflilərin hünərini görmüş, baş verən mürəkkəb, tükürpədici hadisələri hafizəsinə köçürmüşdür.

Bədii-poetik salnamədə - "Bir Xələfli var imiş"də Əli Rza Xələflinin dayısı oğluna xitab-müraciətləri hər dəfə yeni istiqamət - məzmun alır. Bəzən, şair dayısı oğlunu daxildən gələn fəryadlı səsi "dinləməyə, dərdləri haraylayıb ünləməyə, ötən günləri yada salıb inləməyə" çağırır. Xələfli kəndinin söykəndiyi Xələf dağının "vaxtından əvvəl qocaldığını", xələflilərin müdrik insanı Musa ermənilərlə döyüşlərdə iki oğul şəhid verdiyini, cəsur döyüşçü Seyidəli Qiyasoğlunun könüllü cəbhəyə getdiyini, Laçın və Kəlbəcər istiqamətlərində hünər göstərdiyini, müqəddəs Xələf ocağının sahibsiz qaldığını söyləyir və qədirbilən həmdərd axtarır:

***Neyləyim ki, yurdun yolu bağlıdı,***
***Fəsilləri qaralıdı, ağlıdı.***
***Bu yolların sinələri dağlıdı.***
***Yaman günün ömrü yaman uzandı,***
***Fələk özü də qəbirləri qazandı.***

***...İçin-için ürəyimi yeyirəm,***
***Zaman-zaman düz qəddimi əyirəm.***

***Axır indi bir sözdü ki, deyirəm.***
***Burnun ovub qaytarmasan yarıdan,***
***Kiş-kiş ilə donuz çıxmaz darıdan.***

***Əzəl adı Eyvatlıydı, nağıldı,***
***Xələfliyə talan düşdü, dağıldı.***
***Qocaları müdrik idi, ağıldı.***
***İgidləri hirs odunda bişdilər,***
***Gözəlləri pərən-pərən düşdülər.***

Təsəvvür edirəm, Əli Rza Xələfli o qədər də şən, romantik həyat yaşamamışdır. Həmişə Xələfli niçgilli, Xələfli həsrətli olmuşdur, fikrən, mənən sarsılan, gözləri ilə od-alov götürən, alınlarına, sir-sifətlərinə tez-tələsik dərin qırışlar gələn, övlad faciəsini qohum-əqrəba kədərinə qatan qaçqınlardan kənar, ayrı yaşamamışdır. Ancaq ədib birdən-birə qüssədən, üzüntülərdən qəlpələnir, xəyalən yurd-yuvalı, atalı-analı günlərini xatırlayıb, qürurlanır:

***İsti vaxtı sürülərin gurnacı,***
***Axşamçağı bəzəyərdi yamacı.***
***Bir qalaydı atam "Zalın arxacı"***
***Oğru onun girəvəsin tapmazdı,***
***Yalquzaq da bircə quzu qapmazdı.***

"Bir Xələfli var imiş" poemasında adı çəkilən, cəsarətlərindən söz açılan "heç biri, elə də Qəşəm Məmmədov danışmır, fikri söyləmir. Bu döyüşçüləri yığcam, bədii-konkret, ifadəli axarda Əli Rza Xələflinin özü səciyyələndirir. Onların haqqında unudulmayan, düşüncələrdən silinməyən bədii söz deyir. Amma Qəşəm Məmmədov daxilən, məzmunlu sükut və hərəkətlərlə - şairin təhkiyəsi ilə bərabər hərəkət edir. Sənətkar ona döyüşlərin qaynar yerlərində döyüşmüş, insanların əhval-ruhiyyəsi ilə dərindən tanış olmuş müdriklik və vətənpərvərlik timsalı kimi müraciət edir:

***Kişiliyin ünvanı var - dəyanət,***
***Yağılara sinə gərmək - mətanət.***
***O zəhməti əldə qoydu xəyanət.***
***Azar oldu siyasətin havası***
***Baş çatladan iddiası, davası.***

Bir də görürsən ki, Qarabağın süqutu, qaçqınların dözülməz aqibəti Əli Rza Xələflini düşüncələrdən ayrılmağa qoymur, özü-öz aləmi ilə söhbətə, əsəbləri tarıma çəkən "çılğınlığa" aparır. Belə gərgin psixoloji məqamlarda şair dayısı oğluna xitab - müraciəti bilə-bilə "qırır". Məzmun isə süjet xəttinin inkişafını şərtləndirən ricət və haşiyələrə çıxır, fikri gur ahənglə ifadə edir; mənəviyyat və psixologiyaya, mübarizə əzmini artırmaq, Qarabağ düşüncələrindən ayrılmamaq əzminə, bütövlükdə isə insanın insani mahiyyətinə güclü bədii-fəlsəfi mühakimələrlə təsir göstərir. Xalqın nəsillərdən nəsillərə keçən tarixi qəhrəmanlıq ənənələri ilə düşünür. Dağdağan ocağını, eni-uzunu gözlə ölçüyə gəlməyən örüş yerlərini - Zal kişinin arxaclarını, Mirin gözü, Mirzə suyu, Şirvan bulağı, Xudafərin körpüsünün söykəndiyi Diri dağı və daha neçə-neçə mahalı sənətkar məharəti və yanğısı ilə səciyyələndirir; adlı-sanlı döyüşçülərin cəsarəti və fədakar əməllərini kiçik, ancaq yaddaqalan poetik löbvhələrdə ümumiləşdirir. Bədii təsvirdə böyük bir kənd - Xələfli tipik, təəssüf doğuran görkəm alır. Qarabağ qaçqınlarının həyat və yaşayışlarının kədərli, üzüntülü, aydın görüntülü acılarını varlığında birləşdirir.

Əli Rza Xələfli fasiləsiz arayan-axtaran, yaradıcılığını yeni bədii tapıntılarla zənginləşdirən istedadlı, inamlı və etiqadlı ədibdir. O, şeir və poemalarında gerçəkliyin "bir parçasına" cəsarətli, yaradıcı müdaxilə yolu seçir, ona yüksək bədii meyarla yanaşır, mətləbi uzatmağı sevmir. Məzmunu Qarabağ reallığından alınan əsərlərdə, doğrudur, həyatın verdiyi material ona ölçüyə gəlməyən qəm, kədər, nisgil, qanlı döyüş ab-havası yaşadır. Belə məzmunu sənətkar təbii çalarları ilə alır, onu özünəməxsus-

luğundan çıxarmır. Ölkəmizin bir parçasının - Qarabağın faciəsini faciə, dərdini dərd kimi duyur və ümumiləşdirir. Buna görə də məzmunu qanlı-qadalı döyüşlərdən alınan şeirləri və poemaları mütaliə edəndən sonra oxucuda belə bir inam oyanır: Əli Rza Xələfli bu səpkili şeirləri və poemaları Bakıda rahat, siqarısiqara calaya-calaya yazmamışdır. O sanki, gecəli-gündüzlü həm ön cəbhədə, həm də xələflilərin arasında olmuş, onların nəfəsləri ilə isinmiş, əhval-ruhiyyələrini öyrənmiş, söz-söhbətlərini dinləmişdir. Hamını - düşmənə ağır zərbə endirənləri də, vəsiyyətlərini - son sözlərini torpağa söyləyən şəhidləri də, pərən-pərən düşən qız-gəlini və oğul-uşağı da görmüş, əsərləri elə Qarabağda isti təəssürat və müşahidələrlə qələmə almış, onları uca səslə Ağrı dağın zirvəsindən oxumuşdur:

***Unutmayın Seyid Əli adını,***
***Şirin bildi şəhidliyin dadını.***
***İndi qalıb bir oğulu, qadını.***
***Deməyək ki, bir gül soldu, gülmədi,***
***Vətəninə qurban oldu, ölmədi.***

Bədii təsiri bir az da artırmaq, düşmənə nifrəti dərinləşdirmək, vətənpərvərlik hissi və duyğularını qaynarlaşdırmaq istəyi ilə şair, sözün yaxşı mənasında, elə bil şeiri-şeirə qatmışdır:

***Dövlət öz haqqını ölüm-olumda,***
***Qoruyan millətin həqiqətidir,***
***Bir xalqın millətə gedən yolunda,***
***Özünün özünə sədaqətidir.***

***Dövlət bir millətin dövləti, varı,***
***Tarixin ən böyük şah əsəridir.***
***Nakam Qarabağın muğamı, tarı,***
***Yağı yağmalayan dərdi, səridir.***

Müharibədən, dağılan ata-baba yurdundan, özünün boya-başa çatdığı Xələflidən yazanda qüdrətli bir vətənpərvərin - Əli

Rzanın daxilindən od-alov, kədər püskürür, onun ev-eşiyini, iş otağını belə bürüyür. Amma bunlar sənətkarın yaradıcılığına xas olan nikbin əhval-ruhiyyəni, sabaha inam pafosunu zəiflədə bilmir:

***Fikir basan, həsrət çəkən dağların.***
***Dərd əlindən belin bükən tağların,***
***Vüsal dərdi Araz olan ağların,***
***Muştuluğun kor fələkdən qoparaq.***
***Qarabağdan Təbrizəcən aparaq.***

Əli Rza Xələfli həyatın çətinliklərini, ziddiyyət və ixtilaflarını çox görmüş, bədii yaradıcılığa ədəbi döyüşlərdən keçə-keçə gəlmişdir. İnanmışdır ki, həyatda, yaşayışda, incəsənətin bütün sahələrində gur səslənən insanla, insanın yaradıcı fəaliyyəti ilə bərabər, “millətin gələcəyinə gedən yollar keçmişdən gəlir. Yolun haradan, necə gəldiyini bilmədən, onun haraya, necə gedəcəyini də bilə bilməz. Mənim fikrimcə, bugünkü həyatımızın açılmamış düyünlərinin sirri keçmişdədir. Ədəbiyyat nə qədər bədii təfəkkürün bəhrəsidirsə, bir o qədər də tarixidir. Keçmiş bizim mənəvi istinadgahımızdır”.

Böyük yaradıcılıq imkanı olan şair - Əli Rza Xələfli “İçərişəhər: Daşlar- insanlar” poema-essesini məhz “mənəvi istinadgahımıza” - keçmişin təkrarsız dəyərlərinə istinadən yazmışdır. Bədii məntiqdə şair tarixi zamandan ayrı düşünməmiş, vəhdətləşdirmiş və onu bədii-poetik obraz kimi ümumiləşdirmişdir. Obraza bizim günlərin-müasirliyin ideya-estetik ölçüləri ilə yanaşmış, lirik-fəlsəfi müqayisə və qarşılaşdırmalarla dövrün mürəkkəb ziddiyyət və təzadların mahiyyətini sənətkar ustalığı ilə açmışdır.

“İçərişəhər: Daşlar-insanlar” Əli Rza Xələflinin bədii-fəlsəfi təhkiyəsidir, tarix, tarixi dəyərlər, zaman və insan haqqında idraki-tərbiyəvi əhəmiyyətli düşüncələridir; xalqın qan yaddaşını bütün çalarları ilə oyatmaq və şaxələndirmək, hərəkətə gətir-

mək, insanların fəallıq və tələbkarlığını, ayıq-sayıqlığını gücləndirmək istəyir. Ona görə də şair poema-essedə xalqın qan yaddaşını mükəmməl mənimsəmiş, onu mənəviyyatına, düşüncə və hissiyyatına hopdurmuşdur. Çox nazik süjet xətti boyu tarixin daş yaddaşı ilə bərabər hərəkət etmiş, oxucunu da özündən ayrılmağa qoymamışdır:

***Yamaqlı daşların dilini bilsən,***
***Min illik tarixi danışar sənə.***
***Boylanıb baxanda gözünü silsən,***
***Ruhlar dilə gəlib yanaşar sənə.***

***Zamanın heykəli Qız qalası da,***
***Alın qırışıyla təzim eyləyər.***
***Daşların kədəri toyu, yası da,***
***Dünəndən bu günə xəbər söyləyər.***

Əli Rza Xələfli mürəkkəb, bir qədər də dərki çətin məzmuna-tarixin qan yaddaşına, insanların "daşlara söykənib ucalmasına" şair-vətəndaş, şair-filosof kimi yanaşır. Bədii sözlə, müqayisələrlə, lövhə və detallarla tarixin inkişaf mərhələlərini, qədim yaddaşları gil lövhələrə həkk olunan yazı isə rəsmlərdə, sərt daşlar arasından "boylanıb baxan ruhlarda" axtarır. Diqqəti poema-essedən yayınmağa qoymayan bədii təhkiyədə daşlar müdrik və həssas insanlara bir tayfanın, bir qəbilənin, bir xalqın hekayətini, rəvayət və əfsanələrini danışır:

***Burda tərcüməsiz danışır daşlar,***
***Bir xalqın, millətin hekayətini.***
***Tarixi əfsanə saymayan başlar,***
***Dinləyir daşların rəvayətini.***

Azərbaycan ədəbiyyatında daşlardan çox yazılmış, qan yaddaşı dönə-dönə poetikləşdirilmişdir. Əli Rza Xələfli bu reallığı nəzərdə tutmuş, heç kimə bənzəmək, kimisə yamsılamaq istəmə-

miş, mövzuya təzə, tamam yeni yöndən yanaşmış, ilk dəfə çox dəyərli, orijinal poema-esse yazmışdır.

Poema-esse Azərbaycan ədəbiyyatında ədəbi təcrübə və ənənəsi olmayan mürəkkəb və çətin janrdır. Bu janr öz poetik strukturunda daha çox lirik poemaların müəyyən ünsürlərini birləşdirir. Yığcam bir kompozisiya qurmaq, hadisə və əhvalatları daha bir süjet ətrafında cəmləşdirmək, hərtərəfli təhlildən keçirilən obrazlar yaratmaq poema-essenin mütləq estetik tələbi deyildir. Lakin təbii və gur istedadlı, dünyaya, zamana, insana, gerçəkliyin müxtəlifliyinə yeni baxışlı, yeni görüşlü sənətkarlar bir də görürsən ki, müəyyən bir janra təzə ölçülərlə yanaşırlar, onun poetik imkanlarını genişləndirə, məzmun-məna tutumunu xeyli artıra, dərinləşdirə bilirlər.

"İçərişəhər: Daşlar-insanlar" poema-essesi tarixə, zamana, qan yaddaşına, insana, fəaliyyətə bədii-estetik münasibətdir. Bu səbəbdən də, şair-lirik "mən" əsərin ilk bölmələrində Allaha sığınır, ondan "ağac olmasına", dərdini payızda töküb, yazda yenidən yarpaqlanmasına kömək diləyir. Boz üzlü, sərt qayalı daşa dönməkdə səadət arayır, elə düşünür ki, daşlaşmaq qan yaddaşını - tarixi ənənələri yaşatmaq, dərinləşdirməkdir, gələcəyi aydın görmək, inkişafın istiqamətini düzgün müəyyənləşdirməkdir.

Bədii söyləmədə lirik "mən"in yolu tarixin qan yaddaşının yoludur. Bu yolu seçənlər, inamla davam etdirənlər, həmişə ayıq-sayıq, etiqadlı, cəsarətli və müdrik olmuşlar, özlərini el-obaya, yurd-yuvaya həsr etmişlər. Onlar Qarabağa "göz yumanları", tökülən qanları görmüş, bunları dünyaya göstərmiş, mübarizə, döyüş əzmi ilə yaşamış və milli qürurla demişlər:

***Cənablar, diqqətlə dinləyin barı,***
***Kövrəkdir tarixin bu daş aynası.***
***Sizin aşdığınız daş hasar-barı,***
***Bir xalqın, millətin tale dünyası.***

"İçərişəhər: Daşlar-insanlar" poema-essesində şair bədii tələblə Zamanın daş abidələrindən - Qız qalasından, Şirvanşahlar sarayından, qala divarlarından, tarixi şəxsiyyətlərdən, şərqin əsatir, əfsanə və nağıllarında yaşayan hikmətlərdən söz açmış, Zamanı hərəkətdə götürmüş, onun yığcam obrazını yaratmışdır. Zaman, poema essedə bütün dövrlərin, bütün zamanların zamanıdır, əsirlərin ağır sınaq və imtahanlarından keçən reallıqdır. Bu gerçəklik təkamülün, yaddaşların, "ruhların yuvası" sərt sal qayaların, şəhərlər içində şəhərlərin, dağılan, izi-əlaməti qalmayan sərdabələrin şahidi olmuşdur. Buna görə də zaman, zamanın qan yaddaşı itmir, hərəkətini dayandırmır, ulularin ruhuna dönüb, nəsillərdən-nəsillərdə, elə də müasirlərimizdə yaşayır:

***...Neçə zaman itirmişəm,***
***Şəhid olub gətirmişəm.***
***Gətirmişəm sən biləsən,***
***Baban kimdir, özün kimsən.***
***Gətirdim ki, yeri gəlsə,***
***Sən öləsən.***
***Demədim ki, birçə qarın,***
***Çörəyə də dilənəsən.***
***Tayfa-tayfa ələnəsən,***
***Sinif-sinif bölünəsən.***

"İçərişəhər: Daşlar-insanlar" poema-essesində Qız qalası xalqın şərəf, öyünc yeridir; müdrik babalarımızın qüdrət, ləyaqət və qeyrət əməlidir, tarixin bitib-tükənməyən hekayəti, sarsılmaz divar səngəri, nağıl qəhrəmanı, zamanın əsgəridir. Burada daşlar və divarlar susmur, ənənələri yaşayır, xalqın tarixini yaşayır:

***Bakının papağı İçərişəhər,***
***Halal kişilərin öyünc yeridir.***
***Tarix səhnəsində açılan səhər***
***İnadın təsdiqi, döyüş yeridir.***

Əli Rza Xələfli fasiləsiz yaradıcılıq axtarışları aparan, real faktlarla və müşahidələrlə özünü zənginləşdirən ədəbi şəxsiyyətdir. Təhlilə ehtiyacı olan "Qurdağzı duası", "İlin qara bayramı", "Rəssam, şair və şəhid atası" poemalarının müəllifidir.

**4.05.2007**

***"Kredo" qəzeti,***
***№ 30 (445) 2 iyun 2007-ci il***

# DİRİ DAĞI AŞAN KİŞİDİ - ZALDI

### *Üçüncü məqalə*

Şeirlərini, poemalarını və saysız-hesabsız ədəbi-publisist məqalələrini oxumuşam. İmkanım daxilində onların ideya-bədii məziyyətlərini mənimsəmişəm. Ancaq Əli Rza Xələflinin özü, onun fərdi "mən"i, bu "mən"in şəxsi insanı səciyyəsi, mənəviyyatı və psixologiyası haqqında fikirlərim tam durulmamışdır. Ona görə də görüşəndə, üz-üzə oturanda, gözlərimi gözlərinə və sir-sifətinə zilləyəndə qəsdən vaxtı uzatmağa çalışırdım. Qaynar bir şairi iş-gücündən ayırmağıma, özümün də vaxt itirəcəyimə təəssüflənirdim. Çünki Əli Rza Xələflinin özünəməxsus fərdiyyəti, həyatda, cəmiyyətdə, meyil və münasibətdə yer və mövqeyini öyrənmək, müəyyənləşdirmək niyyətində idim. Tədricən inanırdım: Əli Rza Xələfli sadə, açıq-saçıq xasiyyətli, kinsiz-küdurətsiz insandır. Hərəkət edəndə, danışanda, mübahisə aparanda göründüyü kimi yox, necə var elə, olduğu kimi görünür. Qəzetin əməkdaşları ilə, redaksiyaya gələn müxtəlif xasiyyətli insanlarla təbii danışır, söz-söhbətlərini, fikirlərini əlavə rəng və boyalarla qatılaşdırmır. Psixologiyasını, fikir-mənəvi aləmini, həyatda hansı istəklə, hansı diləklərlə yaşadığını tez, müdaxiləsiz açır, istəsə də iç dünyasını gizlədə bilmir.

Bu yaxınlarda - 4 iyun 2007-ci ildə maraqsız yorucu, bir qədər də öyrənici və sınayıcı istiqamətli söhbətdən sonra Əli Rza Xələflinin şəxsiyyəti və sənətkar-vətəndaş mövqeyi haqqında məndə real fikir oyandı, ədibin fərdi "mən"inin yaradıcılığını şərtləndirməsinə inandım; qərara gəldim ki, Əli Rza Xələfli işgüzardır, işıqlı və nurlu insandır. Yaradıcı fəaliyyətində, oturuş-duruşunda, yol çəkən baxışlarında özündən ağır fikir və düşüncə gəzdirir. Bu taylı-o taylı bütöv Azərbaycanda sevgi, təəssüf və nisgilinin vəhdəti yeni məzmunlu, milli-amallı şairdən - Əli Rza Xələflidən üzülmür. Bütün bunlar isə əsərlərinin məzmun-qayəsini hərtərəfli duyandan, düşüncəmdə və mənəviyyatımda daşı-

yandan sonra özüm öz ürəyimə pıçıldadım: Xalqa, Vətənə dərin sevgi, deyərdim ki, həm də "Çılğın" sevgi Əli Rza Xələfliyə bayatılardan, beşik nəğmələrindən, torpağımızdan, daşanda bərdə-bərəyə sığmayan çaylarımızın suyundan, ölkəmizin bənzərsiz havasından və müqəddəs qan yaddaşından keçmişdir:

***Ərk qalası incik düşüb, neçə vaxtdı Fədailər,***
***Harda qaldı gəlib çıxmır, ilin, günün bu çağında.***
***Səttar xanın, Bağır xanın sümükləri sızıldayır,***
***Arzuları şaxta vurdu, qış dondurdu budağında.***

Bu məzmunlu və düşündürücü parça Əli Rza Xələflinin "Qurdağzı duası" poema-qəsidəsindən götürülmüşdür. Poema-qəsidə Azərbaycanın Xalq şairi Söhrab Tahirə xitab formasında yazılmışdır. Ancaq nə xitab-müraciət üsulu, nə də bütöv Şimallı və Cənublu Azərbaycanı bir şairin yanağındakı iynə ulduzu boyda xala bənzətmək, litota yaradıb, onu obrazlaşdırmaq əsərə bədii məziyyət gətirməmişdir. Bir də "Qurdağzı duası" poema-qəsidəsində dönə-dönə Söhrab Tahirə xitab olunur. Lakin Xalq şairi poema-qəsidə də daxili, nə də xarici hərəkətdə görünmür, söz demir, fikir daşımır. Buna görə də Söhrab Tahirin adını asanlıqla poemadan çıxarmaq, onu poetik ölçüyə uyğun başqa bir adla, deyək ki, şair Səhənd adı ilə əvəz etmək olar.

"Qurdağzı duası" poema-qəsidəsi müəllifin dinamik təhlükəsidir. Poema-qəsidənin məzmunu konkret bir tarixi, ictimai-siyasi, əxlaqi-mənəvi, ya müasir bir əhvalatdan götürülməmişdir. Əli Rza Xələfli burada Azərbaycanın qədim dövrlərindən bizim günlərə qədər bəzi səciyyəvi hadisələri bacarıqla öyrənmiş, bədii, məntiqi sistemə salmış, onların gur fikir axarında təsvirini vermişdir. Hamının məzmununu yaxşı bildiyi faktlar və əhvalatlar bədii söyləmədə təzə poetik məna almış, oxucunu düşündürmək, ideya-estetik nəticə çıxara bilmək səviyyəsinə qaldırmışdır:

***Ürəyimdə bir kitab var - Vətən adlı, dərd qoxulu,***
***Qoy el görsün nə yazılıb, bu kitabın varağında.***
***Qoca dərviş, tut əlimdən, haray salaq Vətən boyu,***
***Baş əyərik Xətaiyə - Səfiəddin ocağında.***

Böyük fikirlər, dəyərli poetik düşüncələr tutumlu bir poema-qəsidə də "Qurdağzı duası", mənə elə gəlir ki, tarixi faktlar və hadisələr müasir gerçəkliyə qovuşur, bədii məntiqdə biri o birini gücləndirir. Bu, ona görə belədir ki, Əli Rza Xələfli geniş elmi məlumatlı, həyata ayıq baxışlı sənətkardır. Onun bütün əsərlərində fikir, estetik-amal yenilik, müasirlik duyğusu ilə açılır. "Qurdağzı duası" poema-qəsidəsində də şair bilə-bilə ideyanı, faktların sosial mənasını müasirliyə, yaşadığımız günlərə yönəldir:

***Şəhriyarın salamına Heydər baba çağırsa da,***
***Gordu baba - Ziyarətdən cavab yoxdu Kirs dağında.***

***Əllərini öz qoynundan çıxarmayıb Pişəvəri,***
***Bəhram-Gurun tacı qalıb iki şirin qucağında.***

***Savalanın başı qarda, Cıdır düzü duman altda,***
***Qədri qaldı "Vağzalı"sız, rübəndində, duvağında.***

***Ürəyində ocaq yanır, Savalandan qar gətirən,***
***Qardaş hanı, kama çata teylənmişin, naçağın da!..***

Əli Rza Xələfli "qurdağzı duası" poema-qəsidəsində nə Şimali, nə də Cənubi Azərbaycan həyatından əhatəli bir hadisə və əhvalat, ictimai-siyasi ziddiyət götürməmiş, müəyyən bir şəxsiyyətin tərcümeyi-halını və fəaliyyətini izləməmiş, onun obrazını yaratmamışdır. Tarixi hadisələrdən, əsrlər boyu davam edən, zaman keçdikcə bir qədər də dərinləşən sosial-siyasi ziddiyyətlərdən, Behrəngilərin acı taleləri ilə bağlı faktlardan sıx-sıx istifadə etmişdir. Ancaq belə hamıya bəlli əhvalatlar, "Qurdağzı duası" poema-qəsidəsinə "faktlar yükü ağırlığı" gətirməmiş, məzmun-ideyanı zəiflətməmiş, əsərə oxucu marağını azalda bilməmişdir. Çünki Əli Rza Xələfli bir tərəfdən müxtəlif dövrlərdə "Cənubi və Şimali Azərbaycanda ictimai-siyasi mühitlə cəngə çıxanların, Ərk dağının intizarla Fədailəri gözləmələrinin, Bəzz dağ-qalasının döyüşlərdən-döyüşlərə məğrurluğunu saxlamasının, Qarabağdan əsən rüzgarın qaçqınların ürəklərindən keçməsinin tarixi əhəmiyyətini duymuş, canlı bədii lövhələrdə göstərmiş və

ümumiləşdirmişdir. Digər tərəfdən də ədib yalnız zəruri, estetikliyi gücləndirən tarixi fakt və əhvalatları poema-qəsidəyə gətirmiş, onlara özünəməxsus yeni baxışla, yaardıcı mövqedən yanaşmışdır:

***Sən gül əkdin, biz gül əkdik, vay dərməyə zəhmət çəkdik,***
***Çiçəkləri solub getdi o tağın da, bu tağın da.***

***Səpilən dən şumda qaldı, qarğa-quzğun, quş apardı,***
***Cücərtilər boy vermədi, - çölü basan alağında.***

"Qurdağzı duası" poema-qəsidəsində hadisələrə, fikirlərə və düşüncələrə bədii hərəkət verən, varlığını o taylı-bu taylı qaynar Azərbaycan gerçəkliyinə qatan, ziddiyyətləri, həlli müşkül problemləri görən, göstərən, yaşayan, mənəviyyat və duyğularından keçirən, ürəyinin hərarəti ilə isidən Əli Rza Xələflinin özü - yetkin xarakterli poetik "mən"inin təkcə epik söyləmələrində deyil, həm də lirik şeirlərində də artıq qeyd etdiyimiz kimi, lirik şair "mən"i yetkin və harmonik bir sosial şəxsiyyətin fikir, arzu və amal daşıyıcısıdır. Onun emosialarıdır, həyəcan, çırpıntı və zərif duyğularıdır. Hisslərinin, mənəvi aləminin şəffaflığıdır, yalnız və yalnız təkrarsızlığı, özünə bənzərliyidir:

***Əbədi özünə bənzəməz dedin,***
***Sən elə özünsən Vətən heykəli.***
***Əbədi yaşayar sözün-söhbətin,***
***Vətənin daşından bitən heykəli.***

***Əyrini mizanda boğar, ələyər,***
***Düzü ulduz-ulduz yağar, ələyər.***
***Analar təzədən doğar, bələyər,***
***Bir gün yaddaşlardan itən heykəli.***

Müdaxiləsiz məzmunu formaya, forması da məzmununa keçən, asan əzbərlənən, böyük təsir oyadan bu şeir - "Vətən heykəli" Söhrab Tahirə ithafdır. Fəqət burada şairin tərcümeyi-halı

açılmır, mühiti səciyyənləndirilmir, həyatda, ədəbi prosesdə yer və mövqeyindən, insanlarla əlaqə və münasibətindən danışılmır.

Əli Rza Xələfli, "Vətən heykəli" şeirinin məzmununu istedadla duymuş, poetik niyyəti lakonik, hər sözə, hər ifadəyə həssas yanaşa-yanaşa ifadə etmişdir. Sanki şair yaxşı tanıdığı, üns tutduğu, dönə-dönə söhbət etdiyi neçə-neçə sənətkarın hərəsindən bir cizgi, bir detal, bir fərdi keyfiyyət götürmüş, bunları bədii ustalıqla yaşamış və ölkəmizin "torpağından, daşından bitib-göyərən" bir tipik, geniş oxucu kütləsinin sevgisi səviyyəsinə qaldırılmış sənətkar-vətənpərvər obrazı yaratmışdır.

Canlı bədii məntiqlə oxucuda belə bir etiqad formalaşdırmışdır; "Vətən heykəli"ndəki şair-vətənpərvər obrazına bənzər surətlər amanda-darda qalsalar da, dara-çarmıxa çəkilsələr də amalları yaşayar, şaxələnər, təsir oyadar. Çünki onlar elə bizim birimizdir, pirimizdir, sirrimizdir, poetik ənənələri ədəbi nəsillərdən - ədəbi nəsillərə ötürülən söz deyənlərimizdir. Bu səbəbdən də ədibin özünü xalq həyatına qatanlara, səadəti milli birlikdə axtaranlara müraciət-tövsiyəsi təbii görünür:

***Axtar dayazını, bir gəz dərini,***
***Dərdli Savalana de sözlərini.***
***Xudafərin üstə sil gözlərini,***
***Qılınc Araz bölən o tən heykəli.***

Əli Rza Xələfli gülüşü "dodağında donan", "Qarabağ odunda alışıb-yanan Kərkükü, Təbrizi imdad diləyən, "Ya canın, ya Vətən - indi buyur, seç" - dilemması arasında qalan şairdir. O, "üstündə bitənə torpaq nə, daş nə, uğrunda ölənə ürək nə, baş nə" - etiqadı ilə yaşayır. Etiqad şeirlərdə subyektiv məzmun daşımır, tarixdə tarixin özünü belə heyrətə salan faktlarla, detal və bədii mənzərələrlə zənginləşdirilir, yeni məna alır. Çünki şair dəyərli bir faktı da "sıxır", onun daxili poetik mənası ilə düşünür:

***Qayçılı tarixin xəritəsində,***
***Qala divarların bünyadı Vətən.***
***Edam ayağında, haray səsində,***
***Babəkin inamı, inadı Vətən.***

***...Bir Dəmir qapıdı, bir Qara yazı,***
***Qışı çox uzandı, gəlmədi yazı.***
***Bıçağın altında qalıb boğazı,***
***Qəbirlik torpağın övladı Vətən.***

Lirika Əli Rza Xələfli yaradıcılığının şaxəli, ayrılmaz sahəsidir. Şair lirik şeirlərinin məzmununu varlığın, ictimai-siyasi münasibətlərin, təbii gözəlliyin rəng və rəngliliyindən alır, poetik "mən"i bilə-bilə hərəkətdə, fəaliyyətdə saxlayır.

Lirik ədəbi növün özünəməxsus xüsusiyyətlərini yaxşı bilən Əli Rza Xələfli lirik şeirlərində poetik istəyi lakonik, sadə, çox hallarda məcazlar bolluğu ilə ifadə edir. Bir qayda olaraq, bu sənətkar lirik obrazın həyatından, əməllərindən, narahat dünyamızı ahəngdar qurmaq, vətənpərvər, kamil və yetkin gənclər formalaşdırmaq istəyindən bir an, bir canlı məqam gerçəklikdən estetik duyğu oyadan bir "parça" götürür. Şeiri ilhamla, məzmunu, hər detalı, hər sözü, hər ifadəni duya-duya yazır, onu mənəviyyatda, fikir və düşüncədə yaşamağa istiqamətləndirir:

***Bir düşəydim bu yolların ağına,***
***Bir çıxaydı Gordu baba dağına.***
***Qovrulaydım cızdağına, yağına.***
***Oxuyaydım, dağlar, səndə gözüm var,***
***Biləsən ki, məndə dərdə dözüm var.***

Əli Rza Xələflinin şeirlərində poetik "mən" narahatdır, həsrətlidir, el-oba Xələfli çırpıntılıdır. O, narahat həyat yaşayır, Qarabağı, ev-eşiyi yağmalanan qaçqınları düşünür, onları yaşayır. Ədib çox zamanlar onlarca şeirində Qarabağın adını çəkmir. Amma asan görünür ki, onun "mən"i öz fikirli dünyasından qopa bilmir, müasirlərini həyati ideal uğrunda mübarizə aparmağa, nəyəsə nail olmağa çağırır. Belə məqamlarda hiss edirsən ki, xalqa, Vətənə, torpağa sevgi "mən"in Əli Rza Xələflinin həyatının, yaşayışının, xəlqi-bədii axtarışlarla dolu yaradıcılığının mənasıdır. Maraqlıdır ki, müəyyən bir fikir, hikmətli poetik amalı oxucuya təlqin edəndə, onu mübarizəyə,

çoxcəhətli fəaliyyətə yönəltmək istəyəndə məzmunu adi söz və ifadələrlə, sadə bədii forma, axarlı poetik ölçü ilə ifadə edir. Sanki bizimlə bir dost, bir tanış kimi danışır, hiss və duyğularımızı isidir, həyat, insan, gözəllik, təbiət, xalq və vətən sevgilərimizi gücləndirir. Şeirdə söz-sözə hopur, fikir misradan-misraya axır, sual sualı, nida nidanı, xitab xitabı, ahəng ahəngi tamamlayır. Əsərlərdə fikir, məzmun, bədii struktur bütövlüyü və təsir davamlılığı yaranır:

***Nə yazda göyərəcək,***
***nə payızda solacaq,***
***Nə yayda bir kimsə dərəcək,***
***beləcə əbədi***
***Qış yuxusunda qalacaq.***
***Əkilib milyon il əvvəl***
***Allahın əliylə***
***Təzədən axtarma,***
***kotanı, xışı.***
***Daş daşdır.***

Əli Rza Xələflinin məzmunlu təsvirində isə daş ibtidai insanın silahıdır, ləyaqətini, imanını və şəxsiyyətini tərəzidə çəkən bir müasirimizin Allahıdır. Daş - üzündən-gözündən qan daman, söz-söhbətindən dad-aman yağan, izindən zaman-zaman istəyi bilinməyən, güzgüsü zəmini-asiman olan, fəlakəti gözlənilən buz baxışlı insandır. Əlvan rəng və boyalarla, həyati müqayisələrlə Əli Rza Xələfli daşa yüksək bədii-fəlsəfi məzmun - məna verir, poetikləşdirir. Çünki lirik şeirlərində və poemalarında da faktları mənəviyyatından keçirib özününküləşdirmək, həssas, qayğı və ehtirasla seçmək, “mən”in çoxşaxəli fəaliyyətini xalqın gündəlik həyatına, yaşayışına və mübarizəsinə qatmaq, hadisələri daxilən hərarətləndirmək, tipik əhvalatlarla düşünmək, ehtiyac duyulanda ricətlərə çıxmaq, məzmunu sadə və səmimi ifadə etmək və ümumiləşdirmək bu ədibin yaradıcılığında fərdi üslubi səciyyə daşıyır.

Əli Rza Xələflinin poetik "mən"i varlığın, sosial ziddiyyət və münasibətlərin, bir-birini izləyən ailə-məişət çətinlik və qayğılarının hər üzünü - yaxşını da, pisi də, acını da, şirini də, çirkinliyi də, gözəlliyi də, toyu da, yası da görən dözümlü, inamlı şəxsiyyətdir. Sevinc, fərəh, Araz boyu dolaşan səs - ağı, Xudafərinin ürək dağlayan sınıq bir tağı, sevgi dənizində çimmək və günahlarını yumaq, hıçqıra-hıçqıra kədər dəryasından keçmək onun zəngin təbiətinə yad deyildir. Ona görə ki, poetik "mən" gerçəkliyi, insanı, yaşadığımız günlərin müxtəlifliyini necə varsa, elə də görür; gördüyü kimi də düşüncə, xəyal və hissiyyatında gəzdirir. Belə dözüm və duyum da Əli Rza Xələflinin lirikası varlığın nəfəsini, təbiətin rənglərini, reallığın fərqli çalarlarını gətirir. Şair özü haqqında, özünün mənəviyyatı haqqında danışanda, həm də müasirlərimiz haqqında, təbiət, sevgi, gözəllik, yaşayışın bənzərsizliyindən söhbət açır. Bunlar da şeirlərdə subyektivliyi "əridir", məzmun - ideya ümumiləşmə üsulu ilə açılır:

***Girov verdilər qəbir yerimi,***
***Dedim: Ay insafsızlar,***
***Gəlib aparaydınız***
***Sərimi,***
***soyaydınız dərimi.***
***Beləcə, Göyçədən əl üzdük.***
***Oğuz yurdundan üzüldük.***
***Yollarda ipə-sapa düzüldük.***
***...Qaytarın qəbir yerimi,***
***Əhləti hazır, goru hazır,***
***Ölməyə gedirəm.***
***Qoyun keçim Xudafərini...***
***Gedim görüm yerindəmi,***
***...ocaq daşım?***
***Öpməyə gedirəm***
***Kimdi görüm, dostum, qardaşım...***

Həcmi imkan versə idi, şeiri oxucuların nəzərinə bütövlükdə çatdırardıq. Çünki "Girov dərdim" adlı əsər orijinaldır, xəlqidir.

Qarabağ həqiqətlərinin və poetik "mən"in bir parça qəbir yeri-ni" dosta, tanışa, qardaşa əmanət verməsinin və onun xəyanətin qurbanı olmasının ilhamlı və sarsıdıcı lirik təsviridir. Məzmunlu, yüksək ideya-bədii dəyərli lirik şeirlər yazmaq asan deyildir. Ona görə ki, həyatı mürəkkəbliyi və ziddiyyətləri ilə duymaq, onu psixologiyadan, fikri-mənəvi aləmdən keçirmək, reallığı "görünməyən daxili-gizli" mənası ilə yaşamaq hələ azdır. Dünyabaxışın genişliyi, istedad, səciyyəvini təzahür müxtəlifliyi ilə görmək, onu qeyri-səciyyəvidən ayıra bilmək, təbiətən vətənpərvər, həssas və duyumlu olmaq, tez təsirlənmək, sözdən bədii istəyə uyğun istifadəni bacarmaq vacib, inkarolunmaz şərtlərdəndir.

Lirik şeirlərdə lirik "mən" fəallığı, hər kəsə, hər şeyə həssas münasibəti, həyatın "dibinə, görünməyən qatlarına" enmək hünəri və emosionallığı ilə görür, gerçəklik onun vasitəsilə duyulur və dərk edilir. Bu janrda hisslər, emosialar, çırpıntılar, həyəcanlar nizama salınır, fikir-qəlb aləmi, düşüncə, istək və arzu bədii ifadəsini tapır. Bunlara əsasən də lirika, doğru söyləyirlər, "bir növ dilsiz duyğulara, söz və vüsət verir", varlığa, xüsusi ahəng, xüsusi bədii gözəllik gətirir. Lirik janrda sənətkarlardan birinin dəqiq müşahidəsində: "Rəssam lövhəyə, şair öz yaradıcılığına əsərinə çevrilir. Ona görə də lirika hər cür ədəbiyyatın ruhu və canıdır", onun anası, əsas qüvvəsi, dövr edən qanı, ümumi ünsürüdür". Doğrudan da, Əli Rza Xələfli lirik şeirlərini məzmunu duya-duya, onun mahiyyətinə enə-enə, bədii təhlildə cövhəri üzə çıxara-çıxara yazır: "Dağ və şair", "Başaq buğdasıyam", "Qurdum ulamadı", "Sarı sim üstə", "Qorxuram", "Dünya", "Səsin sehrində", "Hər qayada çiçək bitməz", "Alnıma yazılanlar", "İntizar", "Yollar", "Şair tənhalığı", "Atama məktub", "Bazar" və digər şeirlərində gah gur, gah da sakit və həlim ifadə tərzi seçir, milli dilin daxili imkanlarından, çoxrəngli söz və ifadələrdən ustalıqla yararlanır:

***Sözü türkman çörəyi,***
***Sinəsi ov sürəyi...***
***Özü Vətən ürəyi,***
***Ox dəydi yaraladı.***
***O qürbət əyər səni,***

***Xəlvəti yeyər səni.***
***Soruşmaz haralıdı?***

Məzmunu 1993-cü ilin mürəkkəb, gərgin siyasi-psixoloji hadisələrindən alınan "İnsan, tarix və zaman"ı Əli Rza Xələfli poema-esse adlandırmışdır. Mənim inamımda bu, poema-esse yox, vaxtında yüksək vətəndaşlıq narahatlığı ilə yazılan lirik poema-monoloqdur; xalqı tarixin ağır imtahan və sınağından uğurla çıxmağa, taleyini xalqın taleyinə qatan böyük bir vətənpərvərin ətrafında birləşməyə, müstəqilliyimizi qorumağa çağırışdır.

Əli Rza Xələflinin yaradıcılığı ildən-ilə deyil, gündən-günə, aydan-aya inkişaf tapır, yeni janrlar, yeni mövzular, yeni obrazlar, yeni forma tapıntıları ilə zənginləşir. Bədii üslub və imza çoxluğu arasında onun yazı tərzi asan seçilir.

***18 iyun, 2007-ci il.***

***"Kredo" qəzeti,***
***№ 32 (447), 23 iyun 2007-ci il***

## ARAZI ÇAĞLAR GÖRDÜM...

***Dördüncü məqalə***

Mənim dünyaya göz açdığım, boya-başa çatdığım, varlığım düşüncə və mənəviyyatımda yaşatdığım Borçalıdan Əli Abbas Əli Rza Xələfliyə irihəcmli, geniş məzmunlu məktub (“Məni təklədi zamana, vallah”, “Kredo”, 1 iyul, 2006) göndərmişdir.

Borçalıda yaxşı tanınan, nüfuz qazanan Əli Abbas, hiss olunur ki, saysız-hesabsız insanlar - borçalılar kimi, o da Azərbaycan mətbuatını diqqətlə izləyir, bədii yaradıcılığın təbiətini, xüsusən şeiri yaxşı duyur, onun haqqında fikirlər söyləyir.

Əli Abbas mədəni və savadlı ziyalıdır. Özünə inansaq həyatda çətinliklər görmüş, gərgin sarsıntılar keçirmiş, zaman onu sıxmışdır. İndi Əli Abbas deyəsən, sərbəstləşmiş, bir az da cəsarətə gəlmiş, özünün taleyini qüdrətli, adlı-sanlı bənzərsiz yazı tərzli bir ədəbi şəxsiyyətin - Əli Rza Xələflinin taleyinə bənzətmək istəmişdir. “Zamanın” Əli Abbası niyə, hansı yöndə sıxıntılara saldığını deyə bilmərəm, ancaq inamla onu söyləyə bilərəm ki, Əli Rza Xələflini şirin yuxudan sərsəm oyadan, varlığını gərgin saxlayan, bitib-tükənməyən intizarda saxlayan ağır dərddir, hamının dərdi, Qarabağ dərdi, qaçqınlardır, qaçqınların dözülməz acı həyatı, onların yurd-yuvalarının, ev-eşiklərinin dağılması, yağmalanmasıdır. Amma bu da ilk reallığı tamamlayan başqa bir reallıqdır: Əli Rza Xələflini sənətə - şeir aləminə coşğun yaradıcı istedad, böyük ideya, estetik amallar, milli torpağa, dünyagörüşündən, daxili aləmindən lehmə kimi qaynayıb gələn Vətən sevgisi gətirmişdir. O, xalqın şairidir. Onun yaradıcılığının bədii pafosu xalqa məhəbbətdir, vətənpərvərlikdir.

Əli Abbasın səmimi və sakit ahənglə yazılan məktub-məqaləsində deyilir: *“...Və sizin həyatınızla tanış olduqdan, şeirlərinizi və müsahibələrinizi oxuduqdan sonra mənə aydın oldu ki, Sizin dərdi-*

*niz mənimkindən qat-qat çoxdur. Bu çəkilən dərdi dərdin özünü çəkən bilər.*

*Qələm dostum, Borçalı şairi Rövşən Nəsiboğlunun (təəssüflənirəm, Rövşənin şeirlərini əldə edə bilməmişəm) iki misrası düşdü yadıma:*

***Oldunsa söz əhli, qələm adamı,***
***Olursan qəm, qüssə, ələm adamı.***

*Belə də düz deyil... amma hardasa düzdür"*

Bütün bunlardan sonra məktub-məqalə bizə belə bir fikir söyləməyə imkan verir: Əli Rza Xələfli başqa məmləkətlərdə, öncə Türkiyədə, Azərbaycanın cənubunda, Gürcüstanın Borçalı mahalında istedadlı söz, zərif lirika ustası kimi tanınır, əsərləri çox oxunur, geniş yayılır, şeirləri təhlil olunur, onların haqqında dəyərli fikirlər söylənilir. Eyni zamanda, bu şairin baş redaktorluğu ilə çap olunan "Kredo" qəzetinə Borçalıda maraq günü-gündən artır, qəzet çox oxunur. Birdən-birə bunlar "Kredo"nun qeyri-adi nüfuzu, yayılqanlığı, milli-vətənpərvər istiqaməti Mətbuat Şurasında "diqqətdən yayındı", onun adı "reket qəzetlər" siyahısına salındı. Haqsızlıq hamını - ziyalıları, elm, sənət və müxtəlif peşə adamlarını, oxucuları, eləcə də qəzetin pakdan pak kollektivini hiddətləndirdi. Ancaq onlar çaşmadılar, məntiqlərini itirmədilər, əksinə, müdrik, inamlı görkəm aldılar. "Kredo"nu ləkələmək, nüfuzdan salmaq istəyinə təbiət də "dözə bilmədi". Az qala yer tərpəndi, Göy silkələndi. Gürşad çaxmaq istədi. Böhtançılar, "Kredo"nu arzularına uyğunlaşdırmaq istəyənlər xəcalət, ya peşmançılıq "tülünə bürünəndə" səma mərhəmətə gəldi, ildırım çaxmadı. Sadəcə, etiraz məktubları, etiraz səsləri Mətbuat Şurasını silkələdi, ona çox sərt, təkrarsız ibrət dərsi verdi. Böhtan "Kredo"nun həndəvərinə yaxınlaşa bilmədi.

Gərgin psixoloji məqamlarda yaradıcılığının məna və məzmununu xalq həyatından alan, həmişə oxucuların istəyi və sevgisi səviyyəsində dayanan bir sənətkar - Əli Rza Xələfli fəallığını xeyli

gücləndirdi, mahiyyəti xəlqilik və novatorluqla aşılanan şeirlər yazdı. Dərin məntiqi "lənət daşı, yaxud Sabirin həpəndi və Əflatun əfəndi" məqaləsində "Kredo"nun obyektiv istiqamətinə, Mətbuat Şurasının üzvü olmadan da, onun xalqın amallarını, oxucuların istək və arzularını müasir yöndən ifadə edən qəzet olmasına inamı bir qədər də artırdı. Bildirdi ki, Mətbuat Şurası bir qurumdur, ancaq jurnal və qəzetlər üçün bir məmur orqanı deyildir. Mətbuat Şurasının üzvü olmadan da "Kredo" səpkili milli mündəricəli, çox müəllifli, çox oxucusu olan və geniş miqyasda yayılan qəzet çap etmək olar. "Qəzet işinə mən yaradıcılıq işi kimi baxıram. Qəzet təkcə informasiya vasitəsi deyil, həm də elə bir yaradıcılıq sahəsidir ki, bununla cəmiyyət təmizlənmə yolu keçir". "Qəzetçi mirzə ola bilər və elə əslində, mirzə olmalıdır, xalqın dərdini yazan mirzə".

"Kredo" yeni dünyabaxışlı, yüksək elmi-mədəni, ədəbi-estetik zövq və duyumlu, qayğıkeş və nəzakətli, Vətən, xalq və Qarabağ sözləri dillərindən düşməyən peşəkar jurnalistlərin nəşr etdikləri məzmunlu qəzetdir. Bu nüfuzlu qəzetə politoloqlar, tarixçilər, ədəbiyyatşünas-tənqidçilər, iqtisadçılar, bədii söz ustaları, sənətşünaslar, müəllimlər, tələbələr inamla, təmiz etiqadla üz tuturlar. Bilirlər ki, Əli Rza Xələflidən, Elçin Kamaldan, Fariz Çobanoğlundan... insana insani münasibət - qayğı, hörmət və istiqanlılıq görəcəklər; redaksiyanı əxlaq-tərbiyə, görüb-götürmək, öyrənmək - öyrətmək məktəbinə bənzədəcəklər; bir də əllərində məqalə yollarının "Kredo"ya düşməsini arzulaycaqlar. Ona görə ki, "Kredo" bizim ömür-gününü, istedadını, yaradıcı axtarış və tapıntılarını xalqın həyatından ayırmayanların mənəviyyatı vətənpərvərlikdən, milli qürur və təmizlikdən yoğrulanların qəzetidir. Məzmununda millətin nəfəsi duyulan, səsi eşidilən, onun həyatının, məişətinin təsviri görünən, incəsənətin, bədii mədəniyyətin, milli dilin, tarixin və etnoqrafiyanın müxtəlif sahələrindən yazan "Kredo" heç zaman ətrafına yazarlar toplamaq, yazarlar axtarmaq

niyyətində olmamışdır. Çünki "Kredo"nun böyük nüfuzu və səviyyəsi elm və sənət adamlarını özünə çəkmiş, onları çap olunmaq çətinliyi narahatlığından qurtarmışdır.

Əli Rza Xələfli bizim günlərin Əli Rza Xələflisidir. Adı ölkənin hər yerində hörmət və ehtiramla çəkilən ədib-şairdir, publisist-vətəndaşdır, Xalqın istəyini, gələcəyə inamla baxanların arzu və diləklərini cəsarətlə, yüksək bədii dillə yazan, ifadə edən jurnalistdir; bədii yaradıcılığı ədəbi-publisistikasını tamamlayan, biri o birini şərtləndirən nüfuzlu söz ustasıdır. Onun ədəbi-publisistik yaradıcılığı əhatəlidir, yeni faktlarla zəngindir, məqalələrin bəzisi cari səciyyəlidir. Çünki Əli Rza Xələfli məqalə yazanda məzmunun aktuallıq və cəlbediciliyinə, formanın oynaqlığına, təsvirin konkretlik və aydınlığına xüsusi diqqət yetirir və özünü çərçivəyə salmır. Dövrün ictimai-siyasi hadisələrindən, adət-ənənədən, şifahi xalq ədəbiyyatımızın müasir, kəsərli sözə ehtiyacı olan problemlərindən, bədii söz ustalarının və incəsənət xadimlərinin fəaliyyətlərindən, bizim günlərin ədəbi prosesinin inkişafından, onun yeni istiqamət və axarlarından yazır. Söz deyəndə, səciyyəvi bir əhvalatın , ya xatirənin mahiyyətini açmaq istəyəndə ciddi bir mənbəyə, fakta istinad edir və əhəmiyyətli fikir söyləyir.

Azərbaycan tarixinin müəyyən inkişaf mərhələlərində Novruz haqqında fikirlər söylənmiş, əsərlər yazılmışdır. Ədəbi fəaliyyətinin yetkin illərində Y.V.Çəmənzəminli milli bayrama, onun tarixi məkanına və coğrafiyasına maraq göstərmişdir. Sənətkar "Qızlar bulağı" romanında "qədim dünyanın inkişaf istiqamətlərinə işıq salmışdır". Çünk Y.V.Çəmənzəminli "Avesta"dövrünü yaxşı bilmiş, hərtərəfli mənimsəmişdir. O, Novruzun tarixinin şərhini, "Avesta"ya əsaslanaraq vermişdir. Və inamla "Avesta"nın nüvəsində Novruz dayanır, - demişdir. Bunlarla yanaşı, Əli Rza Xələflinin "Novruzda yeddi tonqal qalanar" adlı çox maraqlı məqaləsində Səməd Vurğunla Heydər Hüseynovun Zərdüştü türk pey-

ğəmbəri, Azərbaycanın müdrik və yetkin alim-mütəfəkkiri kimi tanımasından bəhs olunur.

Xalqın adət-ənənəsinin, məişət və mərasimlərinin xüsusiyyətlərini yaxşı bilən Əli Rza Xələfli Novruz bayramını bütöv məzmunda düşünür, onu ərəfəsi ilə öyrənir, "yeddi tonqal qalamaq" anlayışını hamının marağı səviyyəsindən mənalandırır. Bir şair-publisistin məntiqində Novruzun "ilk tonqal sananan çərşənbələrin birincisində qalanır. Birinci tonqal qalanan çərşənbə yalançı çərşənbə adlanır", yəni hələ Novruz - yaz gəlməmişdir. Lakin insanlar soyuqdan qurtarmağa, qışdan çıxmağa tələsirlər, istini - müqəddəs odu səsləyirlər. Nüfuzlu bir şair-publisistin inamlı təhlilində ikinci adlı çərşənbə od çərşənbəsidir. Bu çərşənbədə təbiətdə Günəş sistemində dəyişmə baş verir. İnsanlar cismən və ruhən Novruza yaxınlaşdıqlarını, yazın gəlməsini hiss edirlər və ikinci tonqal qalanır. Torpaq isinib nəfəs alanda üçüncü tonqal qalanır və bunu torpaq çərşənbəsi adlandırırlar. Hava çərşənbəsində Novruz bayramı axşamında və bayram səhərində tonqallar daha gur yandırılır.

"Novruzda yeddi tonqal qalanar" məqaləsini Əli Rza Xələfli həssaslıqla, güclü bilgilərlə, zəngin bayram müşahidə və təəssüratları ilə yazmışdır. Məqalənin sonunda əslində, publisistika ustası təzə söz deməmişdir. Ancaq hamının bildiyi bir fikri çox gur, milli həvəs və qürurla söyləmişdir. Ona görə də oxucu az qala uca səs - ahənglə ədiblə bərabər demək istəyir: "Novruz Azərbaycan bayramıdır, bizim bayramımızdır, Odlar Yurdunun bayramıdır".

Əli Rza Xələfli folklorşünas deyildir, ancaq yaradıcılığı ağır zəhmət, axtarışlar, bədii tapıntılar və istedad üzərindən keçən bu şair-publisist mənə adət-ənənənin, şifahi xalq ədəbiyyatının, aşıq şeirinin, klassik və müasir bədii mədəniyyətin bilicisi təsiri bağışlayır. O, vəsfi-halların, xalq mahnılarının, bayatıların, əsatir və əfsanələrin, dastan, qoşma və gəraylıların pafosundan, lövhə, detal və mənzərələrindən öyrənir, onların tarixi sınaqlardan keçən poe-

tik ruhunu lirikasına axıdır. Bu orijinal üsulla əsərlərinin bədiiliyini gücləndirir, şairin ifadə tərzinə xəlqi axar gətirir:

***Arazı çağlar gördüm,***
***Daşların ağlar gördüm.***
***Vüsalı ilğım olan***
***Yolunda dağlar gördüm.***

***Araza qəfəs yoxdu,***
***Dəliyə məhbəs yoxdu.***
***Könlümü oxşamağa***
***Bir sərin nəfəs oxdu.***

Bir çox hallarda Əli Rza Xələfli xalq ədəbiyyatının ifadə tərzindən, ahəngindən sözü mənaya uyğun seçmək və işlətmək üsullarından, onun melodikliyindən yararlanır. Xalq şeirindən bir, ya iki misra alır, misraları qeyri-adi ustalıqla öz bədii məntiqinə qatır, "əridir", fikrə hopdurur; şeiri xalq şeri ahənginə salır, sanki onu bəstələyir:

***Bir düşəydim bu yolların ağına,***
***Bir çıxaydım Gordu baba dağına.***
***Qovrulaydım cızdağına, yağına.***
***Oxuyaydım dağlar, səndə gözüm var.***
***Biləsən ki, məndə dərdə dözüm var.***

Məzmunun gerçəkliyin, ictimai-siyasi münasibətlərin və yaşayışın hansı sahəsindən almasından və forma-seçim tapıntısından asılı olmayaraq Eldar Səfa Şahvələdli doğru deyir: "*Əli Rza Xələfli onu elə bil canıyla, qanıyla, bütün varlığıyla yazır; sanki hər publisistik "əsərdə təzələnir", ömrünə ömür calayır, qələminə vətəndaşlıq cəsarəti, isti nəfəs, ürəyinin döyüntü və hərarətini verir. Şifahi xalq ədəbiyyatından yararlandığı, seçdiyi və təsirləndiyi bir detalla, bir lövhə ilə fikri dərinləşdirir, oxucunu təsvirin canlı axarından ayrılmağa qoymur: Həzrəti Əli deyərmiş ki, "Hər kəs öz dilinin altında gizlənir". "Zərrədə hikmət axtaran, ya təbiətdə, ya insaniy-*

*yətdə bir nizam görəndə könlü havalanan adamdı... Səmimiyyətinə söz yoxdur, könlünə zor eyləyən adam deyil. Ən başlıcası "sözün ətəyindən yapışan adamdı". "Ayağına dəmir çarıq geyib, əlinə dəmir əsa alıb bir düz söz deyənlə lap dünyanın o başına da gedər".*

Əli Rza Xələfli təsadüfdən-təsadüfə yox, fasiləsiz ədəbi-publisistik əsərlər yazır. Ona görə də çevik, tez yayılan bir janr onun yaradıcılığının güclü və ayrılmaz sahəsidir. O, publisist əsərlərinə, müasir səciyyəli, vətənpərvər mahiyyətli məzmun-faktlar seçir, onların bədii həllini istedadla verir.

Əli Rza Xələflinin "dəst-xəttiinə kifayət qədər bələd" olan Eldar Səfa Şahvələdlinin fikri dəqiq və inandırıcıdır. Ədibin "publisist yazıları səma döyüşünü xatırladır". O, əsərləri özünə, ilhamına, bədii məntiqinə inamla yazır, əksər hallarda seçilən, fikri-mənəvi aləmdə yaşanılan faktlardan yüksəkdə durur. Onları sadalamır, mənalarını həssas, yaradıcı hünərlə açır, ümumiləşdirir.

Ağız ədəbiyyatından, xalq şeirinin ideya-estetik mahiyyətindən, müəyyən bir aşığın ədəbi-siyasi mühitindən söz deyəndə, tərcümeyi-halından danışanda cəsarətli ədəbiyyatşünas-tənqidçidən fərqlənmir. Hər hansı bir sənətkarın, deyək ki, Aşıq Qurbaninin haqqında fikir söyləyən tədqiqatçıların təsirinə düşmür, qeyri-dəqiq fikir və mülahizələrə aydınlıq gətirir. "Qurbani yurdu: toponimləri, təbiəti" adlı məqalədə oxuyuruq, "İlk dəfə 1971-ci ildə professor Paşa Əfəndiyevin "Azərbaycan şifahi xalq ədəbiyyatı", professor Vaqif Vəliyevin "Azərbaycan şifahi xalq ədəbiyyatı" kitablarında Qurbani Cənubi Azərbaycanın Diri kəndində doğulub fikrinə rast gələndə gözlərim kəlləmə çıxdı".

Paşa Əfəndiyev pedaqoji fəaliyyəti boyu şifahi xalq ədəbiyyatından mühazirə oxumuş, seminar dərsləri aparmışdır. Onun - bir professorun Qurbaninin doğulduğu yeri dəqiq bilməməsi təəccüblü və heyrətamizdir. Əli Rza Xələflinin "gözünün kəlləsinə çıxması" təbiidir. Ona görə ki, Qurbani Azərbaycanın Cənubunda deyil, Şimali Azərbaycan ərazisindəki Diri dağının ətəyində doğul-

muşdur. Qəbri də Diri kəndinin qəbiristanlığındadır. Söhbət 70-ci illərdən gedir. Əlbəttə, folklorşünaslarımız və professor Paşa Əfəndiyev də sonralar bu səhvi düzəltdilər.

Əli Rza Xələfli nə folklorşünas, nə də klassik və müasir ədəbiyyatın tədqiqatçısı; hərtərəfli - sinkretik yaradıcılıq imkanlı zərif, incə, emosional və boyçiçəyi ilə yarışan dağ laləsi ətirli lirika ustasıdır; sadə, adidən-adi, zahiri görkəminin "görünməyən dünyasında" Diri dağı ağırlığından zənginlik, bütövlük, yetkin və kamillik toplayan publisist-jurnalistdir, Əli Rzadır - hamının vətənpərvər Əli Rza Xələflisi.

Əli Rza Xələfli özü-öz ədəbi şəxsiyyətinə və fərdi yaradıcılığına həm ciddi, ideya-estetik tələblərlə, həm də həssas, böyük sənət qayğısı ilə yanaşır. Publisist məqalələrinə məzmun seçəndə onu hərtərəfli, bütün çalarları, cizgiləri ilə yaşayır, hisslərindən, dünyaya baxışından keçirir. "Qurbani yurdu: toponimləri, təbiəti" məqaləsində özünəməxsusluğunu, orijinal təqdim etmək, təhlil aparmaq üsulunu saxlayır. Elmi mənbələrə, Salman Mümtazın, Məmməd Hüseyn Təhmasibin və Qəzənfər Kazımovun fikirlərinə istinad edir. Qurbaninin nəsil şəcərəsindən, onun tarixi-coğrafi, sosial-iqtisadi, ədəbi-mədəni mühitin folklora, canlı söyləmə ilə dövrün reallığına bənzər göstərir. Qurbaniyə buta verilən yerlərdən, sənətkarın adının mifik motivlərindən danışır; inamla Qurbani "tarixi şəxsiyyətdir". "XV-XVI əsrlər Azərbaycan ədəbiyyatının, xüsusilə, aşıq poeziyasının, sazın müşayiətilə oxunan şeirlərin ən qüdrətli müəllifi kimi Azərbaycan ədəbiyyatı tarixində önəmli yer tutur", - deyir.

Hiss olunur ki, Əli Rza Xələfli Qarabağın işğalına qədər Qarabağı şəhər-şəhər, kənd-kənd, qəsəbə-qəsəbə gəzmiş, regionun özünəməxsusluğunu, toponimlərini duya-duya, yaşaya-yaşaya öyrənmişdir. Bu görkəmli sənətkar Qurbani yurdunun "hər təpəsini, bulağını, çökəyini-çalasını", Araz axarı boyu səpələnən kəndlərin, Dem bağı ərazilərini, Qurbani və Pəri məzarlığının adlarını dəqiq

vermiş, fərqli xüsusiyyətləri aydın göstərmişdir. Eyni zamanda, onun yaradıcı axtarış və təhlilində Qurbani dövrünün ədəbi mühitini, öncə aşıq şeirini təsirdə saxlayan şeiri yeni məzmun və forma ilə zənginləşdirən şair-filosofdur. O, sazla sözü çarpazlaşdıran, böyük məna-fikir siqlətli qoşma və divani ustasıdır.

Milli şeirin ən yaxşı, ən səciyyəvi ənənələrini mündəricəsində cəmləşdirən lirikası və ədəbi publisistikası inamımın üstünə şaxəli inam gətirdi: Əli Rza Xələfli çox geniş mütaliəli və məlumatlı, təkrarsız bedii zövqlü şairdir - filosofdur. O, aşıq şeirinin məzmun və forma zənginliyi, əlvanlığı zərifliyi ilə duyur, özü də oynaq yayılğan qoşmalar, gəraylılar və bayatılar yazır. İncəsənətin inkişafını izləyir, istedadlı müğənniləri sevir, onların “məcnunu olur”. Sazəndə və xanəndələrin, xüsusən muğam ustalarının haqqında qiymətli fikirlər söyləyir, söz deyir. Bu şairin “Mən sənin Məcnununam” və “Bir səsin sehri” məqalələri diqqəti çəkir. Yaqut Abdullayeva və cavan, amma çox istedadlı Vüsalə sənətinə marağı və sevgini gücləndirir.

Kədərli qaçqın həyatı yaşayan “qəribanə səsli” Vüsaləni Əli Rza Xələfli Bakıda görmüş, dönə-dönə onun ürəkdən oxuduğu “hər təsnifi, hər mahnını, hər muğamı” heyranlıqla dinləmiş və təəssüratlarını ifadə etmişdir. Vüsalənin qeyri-adi səsi göylərdən gəlir, göylərə də aparır adamı”. Bu, ilahi duyumlu və ruhlu müğənni “Qal, sənə qurban”ı oxuyanda zirvədən-zirvəyə yüksəlir, hərəkətləri, nurlu çöhrəsi, ifadə tərzi və ahəngi baxışlarından belə musiqi yağması ilə dinləyicini ovsunlayır. İnsan Vüsaləni dinləməkdən doymur, gələcəkdə onun “Doğma Qarabağ ellərində daha hərarətli, daha füsunkar, daha coşğun oxuyacağına inanır.

Əli Rza Xələflinin təbii gur istedadına, qələminin kəsərinə və itiliyinə, varlığın bütün sahələrindən yaza bilmək bacarıq və imkanı hərtərəfliliyinə, fərdi-bədii üslubunun təkrarsızlığına, yalnız özünəməxsusluğuna, bəlkə hamıdan çox inanıram. Nə edim, bu, xəlqi və novator şairin birdən-birə tamam cəsarətlənməsinə, Allah

payının - Yaqut xanımın incəsənət dünyasında görünməsinə, hətta özündə hünər tapıb "Mən sənin məcnunuam" deməsinə heyrətləndim. Ancaq demə, Əli Rza Xələfli zəmanəmizin görkəmli müğənnisi - Yaqutun səsini, bu səsin incəlik və zərifliyini, dinləyicini daxildən hərarətləndirməsini, onu sirli-sehirli, işıqlı bir aləmə aparmasını duymuş, sənətkarın səhnə təravətini, ifa zamanı yaratdığı romantik gözəlliyi yerqulacının ətrindən uca tutmuşdur. Müğənninin özünəbənzərliyini, cazibədarlığını göstərmək, onun haqqında real təsəvvür oyatmaq üçün çox maraqlı, inandırıcı və həyati müqayisələr aparmışdır. Təbiət sirli-sehirlidir, laləli-nərgizlidir, ağlı-qaralıdır, şirinli-acılıdır. "Bomboz, yanıb-yaxılan ütülmüş otların arasından yamyaşıl bir bitki qol-qanad" açır. Dörd tərəfə yayılır. Üstü təravətli güllərlə dolu olur. İsti çoxalanda yerqulacı bir qədər də şövqlə çiçəklənir. Sanki Tanrının qəzəbinə qarşı durur. "Cəbrayıl, Yaqut, ayrılıq, ruhun səsi, yayın isti nəfəsi, yerqulacı".

Əli Rza Xələflinin bədii təqdimatında ətri insanı bihuş edən yerqulacı - Yaqut "Cəbrayılın bağrından qopmuş" yaşının üstünə yaş gəldikcə meyil və münasibəti, oturuş-duruşu tamam harmonikləşmiş, "şəxsiyyətində Yarəhmədli dağ silsiləsinin vüqar və əzəmətini, gözəllik cizgilərini cəmləşdirmişdir. Onun gözləri qaynarlığı və dərinliyi Cəbrayıl kəhrizlərindən, boyu-buxunu, əzəməti bu diyarın çinarlarından almışdır. Müğənni Gordu babanın və Tumas atanın insan, yurd, el-oba sevərliyini çöhrəsinə mənavi-psixoloji aləminə hopdurmuşdur. Əli Rza Xələflinin real düşüncəsində mahnıdan-mahnıya yetkinləşən doğma yurddan ayrılığın astanasında doğulan, adı dillərdən düşməyən Yaqut xanım dərdli, Qarabağ nisgilli müğənnidir. O, həsrət, arzu və istək içində çırpınır. Bilir ki, Qarabağ əsarətdədir, Qarabağın gözləri yol çəkir. Qarabağın vüqarını - Yaqutu görmək, onun valehedici səsini eşitmək, mahnılarından güc almaq istəyir.

Sözü və səsi kimi Yaqutun özü də dözümlü, səbirli və təmkinli şəxsiyyətdir, sənəti sehirlidir. Könüllərdə, ürəklərdə Yaqut sevgisi oyadandır. Çünki Yaqut, Əli Rza doğru buyurur, mahnını, təsnifi, muğamı səsinə, duyumuna, sənətkar təbiətinə uyarlı seçir. Ona görə də "Dağlara çən düşəndə", "Sarı bülbül", "İnsaf elə", "Boyun qurbanı", "Mən solmaz yarpağam ki", "Yar gəldi", "Görürəm səni", "Sevəydin barı", "Unuda bilmirəm" onun ifasında gur səslənir. Dinləyicini müğənnidən ayrılmağa qoymur.

"Mən sənin məcnununam" məqaləsində Əməkdar artist - Yaqut sevilən, səsi ürəklərə işləyən, mənəviyyata təsir göstərə bilən sənətkardır. O, mahnını ürəkdən sevə-sevə, yana-yana oxuyur. Bu səbəbdən də *"Mən Yaqutun məcnunuyam. Onun tükənməz həyat sevgisiylə dolu sənətinin məcnunuyam. Onun saflığının, səmimiyyətə qarşı təmənnasızlığının məcnunuyam. Dözümünün məcnunuyam və ən başlıcası, mənəvi zənginliyinə həmişə qibtə etmişəm. Saf, səmimi söhbətlərindən heç vaxt doymamışam. Mənəvi sıxıntıda olanda, kimsəsizləşəndə, tənhalaşanda onunla söhbətə can atmışam. Etiraf edim ki, bəzən məsləhətlərinə də ehtiyac duymuşam. Çünki Yaqut böyüklüyü, Yaqut zənginliyi həm də səxavətdir".*

Böyük bir müğənnini - Yaqutu hamının sevməsinin kökü, Əli Rza Xələfli yanılmır, onun xalqa, milli incəsənətin milli ənənələrinə, el-obaya, doğmalarına bağlılığındadır. Təmiz hisslərlə, şəffaf duyğularla, böyük diləklərlə zəngin bir şairin - Əli Rza Xələflinin Yaquta sevgisi, Yaqut vurğunluğu təbiidir, sənətə, bir müğənninin səsinə, istedadına heyranlıqdır. Sevginin dərinliyinin və daimiliyinin nəticəsidir ki, Əli Rza Xələfli "Yaqut" adlı poema da yazmışdır. Poema tamamlanmamış "Kredo" qəzetində ondan ancaq xırda parçalar çap olunmuşdur. Parçalarda nüfuzlu bir sənətkar - Yaqut yurd, od-ocaq həsrətilə qovrulur, ayrılıq oduna yanır, yuxudan belə vaxtsız oyanır:

***Yol üstə boylanan bir çinar kimi,***
***Gör necə tənhadır elin içində.***

***Ürək tellərinin çalınan simi,***
***Nə yaman kövrəlib dilin içində.***

Əli Rza Xələfli Yaqut xanımın zərif cizgilərini, kövrək hisslərini həssaslıqla seçmiş, sanki ürək döyüntülərini dinləmiş, onun "başında yurdun əllərinin gəzmədiyinin şahidi olmuşdur". Amma qaçqın Əli Rza Xələfli qaçqın taleyi yaşayan Yaqut xanımı ovundura bilməmişdir:

***Cənnət ətri gülab olan,***
***Təşnələrə sirab olan,***
***Sevənlərə mehrab olan***
***Göz üstündə qaşdı, Yaqut.***

***...Bəxtin üzü sərtdi, könül,***
***Üzü dönüb, pərtdi, könül,***
***Necə yanır dərdli könül,***
***Nəfəsi atəşdi, Yaqut.***

Hər janrın özünün səciyyəvi xüsusiyyətləri vardır. Bunu yüksək elmi-nəzəri hazırlığı olan Əli Rza Xələfli yaxşı bilir. Lakin o, yol qeydlərində, xatirələrində, oçerklərində, ümumiyyətlə, publisistikasında janrın ya janrların ölçü və tələblərini qorumur. "Qurbani yurdu: toponimləri, təbiəti", "Şimşək yenə çaxacaq", "Ömrün qırx ili və qırx ilin təfsiri", "Karvan yolunda bir müsafir", "Azərbaycan aqorası", "Novruzda yeddi tonqal qalanar", "İsmayıl Şıxlı zirvəsi", "Lənət daşı, yaxud Sabirin bir həpəndi və ya Əflatun əfəndi", "Qəlbim kimi sındı qədəhim", "Ağıl duası", "Zəng səsi - zəng yaddaşı", "Könlüm bir ada" əsərlərində sıx-sıx müqayisələr aparılır, fakt, rəqəm bolluğundan istifadə olunur, birdənbirə də əsas fikir, lirik-psixoloji dada, lirik fəlsəfi mühakimələr yürüdülür. Bunlar da dinamikliyi, məna dərinliyini və əsərlərə marağı artırır. Çünki Əli Rza Xələfli haşiyə və ricətlərdən, ədəbi paralellərdən ancaq yerində istifadə edir. "Ömrün qırx ili və qırx ilin təfsiri" yüksək səviyyədə yazılan yol qeydləridir. Yol qeydlərini

"Kür-Araz" iqamətgahında xeyli söz ustasının qeyri-rəsmi məclisinin təsviri tamamlayır.

Əli Rza Xələfli "burula-burula, dolana-dolana axan Kürə baxanda" hər şeyi unudur, yubiley düşüncələrini daxildən qaynayan vətənpərvərlik hissləri, Qarabağ sevgisi "əzir, ünsürləşdirir". Məhz bu məqam, yaranan real lövhə, real mənzərə unudulmur, yadda qalır, böyük təsir oyadır. Oxucu Əli Rza Xələfli ilə bərabər qanadlanmaq, Araz sahillərində silkələnmək dərdi, qəmi, nisgili sulara qatıb Xudafərini bağrına basmaq istəyir; "Yağı suyun qabağını kəsə bilmir. Su yağının gözünün qabağından keçir. Lap onu yandıra-yandıra keçir, gəlib doğmasına çatır, məramına çatır, məqsədinə çatır". "Deyirəm yəqin indi Xudafərin altındakı daşların üstü örtülmüş olar. Yaz vaxtıdır, yağışların bol vaxtıdır, su çoxalıb. İndi yəqin Xudafərinin sütunlarınacan döyür".

"Könlüm bir ada" əsərinin ekspozisiyasında müəllif - Əli Rza Xələfli görünür və hadisələri tərcümeyi-hal faktları ilə məzmunlu oçerk axarına salır. Qasım Qasımlını həyatın özündən gələn boyalarla səciyyələndirir. Onun mükəmməl portretini yaradır.

Q.Qasımlı müasirimizdir. Qarabağ mübaribəsinin cəsur döyüşçülərindəndir. Müəllifin ifadəli təhkiyəsində o, ilk günlər "güllə yağışından" qorxmur, dərdli insanlara həyan olur. Onlara ümid, təskinlik verir. Ancaq xəyanətlər Q.Qasımlını bitib-tükənməyən sarsıntılara aparır. Çətin-psixoloji vəziyyətlərə salır. "Kədərli mənzərələr görəndə elə bilir kədərin, ələmin içindədir. Çünki hər tərəfdən fəryad səsi gəlir, özünün daxilində ağlı-qaralı düşüncələr" bir-birini əzir.

"Könlüm bir ada" Əli Rza Xələflinin müşahidələridir. Gördüyü, yaşadığı və iştirakçısı olduğu hadisələrin ifadəli təsviridir. Q.Qasımlı Balaca, Minə, Vahid və Xurşud Cəbrayıl sakinləridir. Qarabağ müharibəsinin didərgin saldığı insanlardır. Onlar ya övlad, ya qohum-əqrəba, ya da dost-tanış dağı görmüş, Bakıda sığınacaq tapmışlar. Əli Rza Xələfli bunları janrın imkanları daxilin-

də nəzərə almış, Qasımların mühiti - reallıq necə olmuş, necə varsa, elə də göstərmişdir. Buna görə də oxucu Qarabağ döyüşlərində itkin düşən Vahidin taleyinə acıyır, Minə ananın fəryadını duyur, göz yaşına bələnən bayatılarını dönə-dönə eşitmək istəyir:

***Günüm yaman nigaran,***
***Halım yaman pərişan;***
***Gözüm yollarda qalıb***
***Bir gələn yox, ay aman.***

***Gəldi, gəldi desələr,***
***Muştuluq diləsələr,***
***Canı qurban verərəm,***
***Vahid gəldi, - desələr.***

Əli Rza Xələfli çox güclü, çox istedadlı, yeni üslublu publisistdir. O, ədəbi-mədəni mühiti diqqətlə izləyir, ümumi maraq səviyyəsində ədəbi-tənqidi məqalələr yazır.

**9 iyul, 2007-ci il**

*"Kredo" qəzeti,*
*№ 35 (450), 14 iyul 2007-ci il*

## AZƏRDƏN TURANACAN

### *Beşinci məqalə*

Əli Rza Xələfli şeirlərini, poemalarını, publisistik əsərlərini səriştə və vərdişlə yazmaz. Yazmaq bu sənətkarda təbii, daxili tələb və ehtiyacdır; Allah vergisidir, humanist-vətənpərvər ideyalar yaymaq, xalqın həyatını, istək və arzularını ifadə etmək, nəsilləri hərtərəfli zənginləşdirmək istəyidir. Milli bədii mədəniyyətin-Xətib Təbrizi, Xaqani, Nizami, Nəsimi, Füzuli, Vaqif və Səməd Vurğundan üzü bəri süzülüb gələn həmişəyaşar ədəbi ənənələri yaymaq, ümumiləşdirmək arzusudur. Buna görə də bu geniş düşüncəli şair-publisist həm klassik ədəbiyyatdan, həm də yeni ədəbi prosesdən qiymətli məqalələr yazır. Müəyyən ədəbi şəxsiyyətlərin yaradıcılığı, ayrı-ayrı əsərləri haqqında söz deyir, fikir söyləyir, onların ədəbi mövqeyinə maraq oyadır. "Yana-yana yaşadım", "Ədəbiyyatın İsmayıl Şıxlı zirvəsi", "Zəlimxan Yaqub-Azərdən Turanacan", "Sevinc və kədərin arasında elegiya", "Azərbaycançılıq", "Vətəndaş Fuad: şair, nasir, rəssam idi", "Böyük Çölün Dədə Qorqudu", "Hökmü tarix verir", "Azər Turan: Ölməz ruhun axtarışında", "Yerlə göyün arasında", "Zahid Xəlil - özü, sözü və izi ilə", "Sənətin Firuzəsi", "Söz mələk olanda", "Karvan yolunda bir müsafir", "Gözlə məni körpüdə" və digər məqalələrində bədii ədəbiyyatın onlarla aktual problemlərindən yaradıcı söhbət açır.

Şair-publisist məqalələrdə ağız ədəbiyyatının fərdi bədii yaradıcılıqlara təsirindən, ondan öyrənmək və istifadə etmək üsullarından, ədəbi ənənələrdən, xəlqilik, novatorluq və müasirlikdən, bunların fərdi yaradıcılıqlarda təzahür müxtəlifliyindən, mövzu seçmək və onu yaşamaqdan, bədii dildən və dilin daxili poetik imkanlarından danışır, məntiq və mühakimələrini bədii faktlarla inamla əsaslandırır.

Əli Rza Xələfli çox fəal, işgüzar, bacarıqlı, ədəbi tədbirlərə, müxtəlif yönlü müzakirə və mübahisə toplantılarına etinasız qalan ədəbi şəxsiyyət deyildir. O, daxildən qaynayır, iş görməsə, yazmasa, oxumasa, ciddi bir mövzu haqqında dərin-dərin düşünməsə, rahatlığını itirir, otura-dura bilmir.

"Kredo" qəzetində ləyaqətli, mənəviyyatlı, təmiz düşüncəli, özlərini yaradıcılığa həsr edən insanlar olduqlarını bilirəm. Lakin onu da anlayıram ki, "Kredo"nu ətə-qana gətirən, ona kamil məndəricə verən, qəzeti ən yayılqan, ən oxunaqlı qəzet halına salan Əli Rza Xələflinin şair, publisist, jurnalist bacarığı və istedadıdır.

Ədəbi fəallığın nəticəsidir ki, Əli Rza Xələfli söz ustalarının ad günü-yubileyləri haqqında səxavətlə sıx-sıx əhatəli məqalələr yazır. Belə yazıların tələsik, təbrik xatirinə yazıldığı asan, dərhal hiss olunur. Çünki belə məqalələrdə oxucunu düşündürən, onda ciddi maraq oyadan söz deyilmir, fikirlər söylənilmir. Ən başlıcası isə güclü intellektual səviyyəli, dərin məndəricəli məqalələr yazmaq, bədii əsərləri özünəməxsusluğu ilə təhlil etmək, qiymətləndirmək imkanı olan Əli Rza Xələfli görünmür. O, tələsməyəndə, səbir və təmkinlə yazanda müdrikliyini saxlayır, hər hansı sənətkarın ədəbi prosesdə yer və mövqeyini düzgün müəyyənləşdirir, bədii əsərə mükəmməl təhlil verir.

"Ədəbiyyatın İsmayıl Şıxlı zirvəsi" ədəbi-tənqidi məqalə deyildir. Əli Rza Xələflinin ali məktəbdə oxuduğu illərlərdən düşüncəsində gəzdirdiyi, az qala otuz ildən sonra daxili istəklə qələmə aldığı qiymətli, İsmayıl Şıxlı haqqında yazılan əsərlər içində xüsusi yer tuta biləcək xatirələrdir. Məqalə-xatirədə Əli Rza Xələfli xalq yazıçısını zirvədə görür və ona zirvədən yanaşır, hər sözü, hər kəlamı yerində, zərgər sərrastlığı ilə işlədir, ifadələri, cümlələri, fikirləri qüdrətli bir şair-publisist ürəyinin hərarəti ilə isidir. İsmayıl Şıxlının yazıçı-tərcüməçi, alim-müəllim əzəmətinin, ümumxalq məhəbbəti qazanmasının səbəbini bir də onun

sadəliyində, təbii, milli mündəricəli insan olmasında görür: *"İsmayıl Şıxlı tam adi bir adam idi... Amma bu adilik görkəmində o, sözün həqiqi mənasında, həm də qeyri-adi bir insan idi. O, bu qeyri-adiliyi özünün abır, həya-ismət keyfiyyətləri ilə örtür, görünməsinə imkan vermirdi". "Tanrı ona qeyri-adi səbir və təmkin vermişdi. Tələbəlik dövründə bir qayda olaraq o, bizim söhbətimizin-həmyaşıdlarımızın hamısının sadəcə dilinin əzbəri deyildi, əsas mövzusu idi". Bu görkəmli sənətkar-"İsmayıl Şıxlı heç vaxt səmimi olmağa çalışmırdı. Çünki səmimiyyət onun təbiəti idi".* "Azərbaycan ədəbiyyatının bütöv bir mərhələsi" - İsmayıl Şıxlı müstəqilliyin "ən gərgin dövrlərində" xalqdan, xalqın mübarizəsindən ayrılmamış, vətənpərvərlərin ön sırasında olmuşdur. O, "heç vaxt qanun dili ilə", hökmlə danışmamış, hamıdan, xüsusən tələbələrdən qayğı və sevgisini əsirgəməmişdir. Bu təkrarsız sənətkar-İsmayıl Şıxlı adlı-sanlı müəllimlərin diqqətlərindən yayınmayan əlaçı bir tələbə-Əli Rza ilə özü arasına sədd çəkməmişdir. O, tələbəsinin davranışını, mədəni səviyyəsini, mühakimələrini, romantik düşüncələrini, sərbəstlik və səmimiliyini bəyənmiş, onun gələcəyinə inamla yanaşmışdır. Müəllim-tələbə arasında səddin olmaması, Əli Rzanı cəsarətləndirmişdir. O, imkanı daxilində İsmayıl Şıxlının mənəviyyat və psixologiyasını, insani keyfiyyətlərini öyrənməyə çalışmış, onun fərdi cizgilərini hafizəsinə yığmışdır. Bunları və "Ədəbiyyatın İsmayıl Şıxlı zirvəsi"ni mənimsəyəndən sonra özüm-özümə dedim: Yox, Əli Rza Xələfli ədəbi hadisəyə bənzər bu xatirə-məqaləni sanki elə bu günlərdə, İsmayıl Şıxlı ilə üz-üzə, göz-gözə oturmuş, onu bir şair-publisist kimi yox, bir ucadan-ucada dayanan publisist-rəssam kimi canlı və yaradıcı müşahidələrdən keçirmiş, meyil, münasibət və hərəkətlərini naturadan (İsmayıl Şıxlını çox yaxşı tanıyırdım. Bu ədiblə uzun müddət bir fakültədə bir kafedrada işləmişəm. İsmayıl Şıxlı kafedranın dosenti, mən isə kafedra müdiri idim) götürmüşdür, ona heç bir əlavə rəng vurmamışdır. Azərbayca-

nın Xalq yazıçısı İsmayıl Şıxlı necə var idisə, necə insan-xarakter və ədəbi bütövlük idisə elə də göstərmişdir.

Əli Rza Xələfli bəzən xatirələrdən ayrılır, haşiyələrə çıxır, İsmayıl Şıxlı haqqında mühakimələr yürüdür, orijinal şair-publisist sözü deyir. Oxucuda İsmayıl Şıxlının "özündə haqqı, ədaləti, bütöv insani keyfiyyətləri ehtiva edən canlı, yeriyən qanun toplusu" olmasına inam oyadır. Yenidən xatirələrə qayıdanda "İsmayıl Şıxlı həyat adamı idi"-deyir. Onun hər cümləsi, əsərlərindəki təbiət təsvirləri rəmzi məna ilə, yüklə dolu olurdu. O, həyat adamı olduğu üçün təsvirləri də son dərəcə canlı və mənalı idi. "Dəli Kür" romanının sonunda bir təsvir: *"Yarğanın qaşına çatdılar. Kürün boz-bulanlıq suları qabarmışdı. Ləpələr yarğanı döyəcləyirdi. Şaxələnmiş yollar bəzi yerdə ağız-ağıza qovuşmuşdu. Adaların çoxunu basmışdı. Çiləkənlərin ətrafındakı burulğanlar uğuldayırdı. Sahildə mal-qara otlayırdı. Atlar kişnəyib bir-birini qovurdu. Bir dəstə qız çiynində səhəng, sürüşkən suya enirdi. O tayda meşənin bərabərində gəmini yuxarı çəkirdilər".* Şair-publisistin inamında bu, təbiətin dinamik, təravətli, canlı, xəlqi bədii təsviridir, reallığın özüdür, Azərbaycanın Xalq yazıçısının varlığı, onun rənglərinin həssas, şairənə duyumudur.

Yaşını və ədəbi təcrübəsini qabaqlayan, fasiləsiz mənəviyyatını və dünyagörüşünü zənginləşdirən Əli Rza Xələfli ədəbi-publisist məqalələr yazanda sözləri və cümlələri səpələmir, fikri, kəlamın tutumunu dönə-dönə ölçüb-biçir. Toxunmaq istədiyi bir problemin məzmun-qayəsinə enir, sonra təhlil-qiymətləndirməni sistemli, məntiqi ardıcıllıqla aparır. Onun "Yana-yana yaşadım", "Qəlbim kimi sındı qədəhim", "Ömrün qırx ili və qırx ilin təfsiri", "Böyük Çölün Dədə Qorqudu", "Azərbaycançılıq", "Hökmü tarix verir", "Karvan yolunda bir müsafir" və başqa məqalələri ciddi elmi şəxsiyyətlərin-Yaqub İsmayılov, Ənvər Nəzərli, İmamverdi Əbilov, Tofiq Hacıyev, Nizaməddin Şəmsizadə, Qəzənfər Kazımov, Kamal Hacıyevin həyat və yaradıcılıq-

larının araşdırılmasına və təbliğinə həsr olunmuşdur. Məqalələr təsadüfən, maraq xatirinə yazılmamışdır. Çünki Əli Rza Xələfli sadə, təbii, yüksək elmi-mədəni səviyyəli ziyalıdır, xalq adamıdır, sözün geniş mənasında vətənpərvərdir. O, insanlara, elə də ziyalılara qayğı göstərməyi, baş redaktor olduğu "Kredo" qəzetində onların yaradıcı fəaliyyətlərini qiymətləndirməyi özünün mənəvi borcu bilir.

Əli Rza Xələfli sıx-sıx bədii yaradıcılıqdan, onun ideya-estetikliyindən, fərdi bədii üslubdan, sənətkarın yazı laboratoriyasından, Qarabağ mövzusunun hər gün, hər saat yeni, duz-çörək qədər aktual səciyyə almasından danışır. Ədəbi-publisist əsərlərinin mövzusundan asılı olmayaraq, onları yüksək bədii dildə, məcazlar silsiləsindən gen-bol istifadə ilə, şairanə yazır. Onun bir sıra publisist yazıları, bu yazıların detal, lövhə, mənzərə və haşiyələri lirik şeirə bənzəyir. Onun məqalələri, istisnasız lirik, emosional, oxucunu daxildən titrədən mülahizələrlə başlayır:

*"İnsan kiçik Tanrıdır, insanı anlayan Tanrını anlar. Dərk etmə yollarında irəliləmə də Allahını bilməyin yoludur. Dərk etmək insanın Allah qarşısında borcudur. Dərk etmək insana özünü tanıtmaqdır. Özünü bilmək bütün bilgilərin təməlidir".*

*"Axtardığın söz, sonuladığın söz, gözə nur verən, dilə ahəng gətirən söz gələndə ruhun qanad çalır, ürəyin qürurla döyünür, ayağın yerdə olsa da, başını göylərdə bilirsən".*

*"Yerlə göyün arasında İlahi bir nizam var. Nə qədər ki, nizam var və nə qədər ki, nizam qorunacaq, demək bizim Yer adlı evimiz də qorunacaq. Mənə elə gəlir ki, poeziya Yerlə Göy arasındakı həmin İlahi nizamın sözlə ifadəsidir. Sənət Yerlə Göy arasındakı məsafənin harmoniyasını qorumağa xidmət edir, həm özü bu ahəngə tabe olur, həm də, eyni zamanda, həmin ahəngi qoruyur".* Bu ədəbi-fəlsəfi parçalar Əli Rza Xələflinin məqalələrindən ("Zəlimxan Yaqub-Azərdən Turanacan. Azər Turanın "Əzəl-axır dünya

türkün dünyası..."na üvertura", "Azər Turan: Ölməz ruhun axtarışında; "Yerlə Göyün arasında") götürülmüşdür.

Müəyyən bir mövzudan yazmaq istəyəndə Əli Rza Xələflinin şair xəyalı, şair müdrikliyi qanadlanır, bir yerdə qərar tutmur. Əsas niyyətə keçənə qədər özünü "fəlsəfi hikmətlər dünyasına" salır; həyati, ibrətamiz, hər kəsdə canlı maraq doğura bilən fikirlər söyləyir. Ədibin özü "həmişə belə olur. Əvvəl mənə çox yaxın olan, doğma olan mövzu, gəlib düşüncələrimin, fikir dünyamın qapısını döyür"-deyir.

"Qəribliyin coğrafiyası, el-oba və Vətən həsrəti Əli Rza Xələflinin "fikir dünyasının qapısını" ən çox döyən mövzulardandır. Çünki qürbətdə yaşayanlar "şairlərdirlər, rəssamlardırlar, sənət dünyamızın incə telləri, ürəkləridir". Şeirlərini "Heydərbabaya salam" istiqamətində yazan isə:

Bilməz idim Vətən nədi, el nədi,

Vətən dərdi ürəyimi göynədi-deyənlərdir, acı şair taleli Qərib Aşkarilərdir.

Əli Rza Xələflinin yaxşı tanıdığı, haqqında "Kredo" qəzetində ilk dəfə ətraflı məlumat verdiyi Qərib Aşkari ("Gözlə məni körpüdə") Xaçmazda, Xaçmazın adı ironiya doğuran Alekseyevka kəndində anadan olmuşdur. O, ayıq və sərbəst böyümüş, atası xalqa, vətənə sevgini onun mənəviyyatına hopdurmuşdur. Şairin heca vəznli şeirlərində, Əli Rza Xələflinin sərrast müşahidəsində, nisgil, kədər, el-oba həsrəti yaşayır. Müdrik bir kişinin çətinliklə qurduğu yurddan ayrıla bilmir, sıxılır, Alekseyevka ona qürbət görünür:

***Durub qızıl qəfəsdə,***
***Yollara baxı bülbül.***
***Özünü barmaqlığa,***
***Ha çırpı, caxı bülbül.***

Mətləbi açanda, mühakimə yürüdəndə, fikir söyləyəndə Əli Rza Xələfli bədii faktları zövqlə, amalı şərtləndirən tərzdə seçir

və sistemləşdirir. Qərib Aşkarini tanıtmaq, əsərlərini yaymaq, eyni zamanda, bu şairdə Azərbaycana daha dərin maraq oyatmağa çalışır. O, özündə çox güclü formalaşan vətənpərvərlik pafosunu Qərib Aşkaridə toplu halında tapır və fərəhlənir:

***Dəyibdir ürəyimə,***
***Fələyin oxu, bülbül.***
***Ruhuma səbət kimi,***
***Nəğməni toxu, bülbül.***

Qeyri-adilik, qəribəlik, özündən və mövqeyindən razılıq, süni sadəlik və təbiilik Əli Rza Xələflinin şair-publisist təbiətinə yaddır. O, heç zaman, heç yerdə, rəsmi görüş və toplantılarda belə hərəkətini, meyil və münasibətini, ahəngini, canlı ifadə tərzini dəyişmir. Göründüyü kimi yox, olduğu kimi görünür. Çünki təbiətən sadədir, təbiilik onun insani mahiyyətindədir. İnsani xislətində və psixologiyasındadır. Bilirəm, bu şair hər gün, hər saat ancaq müsahibələr vermir, bədii əsərlər yazmır, həm də müxtəlif səpkili bədii və elmi-nəzəri ədəbiyyatla özünü zənginləşdirir. Düzdür, imkan tapanda, təklənəndə düşüncəsində, xəyalında, bir sənətkarın mənəvi dünyasının genişliyində, daxili pıçıltılarla həyatın müxtəlifliyini və insanın özünəməxsusluğunu düşünür, pıçıltılarla mənəvi-ruhi aləmində mövzu seçir, pıçıltılarla onu fərdi yazı laboratoriyasına gətirib-gətirməməyi müəyyənləşdirir. Ona görə ki, böyük ədəbiyyata təbii istedadla, böyük etiqadla gələn bu şair oxucularla "ovqatın dili ilə danışır: "Nəyisə yazmağı qabaqcadan planlaşdırmır həmişə ovqat gözləyir" "və onun gətirdiyi əhvali-ruhiyyənin ətəyindən yapışır". Türk oğlu türkün gün çırtmamış atlanması, Uzaq Şərqdən üzü bəri gəlməsi, digər müdrik bir ixtiyarın heydən düşmüş atı Muğan çöllərinə buraxması, qılınc əvəzi zoğal ağacından düzəlmiş çəliyə söykənməsi, onu yağı zərbəsinə qalxan bilməsi dərin sosial məna daşıyır, Əli Rza Xələflidə hərarətli ovqat oyadır. Çünki atlı-Çingiz Aytmatov bu milli mündəricəli publisist yazı da ("Sevincin

və kədərin arasında elegiya, yaxud Çingiz Aytmatov və atamın türkəş çəliyi") qəhrəmanlıq, müdriklik və xalq təfəkkürü rəmzi-simvoludur. Atını çöllərə ötürən Qarabağ qaçqını-Əli Rza Xələflinin atası isə dözümün, zoğal ağacı bərklik və sınmazlığın, inamın və etiqadın timsalıdır.

"Sevincin və kədərin arasında elegiya, yaxud Çingiz Aytmatov və atamın türkəş çəliyi"ndə Çingiz Aytmatov qədim türkün düşüncə və idrak tərzini qoruyur, onu yeni inkişaf məcrasına salır. Böyük üçlüyün- "atın, qılıncın və qalxanın" birlik və qüdrətinə tapınır, belə bütövlükdən ilhamlanır, öz taleyini-türkün taleyini yazır.

Əli Rza Xələflinin tarixi reallığı tamamlayan məntiqində dünyanın ən qüdrətli sənətkarlarından biri-Çingiz Aytmatov bilir ki, "əvvəl Çingiz xan, sonra Batı, daha sonra Teymurləng. Onlardan əvvəl Babək oyanmışdı. Babək Azərbaycan tarixinin əksinə çərxini döndərə bilmişdi. O, Azərbaycanın ərəbləşmə siyasətinin belini sındırdı və bununla da Uzaq Şərqdən üzü bəri gələn atlının yolunu açdı. O, atlı... qolu bağlı dilin-türk dilinin zəncirlərini qırdı və Azərbaycan ərazisində çox qədimlərdən bəri özünü hifz edib gələ bilmiş dilin hakimiyyətinə rəvac verdi-türk dilinin ədəbi növ və janrların hamısında söz-təsvir ilkin şərtdir, bədii-estetik qanunauyğunluqdur. Aydınlıq, yığcamlıq, lakoniklik, ifadəlilik, böyük fəlsəfi mətləbləri, zərif hiss və duyğuları sözə qənaətlə ifadə bədii qanunauyğunluğu tələblərindəndir. Əli Rza Xələflinin etiqadında bədii mədəniyyət, eyni zamanda, bədii hərəkətdir, bədii inkişafdır, bədii təsirdir, varlığın gerçəkliyin özünə bənzər, təkrarsız bədii modelidir, zaman-zaman yeni çalarlar, yeni rənglər və boyalar alan, yeni ədəbi meyillərlə, istiqamət və cərəyanlarla zənginləşən yaradıcılıq sahəsidir. Bunları Əli Rza Xələfli həmişə nəzərdə tutur, milli inkişafda, şaxələri, layları, əlavə ehtiyat mənbələri ilə öyrənir. Doğrudur, onun dili zərif, oynaq, ifadəli, rəvan, tez təsir oyadan bədii dildir. An-

caq xalqın adət-ənənəsini, məişətini yaxşı bilən bu ədib şeir və poemalarında, publisistikasında canlı danışıq dilinə, dialekt və şivələrə etinasız qalmır, bunlardan sıx-sıx, bədii ustalıqla istifadə edir. Fikir söyləyəndə, mühakimə yürüdəndə, söyləməni aparanda, bir qayda olaraq, sözün qədir-qiymətini bilir, onu sıxır, mətləbi uzatmır, təsvirin bacarıqla, tez-tez dəyişir. Bu üsuldan "Sevincin və kədərin astanasında elegiya, yaxud Çingiz Aytmatov və atamın türkəş çəliyi" əsərində çox və məharətlə istifadə olunur.

Təsvirin yönü dəyişəndə çəlik obrazlaşır, bizi xəyalən özünün qədim məkanına-Qarabağın Türkəş dərəsindəki meşələrə, Azərbaycanın zənginliyinə aparır. Rəfiq Özdəkin şərhində "Türkəşlər göytürklərin "On-ox qolundan idilər. Əsl adları Turqış (türkeş)dir" "VI əsrin əvvəllərində türkeşlər müstəqil dövlət qurmuş, ancaq bölünmələr və çəkişmələr üzündən bu dövlət cəmi 24 il yaşamışdır. Sonralar onların başlarına gələn müsibətlər "On-ox"ları bütün türk aləminə səpələmişdir. Yuxarı Dağlıq Qarabağın ərazisində olan Türkəş toponiminin kökü göytürklərin "On-ox" qolundan ayrılmış Türkeş tayfaları ilə bağlıdır" (Əli Rza Xələfli "Baş daşımın yazıları", Bakı, 1998, səh.212).

"Sevinc və kədərin arasında elegiya, yaxud Çingiz Aytmatov və atamın türkəş çəliyi"ndə Azərbaycan sevincin və kədərin arasındadır. Keçmişdən gələn, varlığımızı qoruyan mədəniyyət XX əsrin o tayında qalmışdır. Yeni fikir, yeni təfəkkür mənəviyyata, düşüncə məişətə axır.

Milli düşüncəli, böyük vətənpərvər heysiyyətli bir sənətkarın-Əli Rza Xələflinin axtarışlarında türk bütün dövrlərdə türk-qəhrəman olmuş, əliyalın qılınclı Atillaları, Babək, Koroğlu, Çingizxan və Teymurləngləri yetişdirmişdir. Onlar sərhədlər aşmış, sarayları təməlindən silkələmiş, fituhatlar yaratmışlar. Ancaq "dünyanın axırına çata bilməmiş"lər. Zəmanəmizdə güclü bir sənətkar, deyək ki, Çingiz Aytmatov sözlə "dünyanı fəth" edir.

Xalqları fəlakətə aparanların, ölümlərinə fərman verənlərin sinələrini qələmi ilə parçalayır. Xalqların yaddaşlarını, milli düşüncələrini unutdurmaq siyasətlərinə qarşı "Manqurt" fəlsəfəsi yaradır.

Əli Rza Xələflinin fəlsəfi-estetik düşüncələrində söz, lətafətli bir kəlam qılıncdan da, yeri məhvərindən silkələyə bilən mərmidən də güclüdür, daha kəsərlidir. Qiymətli, hikmətli söz sərhəd tanımır, sədləri qırır, asanlıqla məşhuri cahan olur. Buna görə də "il var bir günə dəyməz, gün var min aya dəyər"-poetik dəyərin Çingiz Aytmatov dünyasında əks-sədası "Əsrə bərabər gün"ə çevrildi. İslam fəlsəfəsinə görə, qiyamətin qeyri-müəyyən vaxtı var. Amma Çingiz Aytmatov qiyamətin vaxtını, gününü və saatını göstərdi. Harda, nə vaxt haqsız haqlının boğazından yapışır, harda zalım məzluma hökm edir, harda ədalət ayaqlar altında tapdalanırsa, orda qiyamət var... və "Qiyamət" romanı yaranır: Qoca türkün-Çingiz Aytmatovun qələminin kəsəri xeyli artır. Əli Rza Xələflinin atasının türkəş çəliyi ümumiləşir. Çingiz Aytmatov da Türkəş çəliyinin əzəmət və vüqarını daşıyır.

Çingiz Aymatovun əsərlərinə "milli vüqarımız Babəkin şəxsiyyətinə maraq göstərən Ceyhun dördüncü sinifdə oxuyur. Dünyaya Bakıda göz açmışdır. Bu uşaq Qarabağı görməyib, amma Qarabağ nisgillidir, Qarabat həsrətlidir. Qarabağı görmək, gəzmək, nə bilim, bəlkə də gələcəkdə Qarabağda yurd salmaq, Qarabağın ən adlı-sanlı vətəndaşı olmaq arzusundadır. Bildiyim bir şeydir, Ceyhun bacarıqlı, mütaliəni sevən şagirddir. Onu da bilirəm ki, Ceyhun ara-sıra babası Əli Rza Xələflini "imtahana" çəkir, onda təzə ovqat yaradır: Ceyhun "Oxu"dan verilmiş tapşırığa hazırlaşırdı. Nə qədər fikirli olsam da oxuduğu mətnin Babək haqqında "olması" mənim də diqqətimi çəkdi. Mətni bir neçə dəfə oxuduqdan sonra kitabı örtüb öz-özünə danışmağa başladı. Lap sonuncu cümlələri-Babək vətən uğrunda vuruşurdu. O, yadelliləri bizim torpaqlarımızdan qovurdu və 22

il bu mübarizə davam etdi-şeir kimi, xüsusi həyəcanla-dedi. Sonra da üzünü mənə tutub soruşdu:

-Baba, əgər Babək sağ olsaydı, indi biz Qarabağı ala bilərdikmi?

Mən Ceyhuna yox deyə bilməzdim. Dedim hə, mənim balam. Qarabağ Babək kimi oğullar gözləyir. Dostunun dəyərli hədiyyəsi- kaset Odlar Yurdunun yana-yana yazan, ancaq yanıb tükənməyən, alovu sönməyən övladında- Əli Rza Xələflidə güclü ovqat-əhvali-ruhiyyə yaradır. O, "Babək- milli qürur qaynağı" adlı məqalədə bizi sanki 1200 il əvvəl Bəzz qalasında baş verən hadisələr axarına salır: "Cənubi Azərbaycan mənzərələri, Bəzzin ətəkləri, sal qayalar, sıx kolluqlar" könlü riqqətə gətirir, köksü həyəcanlandırır. Sərt qayalarda döyüşüb "qanın axıtmış Azərbaycan cəngavərlərini daşa dönmüş obrazları, boz, qəzəbli sifətləri, düşmənə nifrətli baxışları" görünür, vətənə vətən sevgisi yenidən güclənir.

"Babək-milli qürur qaynağı"nda hadisə hadisəyə calanır; Bəzz qalasına- tarixi qan yaddaşına, saz, söz, şeir və inam təntənəsinə gələnlərin düşüncələrində Babək əzəmətli görkəm alır: "Çox gur, açıq və aydın" səsli, hündürboy, tökməbədən bir gənc mikrofondan üzünü yüzlərlə insana tutub-biz Babək bayramına gəlmişik, biz Bəzzi ziyarətə gəlmişik, biz poeziya bayramına... söyləyirdi".

Məqalə tamamlanmağa istiqamətlənəndə Əli Rza Xələfli elmi əsərlərdən tutarlı faktlar gətirir, Bəzz haqqında mənalı söhbəti açır, Babəki milli qürur və milli qəhrəman kimi səciyyələndirir.

Əli Rza Xələfli ovqatca nisgil, həsrət, intizar və çırpıntılar arasında yaşayan naşir-jurnalistdir, şair-publisistdir, humanist şəxsiyyət-vətəndaşdır. O, ömrünü yalnız şeirlə deyil, həm də ümumiyyətlə yazmaqla, fikri mənəvi aləmində nəyisə, kimisə təhlil etmək, dəyərldəndirməklə mənalandırır. Bəlkə yanılıram,

birdən mənə elə gəlir ki, bu xalq adamını-Əli Rza Xələflinin ədəbiyyat, incəsənət, elm, maarif və mədəniyyət aləmində sevmədiyi, bəyənmədiyi sənətkar yoxdur. Bunlar onun bədii mədəniyyət və incəsənətinə bir ölçülü, bir yönlü yanaşmasından deyil, bir şair ürəyinin kövrəklik və genişliyindən, mahiyyəti humanist hisslərdən, söz sənətində adi qüsurları görməyə həvəs göstərməməsindən irəli gəlir. “Səsin üç rəngi” məqaləsi Ağalar Bayramovun sənəti, yaradıcılıq imkanlarının genişliyi, bənzərsizliyi haqqında səmimi şair düşüncələridir, ovqatla yazılmışdır.

“Səsin üç rəngi” əhatəlidir, yeni fikirlərlə doludur, insanları düşündürə, istiqamətləndirə bilmək səciyyəlidir. Deyəsən məqalə Ağalar Bayramovu lap yaxından dinləyə-dinləyə, natiq-aktyorun ahəngini, ifadə tərzini, sözü-sözə, cümləni-cümləyə calayanda musiqililiyi qoruyub-qoruya bilməməsini təhlil edə-edə yüksək ovqat-əhvali-ruhiyyə, yüksək sevgi və zövqlə yazılmışdır. Bu səbəbdən də məqaləni oxuyanda elə bil Ağalar Bayramov əzəməti ilə görünür, səsi eşidilir, insanı ovsunlayır, özü ilə səhnəyə aparır. Gözlərini gözlərimizə zilləyib birdən hayqırır, birdən kədərli, sentimental görkəm alır, asta-asta danışır, birdən də daxilindən ehtiras püskürür, bizi döyüşə-Qarabağa səsləyir.

Ağalar Bayramovun səsi səsdi, ahəngi ahəng. Sənətkarın səhnədə səslə sözü, səslə münasibət və hərəkəti, ahənglə üzünün cizgilərinin vəhdətləşdirməsi təsiridir. Fikri asan çatdırmaq üsulu və bacarığıdı. Ağalar Bayramovun “səsi ayrıca bir bələdçidir”. Onun “səsindən yapışıb ən qarışıq kələfi belə açmaq olar. Onun səsini eşidəndə fikir kələfləri öz-özünə çözülür. Səs, duyğu ən dərin qatlarda yatan mənanı üzü çıxardır. Ağaların səsi yanan şamdır. Bu səs- söz adlı insan öz cismini öz səsinin odunda əridir”. Bütün bunlar-Ağalar Bayramov haqqında Əli Rza Xələflinin fikir və düşüncələri etiraz doğurmur. Di gəl ki, “Səsin üç rəngi” adlı məqalədə coşğun bir şairin aşıb-daşan emosiyaları, qaynar hissiyyatı, bəzən onun publisist məntiqini üstələyir. Əli Rza

Xələflinin Ağalar Bayramov sənətinə, natiqliyinə heyranlıq və aludəçiliyi aşkar görünür. Bunlar isə məqaləyə, onun istiqamətinə, Əli Rza Xələflinin səmimi səciyyələndirmə üsuluna əsaslı təsir göstərilir. Təhlildə Ağalar Bayramov "təpədən-dırnağa şair kimi görünür". Onun damarlarından qan əvəzinə misralar çağlayır. Çünki bu natiq-aktyor Azərbaycan dilinin zənginliyi, çalar rəngarəngliyi, musiqililiyilə duyur; səhnədə sözə və cümləyə gözəllikdən gözəllik ahəngi, gözəllik ifadə tərzi biçir. "İstər poetik, istərsə də publisistik çıxışlarında mənanı üzə çıxaran ifadə tərzlərini yerli-yerində, üz cizgiləri ilə, əl-qol hərəkətlərilə çox dəqiq nizamlayır"... Onun "dilindən çıxan anda söz obraz yaradır, canlanır, söz nəfəs alır, söz ağrıyır, söz əzab çəkir, söz Ağalar Bayramovun dilindən çıxıb adamların arasına yeriyir, insanların cərgəsində dayanır".

Ağalar Bayramov sözü dərindən, daxili ahəngi ilə yaşayır, səsdə, sözdə, ifadə tərzində rəng isə boya çalarları yaradır, mənanı dinləyicilərə ustalıqla çatdırır, onları sözlə bərabər istədəyi yönə istiqamətləndirir.

Elm sənət aləmində sevilmək, dəyərləndirilmək, alqışlamaq həmişə zirvədə qalmaq, həsəd və qibtə hissi doğurmaq demək deyildir. Peşəkar alim də, bədii söz ustası da öncə özünü hərtərəfli görməyi, özü-öz yaradıcılığını saf-çürük etməyi, düzgün qiymətləndirməyi bacarmalıdır. O, təkcə yeni əsərlər yazmaq, elmi və ədəbi mühiti təsirdə saxlamaq haqqında fikirləşməlidir. Bunlarla yanaşı, özü-öz elmi, ədəbi-mədəni artımının qayğısına qalmalıdır, aramsız elmi və bədii əsərlər oxumalıdır, mənəvi-psixoloji aləmini zənginləşdirməlidir; özü-özünün sərt, barışmaz tənqidçisi olmalıdır. Belə yüksək elmi keyfiyyət və məziyyətləri Əli Rza Xələfli "Yaxşıların axıra qalmışı, yaxud professor Teymur Əhmədov haqqında düşüncələr" məqaləsində görmüş və ümumiləşdirmişdir. Məqalə səmimidən də səmimidir, orijinaldan da orijinaldır; Teymur Əhmədovun sadə və təbii vətəndaş şəxsiyyə-

tinə, yetkin alim-tədqiqatçı, publisist-jurnalist və tərtibatçı məndəricəsinə yaraşan pafosla, şairənə yazılmışdır. Teymur Əhmədov şeir yazmır, şair deyildir, ancaq təbiəti, şəxsiyyəti, oturub-duruşu, söz-söhbəti, davranış və münasibəti zərifdir, şairanədir.

Deyəsən, Teymur Əhmədov gərgin fəaliyyət göstərmək, özünü mətbuata, çoxcəhətli elmi yaradıcılığa həsr etmək üçün yaranmışdır. O, kitabxanalarda, arxivlərdə, ayrı-ayrı sənətkarın fərdi yazı laboratoriyasında işlədikcə ucalır, Azərbaycan bədii mədəniyyətinin müxtəlif dövrləri haqqında yeni, eşitmədiyimiz söz deyir, fikirlər söyləyir. "Yaxşıların axıra qalmışı və yaxud professor Teymur Əhmədov haqqında düşüncələr" məqaləsində Əli Rza Xələflinin fikri dəqiq və sərrastdır: "Məndə belə bir inam var ki, Teymur əmi kimi adamlar lap 175 il bundan belə də yaşamalı olsalar, yenə böyüyə-böyüyə gedəcəklər, yenə ucala-ucala qalxacaqlar. Teymur əminin qurduğu mənəviyyat sarayının özülləri çox qüdrətlidir. Çünki o sarayın özüllərində ki, kərpiclər onun mənsub olduğu xalqın ən dəyərli keyfiyyətlərindən yoğrulub".

İşgüzarlığına, mənəviyyat və xarakterinə dərindən bələd olanlar yaxşı bilirlər ki, ən böyük elmi fərəhi Teymur Əhmədov arxivlərdə işləyəndə, əlyazmalarını saf-çürük edəndə tapır. Əli Rza Xələfli doğru buyurur, professor Teymur Əhmədov ömrünü, yaşayışını, yaradıcılığını elmi tapıntılarla mənalandırır.

Ə.R. Xələfli çox maraqlı, çox orijinal, özünün məntiqinə inanan ədəbi şəxsiyyətdir. O, nə şeirlər və poemalar, nə ədəbi-tənqidi məqalələr, nə də publisistik əsərlər yazanda heç kimin təsirinə düşmür. Bədii əsərlərini də publisitikasını da inamla yazır. Fikirlərini və təəssüratlarını inamla söyləyir. Bədii əsərlərdən danışanda təhlili sərbəst, öz fərdi üslubuna uyğun aparır. O, görkəmli bir alimin-Teymur Əhmədovun yaradıcılığını istəklə, daxili elmi tələblə öyrənmiş, onun haqqında yalnız öz qiymətli sözünü demişdir: "Teymur əmi nəhəng bir institutdur. Öz şəxsiy-

yəti ilə elm ocağıdır. 1954-cü ildən bəri yüzlərlə elmi məqalənin, onlarca kitabın, tədqiqat əsərlərinin təkcə siyahısı ayrıca bir kitabdır".

Müasir ədəbi prosesdən, qələm dostlarının yaradıcılığından, onların fərdiyyətindən, ayrı-ayrı əsərlərindən söhbət açanda Ə.R.Xələfli daha sərbəst, daha hünərli, daha kamil görünür: gah məzmunlu əsəri qiymətləndirməkdən fərəh tapan hərarətli şair publisistə, gah da geniş mündəricəli nasir-tənqidçiyə oxşayır. Ümumiləşdirici mühakimələr yürüdür, əhatəli müqayisələr aparır. Çox hallarda fikri boyalar, epitetlər, sinonimlər ümumiyyətlə, məcazlar çoxluğu ilə, bir qədər də bədii, şairanə açır. Bunlar isə ədibi niyyətindən yayındırmır. Sadəcə bu, Ə.R.Xələfli yaradıcılığında fərdi üslubu səciyyə daşıyan orijinallıq, təkrarsızlıqdır. Buna görə də "Zəlimxan Yaqub Azərdən Turanacan. Azər Turanın "Əzəl-axır dünya türkün dünyası..."na üvertura məqaləsində böyük bir sənətkarın Zəlimxan Yaqubun söz sənətinə, belə demək mümkünsə, nərilti-gürultuyla gəlməsi ədəbi mühitdə öz yerini və mövqeyini çox tez müəyyənləşdirilməsi görünür.

Fəaliyyətinin ilk illərində tarixin dərin qatlarından süzülüb gələn ədəbi təcrübə və ənənələrin ən zəruri keyfiyyətlərini inamla, "damla-damla, kəlmə-kəlmə, inci-inci ruhuna hopdurur", sözə ruh, hərarət, qol-qanad verir. Sənət aləminə Zəlimxan Yaqubu qaynar nəfəs, müdrik təhkiyə aparmaq qüdrəti özünə və məntiqinə inam, bir də Dədə Qorquddan aldığı, Nizamidən götürdüyü, Füzulidən öyrəndiyi, Yunis İmrədən daddığı, Qurbanidən umduğu, Abbas Tufarqanlıdan, Xəstə Qasımdan, Sarı Aşıqdan, Vaqifdən Vurğunacan, Caviddən Cavadacan və bir sözlə, Azərdən Turanacan bu mənəviyyat dünyasından əks etdikləri ilə dolu" gəlir.

Zəlimxan Yaqub milli, novator, xəlqi, təkrarsız fərdi bədii üslubdur, yaradıcılığı, məzmun forma axtarışlırı fasiləsiz hərəkətdə olan yeni mündəricəli sənətkardır. Azərbaycan şeirində ta-

pıntıdır. Tanrı payıdır, Allah vergisidir, millətin milli səsidir, hamının şairi, hamının Zəlimxanıdır.

Ə. R.Xələfli Zəlimxan Yaqubu bütöv, daxili mahiyyəti ilə duyur, onun qeyri-adi istedadından, milli- xəlqi poezisiyasından, yaradıcılıq axtarışlarının yalnız novator səciyyə daşımasından qısqanclıq nə olduğunu ağlına və düşüncəsinə gətirmədən danışır. Və "Zəlimxan sənəti ucalığa qalxdıqca əlçatmaz olur". Bu şairin "nitqi o qədər pak, o qədər təmiz və qanadlı duyğularla süslənir ki, o başımızın üstündən keçir. Bizi od kimi qarsıb keçir, göylərin üzünə yayılır"- deyir.

Zəlimxan Yaqub yaradıcılığının ən yaxşı bilicilərindən biri-Ə. R.Xələfli doğru söyləyir: *"Xalqın şairi-Zəlimxan Yaqub geniş coğrafi miqyaslı ədibdir. Onun əsərləri yayılır, oxunmağa, öyrənilməyə ehtiyac duyulur, çünki bu sənətkar hamıda-bütün insanlarda, xüsusən türk dünyasında maraq doğuran, onları mənən-fikrən narahat edən həyatı hadisələrdən yazır, coşğun, gurdan da-gur təbii istedadla xırda bir əhvalatı daxildən nurlandırır, onu qaldırır, böyüdür, əlvan boyalarla ümumiləşdirir. Zəlimxan Yaqubun "poeziyasının əhatə dairəsində olanda insanda qəribə inam yaranır, həyatın əbədiliyinə, sonsuzluğuna inam, insanın müqəddəsliyinə inam-Zəlimxan Yaqubun bütün poeziyası sevgi və duruluq poeziyasıdır. Ləkəsizlik poeziyasıdır, daim çalxalanan, daim öz içindən qaynayan, həmişə gücü özündə görən, hansı mənəvi əsaslar üzərində bərqərar olduğunu bilən və elə bu mənəvi əsaslardan güc alan poeziyadır":*

***Məni vətən adlı bu taya tapşır,***
***Bir tay tapılarmı, bu taya tapşır.***
***Öləndə o taya, bu taya tapşır,***
***Bu Təbriz könlümü, Gəncə könlümü!***

Ə.R.Xələfli məntiqli, etiqadlı, bədii faktlardan düzgün nəticə çıxara bilən güclü bədii söz ustasıdır. O, "Zəlimxan Yaqubun poeziyasında olan nəfəsi daha çox pafos və patetika ilə bağlayır-

lar. Söhbət qərəzkarlıqdan və birmənalı şəkildə deyirəm ki, nadanlardan getmir. Hərcənd ki, belələri də az deyil. Şübhəsiz, Zəlimxan Yaqubun poeziyasında pafos və patetika var. Ancaq unutmaq olmaz ki, bu pafosun və patetikanın əsasında sağlam mənəvi dəyərlər və ehtiras dayanır”- deyir və qətiyyən səhv etmir.

Deyəsən, Zəlimxan Yaqub poeziyasının yüksək şeiriyyətindən, bu poeziyanın ideya-bədii kamilliyindən ya danışmaq istəməyənlər, ya da danışa bilməyənlər önə pafos və patetika anlayışlarını çəkirlər. Nəzərdə tutmurlar ki, poetik əsər, Belinski doğru deyir, *“sənətkarın qəlbinə hakim olan qüdrətli fikirlərin məhsuludur. Tapılan, ya seçilən fikir bütün rüşeymləri, bütün əlamətləri ilə yaşanılır, mənəviyyata, hisslərə və duyğulara hopdurulur. Çünki “İncəsənət mücərrəd fəlsəfi və xüsusən düşünülmüş ideyaları yaxına buraxmır: o yalnız poetik ideyaları qəbul edir; poetik ideyalar isə sillogizm, ehkam və qayda deyil, canlı ehtirasdır, pafosdur.* Pafos nədir?... Yaradıcılıq sənətkardan əmək tələb edir; sənətkar yeni əsər rüşeyminin onun qəlbində necə kök salacağını özü də bilmir; ana uşağı öz bətnində necə bəsləyib böyüdürsə, sənətkar da poetik fikrin toxumunu qəlbində bu cür bəsləyib böyüdür: yaradıcılıq prosesi uşaq doğmaq prosesinə bənzəyir və bu fiziki amalın, aydındır ki, öz mənəvi ağrıları vardır. Buna görədir ki, şair əmək sərf etmək və yaratmaq kimi bir igidlik göstərmək qərarına gəlirsə, deməli, onu böyük bir qüvvə, yenilməz bir ehtiras hərəkətə gətirib buna sövq edir. Bu qüvvə, bu ehtiras-pafosdur. Pafosda şair ideyaya elə ehtirasla məftun olur ki, guya gözəl və canlı bir varlığa vurulubdur və bu ideyanı öz zəkası, düşüncəsi, hissi və qəlbinin hər hansı təkcə bir qabiliyyəti ilə deyil, öz mənəvi varlığının bütün dolğunluğu və bütövlüyü ilə qavrayır,-buna görə də ideya onun əsərində... canlı bir varlıq kimi meydana çıxır, bu varlıqda formanın canlı gözəlliyi onda ilahi bir ideya yaşadığına şəhadət edir... burada ideya ilə forma

arasında sərhəd olmur, həm ideya, həm də forma birləşərək bütöv və vahid üzvi varlıq əmələ gətirir" (V.Q.Belinski).

Bədii pafos faktdadır, hadisə və əhvalatdadır, həyatın real və canlı təsvirindədir, sənətkarın ideya inamını dadır, səciyyəsini qeyri-səciyyəvidən ayıra bilməsindədir. Buna görə də Hegel pafosu varlığı dərindən duymaqdan və təsirlənməkdən, onu hərəkətdə qiymətləndirməkdən, insanın hiss və duyğunun, mənəvi psixoloji varlığının ifadəsindən ayırmırdı. Çünki pafos da zamanı ruhu və hərəkətin insanın hissi və həvəsi, arzu və düşüncəsi yaşayır.

Bütün bunlardan sonra ustadın-Zəlimxan Yaqubun *"xeyirxahları" bilməlidirlər ki, "pafos həmişə insanın qəlbində ideya ilə alışıb yanan və həmişə ideyaya doğru can atan ehtirasdır, deməli, sırf ruhi, mənəvi, ilahi ehtirasdır. İdeyanın zehin tərəfindən, sadəcə olaraq, idrak edilməsini pafos bu ideyaya, məhəbbətə, qızğın və coşğun həvəslə dolu bir məhəbbətə çevirir. Fəlsəfədə ideya cansızdır, pafos vasitəsi ilə ideya isə, gerçək fakta, canlı varlığa çevrilir... Beləliklə, hər bir poetik əsər pafosun məhsulu olmalıdır. Pafos nəzərə alınmazsa, şairi əlinə qələm almağa nə vadar etdiyini və ona bəzən çox böyük əsəri başlamağa, bu əsəri qurtarmağa nəyin qüvvə və imkan verdiyini anlamaq olmaz"* (N.Q.Belinski).

Əli Rza Xələfli özünü yaxşı, dərindən dərk edən, həmişə mənəviyyatını bütövləşdirməyə çalışan mədəni, ləngərli ziyalıdır, xalq adamıdır. O, sənətlə, bədii sözlə yaşayır, gücünü, istedadını onun inkişafına yönəldir. Bədii əsərlərə yeni, müasir istəklə yanaşır. Dəyərli bir əsər çap olunanda, ciddi maraq doğuranda şair-vətəndaş "mən"ində qürur duyur, ona etinasız qalmır. Belə əsərləri çox nüfuzlu bir qəzet-"Kredo" vasitəsi ilə yayılmasına çalışır, özü də onların haqqında qiymətli fikirlər söyləyir, mühakimələr yürüdür. Onun bu səpkili yazıları elmi diqqətdən yayınmır, təsirsiz qalmır, maraq oyadır. Buna görə də o, gənc tədqiqatçı Azər Turanın kitabı haqqında iki məqalə -üvertura (Zə-

limxan Yaqub-Azərdən Turanacan. Azər Turanın "Əzəl axır dünya türkün dünyası..."na üvertura", "Azər Turan: Ölməz ruhun axtarışında, yaxud sözdən gəlib sözə gedirik") yazmışdır. Məqalələrdə Zəlimxan ədəbi şəxsiyyətinə, yaradıcı mövqeyinə, poeziyasının bədii-poetik istiqamətinə tutumlu yer ayrılmışdır. Lakin bunlar Ə. R.Xələflinin Azər Turana və onun "Əzəl-axır dünya türkün dünyası..." adlı ciddi tədqiqatından diqqəti yayındırmır. Çünki "Əzəl-axır dünya türkün dünyası..."nda mövzu konkretdir: Zəlimxan Yaqub yaradıcılığının yeni istiqamətdə tədqiqi, araşdırılması və öyrənilməsidir, təhlil prosesində bu qüdrətli sənətkarın fərdi orijinal üsulu olmasının əsaslandırılmasıdır. Zəlimxan Yaqub ağız ədəbiyyatının, aşıq, klassik və müasir poeziyanın mükəmməl bilicilərindəndir. Ancaq heç zaman təsirlə şeir yazmır, ədəbi təcrübə və ənənəni yaradıcı mənimsəyir, öz təkrarsız yolunu qoruyur, onu şeirdən-şeirə zənginləşdirir. Azər Turanın belə bir ədibin yaradıcılığını tədqiq etməsi təbiidir, qanuna uyğunluqdur. "Azər Turanı "Əzəl-axır dünya türkün dünyası..." kitabını yazmağa vadar edən, məcbur edən, səfərbər edən Zəlimxan şeirindəki Zəlimxan poeziyasındakı qüdrətdir, Zəlimxan sənətindəki antik dünyadan üzü bəri səhralardan yel kimi keçib gələn, qılınc meşələrilə, ox yağışıyla göyün üzünü tutan türk mənəviyyatıdır, türk ruhudur və türk harayıdır".

"Azər Turan bu kitabı yazmaya bilməzdi. Çünki o axtardığını, aradığını və arzuladığını Zəlimxan şeiriyyətində görür. Azər Turan ata yurdu bildiyi Turan ellərinin, Orxon-Yeniseydən sonuncu dənizəcən uzanan bir məkanda, Altaydan Anadoluyacan, Doğudan Batıyacan hansı daşa, hansı qayaya baş əyib, sinə söykəsə, toqquşan qılıncların səsini eşidər".

Ə.R.Xələfli "Əzəl-axır dünya türkün dünyası..." kitabını istiqamətini, yazı tərzini, onun sakromental bir əhvalla, müqəddəslik əhvalı ilə qələmə alınmasını yüksək dəyərləndirir. Turan dün-

yasında yalnız Zəlimxan Yaqubun deyil, onun mühitinin, formalaşdığı bütöv bir dünyanın görünməsinə təbii baxır. Ə.R.Xələfli "Əzəl-axır dünya türkün dünyası..." əsərinin milli-vətənpərvər ruhunu duyur. Onun təhlillərində ardıcıllıq, dərin məntiq tapır. "Azər Turan böyük ərkin övladıdır, mənəvi dərkin övladıdır. Ona görə də üslublar, iqlimlər dəyişsə də "dünya bizim olacaq"-deyir... Azər Turan inanır ki, şübhənin və möcüzənin arasında dayanıb deyir. Zəlimxan Yaqubun şeirlərini təhlil edəndə Azər Turanın miflərdən istifadəsində Ə.R.Xələfli qeyri-adilik görmür, çünki "mif Azər Turanın sözündə döyüşən türk, oyanan türk, qalxan türk timsalı"nı alır. Ə. R.Xələflinin real təssüratında "Əzəl-axır dünya türkün dünyası..." dastan-"Dədə Qorqud" boyları üslubunda, "Dədə Qorqud" dilinin şirinliyi ilə, "Dədə Qorqud" kitabının müqəddəsliyi ilə qələmə alınan, kağıza gətirilən kitabdır. Sözə çevrilən ruhu, sözə çevrilən nəfəsi "Əzəl-axır dünya türkün dünyası..."nda görürük.

Məqalələrdə "Əzəl-axır dünya türkün dünyası..." həyatın ədəbiyyat və incəsənətin gərəkli problemləri haqqında bir-birini tamamlayan, biri o birinin davamı təsirini bağışlayan müstəqil lövhələr-hekayələrdir. Şair-publisist bu əsərin janrından da söz açır, onu Zəlimxan Yaqubun həyat və yaradıcılığı haqqında fəlsəfi roman adlandırır.

Azər Turanın "Əzəl-axır dünya türkün dünyası..." dəyərli ümummaraq səviyyəli tədqiqatdır. Xələflinin bağrından qopan Qarabağa qovuşmaq arzusu ilə yaşayan Ə. R.Xələfli bunları nəzərə almış, iki irihəcmli, böyük fikir tutumlu məqalədə "Əzəl-axır dünya türkün dünyası..." əsərinin orijinal elmi təhlilini vermiş, ciddi mühakimələr yürütmüş, bütün məqamlarda Azər Turanın məntiqini bəyənmişdir.

Həm Ə.R.Xələflinin məqalələrində ("Zəlimxan Yaqub-Azərdən Turanacan. Azər Turanın "Əzəl-axır dünya türkün dünyası..."na üvertura", "Azər Turan:Ölməz ruhun axtarışında, ya-

xud sözdən gəlib, sözə gedirik), həm də Azər Turanın "Əzəl-axır dünya türkün dünyası..." kitabında "ölməz ruhu görürük", "məğlubedilməz ruhu görürük" anlayışları işlədilir. Tədqiqatda, ya məqalələrdə bunlar və məğlubedilməz ruh daşıyıcılarının obrazlarının yaradılması təbiidir, reallığa, müasir dərkin, yeni fikir və düşüncə axınının, çoxistiqamətli yaradıcılıq axtarışlarının qanuna uyğun tələbidir. Ancaq hər hansı bir söz ustasının Tanrıya bağlılığından və yaxınlığından, ona pıçıltılar gəlməsindən, bəzən də pıçıltıların səngiməsindən danışmaq qeyri-adilikdir. Bilənlər bilərlər, bədii mədəniyyət tarixində nə Esxilə, Sofokl, Evripid və Homerə, nə Firdovsi, Nizami, Füzuli, Balzak, Didro, Hüqo, Stendal, Puşkin və Tolstoya, nə də Səməd Vurğuna, Rəsul Rza və Bəxtiyar Vahabzadəyə pıçıltılar gəlməmişdir. Amma belə ədibdər-böyük istedad sahibləri Allahı sevmiş, Allahın dərgahına sığınmış, Allaha səcdə etmişlər.

Allahın payını-təbii istedadı uca tutanlar yazı prosesinə qədər həyatı mövzunu, yaradacaqları obrazları uzun müddət düşüncələrində, mənəviyyatlarında, xəyallarında və hisslərində gəzdirmiş, hərtərəfli yaşamışlar. Söz ustalarının çox böyük əksəriyyəti təklənməyi bəyənmiş, özləri-özləri ilə gizli-gizli danışmış, daxili dünyalarına nəsə, ya nəyisə pıçıldamışlar.

"Şeir pirinin", "Şeir Məkkəsinin" ədəbi təcrübəsindən danışanda professor doğma qardaşı Mehdixan Vəkilov demişdir: "*Səməd Vurğun "Vaqif" pyesini 1937-ci ilin axırlarında heyrətamiz bir sürətlə, 3-4 həftə ərzində yazmışdır. Belə böyük bir əsərin az müddətdə yazılması ona görə mümkün oldu ki, Səməd Vurğun illər uzunu Vaqifin həyatı və yaradıcılığı üzərində düşünmüşdür. O, yazacağı əsərin mövzusunu, sujet xəttini xəyalında çoxdan işləyib hazırlamışdı. Səmədin dodaqları daim oturanda da, gəzəndə də, məclislərdə də, hətta çörək yeyəndə də tərpənirdi. O, şəxsi söhbətləri zamanı da, bəzən özünü dinləyirmiş kimi göstərir, sadəcə müsahibinin üzünə baxır, fikrən, xəyalən başqa yerdə, öz aləmin-*

*də olurdu... Bəli, Vaqifin taleyi üzərində dramaturq uzun müddət düşünmüşdür".*

Güclü xarakterlər ustası Süleyman Rəhimov da həyatı təbii yaşamağa üstünlük vermişdir: "yazıçı qaynar həyatı dərindən-dərinə öyrənməklə bərabər, öz təxəyyül dünyasında təklənməyi də, tənhalaşmalığı da, fərdiləşməyi də bacarsın. Yazıçı gərək öz-özünü arasın, öz-özü ilə tək qalmağı bacarsın, özü öz ürək döyüntülərini təkliyində dinləsin".

Bəxtiyar Vahabzadə Allah adamıdır. Safdan da safdı. Azərbaycan şeirin Allah payıdır, yeriyən, qaynar fəaliyyət göstərən canlı klassikdir. Amma ona pıçıltılar gəlmir.

Əli Rza Xələfli xalqın milli, orijinal üslublu şairidir, dövrümüzün ən güclü publisistlərindən biridir, ziyalıların böyük qayğıkeşidir. Əsərlərini istedadla, lakin pıçıltılar eşitmədən yazan-ustad ədibdir.

**İyul-avqust 2007**

***"Kredo" qəzeti,***
***№ 38 (453), 4 avqust 2007-ci il***

## YENİ YARADICILIQ AXTARIŞLARI

### *Altıncı məqalə*

İmanlı, etiqadlı və qüdrətli söz ustasının - Əli Rza Xələflinin yaradıcılığında lirik və epik şeir, ədəbi tənqid və publisistika inkişaf, hərəkət tapır. Ehtiyac duyulanda bu ədib kitablara ön söz yazır, onları redaktə edir. Çox dəyərli, hər kəsin şəxsi kitabxanasına yeni məzmun verə bilən "Hoydu, dəlilərim, hoydu" (gəraylılar, qoşmalar) kitabına əhatəli, tədqiqat səciyyəli son söz ("Şimşək yenə çaxacaq") yazmışdır.

Koroğlunun gəraylı və qoşmalarını ağır və gərgin yaradıcı zəhmətə qatlaşan İslam Sadıq toplamış və sistemləşdirmiş, çapa hazırlamış və bu mənalı kitaba məzmunlu və düşündürücü ön söz yazmışdır. Tədqiqatçılar "Koroğlu" eposunun məzmun-ideyasından, Koroğlunun səfərlərindən, əsərin tədqiq və nəşri tarixindən gen-bol danışanlar az olmamışdır. Amma şair-qəhrəmandan - Koroğludan, onun ibrətamiz sənətkar şəxsiyyətindən də ötəri, ya da cümlələrarası söz deyilmişdir. Əli Rza Xələfli "Şimşək yenə çaxacaq"da, İslam Sadıq isə "Ocaq sönər, daş inildər" məqaləsində dastana, xüsusən, Koroğlunun qoşma və gəraylılarına yeni yöndən yanaşmışlar. "Hoydu, dəlilərim, hoydu" kitabında Koroğlu şeirlərinin ən vacib bir problemi - seçimi haqqında elmi qənaət mübahisə doğurmur. "Koroğlu" dastanında rastlaşdığımız ustadnamə, qoşma, gəraylı, hərbə-zorba aşıq şeirinin şəkilləridir, həm də bu şeirlər arasında elə mükəmməl, gözəl poetik nümunələr var ki, onları hər hansı ifaçı-dastançı aşığın adına bağlamaq olmaz. Çünki onlar əsl poetik istedadın məhsulu olan gözəl və əbədiyaşar şeirlərdir. Məhz buna görə Koroğlunun aşıq və şair olduğunu təsdiqləmək üçün onun öz şeirlərindən yaxşı qaynaq axtarmağa ehtiyac yoxdur".

"Koroğlu" dastanını tədqiq edənlər və yayanlar, Koroğlunun gəraylı və qoşmalarını çapa hazırlayanlar - Əli Rza Xələfli və İslam Sadıq sadə, qayğı və hörmətə layiq vətənpərvərlərdir. Am-

ma Əli Rza Xələfli folklorşünas deyildir. Ağız ədəbiyyatını mükəmməl bilən, onun ənənələrini duya-duya, yaşaya-yaşaya qiymətləndirən, ümumiləşdirən şair-publisistdir. O, məqalələrində əsatir, əfsanə, nağıl və dastanlardan, aşıq şeirinin geniş yayılmaq, təsir oyatmaq imkanlarından söz açır, özü də dövrümüzün bədii ifadəsi təsiri bağışlayan oynaq, musiqiyə asan yatan qoşmalar, gəraylılar və bayatılar yazır. Əli Rza Xələflini "Hoydu, dəlilərim, hoydu" kitabını həssaslıqla redaktə etməyə şair mənəviyyatına Ana südü, Ata laylası ilə keçən xalq ədəbiyyatına böyük sevgi, daxili-mənəvi ehtiyac aparmışdır.

Atilladan üzü bəri, Əli Rza Xələflinin təhlillərində türk-oğuz igidlərinin, "orta əsr ərazi və mənəmlik çarpışmalarının uzun bir tarixi ruhu "Koroğlu"nun məzmun-strukturuna, qəhrəmanlıq-vətənsevərlik pafosuna hopmuşdur.

Konkret tarixi şəxsiyyət olaraq Koroğlu süjet xəttinin inkişafında hərəkət edir, fərdi cizgilərinin özünəməxsusluğu ilə görünür, eposun özülü, nüvəsi, mayası təsiri bağışlayır. Bu dastan qəhrəmanın yalnız el-obaya bağlılığı, qılınca və ata inam və sədaqəti deyil, həm də saza-sözə, şeirin gücünə önəm verməsi, "Hoydu, dəlilərim, hoydu" harayı ucaldır, dilə-dişə salır.

Tarixi həqiqətləri, dastanın yarandığı ədəbi-sosial mühiti dəyərləndirə-dəyərləndirə Əli Rza Xələfli "Koroğlu"nun vətənpərvərlik ruhunu müasirliyə istiqamətləndirir. Tarixi-mənəvi dəyərlərə biganə qalanlara, elə də tarixi ənənəvi qəhrəmanlıqları, mənəvi varisliyi qədərincə qoruya bilməyənlərə, demək istəyir ki, özünüzü, xalqınızı dərindən-dərinə dərk edin, anlayın ki, türklərin - azərbaycanlıların qanı hələm-hələm qaynamır... "Saza etinasızlıq, sözə ucuz münasibət, poeziyanın nəsrləşməsi, kəndlinin şəhərliyə çevrilməsi, kişilik qürurunun dəyərdən düşməsi - bütün bunlar müasir dövrün zəhərli havasının bəhrəsidir. Halbuki poeziyanın qanı cuşa gətirən ruhu Vətəni qorumaqdan heç də ordudan az əhəmiyyət kəsb etmir. Zənnimcə, İslam Sadığın Koroğlu poeziyasını ayrıca kitab halında nəşr etdirmək istəyi də bundan doğmuşdur.

"Kredo" oxucuların da, yazarların da çox nüfuzlu, yayılan qəzetidir. Bu qəzetin baş redaktoru Əli Rza Xələfli də hamının qayğıkeşi və xeyirxahıdır. "Yana-yana yaşadım" adlı toplu da şair-vətəndaşın özünün tərtibatı, redaktorluğu, ön və son sözləri ilə çap olunmuşdur. Kitaba tanınmış ədəbiyyatşünas-alim Yaqub İsmayılovun həyat və yaradıcılığı haqqında publisistik qeydlər, elmi məqalələr və rəylər daxil edilmişdir.

"Yana-yana yaşadım" məqalələr toplusu dəyərlidir, bir neçə məqalə diqqətə gətirilməzsə, dərin elmi mündəricəlidir, oxucunu özünə çəkən istiqamətdədir. Burada Yaqub İsmayılovun yaradıcılığına tutumlu yer ayrılır, monoqrafiyaları təhlil olunur. "Dəyərli tədqiqat əsəri" (Nəriman Həsənzadə), "Mir Cəlalın yaradıcılığı" (Nadir Vəlixanlı), "İ.Şıxlı haqqında monoqrafiya" (Zaman Əsgərli), "Zəhmət və dəqiqlik timsalı" (Arif Abdullazadə), "Monoqrafiyalar ustası" (Bədirxan Əhmədov) və digər məqalələrdə Yaqub İsmayılovun müasir ədəbiyyatı dərindən bilməsindən, fərdi elmi üslubundan danışılır, təhlilləri soyuqqanlı aparması söylənilir.

Zəhməti, yaradıcılıq axtarışlarını, həyatı, düşüncələri ömrünün mənasını, istedadının hərəkət və istiqamətverici gücünə çevirən Əli Rza Xələflinin "Yana-yana yaşadım" kitabına "Söz yanğısı", "Sözümün sahibiyəm", "Güllər solsa da...", "Sözlər solmur" və "Sən kimsən, Yaqub İsmayılov?" adlı məqalələri salınmışdır. Məqalələrdə ədib Yaqub İsmayılovun alim fəallığından bir-birinin ardınca "Abdulla Şaiqin həyatı və bədii yaradıcılığı", "Mir Cəlalın yaradıcılığı", "Əbülhəsənin yaradıcılığı", İlyas Əfəndiyevin yaradıcılıq yolu", "İsmayıl Şıxlı: həyatı, mühiti, sənəti", "Ənvər Məmmədxanlı" monoqrafiyalarını və onlarca elmi məqalələr yazdığını demiş, imkanı daxilində onları qiymətləndirmişdir.

Əli Rza Xələfli "Sən kimsən Yaqub İsmayılov?" adlı məqaləsində inamla belə bir məlumat verir: "Yaqub İsmayılovun 1-ci monoqrafik tədqiqatı - "İsi Məlikzadə - söz sərrafı, nəsr ustası" adlanır. Əsər tamamlanmış, rəyləşdirilmiş, redaktə olunmuş və

şöbə müzakirəsindən keçirilmişdir. Yaxınlarda çapa göndərilmək üçün elmi şuraya göndəriləcəkdir.

Yaqub İsmayılov sadə, soyuqqanlı, dindirməsən dinməyən, bir-iki kəlmə ilə hal-əhval tutan insandır. Müasir ədəbiyyatın inkişafında onun xidməti, özünün fərdi elmi üslubunun olması heç kəsdə şübhə doğurmur. Amma bu şəxsiyyət özünü elə aparır ki, guya həyatda heç nə etməmişdir. Heç monoqrafiyalar da, qiymətli məqalələr də yazmamışdır. Mənə elə gəlir ki, bu, Yaqub İsmayılovun özünəməxsusluğudur, ən dəyərli keyfiyyətidir, sadəliyin bir alimi dərindən-dərinə zənginləşdirməsidir.

Əli Rza Xələfli insanları sevən, özü də sevilən, xalqın məhəbbətini qazanan ədəbi şəxsiyyətdir. O, ən mürəkkəb, ən gərgin psixoloji anlarda belə təbiiliyini, sənətkar özünəməxsusluğunu saxlayır. Özünə yalnız özü - Əli Rza Xələfli bənzəyir. Həmişə, hər yerdə olduğu kimi, görünür, nə inamını, nə də inamsızlığını gizlətmir. Çoxistiqamətli yaradıcılığında xalq həyatının, milli diləklərin real və canlı bədii ifadəsini tapdığı sənətkarı - Hüseynbala Mirələmovu sevir, əsərlərini zaman-zaman tədqiq edir, onları ölkənin hər tərəfində yaymağa çalışır.

Qüdrətli söz ustası, şair-publisist Əli Rza Xələfli səhv etmir, doğru buyurur: Hüseynbala Mirhələmov zəngin ənənəli Azərbaycan ədəbiyyatına kənardan gəlməmişdir, onu doğma xalqa üz tutmağa, saysız-hesabsız oxucuya yeni və təsirli söz deməyə təbii yazıçı istedadı, şaxəli dünyagörüş, həyatı və gerçəkliyin, müxtəlifliyi, yaradıcı dərk, duyum və mənalandırma bacarığı, bir də Qarabağ kədəri, Qarabağ həsrəti, heç kimin görə bilmədiyi bir aləmdə - iç dünyasında vətəndaşlıq hünərinin, vətəndaşlıq ləyaqəti və qeyrətinin, vətəndaşlıq qayğı və narahatlığının alov kimi püskürməsi gətirmişdir.

Hüseynbala Mirələmovda bədii sözə daxili-mənəvi maraq çox tez, orta məktəbdə oxuyanda oyanmışdır. Fəallığı ilə müəllimlərin və şagirdlərin diqqətini çəkən bir gənc 14 yaşında "Bir tikə çörək" hekayəsini yazmış, rayon qəzetində çap etdirmişdir.

Kamilləşəndən, fərdi üslubu müəyyənləşəndən, həyatı mürəkkəbliyi və ziddiyyətləri ilə dərk edəndən, qeyri-adi ədəbi nüfuz qazanandan sonra ziyalılar elm, sənət, mədəniyyət adamları, tələbələr, orta məktəb şagirdləri Hüseynbala Mirələmovu oxumağa, onun yaradıcılığını yüksək mövqedən qiymətləndirməyə ehtiyac duymuşlar. Bu bənzərsiz yazı tərzi ədəbi nüfuzun əsərləri teatrları hərəkətə gətirmiş, onlara yeri ruh vermişdir, özünün ssenariləri əsasında filmlər çəkilmişdir. Neçə-neçə xəlqi, yeni üslublu, milli məzmunlu əsəri Çin, ingilis, rus, türk, alman, fransız, ukrayn, belorus və gürcü... dillərinə tərcümə olunmuş, Azərbaycana, Azərbaycan bədii mədəniyyətinə böyük nüfuz gətirmişdir.

Hüseynbala Mirələmovun yaradıcılığından, qeyri-adi əsərlərindən az yazılmamışdır. Lakin bədii ədəbiyyatla düşünən, bədii sözlə nəfəs alan, onun təsirinə bütün mənəviyyatı ilə inanan Əli Rza Xələfli dövrümüzün hamı tərəfindən sevilən sənətkarını - Hüseynbala Mirələmovu hərtərəfli duyur, mənəvi-psixoloji aləmini dərindən-dərinə dərk edir, əsərlərinin məzmun-ideyasını açır, onların obrazlar silsiləsindən, bədii formasından danışır; ədibin yaradıcı mövqeyini, ideya və ideallar aləmini düzgün qiymətləndirir. Zərurət duyanda bu böyük humanistin bir əsərinin təhlilin bir neçə məqalədə verir. Şair-publisist Hüseynbala Mirələmovun güclü vətənpərvərlik narahatlığı ilə yazılan "Xəcalət" povestinə bir-birindən fərqlənərək biri o birini tamamlayan yeddi məqalə həsr etmişdir. Bunlarla bərabər Əli Rza Xələfli Hüseynbala Mirələmov haqqında yazılan məqalələri toplamış, tərtib etmiş, onu özünün redaktorluğu ilə çap ("Gəlinlik paltarı", yaxud "Fənayənin sualları". "Səda" nəşriyyatı, 2006) etdirmişdir.

"Sözə doğru" ("Azərbaycan" nəşriyyatı, 2003) və "Dünyanın söz üzü" ("Səda" nəşriyyatı, 2007) kitablarının müəllifi də Əli Rza Xələflidir. Əsərlər irihəcmlidir, təhlillər elmi ümumiləşdirmələr, yazıçının ədəbi, siyasi, iqtisadi və mədəni mühitini qiymətləndirmə və səciyyələndirmə yeni, cəlbedici istiqamətdədir.

Əli Rza Xələfli "Sözə doğru" və "Dünyanın söz üzü" kitablarının fəsil və bölmələrində ədəbi faktlarla, şərhlərlə düşünür, təhlillərdən, müqayisələrdən, oxucu məktublarından inandırıcı nəticələr çıxarır. Onu publisist haşiyə və mühakimələrə Hüseynbala Mirələmovun həyatının, ədəbi-mədəni mühitinin, təsərrüfata istiqamət verə bilmək imkanlarının genişliyi və təzə tapıntılarla dolu olması aparır. Ən səciyyəvi budur ki, bir az elmi-nəzəri, daha çox isə publisistik - şairanə təhlillərdə Hüseynbala Mirələmov fərdi cizgiləri, bir yazıçı-dramaturq kimi görünür; onun şəxsiyyəti, yazı laboratoriyası haqqında dolğun təsəvvür oyadır.

Əli Rza Xələflinin şair, publisist, tənqidçi, "Kredo"nun baş redaktoru, yəni orijinal, məntiqli söz sahibi olduğunu hamı bilir, ziyalılar onu da bilir ki, Əli Rza Xələfli istedadlı, yetkin və bişmiş qələmlə müxtəlif səpkili, düşündürücü məqalələr yaza, çox xırda, adi bir bədii faktı üümumiləşdirə bilir. Di gəl ki bunları sanki birdən-birə "unudur", çox dəyərli kitabları - "Sözə doğru", "Dünyanın söz üzü"nü ehtiyac duyulmadan sitatlar və istinadlarla yükləyir. Ancaq bəzi məqalələrdə Hüseynbala Mirələmovun əsərlərinə tutulan iradlara Əli Rza Xələflinin etirazları oxuculara təbii və haqlı görünür: "Xəcalət" povesti çapdan çıxan kimi, əsasən mövzu, siqlət və sənətkarlıq mövqeyi nəzərindən yüksək qiymətləndirildi. Doğrudur, əsər haqqında ziddiyyətli fikirlər də söylənilir. İnsafən, danışan müəlliflər müəllifin mövqeyini, sənətkarlıq məharətini yüksək qiymətləndirir, əsərdən doğan məntiqi nəticənin cəmiyyətin həyatı ilə bağlı olduğunu təsdiq edirlər. Ancaq bu, çoxlarına elə gəlir ki, "Xəcalət" povestinin müəllifi gərək bu mövzuda yazmayaydı. Axı qabaqda neçə-neçə Xalq yazıçıları var.

Birinci halda, belə tələb, belə irad bədii söz ustalarını, incəsənət adamlarını, ədəbiyyatşünas-tənqidçiləri deyil, oxucuları da heyrətləndirər. Çünki məzmun seçiləndə, "qabaqda olan neçə-neçə xalq yazıçısı"ndan heç nə soruşulmur, məsləhət olunmur, qoy məzmunu öncə "qabaqda olanlar, Xalq yazıçıları seçsinlər", - deyilmir. Əli Rza Xələfli tamam doğru söyləyir, məzmun alov-

lu, hərarətli sevgidir, güclü ehtirasdır. "Həyatın bir parçası"nı duyduğun, yaşadığın, daxili aləminə enə bildiyin gözəl bir qıza təmiz sevgin qədər sevgidir.

Cəfər Cabbarlının Solmaz, Səməd Vurğunun Humay, İlyas Əfəndiyevin Nargilə, İsmayıl Şıxlının Cahandar ağa sevgisidir.

İkinci halda, mən Hüseynbala Mirələmovu şəxsən tanımıram, onunla üz-üzə dayanmamışam, söhbət etməmişəm. İnanın Hüseynbala tanımadığım tanışdır. Ancaq bilirəm ki, texnika elmləri namizədidir. Həyatın "hər üzünü" - yaxşısını da, pisini də, şirini də, acını da, sevinci də, kədəri də görmüş, yaşamış şəxsiyyətdir. O, təkcə söz ustası deyildir. MDB-nin 100 sənaye və elm adamlarından biridir, 1999-cu, 2000-ci və 2001-ci illərdə "İlin direktoru" müsabiqəsinin qalibidir. Onun gün-güzəranı təsərrüfatda, təsərrüfat adamlarının arasında da, elə də ziyalıların, öncə yazarların mühitində keçmişdir. Belə bir mürəkkəb, çətin və yaradıcı prosesdə yazıçı təsərrüfatla, idarəçiliklə bərabər, insanı, insanın mənəviyyatını, insanın psixologiyasını, sosial mühitini, onun xəyal və düşüncə aləmini hünərlə öyrənmiş, özünün sənətkar "mən"ini cəlbedici, marağı gücləndirici, həmişəyaşar, amma "çiy", hissə, duyğuya toxundurulmayan, bədii həllini gözləyən məzmunlara - həyati faktlarla "yüklənmişdir". Həyatı həyatın, təsərrüfatı təsərrüfatın, yaşayışı yaşayışın, məişəti məişətin özündən öyrənən, insanları lap yaxından tanıyan bir ədib bədii söz aləmində sərbəst hərəkət edən çox tez-tez qiymələi əsərlər yaza bilər.

Əli Rza Xələflinin müşahidəsi davamlıdır, Hüseynbala Mirələmovun əsərlərindən aldığı qənaətlər dəqiqdir: *"Mirələmov həmişə yoldadır, həmişə hərəkətdədir... Hüseynbala Mirələmov Azərbaycan cəmiyyətini bütün əlvanlığı ilə görə bilir... Humanizm, insanpərvərlik, insana qayğı və ehtiram onun həyatının devizidir.*

*Hüseynbala Mirələmov Azərbaycan xalqının bağrından qopan ziyalılardan biridir. O, xalqın doğma övladıdır. Damarlarından Azərbaycan xalqının etnogenezində rol oynamış ən qədim soyların*

*genini daşıyır. Onun təbiəti Azərbaycan təbiətilə çox həmahəngdir. Fikir və düşüncələri Azərbaycanın baharı qədər təravətli, cəlbedici, xarakteri yayı qədər qızğın və hərarətli, təmkini payız qədər müdrik, dözümlü, qışı haqsızlıqlara qarşı tufanlıdır. Azərbaycanın milli maraqları, dövlətçilik ənənələri, Azərbaycan xalqının taleyi onun özünün taleyidir".*

"Sözə doğru" və "Dünyanın söz üzü" kitabları, "Fənayənin sualları", "Tənhalığın iztirabları", "Acı istehzalar, kəskin gülüşlər" və onlarca digər məqalələri imkan verir deyək ki, Əli Rza Xələfli Hüseynbala Mirələmovu yaxından tanıyır, bu yazıçının xarakterinə, mənəviyyatına hərtərəfli bələddir. Ona görə də şair-publisist qələm dostunun fərdiyyətindən maraqlı söhbət aça bilir. Hüseynbala Mirələmovun daxili-mənəvi aləmi həm sözdə, həm də əməldə açıq-aydın görünür. Əgər sözlə əməlin vəhdətini bir obrazın timsalında görmək istəsək, onun şəxsiyyəti ən yaxşı nümunədir. Cəmiyyət üçün ləyaqətli atadır, ən gözəl azərbaycanlı ailəsinin başçısıdır. Və yeri gəlmişkən, ziyalıların, qələm adamlarının çox yaxın dostudur. Xeyirxah əməllərilə tanınır, insanlar tərəfindən sevilir".

Əli Rza Xələflinin şair-publisist məntiqində məhdudluq, birtərəflilik, ancaq özünü və ailəsini yaşatmaq Hüseynbala Mirhələmovun yazıçı-dramaturq məndəricəsini tamamlamır. O, Azərbaycanın bir ovuc torpağını da, bir parça daşını da, dağını da, dərəsini də, suyunu da, havasını da, bütün vətəndaşlarını da eyni hərarətlə, eyni istəklə sevir, həyatını xalqın həyatına qatır. Bunun nəticəsidir ki, Qarabağ müharibəsi haqqında ilk tutarlı və kəsərli sözü - əsərləri ilə hamını təsir və heyrətdə saxlayan əzəmətli türk kişisi Hüseynbala Mirləmov demişdir.

Dinamik, aydın və lakonik epik söyləmələrdə - "Vicdanın hökmü", "Xəcalət", "Güllələnmiş heykəllərin fəryadı", "Zurnaçalan Behbud" və "Qayada çiçək" hekayələrin toplusunda, elə bil haradansa Hüseynbala Mirələmovun sarsıdıcı səsi eşidilir, torpağı tapdalanan, el-obası dağılan, Qarabağsız qalan insanları xəcalətlənməyə, ana-övlad, qız-gəlin ləyaqətini qorumağa,

milli amal uğrunda birləşməyə səsləyir. Bunlar ona görə belədir ki, Əli Rza Xələfli doğru söyləyir ki, H.Mirələmov bədii söz, dinamik təhkiyə, ifadəli və yığcam süjet qurmaq ustasıdır. Onun hekayələri - "Simuzər", "Qayada çiçək", "Qasırğa tez keçdi", "Qara xal" və "Tənha durna" orijinaldır, fikir axarlıdır, obrazlar sərbəstdir. "Sözə doğru" və "Dünyanın söz üzü" ktablarında və publisistikasında "Həyat eşqi" və "Xəcalət" povestlərinə tutumlu yer ayırmışdır. Şair-publisist məzmunu gerçəkliyin müxtəlif sahələrindən alınan bu povestləri ədəbi paralellər və müqayisələrlə hərtərəfli təhlil etmiş, Hüseynbala Mirələmovun yaradıcılığında onların ayrıca, çox əhəmiyyətli yer tutduqlarına inam oyatmışdır.

"Həyat eşqi"nin məzmunu həyatdan alınan həyatdır, həyatın istedadla yaradılan bədii modelidir, təxəyyüldə mənəvi-psixoloji aləmdə yaşanılan hisslərə toxundurulan, sənətkarın yazı laboratoriyasında bədii həqiqət səviyyəsinə qaldırılan təsirli, idrakitərbiyəvi əhəmiyyətli bədii modeldir. Povestdə Əli Rza Xələflinin şərhlərində fikir daşıyıcısının - Müdrik İnsanın gördüklərinə, bəyəndiklərinə sərt münasibəti açıq-aşkar deyildir, süjet xətti boyu etirazlar əks-səda formasında güclü daxili hərəkətdir. Bunun nəticəsidir ki, "Həyat eşqi"ndə "biz təbiəti görürük və o təbiətlə təmasda olan təbiəti əbədiliyində özünü axtarmağa gedən insan görürük".

Qaçan, əbədilik arayan bu insan küt, duyumsuz, dərksiz, anlamaz bir canlı varlıq deyildir. O, həyatın dadını-tamını, acısınışirinini, istisini-soyuğunu dərk və duyum onun səciyyəvi məziyyətidir. Ancaq gözəl bir həyat itirəcəyindən çəkinir, vahimələnir. "Yaşının qırxını adlamış çağında, yəni dünyanı artıq dərk etdiyi çağında doğulduğu məkana üz tutur". Bu məkanı tapmaq, bu məkana dönmək Müdrik İnsanın istəyidir, düşüncəsidir, arzusunun qaynarlığıdır.

Obraza - Müdrik İnsana "elə gəlir ki, insan özünü doğulduğu yerdə, dünyaya gəldiyi yurdda öz ilkinliyinə qayıda bilər, öz təmizliyinə qayıda bilər".

Müdrik İnsan realist, bir qədər də intuitiv dərklə müdrikanə yaradılan obrazdır. Onu uzun ömür yaşamaq istəyinə yalnız fərdi arzu istiqamətləndirmir. O, həm də qırx yaşına qədər gerçəkliyi bütün çalarları, zahiri və daxili rəngləri ilə görür. İnsanlardan bezir, diksinir, amma mübarizə aparmır, qüsurlara etinasız qalır. Bütün bu fikirlərin müəllifi Əli Rza Xələfli deyir: *"Müdrik İnsan dərd-qəm içindədir. Onun daim hüzünlü görkəmi var. Bir dəfə də olsun üzü gülmür. Təbiətdə gördüyü nadir hadisələrə yalnız ötəri təbəssümlə cavab verir".*

"Həyat eşqi" məzmunlu, yığcam, az hadisəli, az obrazlı povestdir. Burada süjet qol-qanad atmır, onu Müdrik İnsanın psixoloji sarsıntıları, həyəcanları, gərgin əhval-ruhiyyəsi qaynarlaşdırır. Şair-publisist Əli Rza Xələfli "Həyat eşqi"ni mündəricə bütövlüyü ilə duyumu, təmkinilə araşdırmış, onu Hüseynbala Mirələmovun axtarışla dolu yaradıcılığından ayırmamışdır. Belə qənaətə gəlmişdir ki, bu yayılqan, ədəbi-estetik fikri hərəkətə gətirən, oynaq, şirin bədii-fəlsəfi təhkiyəli povestin, "əsas iki qəhrəmanı var. Hər iki obraz kifayət qədər dolğun işlənib. Biri əlçatmazlığı, qüdrəti, görünməzliyi və hər şeyə qadir olduğu ilə təqdim olunur, digəri ondan asılı vəziyyətdə - gəlib qeyri-adi arzularla dolu, ümumi insanlığın içindən çıxsa da, insanlar üçün əlçatmaz olan istəklərə getmək üçün vurnuxan çəkdiyi hər cür iztirabları özündən aşağıda qoyan və eyni zamanda, yenə qeyri-adi varlıq təqdim olunur.

Birinci təqdim olunan obraz, ikinci obrazın üz tutduğu varlıq Tanrıdır. Tanrı özünün görünməzliyində olsa da, əsçatmazlıqda dayansa da, həmişə ikincinin lap yaxınlığındadır. Onun qəlbinin döyüntüsünü də eşidir, hiss və həyəcanlarını da bilir, ürəyindən keçirdiyi hisslərdən xəbərdardır".

Xalq adamı - şair-publisist Əli Rza Xələflinin ədəbi estetik fəaliyyətində əsas yeri Hüseynbala Mirələmovun həyatının, mühitinin, ədəbi şəxsiyyətinin və bədii yaradıcılığının öyrənilməsi, tədqiqi və geniş miqyasda yayılması tutur. O, bu yazıçı-dramaturqun tərcümeyi-halını, təsərrüfatın müxtəlif sahələrində istiqamətverici rolunu xronoloji ardıcıllıqla izləmir. Belə gərəkli

faktları istedadla məqamında şərhlərin, təhlillərin daxilində əridir. Hüseynbala Mirələmovun təzə bir əsəri çap olunanda nə oxucusuz, nə tənqidi söz deyə bilən yazarlarsız, nə də tənqidçilərsiz qalmır. Bu ədibin əsərləri barədə ölkənin müxtəlif yerlərindən qeydlər, rəylər, təkliflər və məktublar göndərilir. Hüseynbala Mirələmovla yaxın yaradıcılıq əlaqəsində olan Əli Rza Xələfli bu səpkili sənədləri tədqiqatlarından kənarda qoymur. Təbii, belə ədəbi faktlar həm şair-publisistə tutarlı faktlarla söz deməyə, oxucular adından danışmağa imkan verir, həm də Hüseynbala Mirələmovun ədəbi şəxsiyyəti, ədəbi mövqe və nüfuzu, əsərlərinin çərçivə tanıması haqqında təsəvvürü genişləndirir.

Əli Rza Xələfli Hüseynbala Mirələmovun əsərlərini bir yönlü, bir istiqamətli təhlillə, şərhlər verməklə kifayətlənmir, yazıçı-dramaturqun vətəndaş amalına, seçdiyi məzmunlara, yaratdığı obrazlara, onun fərdi bədii üslubuna sözdən istifadə imkanlarına mövqe bildirir, qənaətə gəlir, nəticələr çıxarır, mühakimələr yürüdür".

"Həyat eşqi" povestinin məzmun-mahiyyətini açır, orijinal bir obrazı - Müdrik İnsanı hərtərəfli səciyyələndirir, fikirdən-fikrə nəticə çıxarmağa güclü zəmin hazırlayır; "Həyat eşqi" əsərinin qəhrəmanı insan min illər boyu keçdiyi yolla sübut etmək istəyir ki, əsl həyat onun insan olaraq yaşadığı həyatdır.

"Həyat eşqi" əsəri insan olaraq yaşamağın gözəlliyinə oxunan nəğmədir". Xalqa, Vətənə, milli torpağa sevgi Hüseynbala Mirələmovun yaradıcılığında qaynar ehtirasdır, amaldır, aparıcı və hərəkətverici istiqamətdir. Çünki onun istedadı da, Azərbaycan xalqına sevgisi də təbiidir. Xalqa və Vətənə sevgi bu yazıçı-dramaturqda ana laylasından, Azərbaycan xalqının tarixinin dərin qatlarından süzülüb gələn qəhrəmanlıq ənənələrindən keçmişdir. O, ölkəmizin bütün şəhərlərini, rayon: kənd və qəsəbələrini dönə-dönə gəzmiş, həmişə sadə, zəhmət adamları ilə duz-çörək kəsmiş, onların əhatəsində işləmişdir. Belə özünü Azərbaycanı gözəlləşdirməyə, yenidən qurmağa həsr edən insanlarda qeyrət, sədaqət, etibar, məhəbbət, qayğı, dözüm, milli torpağa sevgi görmüş, bunlar isə təsirsiz qalmamışdır. Bu bədii söz

ustası bir vətənpərvər, bir ziyalı-xalq adamı, humanist kimi formalaşmışdır.

Hüseynbala Mirələmov bədii yaradıcılığı, ictimai-siyasi və əməli ilə xalqa bağlı olmuş, onun arzuları səviyyəsində dayanmaq istəmişdir. Bu səbəbdən də "Xəcalət" povestinin ideya daşıyıcısının - Vətənin varlığı həyata, el-obaya, onun bir parçası Qarabağa sevgidən yoğrulmuşdur. İstedadlı ədib Əli Rza Xələfli bunları nəzərdə tutmuş və vətənpərvərlik hünəri ilə "Xəcalət" povestinin geniş və dolğun şəkildə təhlilini vermişdir. O, "Sözə doğru", "Dünyanın söz üzü" kitablarında və neçə-neçə məqalələrində Hüseynbala Mirələmovun ilk əsərlərini ("Qayada çiçək", "Qasırğa tez keçdi", "Simuzər", "Tənha durna uçuşu", "Qara xal"...) yüksək səviyyədə araşdırmış, və göstərmişdir ki, "Xəcalət" povesti Qarabağa məhəbbət abidəsidir.

"Xəcalət" yaddaş kitabıdır. Hər bir azərbaycanlı ailəsi həmin əsəri yaddaşının açarı sanmalı, həmin ruh üstündə köklənməlidir.

"Xəcalət" tarix kitabıdır, orijinal adlar, obrazlar və rəmzlər ilə yaxın keçmişi yaşadan tarix kitabı".

Hüseynbala Mirələmov "Xəcalət"dən danışmış, povesti belə mənalandırmışdır: *"Xəcalət" povestini oxuyanlar yaxşı bilir ki, bu əsər əsasən rəmzlər üzərində qurulub. Çünki həyatın üzü, zənnimcə, rəmzi xarakter daşıyır. Bu rəmzliyi elə ədəbi müzakirələrin özü də daşıyır. Əbədi yaşarılıq sözə, sənətə, təbiətə xasdır. Biz isə sadəcə öz əməllərimizlə həmin əbədiyaşar olanlarla həmrəy olduğumuzu təsdiq, ya da inkar edirik.*

*Təbii ki, əsərin uğuru müəllifi sevindirməlidir. Şübhəsiz, mən də sevinirəm. Ancaq ən böyük, ən dərin sevincli duyğularımızı Vətənin yurd vüsalına qovuşduğu günlərdə yaşayacağam".*

Bilmirəm, amma eşitmişəm, deyirlər Hüseynbala Mirələmov maraqlı həmsöhbətdir, ədəbiyyat və incəsənətin nəzəri-estetik problemlərindən danışmağa ciddi həvəs göstərir. Bildiyim, əsərlərindən öyrəndiyim bunlardır, Hüseynbala Mirələmov həyat, cəmiyyət, xalq adamıdır; çox təcrübəli, zəngin mənəviyyatlı, dərin dünyagörüşlü, yüksək bədii zövqlü yazıçı-filosof, yazıçı-psi-

xoloq, vətənpərvərdən də vətənpərvərdir. Onun xalq və Vətən anlayışı milli birlikdir. Cənubi Azərbaycandır, ucsuz-bucaqsız Borçalıdır, tariximizin şahidi Dərbənddir. Elə Hüseynbala Mirələmovun əməlində, gündəlik fəaliyyətində, bədii məntiqində, inam və etiqadında Azərbaycan Qarabağdır, Qarabağ da Azərbaycandır, milli tarixin yaratdığı ayrılmaz bütövlükdür.

Təhlillər aparanda, bədii faktları dəyərləndirəndə Əli Rza Xələfli Hüseynbala Mirələmovun əsərlərinə vətənpərvərlik baxımından yanaşır, Qarabağdan yazmağı hər hansı sənətkarın milli borcu sanır. Bədii nümunələrdən aldığı qənaətlər bütün istiqamətlərdə Hüseynbala Mirələmovun fikirlərini - bədii məntiqini tamamlayır, Müdrik İnsanların və Vətənlərin hərəkətlərini şərtləndirir. Çünki Hüseynbala Mirələmov da, Əli Rza Xələfli də ehtiraslı və imanlı vətənpərvərlərdir. Onlar bütün istəkləri, bütün amalları, bütün əməlləri ilə milli yaddaşa, milli ənənələrə, torpağa, el-obaya bağlı ədiblərdir.

Yüksək bədii məziyyətli, get-gedə mündəricəsinə marağı artıran bir povestdən - "Xəcalət"dən danışanda Əli Rza Xələfli deyir: *"Qarabağ təkcə qarabağlıların deyil, bütün Azərbaycanın, Azərbaycanı sevənlərindir. Bu mənəviyyatın üstündə boy atan, bu mənəviyyatın üstündə dirçələn, özünü dərk edən, azərbaycanlı olmağı ilə fəxr edən hər bir soydaşımızındır. Bu mənada, "Xəcalət" povesti də bir ədəbi sənətdir ki, onu istər Vətəndə, istərsə də Vətəndən uzaqlarda yaşayan hər bir soydaşımız özünün milli-mənəvi dəyərinin təsdiqi kimi yaddaşına yaza bilər".*

"Xəcalət" povesti Qarabağ faciəsini, torpaq itkisini, qaçqın kədərini hərtərəfli yaşayan bir vətənpərvərin - Hüseynbala Mirələmovun sənətkar yanğısıdır, bir sənətkarın emosional duyğu və düşüncələridir, çırpıntılı Qarabağ həsrətidir. Povestin ideya bədii yönü, obrazları - öncə Vətən və Canavar, yaradılan psixoloji gərginliklər, dinamik səciyyələndirmələr yenidir, bədii tapıntılardır. Canavar, həm miflərlə, mifik təfəkkürlə bağlı bitkin və kamil obrazdır, həm də bu surət - rəmz yazıçının rənbərəng boyalar işlətmək, psixoloji məqamları gücləndirmək imkanını genişləndirir. Hadisələr gərginləşəndə, psixoloji təsvirlər - psixolo-

ji təsvirləri izləyəndə bədii rəmzlər "sıxılır", həyat, həyatın gur pafosu rəmzlərin yerini daraldır. Oxucu görür və inanır ki, sənətkarın rəmzlərdən istifadəsi "Xəcalət" povestində məqsəd deyildir, ideyanı gərginləşdirmək, açmaq üçün bədii üsuldur, bədii fənddir, bədii vasitədir.

Şair-publisist Əli Rza Xələfli "Xəcalət" povestini bacarığı, tam istedadı ilə araşdırmış, belə söyləmək mümkünsə, deyilməmiş söz qoymamışdır. Onun əsərdən gətirdiyi bədii parça da səciyyəvidir, sarsıdıcıdır, yaddaşa hopan canlı, təsirli mənzərədir: *"Vətənin yuxusu gəlirdi. Şirin, adamı tamahlandıran bir xoşhallıq yorğun bədənini çulğamışdı. Ağrı hiss eləmirdi. Hər şey yaddan çıxmışdı. İndi heç narahatlığı, əzabı, qorxusu da yox idi. Çünki o, burada düşmən əhatəsində deyildi, işdən gələndən sonra çörəyini yeyib, həyətdəki üzüm çardağının altındakı çarpayının üstündə uzanmışdı. Balaca oğlunu sinəsinin üstünə alıb atıb-tuturdu. Uşağı aparmaq istəyən anasından qaçan Qəmxar onun boynuna sarılmışdı. Balaca, heç cür getmək istəmir, kiçik, totuq əli ilə atasının sinəsinin tüklərindən yapışırdı. Vətən gülür, qəhqəhə çəkir, tükdən niyə yapışırsan, tük səni saxlamaz axı", - deyirdi. Amma uşaq qırsaqqız olur, ona sarı dartılıb qışqırırdı".*

Əli Rza Xələflinin fikri dəqiqdir... "Tükdən yapışan elə Vətənin özüdür, onun taleyidir. Vətən əsərin qəhrəmanıdır. Bu, həm də o deməkdir ki, taleyi tükdən asılı olan Azərbaycandır".

Hüseynbala Mirələmov qeyri-adi, bənzərsiz sənətkardır, böyük ədəbi nüfuz sahibidir. O, dövrün ən vacib, ən aktual hadisələrindən yazır, səviyyəsindən asılı olmayaraq oxucunu təsirdə saxlayır, özünü yenidən dərkə aparır. "Xəcalət" povestini yalnız yarıya qədər oxuya bildim. Qəhər məni boğdu, göz yaşlarımı saxlaya bilmədim, bacarmadım. Bu boyda dərdlə qol-qola, baş-başa yaşaya bildiyimə xəcalət çəkdim" (Bəxtiyar Vahabzadə).

Həqiqətdir, Əli Rza Xələfli ömrünü zəhmətlə mənalandırır. Yaradıcı ədəbi fəaliyyət onu yormur, deyəsən, gümrahlaşdırır, əhval-ruhiyyəsini duruldur, ovqatına təzə ovqat qatır, dərketmə, duyma bacarığını itiləyir, dünyanı anlamını dərinləşdirir. O, ara vermədən publisistik və ədəbi-tənqidi məqalələr yazır. Poe-

ziya yaradıcılığında əsas yer tutur, fikri-mənəvi aləmini, istedadını, cəmiyyətə marağını hərəkətə gətirir. “Kredo”da çap olunan yazıların hamısını oxuyur, onları redaktə edir. Belə çətin və mürəkkəb, bitib-tükənməyən yaradıcı, amma yorucu-psixoloji zəhmətlə yanaşı, yazıçı-dramaturq Hüseynbala Mirələmovun zəngin ömür yolunu, tərcümeyi-halını, bir istehsalatçının, təsərrüfata gətirdiyi yenilikləri həssas şair-publisist kimi hərtərəfli öyrənir. Mükəmməl şərhlər və təhlillər prosesində qərara gəlir ki, bədii yaradıcılıqda yazıçı-dramaturq Hüseynbala Mirələmovu, alim-mühəndis Hüseynbala Mirələmovu, alim-istehsalatçı Hüseynbala Mirələmovu, böyük bir söz ustası Hüseynbala Mirələmovu tamalayır, biri o birini daha da kamilləşdirir.

Əli Rza Xələflini Hüseynbala Mirələmova bağlayan təbii hisslərdir, yüksək insani keyfiyyətlərdir, bədii zövqlərin, dünyagörüşlərin bir-birinə yaxınlığıdır, bir-birini tamamlamasıdır, torpağa, xalqa, el-obaya sevgisidir.

Əzəmətli bir ədibin yaradıcılıq axtarışlarının müasirliyi, xəlqiliyi və novator yönü, onun həyatı, həyatın özünə oxşar təsvir etməsi, yaratdığı obrazların reallığı və təbiiliyi şair-publisisti rahat buraxmır, daxilən hərəkətə gətirir. Buna görə də Əli Rza Xələfli Hüseynbala Mirələmovun yaradıcılığını qayğı və həssaslıqla izləyir. Yazıçıya gələn ədəbi qeydləri, məktubları, əsərləri, haqqında yazılan məqalələri toplayır, onlara ciddi münasibət bildirir.

Əli Rza Xələfli yaradıcılıq axtarışlarını əzmlə, inadkarlıqla aparır. Hüseynbala Mirələmovun adi bir fikrini, kiçik bir hekayəsini belə ya elmi, ya ədəbi-tənqidi, ya da publisistik təhlildən kənarda qoymur, söz deyir, fikir söyləyir, mühakimə yürüdür. Kitablarında və məqalələrində Hüseynbala Mrəzləmovun publisistikasına bir şair-tənqidçi sevgisi ilə yanaşır, “Həqiqət”i hikmət, müdriklik nümunəsi, “siyasi epopeya” adlandırır.

Hüseynbala Mirələmov sözü kəsərli, çox siqlətli deyə, ədəbi və ictimai fikrə təsir göstərə bilir. Bədii sözün gücünü uca tutur, yüksək qiymətləndirir. Ədəbi esselərini, siyasi gündəliklərini, publisistik məqalələrini, pyeslərini, bədii nəşrini, söz üstündə ya-

na-yana, ürəyinin odu, daxili ehtirası ilə yazır. Əsərlərində fikirlər, ahəng cümlədən-cümləyə axır. Hadisələrin inkişafında müəllif görünür, səsi eşidilir, oynaq, canlı, şirin sözlərini özü aparır. Çox hallarda surətləri səciyyələndirmir, onların portreti, tərcümeyi-halı, əhvalatların gərgin, psixoloji axarında yaranır, xarakterləri açılır.

Hüseynbala Mirələmovun xəlqiliyi, novatorluğu və orijinallığı ilk yaradıcılıq axtarışlarından - bədii məzmun seçimindən başlayır. Bu qüdrətli söz ustası mahiyyətində fəlsəfi-psixoloji, milli-vətənpərvər və didaktik idraki-tərbiyəvi mətləb dayanmayan mövzuları yazı laboratoriyasının həndəvərinə buraxmır. Onu təbiət - insan, cəmiyyət-insan, insanın həyatda yer və mövqeyi, yurd, el-oba -insan, insanın ilkinliyə qayıtmaq və Allahın dərgahına sığınmaq diləyi, cəmiyyətdə özünü, özünün iç aləmini dərk, hərəkət, davranış və münasibətlərini mizanlamaq, insan-zaman və digər fəlsəfi-psixoloji problemlərin duyumu və bunların obrazlarda, mürəkkəb və ziddiyyətli hadisələr axarında bədii həllini vermək onu daha çox maraqlandırır. Bir də nəzərdə tutulmalıdır ki, Hüseynbala Mirələmov qüdrətli, geniş həyat, cəmiyyət, insan, zaman, milli yaddaş anlamlı ədəbi şəxsiyyətdir. Xırda, ötəri və keçici məzmunlar, az əhəmiyyətli hadisələr bu yazıçı-dramaturqun təbiətinə yaddır.

Türk, rus, ingilis, alman və fransız dillərində çap olunan "Simuzər" kiçikhəcmli hekayə müəllif təhkiyəsidir. Ancaq xırdalıq həcmdə, zahirdədir. Məzmun düşündürücüdür, fəlsəfi-psixolojidir. İnsan-təbiət, bunların həyatı, qanunauyğun vəhdəti. Bədii məntiqdə bərəkət tükənməz sərvət - simuzərlər - balıqlar və qoca balıqçının balıqçı koması rəmzi məna daşıyır. Dinamik, axarlı və bədii rənglərlə zəngin söyləmə oxucunu belə qənaətə gətirir: insan canlı varlıqdır, tükənməz sərvətin - təbiətin bir parçasıdır. İnsan təbiəti sevəndə, onu humanist, insani hisslərlə qoruyanda, parçalamayanda təbiət bir az da gözəlləşir, təravətlənir. İnsanla təbiət arasında birlik, bir-birini tamamlama yaranır. Məhz vəhdət yarananda təbiət insandan gözəlliyini əsirgəmir; insan da, tə-

biət də zərifləşir, harmonikləşir, insanın özünü və mühitini dərki güclənir.

Hüseynbala Mirələmov oxucuların da, ziyalıların da, müxtəlif sənət-peşə sahiblərinin də diqqətini çəkən, onlarda təbii və davamlı maraq oyadan yeni məzmunlu ədəbi şəxsiyyətdir. O çox oxunur, adı hər yerdə çəkilir, əsərləri yayılır, başqa xalqların dillərinə çevrilir, haqqında söz deyilir, bir-birinə bənzəməyən məqalələr yazılır. Lakin hamının sevdiyi, ziyalıların çox böyük əksəriyyətinin xalq adamı adlandırdığı şair-publisist Əli Rza Xələfli yazıçı-dramaturqun - Hüseynbala Mirləmovun əsərlərini dönə-dönə oxumuş, onları daha dərindən, bir sənətkar həssaslığı ilə mənimsəmişdir. "Tənha durna uçuşu"nun, "Vicdanın hökmü", "Güllələnmiş heykəllər", "Son zəngdən sonra", "Son arzu" və başqa film və tamaşaların səhnə təsvirində, neçə-neçə əsərlərin oxuculara təqdimatında müəlliflə bərabər iştirak etmişdir. Tamaşalara quruluş, bədii tərtibat verənlərlə, aktyorlarla yaradıcı, sirayətedici söhbətlər və mübahisələr aparmışdır. Ekranlaşdırılan əsərlərin ssenarilərini əsas mətnlərlə yazıçı-dramaturqun təhkiyələri ilə hərtərəfli müqayisə etmiş, onların haqqında orijinal, peşəkar şair-tənqidçi sözü demişdir.

Rejissorun fikri, düşüncələri, hiss və duyğuları aktyorun mənəviyyatına axır, oradan da yaradılan obrazın təbiətinə köçür".

*"- Baba müəllim (Əli Rza Xələfli Lənkəran Dövlət Dram Teatrının baş rejissoru, Əməkdar incəsənət xadimi Baba Rzayevi nəzərdə tutur), məni sevindirən bir cəhəti bir qədər tez demək istəyirəm. Sizin məqsədiniz film yaratmaq, lap elə dəqiq desək, "Tənha durna uçuşu" hekayəsinə ekran həyatı vermək olmayıb. Məncə, sizin məqsədiniz daha uca, daha alidir: siz həyatın fəsadlarını, eyni zamanda, zərurətlərini, təzadlarını, ziddiyyətlərini, ahəngini, harmoniyasını göstərmək, bəlkə də, dəqiqliyi əbədi bir qanunla tənzimlənən nəbzini tutmaq istəmisiniz".*

Hörmətli aktyorumuz Sabir Məmmədov sənətkar ustalığı ilə epizoddan-epizoda keçə bilir. Hər anın gətirdiyi ovqatı yaşayayarada blir. Sabir Məmmədov özünü Azərbaycan səhnəsində kifayət qədər təsdiq etmiş, ustad sənətkarlarımızdandır.

Sitatlara diqqət yetirilsə, bunlar adi sözlər, adi fikirlər, adi təəssüratlar deyildir. Milli-vətənpərvər, Qarabağ dərdli, Qarabağ yanğılı bir ədibin - Əli Rza Xələflinin dərindən-dərinə duyumudur, dərkidir, yaşamıdır, qeyri-adi həssaslıq və istedadla qiymətləndirməsidir.

Əsərlərinin araşdırılmasına və şərhinə ara verməyən Əli Rza Xələfli Hüseynbala Mirələmovdan ürəyinin istəyi, qaynar hərarətilə yazır. O, bu sənətkarın əsərlərində milli ruhun, milli mənəviyyatın, xalqın istək və arzularının canlı bədii ifadəsini görür; heykəllərə atılan güllələrin səsini eşidir, ağ paltarın ləkələri, həyatın üzü və astarı onu sərt gülüşə, acı istehzaya aparır, Fənayənin suallarını, tənhalığın əzablarını zərif çiçəklərin toplanmasını fikir-mənəvi aləmindən keçirir. Bu qüdrətli təbiətli, yaradıcılığında xalqı, Vətəni və milli torpaq bütövlüyünü yaşayan şair-publisist - Əli Rza Xələfli inanır ki, yazıçı-dramaturq Hüseynbala Mirələmov çox oxunan, əsərləri geniş yayılan sənətkardır.

***"Kredo" qəzeti,***
***№ 41 (456), 25 avqust 2007-ci il***

# SƏNƏTİN İŞIĞINDA

***İkinci hissə***

## GƏL GEDƏK VƏTƏN SARI...

### *Birinci məqalə*

Şərəf və ləyaqətini uca tutduğum Əli Rza Xələfli fəal tələbə olmuş, çoxminli kollektiv içərisində tanınmış, sayılıb-seçilmiş, ilk yazıları ilə həmyaşıdlarının diqqətindən yayınmamış, 1975-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Təbii, istedadlı, bacarıqlı və savadlı bir gənc Bakıda qala, elmin, maarifin, mədəniyyətin, incəsənətin və mətbuatın müəyyən bir sahəsində işləyə, uğur qazana bilərdi. Ancaq doğulduğu, boya-başa çatdığı məmələkət-Cəbrayıl, Cəbrayılın təkrarsızlığı isə sevinclə kədərin qovuşduğu Xudafərin, Xudafərin üstündə özy-özünün ürəyinə nələrisə pıçıldamaq arzusu onu çəkirdi, rahat buraxmırdı. Bu vətənpərvər gənc kəndi kənddən, adəti, ənənəni, məişəti, təsərrüfatı yaradanların özlərindən öyrənmək, bunları kövrək poetik düşüncəsində davamlı yaşatmaq istəyirdi.

Zal kişinin yurd-yuvasının spesifikliyi, nurani bir qadının qurduğu ocaq yeri, Şahvəlli, Tatar və Aşağı Xələfli məktəblərində şagirdlərə savad, mədəniyyət, xalqı isə istəməyi sevməyi öyrətmək həvəsi Əli Rzanın xatirindən, yaddaşından silinmədi, sonralar parça-parça canlı təəssüratları hiss və duyğular halında yaradıcılığına hopdu, poeziyasına gerçəkliyin rəngbərəng təzahürlərini, çalar və boyalarını gətirdi.

Əli Rza Xələfli cavandır, yaradıcılıq yaşını qabaqlayan ədəbi şəxsiyyətdir. O, 1953-cü ildə Cəbrayıl rayonunun Xələfli kəndində doğulmuş və həyatın "hər üzünü" - fərəhini də, kədərini də, şirinini də, acısını da, dinc, sakit yaşayışı da, üzü dönmüş üzüqara qaçqınlığın qəm yükünü də alnına yazmışdır. Kənddən neçə-neçə kitaba sığmayan canlı müşahidə və təəssüratları Bakıda mətbuatda - "Qoşa qanad", "Xudəfərin", "Qarabağ" və "Həyat" qəzetlərində işləyəndə xeyli zənginləşdirmişdir. Şair yaradıcılığını varlığın gur, hikmətlərlə dolu axarına

çəkdi, həyat olan yerdə lirika da, epik şeir də, dram da, bədii nəsr və publisistika da var - inamı ilə əsərlər yaratdı.

Əli Rza Xələfli təbii xarakterdir, sadə, kamil və bütöv insandır, zərif, oynaq, hissi-emosional və təsirli lirika ustasıdır. Lirika onun mənəvi-psixoloji aləmidir, fikir və düşüncəsidir, ürəyinin səsidir, hisslərinin, duyğularının bədii ifadəsidir:

***Arazı çağlar gördüm,***
***Daşların ağlar gördüm.***
***Vüsalı ilğım olan,***
***Yolunda dağlar gördüm.***

***...Araza qəfəs yoxdu,***
***Dəliyə məhbəs yoxdu,***
***Könlümü oxşamağa,***
***Bir sərin nəfəs yoxdu.***

Üstündə doğulduğu Xudafərin bu milli-vətənpərvər sənətkarın yaradıcılığında ümumiləşir, ayrılığın, həsrətin, qəm və kədərin daşıyıcısı təsiri bağışlayır, hər kəsi ağır düşüncələr və sarsıntılar aləminə salır. Şairin neçə-neçə əsərində, real həyati bədii təsvirində Ermənistan müstəmləkəçilərinin zülm və işgəncələri, şəhərləri, rayonları, kənd və qəsəbələri viran qoyduqları, torpaqları belə yandırdıqları görünür. Ə.R.Xələfli qüdrətli söz ustasıdır, həssasdır, tez hiss edən, çox tez hər hansı ifadə və kəlamda müxtəlif mənalar tapan zərif və kövrək insandır; çox zaman o mübahisələrə girmir, narazı qaldığı sözə çöz qaytarmır, etirazını siqar tüstüsü ilə udur. Bəlkə də o, minlərlə şəhidin, bir milyondan artıq ev-eşiyindən didərgin düşən insanın kədərini hər kəsdən çox duyur, od vurulan, yamyaşıl zəmilərin, dağların və dərələrin fəryadına biganə qala bilmir. Di gəl ki, sir-sifətinə, oturuş-duruşuna, hərəkət və münasibətinə baxanda Ə.R.Xələfli sakit, dinc, müdrik və məğrur görünür, dərd çəkənə, fikir və düşüncələrdən üzülənə oxşamır. Ona görə ki, şair dərdi, qaçqınların fəryad və acılarını ürəyinə salır, Qarabağın özü boyda kədərini fikri-mənəvi aləmində gəzdirir:

***Ağdam qəbir yerim,***
***Baş daşım Şuşa..***
***İndi oğulsan get***
***Adını yaz bu daşa.***

***Beləcə əyalət-əyalət öldük,***
***Xəyalata gömüldük.***
***...Qaytarın qəbir yerimi,***
***Əhləti hazır, goru hazır-***
***ölməyə gedirəm.***

***Qoyun keçim Xudafərini...***
***Gedim, görüm yerindəmi***
***Ocaq daşım?***
***Ölməyə gedirəm.***

Zərurət, bədii mətnin özü, bir də görürsən ki, Ə.R.Xələflini xitablara, nidalara, bədii suallara, uca ahəngə, müraciətlərə, daxildən püsgürən aşkar nifrətə aparır. Ancaq erməni yırtıcı-qəsbkarlarına ehtiraslı kin və qəzəbinin bu axarda bədii ifadəsi fitri istedadın - Ə.R.Xələflinin şeirlərində fərdi üslubi səciyyə daşımır. O, şeirlərinin çoxunda təfərrüata varmır. Haşiyədən az-az çıxır, məntiqi mühakimələrlə düşünmür, bədii həllini verdiyi faktlardan nəticə çıxarmır. Söyləmini təmkinli, axarlı, hissi-emosional aparır. Onun şeirlərinin hər sözündə, hər misrasında, hər bəndində yüksək bədiiliklə, dərin mənalı fikirlər yaşayır. Bu milli mündəricəli ədib şeiri hərarətlə, gur ilhamla yazır. Erməni qəsbkarları, erməni torpaq hərisləri, erməni qan içənləri, erməni hiylə və məkri pisdir, iyrəncdir-demir, bunlar şairin bədii məntiqindən, axarlı lirik deyimindən hasil olur; erməni amansızlığı, ermənin iyrəncdən də iyrənc xisləti, ermənin qırğına hərisliyi necə varsa elə də təzahür edir:

***Bir nərin dizini dərdi qatlayar,***
***Arxalı namərdlər mərdi qatlayar.***
***Körpü daşlarının bağrı çatlayar,***
***Üstündən adlayıb keçəni yoxsa.***

***Tüstüyə çevrilir, dərdin eşməsi,***
***Qəlbimi bu ağrı necə deşməsin.***
***Həsrətdən ağlayar yurdun çeşməsi,***
***Əyilib bir kərəm içəni yoxsa.***

"Girov dərdim", "Qarabağın qapısında düşüncələr", "Kəndimin borcu", "Görünməyən ağrı", "Qürbət eldə qərib məzar", "Özüm azmaram", "Dərdə boyanan dağ", "At muraddır deyirlər", "Vəsiyyət", "Anamın ocaq daşı", "Ürək yandıran səs" şeirlərində Qarabağ müharibəsinin reallığı-ermənilərin qana hərisliyi, onların müqəddəs dini inam, etiqad və iman yerlərini dağıtdıqları, tarixi abidələri, mədəniyyət ocaqlarını yerlə-yeksan etdikləri, zəmiləri, dağları, dərələri yandırdıqları, yüz minlərlə insanı evsiz-eşiksiz didərgin saldıqları dinamik lövhə, mənzərə və detallarda, çalarlı rəng və boyalarda görünür. Vətənpərvərlik amalı ilə yazılan "Ürək yandıran səs" adlı şeirdə nurani bir insan özü-öz səsinə qulaq kəsilir, gəncliyindən imdad, əyilmiş qamətindən murad umur. Xəyalən qanadlanır, göylərdən yurda göz qoyur, onun səsi ürək yandırır. İxtiyar qoca yurd, Qarabağ üçün qovrulur, erməniləri əzmək, torpağı əsirlikdən qurtarmaq üçün vuruşa bilmək bacarığını arzulayır. Ə.R.Xələflinin başqa şeirində ("At muraddır deyirlər") - hikmətli ifadə tərzində At-muraddır, təpərdir, uğurdur, qeyrətdir. Atla dəryalardan, dağlardan, dərələrdən, sıldırım qayalardan keçməyin, qəhrəman-la döyüşə getməyin, vuruşmağın tarixi ənənəsi vardır. At insanın hünərinə hünər calayır, onun cəsarətinin üstünə cəsarət gətirir. Ona görə də poetik "mən", "Qıratı", "Düratı", Qazaxın dilbozlarını, Qarabağın kürənlərini xəyalına gətirir. Güc və hünər rəmzi Atı soyunu unutmamağa, əslinə dönməyə çağırır:

***Kəhərsən, kürənsən, Qırat, Düratsan,***
***Bəlkə yaddaşını qanatmamısan?!***
***Axı sən istəksən, arzu, muradsan,***
***Əslini, soyunu unutmamısan?!***

***Təpər meydanıdır, elə kişnə ki,***
***Yuxulu başlara haray təpilsin.***
***Qəzəblə şahə qalx, elə kişnə ki,***
***Dəmir dırnağından alov səpilsin.***

***Yalmanına yatıb gedən babamın,***
***Ruhunu qaytarıb gətirməlisən,***
***Dumanlar içində itən obamın,***
***Bürküsünü qovub itirməslisən.***

"At muraddır deyirlər" səpkili şeirlərində Ə.R.Xələfli fikri, poetik amalı adiləşdirmir, sözdən-sözə, misradan-misraya məna dərinləşir, məzmunu asan dərk olunur. Bədii təsvir bənddən-bəndə oxucunu alır, onu düşünməyə, fikri-mənəvi hərəkətə aparır. Çünki görkəmli bir şair dövrün maraqlı, səciyyəvi, düşündürücü hadisələrindən yazır. Bilə-bilə bədii həcmi böyütmür, sözü kəsərli, yığcam və lakonik söyləyir. Seçilən, bədii həlli verilən məzmun formaya, forma da məzmuna hopur, bir-birini tamamlayır. Təkcə forma və formanın ünsürləri deyil, məzmun da dinamikləşir və bədii bütövlük yaranır. Ona görə ki, Ə.R.Xələfli sözün yerini, dəyərini bilən sənətkardır. O, şeirini zorla, şeir yazmaq xatirinə yazmır, çətinlik çəkə-çəkə məzmun tapmır. Üz-gözünə baxanlar, oturuş-duruşuna diqqət yetirənlər, söz-söhbətini dinləyənlər asan duya, hiss edə bilərlər ki, Ə.R.Xələfli təbiətən, xislətən narahat şəxsiyyətdir, həmişə fikir və düşüncə aləmindədir, nəyi, ya nələrisə öyrənmək, yaşamaq mərəzindədir. Bu ədibdə özü öz ürəyi, öz iç dünyası ilə danışmaq adi haldır. Gerçəkliyi, yaşayışı, adət-ənənəni, məişəti və insani münasibətləri yaşaya-yaşaya, duya-duya öyrənməsi Ə.R.Xələflinin həyata, həyatın müxtəlif təzahürlərinə çəkir. Bu səbəbdən də onun şeirlərində həyat nəfəsini, təravətini saxlayır, rənglər və boyalar özünə məxsusluğunu saxlayır:

***Boylanır yollara ümid mintəzir,***
***Həsrət əlçim-əlçim soyur dərimi.***
***On ildir gözlərin axtarır, gəzir,***
***Boyuma biçilmiş qəbir yerimi.***

*Qızıldan qəfəsdə açılmaz eyni,*
*Bülbül dil-dil ötər kollar üstündə*
*Qəribin karvandan üzülsə əli,*
*Əl açıb dilənər yollar üstündə.*

*Deməyin əsirdi, yurdu dardadı.*
*Səhər küləyində basdırın məni.*
*Açın ürəyimi-yurdum ordadı,*
*Elə ürəyimdə basdırın məni.*

Ə.R.Xələfli məişəti, adət-ənənəni, milli vərdişi hərtərəfli bilən, Şimalli-Cənublu Azərbaycanı bütün mənəviyyatı ilə sevən xalq adamıdır. Özü demişkən, şeirlərini Qarabağda, elə Xudafərində yazan, sərhəd tikanlarına baxa-baxa qəmli şərqilər deyən, bitib-tükənməyən əzablara, dərdə-qəmə dözən şair-publisistdir. Həsrət körpüsü yuxusuna gələndə, güllələnən heykəlləri xatırlayanda iç dünyası alovlanır, dərdlə, qaçqınların hamısının əvəzinə özünü kədərlə, həsrət yükü ilə yükləmək istəyir... "Vətən üçün göz yaşıdı, İldən-ilə qəm daşıdı. Sualı, nida-baş daşıdı, qürbət eldə qərib məzarı" - deyə-deyə öz-özünə gileylənir, Qarabağdan, erməni yağılarının qəddarlığından yazmaya, tutarlı söz deməyə bilmir.

Yaradıcılığı axtarışlar, bədii tapıntılar üzərindən keçən Ə.R.Xələfli həyatı özünəməxsusluğu ilə duyan, dərk edən, xırda bir fakta dərin sosial məna verə bilən şair-vətəndaşdır, ürəyi humanist duyğularla doludur. Onu xalq adından danışmağa və yazmağa aparan millətə bitib-tükənməyən məhəbbətdir. Bu ədib, sadəcə qarabağlı deyildir, Qarabağ onun döyünən ürəyidir, mənəviyyatıdır, nəsil-nəcabətinin kök atdığı, budaqlandığı vüqarıdır, şan-şöhrətidir. Bunların nəticəsidir ki, Ə.R.Xələfli həyatını, yaşayışını qaçqınların həyatına qatır. Qaçqınlar yaşayan çadırlara, yataqxanalara, şəraitsiz mənzillərə gedir, onların məişətlərini, istəklərini öyrənir.

Həsrət, kədər, dərd, qəm, ağrı-acı kəlamları Ə.R.Xələflinin xəlqi və novator yaradıcılığında işlənir, ancaq qənaətlə işlənir və

ayrı-ayrılıqda bu ifadələrin hər biri bədii-fəlsəfi məna daşıyır, şeirlərin müəyyən qismində "Qarabağın adı", "Girov dərdim", "Ricət", "Gümana gedən yol", "Ürək yandıran səs", "Sarı sim üstə", "Qorxuram", "Mənim döyüş meydanım", "Sınmış güzgünün bəxti", "Bir yuxu görmüşəm", "Yazmadığım nəğmə", "Bənövşə" bir, ya da bir neçə dəfə çəkilir. Lakin oynaq, lirik deyim dərhal oxucuya işğal məkanını-Qarabağı göstərir və misradan-misraya müəllifin poetik amalı açılır:

***Ay anamın ocaq daşı, hardasan?***
***Ümidinin son işığı gözləyir,***
***Ruhun göydə, özün yerdə, dardasan.***
***Axı, həsrət ürəyimi közləyir.***

***Ay anamın ocaq daşı, danışdır.***
***Daş dilində qardaşların dillənsin.***
***Bir ocaq çat öz qorunu alışdır,***
***Yağı düşmən gözlərimdən millənsin.***

Ə.R.Xələflinin mahiyyətini elm, maarif və mədəniyyət şərtləndirir. O, yeni tipli ziyalıdır, müasir mürdəricəli sənətkardır. Bu ziyalı-vətənpərvərin xarakterini, mənəviyyatını, psixologiyasını, dünyaya baxışını və zövqünü bədii yaradıcılığı tamamlayır. O, həyatı natural, realist və romantik müxtəlifliyi ilə yaşayır; çətinliklərdən, yaranan ziddiyyətlərdən, təzyiqlərdən qorxmur, Qarabağın dərd və kədəri, ağrı-acısı onu sındıra, insani bütövlük və məğrurluğunu parçalaya bilmir. Qarabağ təkcə torpağının düşmənin tapdağı altında tənginəfəs olması, insanların öz dərd və kədərinə bürünməsi ilə görünmür, həm də bu yerin insanlarının inam və etiqadlarının dərinliyi ilə fərqlənir. Onlar bu gün də olmasa, sabah Qarabağda Qarabağın sahibləri kimi yaşayacaqlarına, bu diyarı yenidən quracaqlarına inanırlar. Buna görə də qüdrətli bir şairin - Əli Rza Xələflinin yaradıcılında kədər və həsrətin bədii ifadəsi reallıqdır, bir şaxə, bir yöndür. Amma bədii istiqamət deyildir. Xalqın güc və əzəmətinin, milli qəhrəmanlıq ənənələrinin, cəmiyyətdə insanın

yer, mövqe və taleyinin, onun yaşamaq, yaratmaq, qurmaq və mübarizə aparmaq ehtirasının, gəncliyi vətənpərvər ruhda formalaşdırmağın, Qarabağın dərd və acılarını, bu məmləkətin gələcəyinə inamın bədii lövhə, detal və mənzərələrdə göstərilməsi və bədii məntiqdə təsdiqi Ə.R.Xələflinin lirikasının bədii pafosu, istiqamətidir.

Bu şairin poetik "Mən"inin əxlaqi-mənəvi aləmi el-obaya bağlıdır. Onun ürəyi Qarabağ həsrəti və nigarançılığı ilə çırpınır, varlığını, yaşayışını bu diyarsız təsəvvür etmir:

***Allah, bu diyarın batıbdır səsi,***
***Dərdini çağıran ozan tapılmır.***
***Əlindən tutmağa bir simsar kəsi,***
***Halına ağlayan, yazan tapılmır.***

***...Qarabağa talan salan yağının,***
***Kimə deyək zəhər qatsın aşına.***
***Qəddi əyilibdir Murov dağının,***
***Xan qızının yolu qalıb başına.***

***...Vətən oğlu, qəbzəsindən qan daman,***
***Babamın ruhunu çağır dadına.***
***Yoxsa tarixlərin hakimi, zaman.***
***"Papaqsız" sözünü yazar adına.***

Ciddi, təmkinli və istedadlı şair - xalq adamı Ə.R.Xələfli "Qarabağda doğulmuş"dur. Bu doğuluşun mahiyyətini özü belə şərh edir: "Hər bir insanın içində çox orijinal, heç vaxt tükənməyəcək, oxunub-bitməyəcək bir kitab var. Bu kitabın adı "Yurd"dur. İnsanın doğulub-böyüdüyü, müəyyən yaşa çatdığı yer insanın həyatının mənasına çevrilir. Yazılan da, qələmə gələn də, əslində elə budur. Nə qədər acınacaqlı olsa da deməliyəm. Müasirlərimizin bir çoxunda hələ də feodal təfəkkürü qalmaqdadır. Əzəli Azərbaycan torpaqlarını müvəqqəti olsa belə, Qarabağı itirməyimizin səbəbi budur. Bu günlərdə şahidi olduğum bir hadisəni bir-iki kəlmə ilə xatırlatmaq istəyirəm. Bir ədəbi məclisdə qələm dostla-

rım şeir oxudular. Mən də bir şeir oxumuşdum. Bir döyüşçü gənc də çıxış elədi. "Şeirlə Qarabağı almaq olmaz". Bu emosional məntiqin nəticəsidir. Bütün qələbələrin mayası sözdür. Qələbə təfəkkürdə hazırlanır. Yalnız sözün qələbəsindən sonra döyüşçü meydanda yağını yenə bilər" ...Və düzgün şərh edir.

"Qızıl Qələm" və "Araz" ali ədəbi mükafatları laureatı Ə.R.Xələfli incə, zərif və kövrək bəstəsiz də bəstəli lirika ustasıdır. Onun lirikası bənzərsizdir, orijinaldır, ideya-fəlsəfəsi məzmunludur: humanist-vətənpərvər mahiyyətlidir. Çünki Ə.R.Xələfli sənətkar həssaslığı ilə sözü sözdən ayırır, sözü dəyərləndirir, lirik şeiri yığcam, ifadəli yazır, onu nə fikirlərlə, nə də sözlərlə yükləmir; bədii-estetik təsir oyatmayan, oxucunu qanadlandırmayan, onu zənginləşdirməyən, düşüncələr aləminə aparmayan söz demir, fikir söyləmir. Bu da bir həqiqətdir, bu təbii istedadlı şairin lirik şeirlərində dilə çətin yatan, çətin tələffüz olunan sözlər işlənmir, əsərlər ahəngdarlığı, musiqililiyi ilə seçilir, yadda qalır, asan əzbərlənir:

***Bir daş var,***
***bir də qardaş...***
***Biri cansız,***
***biri canlı.***
***Biri qansız,***
***biri qanlı,***
***hər ikisi ikicanlı...***
***Birinin sözü yoxdur,***
***dözümü var;***
***Birinin dözümü yoxdur,***
***sözü var.***
***Birinin gözündə yaş,***
***o birinin dözümü daş...***
***...İki qardaş var,***
***çaş-baş,***
***İki qardaş!***

"İki qardaş" məzmunlu adi lirik şeir deyildir, sanki mahir bir rəssamın göz önündən getməyən, xatirələrdən silinməyən yaddaş diktəsi, yaratdığı təbii, poetik lövhədir, canlı mənzərədir. Bu mənzərə və lövhələrdə məzmun sirayətedicidir, müasirdir, bədii forma, tapıntı səciyyəlidir. Dil Azərbaycan şeirinin zəngin ənənələrinə söykənən bir milli şairin - Ə.R.Xələflinin saf, təmiz, dupduru ilhamlı şairanə dilidir. Özündə böyük bir əsərin məzmununu sığışdıra bilən bu lirik şeirdə bir sözü başqa bir ifadə ilə əvəz etmək, hər hansı misranı ixtisara salmaq mümkün deyildir. Çünki bu lirik deyimdə nida-nidanı, ahəng-ahəngi, söz-sözü tamamlayır, hər biri ayrılıqda fikir oyadır, hisslərə, duyğulara, mənəviyyata və psixologiyaya təsir göstərir. Çünki Ə.R.Xələfli "İki qardaş"ın cizgilərini həyatdan-naturadan almış, məzmunun ciddiliyi, ideya-estetikliyi onu fikrən hərəkətə gətirmiş və şeiri böyük ilhamla-zərif, incə, sakit və mülayim hisslərlə qələmə almışdır.

Lirik şeirlərini yazanda Ə.R.Xələfli fərdi yaradıcı şəxsiyyətini gerçəkliyə, zamanın bənzərsiz təzahürlərinə, insanın insani mahiyyətinə, cəmiyyətdə onun vətəndaş mövqeyinə, qayğı və narahatlığa yönəldir. Hər şeyi - yaxşını da, pisi də, gözəli də, çirkini də ehtiras və inamla mənimsəyir, məzmuna ilhamlı bir sənət sevgisi ilə yiyələnir. Buna görə də Ə.R.Xələflinin "Payız yağışı", "Şairin mükafatı", "Hər qayada çiçək bitməz", "Görünməyən ağrı", "Lənkəranda", "Dünya", "Yollar", "Günəş doğulan yerdə", "Ehey Amur", "Bir yuxu görmüşəm", "Yazmadığım nəğmə", "Bənövşə", "Ricət", "Girov dərdim", "Tapammadıq dərdimizi", "İçim özümü" və daha neçə-neçə şeirdə məzmun formaya, forma da məzmuna keçir və onları bir-birindən ayırmaq olmur, şairin çırpıntıları, hisslərinin təmizliyi təsir oyadır. Bu əsərlərin hamısı lirikdir, lakonikdir və şeiriyyətlə doludur, ədibin ifadə tərzi isə təmkinli və sərbəstdir. Doğru deyirlər: "Şeiriyyəti talant və ilham yaradır, əmək isə onu təkmilləşdirir; şeiriyyət qəlbin-ideyanın təcəssümü, canlanması, ifadəsidir, şeiriyyəti öy-

rənmək, onu təqlid etmək olmaz, ona bənzətmələr nə qədər bacarıq və məharətlə düzəldilmiş olsa da, bu bənzətmələr daim cansız olacaqdır". Çünki lirika təmiz hissdir, duyğudur, həyəcandır, çırpıntıdır, emosiyalardır. "İçəridən gələn bir səsdir, ürəyin dilidir, hissin gözəl sözləridir". Əli Rza Xələflinin lirikası həyatın isti nəfəsidir, müasirlərimizin arzularının bədii ifadəsidir, hissiyyatın dilidir:

***Yuxumda şah Qaçar İbrahim xanla,***
***Dil tapıb düşmənə həmlə endirir.***
***Nadir şah Əfşar da qılıncla-qanla,***
***Tutduğu yerlərə fərman göndərir.***

***...Qardaş qılıncları sıyrılır qından,***
***Ay Allah yuxumda tarix yazılır.***
***Ruhlar heç qorxmayır ölümdən-qandan,***
***Burda xəyanətin kökü qazılır.***

***Bu neçə yuxudu-zaman səddi yox,***
***Cavanşir dünəndən bu günə gəlir.***
***Bu necə yuxudu-məkan həddi yox,***
***Min illik yolları bir günə gəlir!***

Bütövlükdə yüksək şeiriyyətli bu əsərdə ("Bir yuxu görmüşəm") gerçəklik də, tarix və tarixdən bu günə axan reallıq da, insanın mənəvi-psixoloji aləmi və onun hissləri, çırpıntıları, emosiyaları da və bunların dinamik bədii ifadəsi də var. Bunlar ona görə belədir ki, Ə.R.Xələfli şair-vətəndaşdır, həyat, cəmiyyət, xalq adamıdır. O, dərin ideya-estetik zövqlü, kamil zəkalı, özünə və yaradıcılığına böyük qayğı və tələbkarlıqla yanaşan şairdir. Bu ədib şeir yazanda həssaslığını bir az da artırır, heç kimə bənzəmək istəmir, mənasını yaşamadığı həqiqəti, duymadığı hissləri və emosiyaları gur ilhamın həndəvərinə buraxmır. Bu sənətkarın lirikasında fikirlər təsirli və düşündürücüdür, hisslər, duyğular təbiidir, dərindir, gerçəkliyin ümumiləşmiş təzahürü-

dür, poetik "mən"in insana qayğısıdır, xalqa və milli torpağa sevgisidir:

***Əmrini ver ,***
***Ulu babam.***
***Mənim Ruhum,***
***Mete Xaqan.***

***Qoca Türküm-***
***Bilgə Xaqan-***
***Tonyukukum-***
***böyük insan!***

***Nə yaxşı ki, bu dünyada,***
***Sən olmusan, yenə varsan!***
***Şüurumda,***
***Varlığımda,***
***Genimdəsən,***
***İmanımda, dinimdəsən.***

Parça "Ehey, Amur" şeirindən götürülmüşdür. Məzmun ilhamla-vətənpərvər qayğı və çırpıntılarla seçilmiş, faktlar təmiz və zəngin mənəvi-psixoloji aləmdə yaşanmış, türk dünyası üçün çox mənalı bir bədii pafos poetik "mən"in milli stixiyasının ruhunda, estetik baxışlarında qiymətləndirilmişdir. "Ehey, Amur"da hisslər humanist bəşəri mahiyyətdədir, tarixi qəhrəmanlıq ənənələrini öyrənmək, qorumaq, yaşatmaq və bunları nəsillərdən-nəsillərə ötürmək gücündədir. Bədii yaradıcılığın ideya-estetik mahiyyəti elə bu cür olmalıdır.

Bu "Qızıl Qələm" və "Araz" ali ədəbi mükafatları laureatı Ə.R.Xələflinin insanpərvər və ictimai ideyalar yönlü lirikasıdır. Çox hallarda, bir neçə kiçik həyati hadisə, lövhə və mənzərə ardıcıl, ahəngar inkişaf edir. Bədii məntiq dinamikləşdikcə, xırda lövhə və mənzərələr bir-birinə qovuşur, hisslərin harmonikliyi və bütövlüyü yaranır. Bədii ifadəsini tapan belə lirik söyləmələr bir şəxsin poetik "mən"in ətrafında birləşir. Ə.R.Xələfli lirik təhki-

yəni aparır, gercəkliyi duyğularında, zehni, zövq və mənəviyyatında "bişirir", sadə bir rəngə hissiz, qayğısız və çırpıntısız qalmır. Real poeziya ilə dolu olan "Dağ və şair" kəlbəcərli cavan şair Namiq Dəlidağlıya ithafdır, şeirdə varlıq canlı müşahidədir, təəssüratdır, şairanə portretdir. Ə.R.Xələfli burada heyrətamiz istedadla əhvalatın mahiyyətini səciyyələndirir, misradan-misraya təsiri gücləndirir, yaddaşlardan silinməyən poetik mənzərə və detallar yaradır.

Lirik deyimdə - "Dağ və şair"də iki xalq - azərbaycanlılarla ermənilər arasında, "tikanəkən, qara daş qoyan", keşiş qəddardır, dinsiz-imansızdır, ehtiraslı qatildir, qana hərisdir, ümumiləşmiş tipdir. Bədii məntiqdə Cavan şair - N.Dəlidağlı Dəlidağa, Dəlidağ da ona həsrətdir, ürəyi yaralıdır, Qarabağ nisgilli, Qarabağ dərdlidir, poetik "mən" Ə.R.Xələfli isə kədərli-kədərli daxili-psixoloji hərəkətdədir, ancaq Qarabağın erməni yağılarının tapdaqları altında çırpınması onun vüqarını əyə, zəngin insani bütövlüyü özünəməxsusluğundan çıxara bilmir. O, Qarabağla yaşayır, Qarabağla nəfəs alır, Qarabağın tezliklə əsarətdən qurtaracağına inanır:

***Bir dağ var,***
***Dəlidağ,***
***Bir şair var,***
***dəlidağlı.***
***Hər ikisi qaralı-ağlı,***
***Onu fələk bilir,***
***hansı dağsız,***
***hansı dağlı,***
***...Dağ şairə həsrət,***
***şair dağa***
***Hər ikisinin***
***Bağrının başı,***
***Dönüb cızıldayan yağa.***
***Dağ qalıb əsirlikdə,***

*Boynu bükük.*
*Şairsə yesirlikdə,*
*Çiyni çəkik.*
*Hər ikisinin*
*Ürəyi yara.*
*Qara keşisin qara daşı.*
*Diş qıcayır.*
*Bu ahu-zara.*
*Ey fələk,*
*Tök ətəyindən daşı.*
*Götür ortalıqdan*
*Bu qara daşı.*

Lirikası yüksək şeiryyətdir, fikrin sərrast, aydın, konkret və lakonik ifadəsidir. Ümumiləşdirmədir, orijinallıq, novatorluq və xəlqilik-mütləq bədii tələbdir. Ə.R.Xələfli belə tələbləri qoruyur və bir az da zənginləşdirir. Çünki ədəbiyyat, təsirli bədii söz bu ustad sənətkarın yaşayışının, taleyinin, fəaliyyətinin məzmunudur. O, sözə, sözün gücünə, onun ifadə tərbiyəvi əhəmiyyətinə önəm verir, döyüşə - "Qarabağa, od-ocağa" insani fikrən-mənən hərarətləndirən, səfərbər edən sözlə gedir. Yaradıcılığının ilk illərində Ə.R.Xələfli barmaqla sayılacaq qədər "ovqat şeirləri" ilə düşünmüşdür. Onun belə əsərlərində həyat doğru ifadə olunmur, poetik "mən" ümumiləşmir, subyektiv məzmun alır, özündə daha çox bir fərdin istək və arzularını daşıyır.

Ə.R.Xələfli şeirə, şeirin janrlarına yaradıcı, müasir istiqamətdən yanaşan sənətkardır. O, təkcə ədəbi janrların poetik tələblərini qorumur, həm də yeni çalarlarla onları zənginləşdirir. Lirik şeirlərində gerçəkliyi lirik "mən"in hisslərindən, duyğularından, arzularından, zamanın müxtəlif hadisə və əhvalatlarından, insanın teleyinə baxışından keçirib ifadə edir. Ona görə poetik "mən" lirik şeirlərdə görünür, hərəkət edir. Söz deyir, fikir daşıyır. Bunlar da Ə.R.Xələflinin lirikasının rənglərinin ifadə tərzinə, ahənginə, ideya-estetik mündəricəsinə müəyyən qədər sub-

yektiv axar gətirir. Amma subyektivlik şeirlərə marağı soyuda, bədii təsiri azalda bilmir. Çünki şair lirik söyləmədə poetik, "mən"in hisslərinə, çırpıntı və emosiyalarına düşündürücü faktlar axıdır, insanların qəlbinə yaxın olan ideyaları önə çəkir:

***Sözün atəşidi qəlbində qalan,***
***İşığa bələyib onun üzünü***
***Nəğməsi, mizrabı ürəklər çalan,***
***İlham pərisinin öpər gözünü.***

***Qanına bələyər girinə keçsən,***
***Zamanın əlində hər nə var əsir.***
***Zamanın badəsin nuş edib içsən,***
***Zamının özü də sözünə əsir.***

Ə.R.Xələflinin lirikasında həyatın və yaşayışın fəlsəfəsi, adət-ənənə, insanın mahiyyəti birtərəfli verilmir. Onun şeirlərində varlıq rəngbərəngliyi, bənzərsiz təzahürləri ilə göstərilir. Bu ədib xalq adamıdır, müasir dövrün bütün çətinlikləri onun taleyindən keçmiş, hətta yaşayışını qaçqınların həyatına qatmışdır. O, subyektiv məzmunlu şeirlər yazmır. Bu ədib lirikasının məzmununu həyatın, cəmiyyətin, ictimai-siyasi münasibətlərin müxtəlif problemlərindən, elə də insanların talelərindən alır. Xəlqi-novator ədibin - Ə.R.Xələflinin lirikasında insan insanı duyan, düşünən, sevən, sevilən, fərəhlənəndə də, kədərlənəndə də təbii vəziyyətdən çıxmayan, bəzən realist, bəzən realist-romantik, bəzən də romantik-sentimental bir humanist, bir vətəndaşdır. Fərdi yaradıcılıqda bədii üsulların belə zənginliyini və bunların bir-birini tamamlamasını Belinski məziiyyət, estetik keyfiyyət adlandırırdı. Böyük istedadda daxili subyektiv ünsürlərin çoxluğu insanpərvərlik əlamətidir. Bu istiqamətdən qorxmayın: o sizi aldatmaz, o sizi səhv yola salmaz. Böyük şair özü haqqında, öz mənliyi haqqında danışarkən özünü ümumidən təcrid etmir. Böyük şair özü haqqında-bəşəriyyət haqqında danışır. Çünki bəşəriyyət nə ilə yaşayırsa, bunlar hamısı onun təbiətindədir. Məhz buna görə də onun qüvvəsində hamı öz qüvvəsini görüb tanıyır, onun

qəlbində və ruhunda hamı öz qəlbini və ruhunu və onu yalnız bir şair deyil, eyni zamanda bir insan, bəşəri qohumluq nöqteyi-nəzərindən öz qardaşı hesab edir. Hamı onun müqayisəedilməz dərəcədə yüksək bir varlıq olduğunu etiraf edir; lakin eyni zamanda, ona çox yaxın olduğunu da başa düşür.

Ə.R.Xələfli şeirlərini təbii ilhamla, xalqa və vətənə sevgi ilə yazır. Onun lirikasında həyat özünəməxsusluğu ilə görünür, insanın ruhu duyulur, səsi eşidilir: "Onun bütün şeirləri dərin mənalıdır, bunlarda ruhun nemətləri ilə zəngin olan təbiət, nəcib və insanpərvər şəxsiyyət ifadə olunur".

***5.12.2009***

# LİRİK-EPİK ŞEİRİN AXARINDA

*İkinci məqalə*

Əli Rza Xələfli yeni dünyabaxışlı, müasir duyum və dərkli, orijinal üslublu şair-publisistdir. Ölkədə yaxşı tanınan, şöhrət tapan şair-vətəndaşdır. Onun yüksək şeiriyyətli, səmimiyyətlə dolu lirik epik-lirik poeziyası yayılır, ədəbi mühitdə ciddi maraq oyadır. Sənətkarın lirik-epik əsərləri "Bir Xələfli var imiş", "İçərişəhər: Daşlar - insanlar", "Araz ağrısı", "İnsan, tarix və zaman"... onun yaradıcılığında bir qol, bir şaxədir. Bu şaxə kəmiyyət baxımından çox da tutumlu, əhatəli deyildir. Ancaq poemalar ifadəlidir, lövhələrin, mənzərələrin detalların poetik ifadəsi yığcamdır, konkretdir, dinamikdir, gəlimlidir. Müəyyən detal və lövhələrin təsvirində qan yaddaşına epizodik qayıdışlar xalqın yaşayışına, ruhuna, mənəviyyatına və düşüncəsinə Ə.R.Xələflinin öz nəzəri, öz milli stixiyası ilə baxımı poemaları bir-birinə yaxınlaşdırır; millətin gələcəyinə, qanunauyğun inkişafına keçid onun keçmişindədir-inamı poetikləşir, ideya-estetik pafos təsiri bağışlayır.

Poemalarda tarix də, tarixi hadisələr də, ədəbi şəxsiyyətlər və memarlar da, Şirvanşahlar sarayının neçə-neçə mötəbər insanı da, Xudafərin körpüsü və Araz da, qəbiristanlıqlar da, məkanlar-regionlar da, milli qəhrəmanlar və Qarabağ şəhidləri də, qaçqınlar da görünür; bütün bunlar yadda qalır, ya inam, ya fərəhə çevrilir, ya qürur, təəssüf və heyrət, ya kədər, ya nisgil və həsrət hissi doğurur; bədii sturukturda zaman dinamikləşir, təbii istiqamət tapır.

İnsanların, kəndlərin, dağların, kəhrizlərin, hadisə və əhvalatların adlarının çoxluğu "Bir Xələfli var imiş", "İçəri şəhər: Daşlar-insanlar" və "Araz ağrısı" poemalarının strukturunda dağınıqlıq, sistemsizlik yaratmır. Çünki Ə.R.Xələfli ustad sənət-

kardır, onun əsərlərə bədii tərtibat-quruluş vermək, fikri aydın, yığcam və konkret ifadə etmək, mətləbi uzatmamaq təcrübəsi zəngindir. Onun mahiyyəti müasirliklə aşılanan poemalarında sujetlər şaxələnmir, hadisələr bir mükəmməl, sosial-ictimai mənalı poetik axarda inkişaf edir, surətlərin portretləri və tərcümeyi-halları aforistik təsirli misra və bəndlərlə bəlli olur. Və hadisələrdən-hadisələrə, lirik həyati mühakimələrdən-mühakimələrə poemalarda güclü, hərarətli lirik deyim epikliyi üstələyir, ünsürləşdirir.

Ə.R.Xələflinin yaradıcılığı zəngindir, çox istiqamətlidir, löngərlidir, fasiləsiz bədii hərəkətdədir. Ədib poemalarını böyük ədəbi təcrübə yığandan sonra qələmə almışdır. "Bir Xəlalfi var imiş" şair bədii yaradıcılığının, hərəkətinin, inkişafının yeni təzahürüdür. Poema yalnız görkəmli şair-publisist Ə.R.Xələflinin poeziyasında deyil, bötövlükdə müasir Azərbaycan şeirində yeni orijinal, düşündürücü ədəbi hadisədir.

Azərbaycan xalqının böyük sənətkarı Seyid Məhəmməd Hüseyn Şəhriyar "Heydərbabaya salam " poeması ilə bənzərsiz ədəbi məktəb yaratdı. Poema tez yayıldı, neçə-neçə dilə tərcümə olundu. Şəhriyar haqqında rəngbərəng fikirlər söyləndi. Xalqımızın qüdrətli şair-publisisti Ə.R.Xələflinin "Xəzan oldu baharı" məqaləsində deyilir: "Azərbaycan dilini axıracan yandıra bilmədilər" Şəhriyar bu dilin külə dönmüş qalıqlarının altında qalmış qor kimi közərdi. Közərdi və alova döndü. Şəhriyar adlı körpüdən o taya-bu taya ayaqlar açıldı. Rejimlərin qadağa qoyduğu Xudafərin qovrula-qovrula qalsa da, Şəhriyar körpüsündən keçən insanlar bir-birinə qovuşdular.

Şəhriyar o tayda məktəb olduğu kimi, bu tayda da məktəb oldu. Oxunan, öyrənilən, yaddaşlara yazılan məktəb".

Şair-publisist Ə.R.Xələfli fəal, həssas duyğulu, taleyini söz sənətindən ayrı təsəvvür edə bilməyən ədəbi şəxsiyyətdir. O, bədii mədəniyyətin inkişafını diqqətlə izləyir, yeniliyə etinasız qalmır.

Bu ədib Şəhriyarın poeziyasından üzülmür, onu öyrənir. "Bir Xələfli var imiş"də, "Heydərbabaya salam"ın yaradıcı təsiri aydın görünür:

***O salamı sözə büküb öpürəm,***
***Yollarına sözdən çiçək səpirəm.***
***Ruhum acdı, gözlərimə təpirəm.***
***Bu yoxuşu bəlkə bir cür diklənəm.***
***O salamın ruhu üstə köklənəm.***

"Bir Xələfli var imiş", ifallı, müdrik, zəhmətsevər, dünyasını Bakıda dəyişən bir qaçqına - Ə.R.Xələflinin dayısı Məhəmmədhəsənə ithafdır. Poema Qarabağın işğalına qədər Quşçular kəndinin müdafiəsinin mətanətli təşkilatçılarından biri - Qəşəm Məmmədova səmimi məktub-müraciətdir. Əsərdə dayı oğlu Qəşəmə müraciət çox uğurlu, canlı dinamik üsuldur, bədii tapıntıdır. "Bir Xələfli var imiş"də Qəşəm görünmür, danışmır, fikir söyləmir, heç kimlə, heç kəslə əlaqə və münasibət saxlamır. Lirik bədii söyləmədən hiss olunur ki, cəbhəçilər Qəşəmi sevirlər, Qəşəmə qayğı göstərirlər, Qəşəmə inanırlar. Bilirlər ki, Qəşəm cəsarətlidir, hünərlidir, həm fiziki, həm də mənəvi dayaqdır, erməni yağılarından qorxmur, döyüşə öndə, qələbə əzmi ilə gedir, döyüşçülərdə vətənpərvərlik ruhu oyadır.

Əsərin bütün xətlərində Qəşəm hərəkət etməsə də, düşüncələrdə daxilən hərəkətdədir, mənəvi-psixoloji gərginlikdədir, səngərlərdə istedadlı təşkilatçıdır, ölümdən qorxmayan cəsarət timsalıdır, Qəşəmə şair-publisist Ə.R.Xələfli inam, sədaqət, etiqad və döyüşləri hünər və cəsarətlə yaşamış insan kimi müraciət edir. "Bir Xələfli var imiş" poemasında, Qəşəmə poetik xitab hərarəti artırır, Qəşəm ucalır, əzəmətli görkəm alır, sanki el-obaya, Qarabağa ümumxalq məhəbbəti onun hisslərindən, duyğularından keçir; bəşəri əzəli və əbədi yaşarılıq alır:

***Haqq yolunda sərvətindən keçənlər,***
***Yaxşı-pisi ayıranlar, seçənlər,***
***Şəhidliyi badə kimi içənlər.***

*Qanı sızan bu torpağın canıdır,*
*Ruzigar da axan şəhid qanıdır.*

Həyatını Qarabağ döyüşçülərinin və qaçqınların həyatına qatan görkəmli şair-publisist Ə.R.Xələfli dayısı oğlu Qəşəmin dönə-dönə ağır döyüşlərə girdiyini, qorxmadığını, sarsılmadığını, igidlik göstərdiyini bilirdi. O, Qəşəmin psixologiyasına, mənəviyyatına, düşüncəsinə dərindən bələd idi. Böyük vətənpərvər Ə.R.Xələfli qohumluq münasibətlərindən asılı olmayaraq, Qəşəm səciyyəli insanları hərarətli qayğıya və sevgiyə alır. Ona görə də lirik-epik şeirlərində və publisist əsərlərində Qarabağ şəhidlərindən-Seyid Əli Qiyasoğlundan, Mirələm, Məhiyyəddin kədərindən, sənətkar heyrəti və sənətkar təəssüfü ilə sarsıdıcı söhbət açır.

Lirik-epik söyləmənin təbii axarında "İgidlikdə bir aləm" olan, Şayaq döyüşlərində şəhidliyə qovuşan Milli Qəhrəman Şikar Aslanov düşüncə və əməllərdə yaşayır, nəsillərə vətənpərvərlik, torpağı qorumaq ruhu aşılayır. Xalqa ehtiraslı sevgi pəhləvanı döyüşə - Cəbrayılın Qışlaq kəndinə Kuril adalarından gəlrir. Lakin hünərli, yenilməz bir igid şəhid olur, yurd-yuvasını sevənlərin qəlbinə köçür. Şair-publisist Ə.R.Xələfli Pəhləvanın - qeyri-adi cəsarət sahiblərinin - vətənpərvərlərin ruhları, qəm gətirən yurddan əsən yellər salamlayır, - deyir. Nə qədər ciddi və təmkinlidirsə şair-publisist Ə.R.Xələfli bir o qədər də sadədir, yatımlıdır, kövrəkdir, bir az da sentimentaldır, nisgillidir, dərdiqəmi ürəyində gəzdirən insandır. Onu kövrəldən Qarabağın işğalı-xəyanətin qurbanı olmasıdır, şəhidlərin sahibsiz ailələridir, övladsız qalan anaların fəryadıdır, qaçqınların gün-güzəranıdır. Ə.R.Xələfli təkcə novator və xəlqi bədii əsərlər yazmır, həm də tez-tez qaçqınlarla görüşür, onların dözülməz yaşayışlarını mənəviyyatında daşıyır. Qarabağın müvəqqəti itkisi, bu itkinin nisgil və həsrəti onun yazı laboratoriyasından ayrılmır. "Xəlil-Şəmil qardaşları keçmiş Hadrut rayonunun Günəşli kəndində

yaşayırdılar. Erməni işğalçıları az qala Hadruta bitişik olan bu kəndi uzun müddət işğal edə bilmədilər. 1993-cu ildə Qarabağın bütünlükdə işğalı zamanı kənd erməni işğalçıları tərəfindən dağıdıldı və yandırıldı. Burada müdafiə komandiri Sərdar Balakişiyev idi. Çox qoçaq və cəsur döyüşcü idi. Kənd işğal olunanda Xəlil-Şəmil qardaşları itkin düşdülər. Yetmişdən çox yaşı olan bu kişilər sakit təbiətli zəhmət adamlarıydılar. Ancaq erməni faşizmi üçün bunun heç bir əhəmiyyəti yox idi". Bunlar və Ə.R.Xələflinin həzin, kövrək, şeiriyyətlə zəngin ifadə tərzi həm ürəkləri ovudur, ruhumuzu Qarabağa-Vətənimizin bir parçasına aparır, həm də erməni faşizminə çoxistiqamətli kin, qəzəb, nifrət və intiqam hissi oyadır. Kamilin arvadını bir güllənin qana bələməsi, döyüşlərdə Musa kişinin iki oğul itirməsi, ahıl yaşda İdrisin əsir düşməsi oxucunu heyrətləndirir, onun qəzəbinin üstünə qəzəb gətirir:

***Unutmayın Seyid Əli adını,***
***Şirin bildi şəhidliyin dadını,***
***İndi qalıb bir oğulu, qadını.***
***Deməyək ki, bir gül soldu, gülmədi,***
***Vətəninə qurban oldu, ölmədi.***

***Döyüş yolu Laçın, Tərtər, Kəlbəcər,***
***Vətən yoxsa, niyə sağam, gəl əcəl.***
***Vətən sarı məzarlardan yol keçər.***
***Şəhid olan Məhyəddinə nə deyim.***
***Ruhuna da sözdən əvvəl baş əyim.***

Kədəri daxilində böyüdən, ancaq onu əbədiləşdirmək istəməyən şair-publisist Ə.R.Xələfli, "Bir Xələfli var imiş" poemasında cavan yaşlarından dərindən tanıdığı Qarabağ döyüşçülərini unutmur, onların şəxsi keyfiyyətlərini, çətin döyüşlərdən keçən fəaliyyətlərini düşüncə və yaddaşında gəzdirir. Daxili-mənəvi ehtiyac duyanda bunları hissə-hissə, parça-parça qələmə alır.

Çox təsirli, sarsıdıcı bədii həqiqətə çevirir.

"Bir Xələfli var imiş" Qarabağ döyüşlərinin ilk mərhələsinin həqiqətləridir, təkrarsız reallıqdır. Ə.R.Xələfli Seyid Əli Qiyasoğlunu, Sərdar Balakişiyevi, Məhyəddin Qiyasoğlunu Yusif və İsaq Musaoğullarını, Müzəffər Rüstəmovu və daha neçə-neçə şəhidi şəxsən tanıyırdı, onların cizgilərini naturadan alırdı, ümumiləşdirirdi. Qəşəm də bütövlükdə Qarabağın cəsur və yenilməz döyüşçülərini təmsil edir, yaşayan canlı şahid, tarixdir. Qaçqınlıq faciəsi də onun alın yazısıdır. Buna görə də bu dünyanın sərvətində gözü olmayan, "Qaf dağında zəncirə çəkilən", oda-alova atılan, sözdə gedən haqq ədalət davasına; xeyir əməlin, savab əməlin göz deşməsinə, torpağın qamətinin əyilməsinə dözə bilmir, ildırımların qəfil çaxmasına, insanları qarsalamasına, Mazan nənənin gözlərindən sellər axmasına, dünyanın Qarabağın taleyinə biganəliyinə heyrətlənir. "Dayısı oğlundan ötə sözü olmayan" şair-publisist Ə.R.Xələfli Qəşəmin məntiqinə, kədəri cəbhə düşüncə və təəssüratlarına inanır, bu qəhrəmanı keçən günləri yada salıb yenidən "inləməyə, kədərlənməyə çağırır":

***Bir düşəydim bu yolların ağına,***
***Bir çıxaydım Gordu baba dağına,***
***Qovrulaydım cızdağına, yağına.***
***Oxuyardım dağlar səndə gözüm var.***
***Biləsən ki, məndə dərdə dözüm var.***

***...Neyləyim ki, yurdun yolu bağlıdı,***
***Fəsilləri qaralıdı, ağlıdı,***
***Bu yolların sinələri dağlıdı.***
***Yaman günün ömrü yaman uzandı,***
***Fələk özü qəbirləri qazandı.***

Bədii əsəri şair-publisisit Ə.R.Xələfli istedadla, təmkinlə yaşaya-yaşaya qələmə alır. Məzmunu hərtərəfli yaşayır, hər sözü, hər ifadəni şeirə gətirmir, söz üstündə yanır. Çünki söz şair-pub-

lisist Ə.R.Xələflinin poeziyasında poetika amalıdır, mənadır, fikirli düşüncədir, hissləri, duyğuları, emosiyaları açmaq üsuludur. "Bir Xələfli var imiş" də ədib hərarətli və həzin forma seçir, yerinə düşməyən, qayəni aydın, konkret və canlı ifadə edə bilməyən kəlamlar işlətmir. Poemada Qarabağın fədakar döyüşçülərinin, eləcə də taleyini Qarabağ müharibəsindən ayırmayan adlı-sanlı sənət adamlarını xəsis cizgilərlə, amma unudulmayan təsirli boyalarla səciyəvvi əlamətlərilə göstərir və "Bir Xələfli var imiş" əsərində onları "tarixin yaddaşında saxlamaq" istəyir. Deyəsən, sənətkarın özü də bu həyati məzmunlu poemanı bədii-tarixi salnamə kimi dəyərləndirir:

***Quşçuları unutmuşduq az qala,***
***Yazıram ki, bu dünyada iz qala,***
***O beş evin hər oğulu bir qala.***
***Qalaları bu tarixdən nə silər,***
***Qalaların ömürləri min illər.***

Bədii sözün gücünə dərindən inanan, onu idraki-tərbiyəvi vasitə kimi dəyərləndirən şair-publisist Ə.R.Xələfli "Bir Xələfli var imiş" poemasını zamanın tələbləri ilə, insanların istək və arzuları ilə yazıya almışdır. Çünki burada erməni canavarlarının yırtıcılığı, onların torpağa və qana hərisliyi görünür, dünyanın bir sıra xalqında belə qəzəb və nifrət hissi doğurur, toylarda və yas mərasimlərində şəhidlər xatırlanır, ruhlarına dualar oxunur, hər kəsdə erməni qəsbkarlarından qisas almaq istəyi yaranır. Yurd-yuvasını sevən, özünü xalqdan ayırmayan vətənpərvər qaçqınların taleyinə üzülürlər, Qarabağı azad etmək üçün yollar və üsullar arayırlar.

Ehtiraslı xalq-vətən adamının şair-publisist Ə.R.Xələflinin "Bir Xələfli var imiş" poeması Qarabağa sevgi və qayğını xeyli artırır. Onu oxumağa, dərindən yaşatmağa təbii ehtiyac yaranır. Qüdrətli bir şair-publisistin Ə.R.Xələflinin yanıqlı və hərarətli poetik deyimi oxucunu inandırır ki, ancaq əli hünər və qeyrətlə

silah tuta bilənlər yox, həm də ahıl yaşlı qarabağlılar, "vətən dərdi, qeyrət yükü çəkirdilər", ölümlə üz-üzə, göz-gözə dayanırdılar. Ancaq "parçalandıq, düşmən bizi taladı, Qarabağı od-alova qaladı". Bunlar müəllifin Qarabağın gələcəyinə inamını azalda bilmir. O, inanır ki, XX əsrin əvvəllərində hadrut kəndində müəllim işləyən Üzeyir Hacıbəyovun milli vətənpərvər ruhu məhz Qarabağdan yenidən oyanacaq, xalqı birliyə, Qarabağı Babək, Dədə Qorqud və Koroğlu hünəri və cəsarətilə qorumağa səsləyəcəkdir, həyatını vaxtsız dəyişən böyük sənətkar Səxavət Məmmədovun ruhu-mənəvi aləmi şahə qalxacaq, Qarabağda toyları zinətləndirəcək, heyrətamiz səsi ilə möcüzə yaradacaq, iyrənc düşmənlərimizi qorxu və vahimədə saxlayacaqdır. "Zaman-zaman söz aşiqi, məclislərin yaraşığı Kamil toylarda yenə toybaşı olacaq", Qarabağ yırtıcı ermənilərsiz dinc həyat yaşayacaqdır. Azərbaycan xalqının məşhur sənətcisi istedadlı müğənni-pedaqoq Yaqut xanım Abdullayevanın mahnılarının ahəngi yeni istiqamətə düşəcək. Amansız erməni yağılarını əbədi fəryadda saxlayacaqdır. Çünki Yaqut xanım Abdullayeva bənzərsiz müğənnidir, səsi valehedicidir:

***Bir nisgil də yada salım, qaralı,***
***Vətən sarı ustad Hüseyn yaralı.***
***Bülbül timsal, qəlbi güldən paralı***
***Quşcularda toy, mağarda oxurdu.***
***Araz dərdin ürəyində toxurdu.***

***Bir dastandı bu Yaqutun naləsi,***
***Şikəstəsi Qarabağın haləsi,***
***Tab gətirməz yağı, düşmən çələsi,***
***Ürəklərdə təndir qalar, od qalar,***
***Qorunarsa əbədidir, ad qalar.***

"Bir Xələfli var imiş" poeması heca vəzni ilə yazılmışdır. Fərdi bədii yaradıcılıqlarda hecanın beşlik bənd növünə müxtəlif is-

tiqamətdən yanaşılır. Onun gah birinci bəndinin son iki misrası, gah da bir misrası bütün bəndlərdə dərinləşir, yeni bənd növləri yaranır. Elə “abbb, abubq, aabav, abavb, aavab, avabq, abubb və aabab” bənd növləri XX əsrin 50-ci illərinin ədəbi hadisəsidir. Beşlik və altılıq bənd növlərindən ilk dəfə Səməd Vurğun istifadə etmişdir.

Ə.R.Xələfli müdrik sənətkardır, orijinal, təkrarolunmaz ədəbi simadır. Onun bədii yaradıcılıqda öz sözü, öz yolu, öz istiqaməti, tez seçilən, tez tanınan, fərdi yazı tərzi, üslubu vardır. Lirik-epik əsərlərində heç kimə oxşamır, yalnız özünün zəngin poeziya aləmini yaşayır, yüksək məzmunlu şeirlər yazanda geniş dünyagörüşünə, istedadına, bədii zövqünə, dərk və duyumuna söykənir. Hecanın beşlik bənd növündən Ə.R.Xələfli özünəməxsus, yaradıcı yararlanmışdır. Poemanın birinci hissəsinin əvvəlindən sonuna qədər sənətkar hecanın beşlik bənd növünün “aaabb” qafiyə sistemindən istifadə etmiş, yəni misraların təkrarına ehtiyac duymamışdır. Çünki bənd növünün bu forması geniş fikir, dərin məna tutumludur, dinamikdir, ahəng rəngbərəngdir, misradan-misraya keçidlər axarlı və ləngərlidir.

***Dayı oğlu, qardaş bildik yadları,***
***Yada salım yurdda qalan adları,***
***Ruhumuzu göynədəcək dadları.***
***Kəlmələrim şirin olsun, ya acı,***
***Dinləyənim qardaş olsun, ya bacı.***

"Bir Xələfli var imiş"da tarixi şəxsiyyətlərin, Qarabağ döyüşçülərinin, həyatını Qarabağ faciəsinə qatan qaçqınların, müxtəlif peşə, sənət və elm adamlarının, dağların, ziyarət ocaqlarının, kəhrizlərin adları sıx-sıx işlənir. Bu, məzmunlu, tarixi-müasir əhəmiyyətli bir poemaya ağırlıq, faktlar, adlar, hadisə və əhvalatlar yükü gətirmir. Çünki şair-publisist Ə.R.Xələfli sənətkar məharətilə orijinal ədəbi yol seçir, yerli-yerində poemanın sonunda mənalı tarixi-elmi və etnoqrafik xarakterli izahlar-şərhlər

verir, ustad şair-publisist Ə.R.Xələfli "İçərişəhər: Daşlar-insanlar" poema essesində də bu formadan yararlanmışdır. İzahlar-şərhlər poemaların hər məqamının dərkini asanlaşdırır, həm də oxucunu yeni faktlarla zənginləşdirr.

Şair-publisist Ə.R.Xələfli "Bir Xələfli var imiş" poemasında şaxəli, qollu-budaqlı sujet qurmamışdır. Əsərdə güclü fərdi obrazlar da yaradılmamışdır. Poemada insanları, hadisələri, ictimai-siyasi prosesləri görən və göstərən, hərtərəfli müşahidədən keçirən "mən"dir. Ə.R.Xələfli, yəni "mən" "Bir Xələfli var imiş" söyləməsində geniş psixoloji dinamik hərəkətdir, hamını, hər kəsi dəyərləndirən meyardır.

Əksər hallarda fərdi kədərə bürünən, amma ümidini qırmayan, inamla yaşayan harmonik ədəbi simadır. O, daxilən bütövdür, kamildir, poemada hadisələri bu yöndən istiqamətləndirir. İnsanları onların əlaqə və münasibətlərini vətəndaş qayğısı, çırpıntı və narahatlığı ilə dəyərləndirir. Ustad Ə.R.Xələfli söyləməni-səciyyələndirməyi müdrikanə, dağ çaylarına bənzər gur, ləngərli aparır. "Bir Xələfli var imiş" poemasının sujeti də belə bədii prosesdə, qüdrətli bir ədibin Ə.R.Xələflinin yüksək bədii söyləmə və səciyyələndirməsində yaranır. Heca vəzninin beşlik bənd növünün hər bəndində hər hansı bir insan, hər hansı bir əhvalat haqqında çox tutarlı, oxucunu davamlı təsirdə saxlayan fikir söylənilir. Poemada bu şəxs, bu əhvalat haqqında bir də söz deyilmir, bədii təkrara ehtiyac duyulmur. Bu sənətkarlıqdı, yaradıcı hünərdi, Ə.R.Xələflinin Zülfü nənəsi, kənddə ləyaqətli, nurani, imanlı və etiqadlı qadın kimi tanınır. O, narahat yatanda, yuxu görəndə yuxunu aydın xatırlayanda Dağdağan ocağına ziyarətə gedir, rahatlıq və təsəlli tapır. Bu mətləb poemada xırdalanmır, aydın və konkret ifadə olunur:

***"Dağdağan"ın ocağına, daşına,***
***Nənəm gedib şam qoyardı qaşına,***
***Baxmaz idi altmış-yetmiş yaşına,***

***Uzun yolu yuxu görsə gedərdi,***
***İndi halım pis yuxudan betərdi.***

"Bir Xələfli var imiş" poemasının beşlik bənd növünün hər bəndində tamam yeni, tamam orijinal fikirlər söylənir. Bənddən-bəndə keçidlərdə bədii məntiqi ardıcıllıq qorunur, hər bənddə bir insandan, bir əhvalatdan söz açılır.

Bunlar bədii marağı artırır, oxucu yeni-yeni insanlar görür, onların hünərləri ilə tanış olur, yeni-yeni əhvalatlarla qarşılaşır. Əsərdə, eyni zamanda, ən maraqlı, ən səciyyəvi qüdrətli şair-filosofun bənd növlərinin böyük əksəriyyətinə verdiyi elmi-etnoqrafiq izahlar-şərhlərdir. Bu şərhlər mahiyyətcə təzədir, Qarabağı öyrənmək, daha dərindən mənimsəmək üçün əhəmiyyətlidir. "Quşçular kəndi" keçmiş Hadrut rayonuna daxildi. Qədim alban kəndi olub. Məmməd Həsən dayı və qohumları II Cahan müharibəsindən sonra Xələflidən köçüb burada-Quşçular kəndinin xarabalıqları yerində məskunlaşmışdılar. Bir neçə evdən ibarət olsa da, kənd abadlaşmışdı. Burada alban kilsəsi, abidə daşlar və bulaqlar var idi. Günəşli keçmiş Hadrut rayonuna az qala bitişik kənd idi. Sakinləri, əsasən Xələflilərdən ibarət idi. Diri dağı-Xudafərin körpüsünün söykəndiyi dağın adı. Azərbaycan aşıq poeziyasının atası sayılan Xələfli Dirili-Qurbaninin qəbri Xələfli stansiyasının (Aşağı Xələfli) Qurbanlı adlanan qəbiristanlıqdı. Aşağı Xələfli Dağ Xələflidən 60 kilometr uzaq məsafədə yerləşsə də, eyni camaat idi. Bu qiymətli tarixi etnoqrafik və ədəbi izahlar poemaya aydınlıq məna dərinliyi və məlumat əhatəliyi gətirir:

***Nüsüslülər varlı-hallı, karlıydı,***
***Dağlar başı dumanlıydı, qarlıydı,***
***Bağ-bağcalar mer-meyvəli, barlıydı.***
***Torpaqları bərəkətin kanıydı.***
***Halal zəhmət Nüsüslünün canıydı.***

***...Quşçuların özü qədim kənd idi.***
***Yağılara hasar idi, bənd idi,***

***Mer-meyvəsi şəkər idi, qənd idi,***
***Buz-bulağı Abı-Kövsər, bir zəm-zəm,***
***Çinarının kölgəsində dincələm.***

"Bir Xələfli var imiş" geniş milli mündəricəli, xəlqi, novator yönlü poemadır. Bu əsərlə "Araz ağrısı"nı bir-birinə yaxınlaşdıran, zamanın ruhunun milli amal və istəyin, xalqın həyatına qaynayıb-qarışmağın, humanist-vətənpərvər hisslər, dərinliyin kamil, yetkin, ləngərli şeiriyyətlə ifadəsidir. Poemaların ahəngini, poetik ruhunu, ümumi pafosunu bir-birinə yaxınlaşdıran, bir də şair-publisist Ə.R.Xələflinin hadisə və əhvalatlara sənətkar - vətəndaş yanğısı ilə yanaşmasıdır, çılğın od-ocaq, xalq sevərliyidir, bitib-tükənməyən Qarabağ, Araz həsrəti və nisgilidir.

Şair-publisist Ə.R.Xələflinin "Araz ağrısı" poeması düşündürücüdür, idrakı-tərbiyəvi əhəmiyyətlidir və kəskin tənqidi sosial mənalı proloqla başlayır. Poemanın proloqu oxucunu hadisə və əhvalatları dərkə, mənimsəməyə hazırlayır. Poema zəngin bədii hisslərlə, güclü poetik-fəlsəfi müşahidə, təəssürat və yaradıcı axtarışlarla yazılmışdır. Burada müasir geçəkliyin axarlarını şərtləndirməyən, insanın arzularını, həyati tələb və istəyini tamamlayan təzahürlər, "hiylə, sehr və tilsim niqabına" bürünənlər, Qarabağa göz dikənlər, vaxtında qandırılmayanlar "kəskin tənqid olunur". Bunlar ona görə belədir ki, müəllif həyat və cəmiyyət, yaşayış və hərtərəfli yaradıcı zəhmət adamıdır. O, Azərbaycanı onun ayrı-ayrı regionlarını gəzir, görür, canlı müşahidələr aparır, qaçqınlarla fasiləsiz əlaqə saxlayır. Bu ehtiraslı vətənpərvərliyini xalqdan ayırmır, yaşayışına, insanların bir-birinə münasibətlərinə ayıq, sərrast yanaşır, görür, götürür, öyrənir, dərindən müşahidələr aparır, ədalətsizliyin ədalətin, haqsızlığın haqdan, günahkarın günahsızdan var-dövlətin insanların şəxsiyyət və ləyaqətlərindən ucu tutmaz, təkcə özünü, fərdi güzəranını və ailəsini yaşayanlarla barışmır, onlara sənətkarın daxilindən püskürən təbii qəzəb, nifrət və kin böyük arzu və bəşəri diləklərlə ya-

şayan şair-publisist Ə.R.Xələfli birdən haqsızlıqları, insanın insanı qiymətləndirməməsini, özlərini varlanmağa həsr etdiklərini görür, ümidsizləşir, real müşahidələri, bunları bir az da dərinləşdirir. O, görür ki, "siçanlar" onun ümid ağacını, könlünün tacını gəmirir, zülmətlərin içində qara ilanlar sürünür. Adamlar sırasında quru adların üstündən ala, kölgəsini çəkmək və həşəratları göründükləri kimi yox, olduqları kimi "eybəcər, bədbəxt görkəmləri ilə aşkar göstərmək", "səfehlər sürüsündən qaçmaq", başqa bir aləmə köçmək istəyir:

***Hardasan, qanad ver, qalxım göylərə,***
***Çatmasın əlləri yekə başların.***
***Ruhun səmasında bu yer göylərə-***
***Adlayım üstündən adam daşların.***

***Uçub xəyalların səmalarında,***
***Ordan alçaqlara gülərəm, gülə.***
***Azad bir quş kimi könül tarında,***
***Dönərəm nəğmələr ötən bülbülə.***

***Adımı, izimi qaşıyanlara,***
***Acı gülüşlərdən yağış yağaram.***
***Lənəti çiynində daşıyanlara.***
***İkrahla, nifrətlə baxış yağaram.***

Şair-publisist Ə.R.Xələfli çox çətin həyatı - qaçqın həyatı yaşayır. O, Azərbaycanı, Azərbaycan xalqını, Vətənimizin ən xırda bir parçasını, onun dağını-dərəsini-kəsəyini, elə də dünyaya göz açdığı Xələfli kəndini, dünyasını Lökbatanda dəyişən atası Zal kişinin yağı əsarətində qalan yurd-yuvasını hərarətlə sevir. Bu milli sənətkarın etiqad və inamında həyat, yaşayış və gözəllik amalı sərhədlərimizin bütövlüyündədir, Qarabağın qəsbkarın əsarətindən azad olmasındadır.

Müasir poetik məzmunlu şair-publisist Ə.R.Xələfli saf, tə-

miz, yüksək əxlaqi mənəvi keyfiyyətli ziyalıdır. O xalq əmlakına göz dikənlərlə barışa bilmir, haqqı nahaqqa verənlərə, insanların qismətinə şərik çıxanlara, özlərindən və mövqelərindən kam olanlara "Araz ağrısı" poemasında dərin tənqid, kəskin inkar pafosu seçir.

***Hardasan, hardasan, axı sən harda,***
***Səfeh sürüsündən qaçmaq qismətim.***
***Hardasan, bəndəni qoymusan darda,***
***Nadanlar içindən köçmək qismətim.***

Şair-publisist Ə.R.Xələflinin "Araz ağrısı" poeması zamanın, ictimai-siyasi mühitin bədii, ideya-estetik tələbidir. Poemanın məzmunu həyatıdır, ibrətamizdir, Araz kədərindən, Qarabağ fəryadından doğan qəm-kədərin, nigaran və "Araz ağrısı"ndan ilk düyünlər yarananda poetik fikir şaxələnir, təsirli lövhələr, detal və mənzərələr yaranır. Araz sahilində, Muğan düzündə, səssiz-səssiz bulanlıq sular axır, ləpələr öz-özləri ilə danışır. Elə bil, Araz bunları duyur, qatı kədərə bürünür, görür ki, qanlı sularda axan, "Qarabağ ağrısıdır". Təbriz yarasıdır, sulara isə alışan dağların, yanan dağların qapısı çırpılan, solan bağların, "məlhəmsiz ağrısı, yarası gəlir". Belə canlı sirayət-edici, poetik mənzərələri başqa bir detalla Ə.R.Xələfli məharətlə həyati istiqamətə salır, oxucunu xəyalən Araz sahillərinə, Xudafərin körpüsünə aparır, erməni faşistlərinin xaraba qoyduqları şəhər və kəndləri gəzdirir, Şuşanın, Laçının, Zəngilanın sahibsiz yollarını göstərir. Və diqqəti Araz sularında qərib-qərib üzən, yaxası yarılan, yanağı solan bir çinar yarpağına çəkir. Onun göndərdiyi yarpağın bir gözü yaşla dolur, o biri gözü fərəhə həsrət qalan vətən torpağının bir parçası - Qarabağdır; Babəkdi, Təbrizdi, onların tükənən səbridir, həm "Bir Xələfli var imiş", həm "İçərişəhər: Daşlar-insanlar", həm də "Araz ağrısı", "İnsan tarix və zaman" poemalarında müəllifin dili bədiidir, özünəməxsusluğu ilə seçiləndir, hər sözü, hər kəlamı yerində işlədə bilən bənzərsizlik

daşıyıcısıdır. Ümumxalq dilində arxaizmlər, şivə dialektlərdən, əcnəbi sözlərdən yalnız zərurət duyanda, bədii mətin tələb edəndə yararlanır. Bədii dilin xəlqiliyinə, hadisənin və əhvalatın aydın, konkret, hissi-emosional ifadəsinə xüsusi diqqət yetirir. Həyatın məntiqini, heyrəti, təəssüfü, qəmi-kədəri, acını-ağrını, psixoloji gərginliyi düşüncə və mənəviyyatı metaforalarla bədii fiqurlar bolluğu ilə mənalandırır, məzmunlu poetik mühakimələr yürüdür:

***Mizan yox çəkiləsi,***
***Toxum yox əkiləsi,***
***Gözlər var çəkiləsi,***
***Közərmiş millər ayrı.***

***Çəkər yeri təkəlli,***
***Yeddi başlı, yüz əlli,***
***Ağ yel, qara yel bəlli,***
***İndiki yellər ayrı.***

***Anası ağlar xeyir,***
***Sər basıb qəddin əyir.***
***Ar yuyur, qeyrət yeyir.***
***Bu tüğyan sellər ayrı.***

***Baş üyüdüb un yeyən,***
***Ömür yeyən, can yeyən,***
***Qaraya ağdı deyən,***
***Can udan illər ayrı.***

Poemalarda, xüsusən "Bir Xələfli var imiş"də və "Araz ağrısın"da hadisələrə, bədii inkişafa hərəkət verən, insanlara, mürəkkəb ictimai-siyasi proseslərə münasibət bildirən və yüksək bədii dəyər səviyyəsinə qaldıran, onları mənəviyyatdan, hisslər toplusunun cəmindən keçirən şair-publisist Ə.R.Xələflinin özü-

dür. Ədib dövrün humanist vətənpərvər insanlarının davranış və mövqelərini erməni quldurlarının Qarabağda törətdikləri qanlı fəlakətlərə münasibətdə görür. Azərbaycanın Cənubunda dərindən-dərin acıları daxili-mənəvi ehtirasla səciyyələndirir, bədii qiymətləndirir.

Çox tez-tez Ə.R.Xələfli bədii publisist əsərlər yazıya alır. Onun publisistikası ciddi maraq doğurur, fikir-məzmun dərinliyi ilə seçilir. Bunlarla yanaşı, bu qüdrətli ədib, zərif, incə, ibrətamiz, insanı hərtərəfli zənginləşdirən orijinal məzmunlu lirika ustasıdır. O, daha çox lirikanı sevir, lirika ilə düşünür, zəngin yaradıcılığını lirika ilə mənalandırır, bilir ki, lirik şeir çevikdir, fəaldır, məişətə, yaşayışa tez yeriyən, tez yayılan, çox oxunan, bədii təsiri davamlı olan janrdır. Lirik növ-poeziya insan nəslinin doğmalığıdır. Buna görə də şair-publisist Ə.R.Xələfli təhkiyəni ilhamda, insan nəslinin doğma dilində özü aparır. İstər şeirlərində, istərsə də poemalarında onun dili canlıdır, ifadəlidir, lakonikdir, sadə olduğu qədər də mənalıdır, həyatı boyalarla zəngindir. Əhvalatları söyləyəndə, mühakimələrə ehtiyac duyanda bədii detallar, lövhə və mənzərələr yaradanda təsvir tədricən gərgin-psixoloji yönə düşür, təsirli dinamik-məntiqi bədii dönüşlər və düyümlər yaranır, xəlqi-novator bir şairin Ə.R.Xələflinin ədəbi münasibət və mövqeyi aydınlaşır. O, niyyəti, poetik amalı uzatmır, fikri kəskin və konkret söyləyir:

***Ögey baxışların soyuq nəfəsi,***
***Sinənə sancılan buz nizəsidir.***
***Bu dövran acizdir, qırmaz qəfəsi,***
***Bu da namərdliyin möcüzəsidir.***

***...Rəngimə, ruhuma çökən əsəbdən,***
***Qan verən yaradan axıb gəlirəm.***
***Dağların gözündə yanan qəzəbdən,***
***Şimşək qılıncıyam, çaxıb gəlirəm.***

Çox hallarda, şair-publisist Ə.R.Xələflinin şeir və poemalarında hadisə və əhvalatlar, məzmun və məzmunun ünsürləri, obraz mühiti, bədii təsvir, üsul və vasitələr, məcazlar, söz və ifadələr ümumiləşir, məna daşıyır, insani ifadə edir.

K.Jedin deyirdi ki, "Sənətkar yolunun başlanğıcı və oxucunun qarşılaşdığı ilk şey sözdür, dildir, nitqdir. Yazıçı ömrü boyu söz üstündə işini dayandırmır və həyata ən böyük sevinc gətirən də düzgün deyilmiş sərrast sözdür". "Araz ağrısı"nda şair-publisist Ə.R.Xələfli belə bir gərgin-psixoloji mənzərə yaratmışdır; qamış komasına söykənən qarı intizarla gulunlu köhlənə baxır. Bu həsrət barışmır acı qismətlə, gərgin dramatik mənzərəni ağrı çəkən, bu ağrı ilə dünyaya oğlan uşağı gətirən gəlin tamamlayır, gəlin mənalandırır. Qüdrətli söz ustası şair-publisist Ə.R.Xələfli canlı, ibrətamiz və lakonik təsvirdə orijinal mənzərə yaradır: gəlin-cavan ana gözlərini beşikdən çəkmir, kirpiklərini kirpiklərinə toxundurmur, səhəri beşik başında açır. Bilir ki, beşikdə yatan sevincdir, arzudur, hünərdir, ümiddir və qeyrətdir. Qarabağa-səngərə yol qamışlıqdan gedir. "Araz ağrısı"nda qamışlığın qarının, gəlinin, uşağın və qulunlu köhlənin adı cəmi bir dəfə çəkilir. Ancaq bunların hamısı və düşdükləri mühit ümumiləşir, mənzərə də, adlar da, onların əhvalı və əlamətləri də yadda qalır, təsir oyadır, düşüncədən silinmir. Çünki şair-publisist Ə.R.Xələfli hadisəni görmək, göstərmək, onu məharətlə canlandırmaq ustasıdır. O, sözü çox kəsərli, müdrikanə deyir. Ayrı-ayrı hadisələr, ifadələr və sözlər onun təsvirində poetikləşir, təzə çalarlar alır:

***Beşikdəki körpə böyüyər, qalxar,***
***Əli silah tutar, ayağı da yer.***
***Bu durğun zamanı silkələr, çalxar,***
***Arxası vətəndi, dayağı da yer.***
***Vətəndi arxası-dedim, nə dedim.***
***Bu da mənim ahım, son fəryadımdı.***

***Torpaq götürərmi torpağa gedim.***
***Vətən sənin adın, mənim adımdı.***

Çox hallarda şair-publisist Ə.R.Xələfli bədii poetik ricətlərə, haşiyələrə və yeri gəldikcə mühakimələrə çıxır, güclü fəlsəfi fikirlər söyləyir, oxucunu hisslər, xəyallar və düşüncələr aləminə aparır, onu müəyyən bir amala və niyyətə yönəldir. Təbii istedadlı, şair-publisist Ə.R.Xələfli, bir də görürsən ki, hikmətli, şairanə və hissi-emosional-fəlsəfi təsvirlər ifadə olunan həyati detal, lövhə və mənzərələrlə düşünür. Onun yaradıcı hünərlə istifadə etdiyi belə bədii üsullar və vasitələr ibrətamizliyi, məzmun-məna tutumunun böyüklüyü, ideya-estetik əhəmiyyətinin dərinliyi ilə seçilir. Ustalıqla yaradılan bir detalda ermənilərin qəsbkar, qaniçən və quzğun olduqları deyilir. Bədii təsvirdə bu insan qanına hərislərin nə özləri, nə də "leşsökən, goreşən, dişqıcayan" olduqları görünür. Real ifadə tərzində ermənilərin yırtıcı, tükürpədici əməlləri duyulur, hiss edilir, gözünə gəlir, qəsbkarlara tükənməyən nifrət, qəzəb və kin oyanır. Böyük sənətkarın - şair-publisist Ə.R.Xələflinin kövrələ-kövrələ...

***Alp ər Tunqa hardadı,***
***Atilladan xəbər yox.***
***Böyük Turan dardadı,***
***Qorumağa sipər yox.***

***Manas orda ağlayır,***
***Dədə Qorqud yesirdi.***
***Təbriz sinə dağlayır,***

Şuşa hələ əsirdi. Deməsi hər kəsi heyrət və təəssüfə salır.

"Araz ağrısı" şair-publisist Əli Rza Xələflinin yüksək şeiriyyət, heca vəzninin zəngin bənd növləri ilə yazılmışdır. Bənd növlərinin zənginliyi hadisələrin, münasibətlərin, meyillərin, istək və arzuların məntiqi, hisslərin, həyəcanların, emosiyaların yöndən-yönə düşməsi ehtiyacını doğurur. Bu amil əsərə eyni

zamanda ahəng və məcazlar rəngbərəngliyi, xitablar, müraciətlər, nidalar və suallar bolluğu gətirir. "Araz ağrısı" əsərinin dilini, yazı tərzini oynaq, ləngərli, lakonik, anlamlı ifadəliyinə salır. Müəllif əsərin proloqunu-dərin, hikmətamiz, bədii-fəlsəfi poetik düşüncələrini heca vəzninin on üçlük bənd növü ilə ifadə etmişdir. Şair sonra heca vəzninin yeddilik-səkkizlik, on birlik, on üçlük və on dördlük bənd növlərindən məharətlə yararlanmışdır.

Bədii söz ustaları şeir və poemaları daha çox heca vəzninin beşlik, yeddilik, səkkizlik, on birlik bənd növləri ilə yazıya alırlar. İstedadlı təcrübəli şairlər, təbii heca vəzninin iri, nisbətən çətin bənd növlərindən-on üçlükdən, on dördlüklərdə bədii-fəlsəfi mühakimələrlə "Tanrıdan murad - qismət" istəyir. Türk Birliyi Azərbaycan xalqının gücünə, vətənpərvərliyinə inanır. Çünki şair-publisist Ə.R.Xələfli Təbrizin ağrılarını, dərd-sərini, Qarabağın həsrətini ürəyində, mənəvi zənginliyində gəzdirir. Zal kişinin-atasının düşmən caynağında qalan isti yurd düşüncələrindən ayrıla bilmir. Şirin yuxuda belə bəxti gətirən Qarabağla yaşayır, Xudafərin körpüsünün üstündə lirik-romantik şeirlər, qulağına Zal kişinin vətəndaş çağırışı - yurdu qoru, od-ocağa qayıt -səsi gəlir:

***Əhrimənlə Hörmüzün son döyüşü başlanar,***
***Silkələnə bu yer-göy, gürşad gələr dünyaya.***

***Tarix türkün çağırar daşa dönmüş ruhunu,***
***Doğar Orxon-Yenisey, bir şad gələr dünyaya.***

***Qaradağla Qarabağ təpəgözlər əlində,***
***Arazın göbəyindən Basad gələr dünyaya.***

***...Alp Ər Tunqa dirilər, Turan qalxar, oyanar,***
***Yeni Tuğra ay-ulduz, barad gələr dünyaya.***

***Sükut buzu çat verər, türkün çölü kişnəyər,***
***Olum-ölüm üz-üzə, həyat gələr dünyaya.***

***Hasarına bir evin daldalansa kişilər,***
***Boğaz olar canından, arvad gələr günyaya.***

Şair-publisist Ə.R.Xələfli inam, iman, əqidə, etiqad, cəsarət, hünər və məslək adamıdır, qüdrətli bədii söz ustasıdır. Yenilməz ərənlər və Boz Qurd haraylıdır. "Ey böyük Türk", özünə qayıt, sən özünə qayıdanda çox güclü olursan - etiqadı onun məzmun-məna poetik istiqamətlərindəndir. "Araz ağrısı" ilə şair-publisist Ə.R.Xələfli vətənimizdən, eləcə də "Ana Türküstandan" güc alır, ümid dənizindən su içir, "Araz körpüsündən keçir", cəsarətlə və hünərlə Qarabağa yol gedir.

***Bilirəm ki,***
***Bir amala, bir istəyə***
***Yol gedirik,***
***Qarabağa,***
***Od-ocağa,***
***O tüstüyə yol gedirik.***

Şair-publisist Ə.R.Xələfli ustad sənətkardır, geniş düşüncəli, iti zəkalı fitrət sahibidir. Onun yarası Təbriz yarasıdır. Xudafərin həsrətini gözündə gəzdirən, ağrı-acısını ruhunda yaşadan bir heykəl obraz, vüqar, məğrurluq onun şair-vətəndaş səciyyəsidir. Nə Azərbaycanın Cənubunun dərd-səri, nə də qəddar düşmən əlində olan Qarabağ nisgili unudulmur. Bütün bunları, o, içində - daxili dünyasında gəzdirir. Şair-publisist Ə.R.Xələfli haqqında yazılan bir məqalədə ("Həsrət göyərirsə") deyilir: "Titanik" sənət nümunəsi qeyri-adi sevincdən, yaxud böyük kədərdən doğula bilər. Ə.R.Xələfli də belədir. Zənnimcə, onu şair edən böyük kədər, böyük həsrət olub. Şeirlərində titaniklik zəif olsa da, oxucu düşüncəsini, fikrini hərəkətə gətirəndir və ağrılı haldır ki, şair bəzən eşidilmədiyini də özünə dərd edir".

Birinci halda nəzərə alınmalıdır ki, Ə.R.Xələfli ali məktəbdə təhsil aldığı (O, 1975-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini fərqlənmə diplomu ilə bitirmişdir) illərdə şeirlər yazır;

onun ovqat şeirləri oxunur, tələbələr arasında yayılır. İkinci məqamda, ötən əsrin 80-ci illərinin əvvəllərində "Xudafərin", "Qoşa qanad", "Qarabağ" və "Həyat" qəzetlərində işləyir, hətta şöbə müdiri və redaktor əvəzi vəzifələrini tutur. Dövri mətbuatda ədəbi-publisist yazıları və şeirləri müntəzəm çap olunur. "Qızıl Qələm" və "Araz" ali ədəbi mükafatları ona həm də məzmunlu, ideya-estetik dəyərli şeirlərinə görə verilir. Bütün bunlar şair-publisist Ə.R.Xələflinin söz sənətinə Qarabağ faciəsindən çox-çox əvvəl gəldiyini göstərir. Bir də Ə.R.Xələflini böyük kədər, böyük həsrət yox, onu "şair" edən gur qaynar coşqun istedaddır. Ötən əsrin 80-ci illərindən bu ədibin fərdi bədii üslubu və ədəbi mövqeyi müəyyənləşir, imzası asan seçilir, asan tanınır. Qarabağın faciəsi - işğalı onun yaradıcılığına dərin təsir göstərir, bu sənətkar bir az da fəallaşır, onun yaradıcılığında bənzərsiz bir şaxə-qəm, kədər, nisgil və həsrət pafosu yaranır. Qaçqınların doğma yurd, od-ocaq həsrəti onun fikir-düşüncə, mənəvi-psixoloji dünyasını bürüyür. Ədib saysız-hesabsız şeirlərindən və publisist məqalələrindən əlavə, "Bir Xələfli var imiş", "İçərişəhər: Daşlar - insanlar", "Araz ağrısı", "İnsan tarix və zaman" poemalarını yazır. Tarixi-fəlsəfi ahəngli bu poemalarda xalq, vətən və insan taleyin vəhdətdə qələmə alınır. Bədii məntiqlə həyatı, gerçəkliyin müxtəlifliyini duya-duya sevməyə, yaşamağa yanğını qabardır. Ə.R.Xələfli poemalarında bədii məntiqin tələbi ilə yanan torpaqlardan şəhid ruhlarının keçməsindən, şairin sözünü şəhid sözündə deməsindən, bilgilərin qanı ilə göyərməsindən və genimizdən, milli-mənəvi həyatımızdan danışır, qan yaddaşımızı xatırlayır, ululların-yenilməz ərənlərin ruhunu səsləyir, çağırışı, nidası, ahəngi Dədə Qorqud inamı və etiqadı üstündə köklənir:

***Düşünürəm: Zərdüşt özü,***
***Suya dönüb Araz olub.***

***İlki odun yanan közü,***
***Beş min illik yaşa dolub.***

***Deyirlər ki, doğulanda,***
***Oğurlayıb aparırlar.***
***Günəş göydə dağ olanda,***
***Onu oda qalayıblar.***

***Suqovuşan yerdə duran,***
***Baxıb Zərdüşt yanğısına.***
***Gülüb şərin kələk quran,***
***Ölüm, hədə arzusuna.***

***Kişnəyən at, ulayan çöl,***
***Zərdüşt ruhu, Zərdüşt ünü,***
***Oddan , sudan keçər bu yol,***
***Açar zaman bu düyünü.***

Parçalarda, eləcə də "İçərişəhər: Daşlar və insanlar", "İnsan, tarix və zaman" poema-esselərində ürəkdən süzülən təmiz hisslərin, insanda vətəndaşlıq qüruru oyatmaq amalının bədii ifadəsi canlıdır, təbiidir. Xalqı və vətəni etiqad və məsləklə sevmək, Azərbaycanı inam və hünərlə qayğıya almaq, onun bir kəsəyini, xırda bir daş parçasını uca tutmaq poemalarda təsvir olunan əhvalatların ruhunda bədiiliyin-şeiriyyətin yönəmidir. Hər iki əsərdə məcazlardan sıx-sıx və yerində istifadə olunur. İbrətamiz detallardan yaranan fərdi ovqat-əhvali ruhiyyə həyati görünür, təsir oyadır, bunlar isə bütün məqamlarda milli kökə, qaynağa, mənşəyə, bağlanır. Şair-publisit Ə.R.Xələflinin milli ənənə, milli-tarixi və qan yaddaşı haqqında inamı sərrastdır: "Mənim fikrimcə, bügünkü həyatımızın açılmamış düyünlərinin sirri keçmişdədir. Ədəbiyyat nə qədər bədii təfəkkürün bəhrəsindədirsə, bir o qədər də tarixidir. Keçmiş bizim mənəvi

istinadgahımızdır. Millətin qan yaddaşını oyatmaq milləti ayıqlığa, sayıqlığa çağırmaqdır.

"İçərişəhər: Daşlar - insanlar" adlı poema-esse yazmışam... həmin poemada tarixi obraz qəbul edib bu günün özü ilə qarşılaşdırmağa, ziddiyətləri, təzadları aşkarlamağa çalışmışam".

Şair-publisist Ə.R.Xələflinin nə "İçərişəhər: Daşlar-insanlar", nə də "İnsan, tarix və zaman" poema-esseləri bədii təsirlə yazılmamışdır. Hər hansı bir ədibin "ictimai-fəlsəfi lirikasının gözündən su içməmiş"dir. Fərdi bədii üslubunun, yazı tərzinin bütün çalarları dilinin xalq dilinə yaxın olması, lövhə, mənzərə və detalları seçmək, işlətmək üsulları, həmişə məzmunu ictimai-fəlsəfi istiqamətdə açması müəllif Ə.R.Xələflini çox asan nişan verir. "İçərişəhər: Daşlar insanlar" poema-essesi yüksək şeiriyyəti, ideya-estetik kamilliyi, qoyulan, bədii həllini tapan problemlərin zənginliyi və həyatiliyi, milli-tarixi ənənələri-qan yaddaşının tamam yeni, orijinal istiqamətdən mənalandırılması ilk misralardan oxucunu çəkir, oynaq lirik-romantik deyim tərzi onu qaynar bədii axara salır:

***Daşa dönmək istəyirəm,***
***Boz üzlü, sərt qayalı daşa,***
***Rüzgarın üstümdən bürəm-bürəm,***
***Əsən yelləri heç nə qopara bilməsin.***
***Zaman özü neçə kərəm,***
***Başıma dolansa da,***
***Məndən heç nə apara bilməsin.***

Məzmun mahiyyətli, bədii-ideya axarı tarixdən - daşlar aləmindən müasirliyə - bizim günlərimizə istiqamətlənən, "İçərişəhər: Daşlar - insanlar" kəsərli, yığcam, konkret və ibrətamiz poema - essedir. Burada hər bölüm, hər bənd, hər misra, hər söz digərini tamamlayır, məzmunlu fikir daşıyır. Çünki Ə.R.Xələfli ustad sənətkardır, onun bədii məntiqi, mənalandırmaq, müəyyən bir lövhə və detala yeni bədii həyat vermək bacarığı çox güclüdür. O, fikirlərini, düşüncələrini, mühakimələrini, hiss və həyacanlarını oxucuya hissi-emosional təsvirlərlə aşılayır.

Real həqiqət və əhvalatlar maraqla izlənir, yaşanır və prosesdə oxucu bədii təsvirdə həqiqəti ya görür, ya da onun haqqında təsirli real söz eşidir. Çünki oxucunu əsərin məzmununu - ideyasını, təsvir olunan gerçəkliyin hərtərəfli mahiyyətini şair-publisist Ə.R.Xələfli sözdən alır, mənada təzə məna tapır, "tarixin yaddaşını" daşlar bütün çalarları, bənzərsizliyi ilə duyur. Romantik xəyal düşüncələrlə çox mürəkkəb, sirli bir aləmə-daşlar aləminə daş yollara gedir. Ruhlar yamaqlı daşlar arasından dilsiz baxışlarla boylanırlar, sanki dilə gəlirlər, özlərinin min illik tarixini söyləyirlər. Şair-publisist Ə.R.Xələfli bilə-bilə dərin ictimai-mənalı məntiqini qırır, elm adamlarına "tarixin yaddaşı daşların üstündədir, daşlara söykənin, daşları öyrənin, daşları mənimsəyin-ucalarsınız, şöhrətlənərsiniz-onda sizə həm də -

***Zamanın heykəli Qız qalası da,***
***Alın qırışıyla təzim eyləyər.***
***Daşların kədəri toyu, yası da,***
***Dünəndən bu günə xəbər söyləyər.***

Çoxmətləbli bir poema - essedə "İçərişəhər: Daşlar - insanlar"da obyekti təzyiq altında saxlamaq - maddi-mənəvi sərvətləri mənimsəmək üçün Qərb ölkələri Şərqə qoşunla, silah-sursatla deyil, "qıcanmış diş - açıq ağızla, yaşıl kağızla gəlirlər".

Onlar müasir dövrün tələblərini nəzərdə tuturlar incə, çaşdırıcı siyasət yeridirlər, günlərini əyləncələrdə keçirirlər, muzeylərə həris nəzərlərlə baxırlar, palazlar, xalçalar, xalılar, zərif əl işləri onları heyrətə salır. Bir xalqın, bir millətin, tarixini daşların tərçüməsiz danışması əcnəbilərin heyrətlərini dərinləşdirir.

Artıq tarixçi-filosof Ə.R.Xələflinin güclü bədii məntiqində daşların söhbətləri rəvayət və əfsanə deyildir, elə tarixin özüdür, həqiqi tarixdir.

Ədib belə bir həqiqəti anlamayanlara, Qarabağda tökülən qanlara, köçkünlərin və qaçqınların aqibətlərinə “qara” eynəklə

baxanlara X əsrin sufisi həllac Mənsurun və "Min bir gecə" nağıllarının qəhrəmanı Şəhrizadın aqibətini xatırlayır. Bildirir ki, daşlar kövrək olduqları qədər də, sərtdirlər, daş tarixin daş aynasıdır, Daşlar ölkəsi vətəndaşın tale dünyasıdır. Daşlar görür, eşidirlər, səbrlə məqam gözləyirlər. Onların cəzası ağır olur.

"İçərişəhər: Daşlar - insanlar" poema-essesində gözəllik, ülvilik şair-publisit Ə.R.Xələflidə estetik həyəcan doğurur, hisslərini, duyğularını, bədii istəyini zənginləşdirir, həyatın dolğun, canlı və dinamik təsvirinə apararır. Bu böyük sənətkar Xudafərin həsrətini, Qarabağın dərd-kədərini fikri-mənəvi aləmində gəzdirir, qaçqınları görəndə, onların yaşayışlarının dərinliklərinə enəndə sanki ürəyinin telləri qırılır, dodaqaltı öz-özünə danışır, siqarı-siqara calayır. Evə gələndə də, iş otağında da var gəl edir, Boz Qurd harayı çəkir, Türk ərənləri-Atillaları, Alp ər Tonqaları müasir gənclərlə müqayisə edir, dərindən köks ötürür, gözləri yaşarır. Ailədə özünü güclü görəndə, Vətəni iqtidarlı, qüdrətli görəndə vüqarlı, əzəmətli görkəm alır, yazı masasının ötünə keçir, məzmunu inamla ifadə olunan himnvari şeirlər yazır:

***Heykəl əsəridir heykəltəraşın,***
***Rəssamın dünyası təbiətidir.***
***Dövlətsə daş üstü qoyulan daşın.***
***Tikilən sarayın əzəmətidir.***

***Dövlət öz haqqını ölüm-olumda,***
***Qoruyan millətin həqiqətidir.***
***Bir xalqın millətə gedən yolunda,***
***Özünün özünə sədaqətidir.***

***Dövlət bir millətin dövləti varı,***
***Tarixin ən böyük şah əsəridir.***
***Nakam Qarabağın muğamı, tarı-***
***Yağı yağmalayan dərdi-səridir.***

"İçərişəhər: Daşlar-insanlar" poema-essesi bir ədəbi şəxsiyyətin - Ə.R.Xələflinin daxili-hərarətli monoloqu, hekayətidir. Burada dövrə, daşlara, daş-insan münasibətlərinə, zaman-zaman daşları öyrənmək, mənimsəmək özünəməxsusluğundan bədii poetik-fəlsəfi söhbətlər açılır. Tutarlı bədii məntiqlə zaman, daş, insan-poetik "mən" ümumiləşmiş poetik obraz səviyyəsinə qaldırılır, bunları biri- o birindən səciyyəvi əlamətləri fərqləndirir. Bədii söyləmədə sənətkar tarixə, tarixi hadisələrə, zamana və daşlara hərəkət, poetik yön verir, onları canlandırır. Ə.R.Xələflini obraz-zaman "sıxışdırır", təhkiyəni hisslər və duyğular zənginliyi ilə aparır. Çünki "Zaman daşları min illərin sınağından keçirmiş", fəsillərin - "istisinə-soyuğuna, tab gətirib, həb yerinə öz qanını içirmiş" tarixi inkişafın real şahidi olmuşdur.

Zaman-bədii obraz şair-publisist Əli Rza Xələflinin yaradıcılığında geniş və əhatəli anlayışdır. Zamanda zamanın, özü, zamanın bütün dolayları, rəngbərəng təzahürləri, tarixin sadəlik və mürəkkəbliyi, nəsillərin ruhu yaşayır. Zaman tarixi və hadisələri, insanın keçmişini və gələcəyini göstərən meyardır:

***Gətirmişəm sən biləsən,***
***Baban kimdir, özün kimsən.***
***Gətirdim ki, yeri gəlsə,***
***Sən öləsən.***

***Demədim ki, bircə qarın,***
***Çörəyə də dilənəsən.***
***Tayfa-tayfa elənəsən,***
***Sinif-sinif bölünəsən.***

Şair-publisist Ə.R.Xələfllinin "İçərişəhər: Daşlar - insanlar" poema-essesində sıx-sıx kiçik, ancaq real, idraki-tərbiyəvi məzmunlu bədii detallardan, lövhə və mənzərələrdən istifadə olunur. Belə canlı detallarla zəngin olan mətn bədii mətnin özünün tələbləri ilə əsərə gətirilir, hadisələr, münasibətlər, lirik ricətlər sıxılır, yığcamlaşır, ifadə tərzi aydın, kəsərli vələngərli

axara düşür, əlavə təsvirlərə və bədii mühakimələrə ehtiyac qalmır. Ona görə də "İçərişəhər: Daşlar-insanlar" poema-essedə muğamla cazı birləşdirən, məşhur "mən" haqqında dolğun təsəvvür oyanır. Bədii təsvirdə "yaşayan Vaqif və ölən Vaqif" daş şəhərdə bir atəş kimi tarixi qorumaq, tarixi yaşatmaq üçün "İçərişəhəri" lentə alır, xalqın sevgisini qazanır. Tarixi memarlıq abidələrindən, Qız qalasından və Şirvanşahlar sarayından az, ötəri, lakin ciddi, milli vətənpərlik hünərli qeyrəti ilə danışılır. Ona görə də bu abidələrin ən səciyyəvi cizgiləri görünür, ümumiləşir. Memarlar-Məsud Davudoğlu, Əmirşah və Məhəmməd Əbu Bəkiroğlu çoxcəhətli fəaliyyətlərindən mənalı bədii söz söylənilir və bunlar təsir oyadır.

Ə.R.Xələfli yüksək ideya-estetik zövqlü, yetkin dünyagörüşlü ustad sənətkardır. O, sözü ya fikri xırdalamaq, təsviri uzatmağı, bol-bol rəng və boyalar işlətməyi sevmir. Sözün poetik mənasını dilə yatımını və dinamikliyini əsas alır. Ədibin "İçərişəhər: Daşlar-insanlar" poema-essesində dil canlıdır, xalqın dilinə çox yaxındır, axarlıdır, ləngərlidir, şairanədir, şeiriyyətlə doludur:

***İnsan əməlinə söykənib yaşar,***
***Məsud Davud oğlu Qız Qalasıdı***
***Xəzər zaman-zaman kükrəyər, daşar,***
***Lal sükut içində daş qalasıdı.***

***...Gücləri çatsaydı bu daşları da,***
***Dünya muzeyləri daşıyardılar***
***Türkün xəyanətkar qardaşları da,***
***İçərişəhərdə yaşayardılar.***

***...Mənim rəssam dostum zamanı dara,***
***Göz açan nəsillər baxıb öyünsün.***
***Daşları-insanı sən elə yarat,***
***Rəsmində tarixin nəbzi döyünsün.***

Kiçikhəcmli, bədii-fəlsəfi bir poema-essenin "İnsan, tarix və zaman"ın dili, təsirinin gücü, siqləti ifadəliliyi ilə ciddi maraq

doğurur, oxucunu düşüncələrə, fikirləşməyə və arzulamağa aparır. Şair-publisist Ə.R.Xələfli "İnsan tarix və zaman" poema-essesini 1993-cü ildə təmiz hisslər və arzularla, vətəndaşlıq çırpıntı və narahatlığı ilə yazıya almışdır. Poema-esse çox çətin mürəkkəb və təlatümlü bir mühitdə yaranmışdır. Bu dövr neçə-neçə partiya fəaliyyət göstərmiş, hərəsi bir mövqedə dayanmış, biri o biri ilə çəkişmişdir, hətta hansı partiyanın haqlı, hansının haqsız olduğunu söyləmək də çətinlik törədirdi. Çünki Azərbaycanda dərin ziddiyyət, boşluq yaranmışdı. Narahatlıq, həyəcan, çıxış yolu tapmaq istəyi ölkəni bürümüşdü:

***Bir gəlin üz tutur Ulu Tanrıya,***
***Ya məni quş elə, ya daşa döndər.***
***Dağ da dözə bilməz belə yaraya.***
***Nicat ver, Ya Rəbbim, xilaskar göndər.***

"İnsan, tarix və zaman" poema-essesində Ə.R.Xələflinin çırpıntıları, həyəcan və narahatlığı duyulur, onu ölkəmizə xilaskar, sərkərdə axtarışları, "Salam Böyük İnsan-aydın həqiqət, səsini eşidir planet, kürə"deməsi təbii görünür.

Ə.R.Xələfli dövrün ahəngini, poetik-istiqamətini tuta bilən müasir mündəricəli novator sənətkardır. O, həm zərif, oynaq, lakonik, dinamik, hissi-emosional və dərin şeirlər, lirik-epik poemalar yazır, həm də publisistik əsərlərlə düşünür, ölkədə böyük şöhrət tapır.

**2009**

# "MEYAR" SÖZÜN ÖLÇÜSÜDÜR...

## Üçüncü məqalə

Ədəbiyyata yolu mətbuatdan, jurnalistikadan keçən Əli Rza Xələfli xəlqi-novator sənətkardır, çox güclü söz sahibidir, bənzərsiz fərdi bədii üslubdur. Ədəbiyyatdan öyrəndiklərini ədəbiyyata qaytarmaq istəyən bu şair-publisist həyatını, yaşayışını və yaradıcı fəaliyyətini nizamla qurur. Ömrünü rəhmətlə mənalandırmaq, gur təbii istedadını söz sənətinə həsr etmək, lirik, lirik-epik şeirlər, ədəbi-publisist, ədəbi-tənqidi məqalələr, portret-esselər, ədəbi qeydlər və ədəbi məktublar yazmaq bu şəxsiyyətin səciyyəsidir. Bütün bunlar ona görə belədir ki, Ə.R.Xələflinin müxtəlif ədəbi növ və janrlarda əsərlər yazmaq imkanı genişdir, hərtərəflidir. O, şeiri də, ədəbi-tənqidi məqalələri də və ədəbi-publisist əsərləri də eyni istedadla, eyni həssaslıqla, eyni tələbkarlıqla qələmə alır. Bu şair-publisistin bədii yaradıcılığı publisistikasını, publisistikası da poeziyasını, bunlar da ədəbi-estetik baxışlarını tamamlayır, biri o birini zənginləşdirir. Deyəsən, bunları sənətkarın özü də bilir, hiss edir və bədii yaradıcılığı ilə publisistikasını paralel, yan-yana inkişaf etdirir.

Neçə-neçə kitabın redaktoru və tərtibatçısı kimi tanınan Ə.R.Xələfli bədii publisistikaya təsadüfən gəlməmişdir. O, 1980-cı ildən "Xudafərin", "Qoşa qanad", "Qarabağ" və "Həyat" qəzetlərində xüsusi müxbir, şöbə müdiri və redaktor əvəzi vəzifələrini tutmuşdur. Qəzetlərdə tez-tez Ə.R.Xələfli çap olunurdu, diqqəti ölkənin durumuna, siyasi və mədəni həyatına, öncə Qarabağ faciəsinə, qaçqınların dözülməz vəziyyətlərinə çəkirdi. Qarabağ döyüşlərinin real təhlilini verəndə, faktlarla ermənilərin yırtıcılığını söyləyəndə şair-publisist nüfüz qaza-

nırdı, adı hörmətlə çəkilirdi, onu tanımayanlar da tanımaq istəyirdilər.

Yaradıcılığı bədii axtarışlar, bədii tapıntılar və bədii ümumiləşdirmələr üzərindən keçən Ə.R.Xələfli 1999-cu ildən "Kredo" qəzetinin baş redaktorudur. "Kredo"nun kollektivi səmimidir, işgüzardır, yeni üslublu yazarlardır. Onlar xüsusən Ə.R.Xələfli ilə Elçin Kamal yaradıcı fəaliyyətlərini "Kredo"dan ayırmırlar. Ona görə də qəzet yayılır, oxunur, xalqın istəyi, ideal-estetik tələbləri səviyyəsində dayanır. Mənim inamımda "Kredo"nu yayılqanlaşdıran, ümumi maraq səviyyəsindən düşməyə qoymayan görkəmli şair-publisist Əli Rza Xələfli və Elçin Kamaldır. Bu da tamam ayrı bir həqiqətdir, Ə.R.Xələflinin milli-novator, şair-publisist kimi ucalmasında, şöhrət tapmasında, şeirlərinin məişətə yeriməsində "Kredo"nun rolu ölçüyəgəlməzdir. Onun ədəbi-publisist əsərlərinin çox böyük əksəriyyəti əvvəlcə "Kredo"da çap olunur, kitab halında sonralar yayılır.

Yazmaq, əsərlərini nəşr etdirmək xalqın şairini-Ə.Xələflini yormur, əksinə, onu mənən-fikrən zənginləşdirir, elə bil, istedadının üstünə istedad, gücünün üstünə güc gəlir. Çünki son on ildə yazdığı, çap etdirdiyi kitablar ədibin yaradıcılığının genişliyi haqqında aydın təsəvvür oyadır. Şeir və poemaları bir yana qalsın, onun ədəbiyyatın, incəsənətin, estetikanın və dövrün çeşidli problemlərinin şərhinə həsr olunan kitabları ("Sözə doğru"(2003), "Dünyanın söz üzü" (2007), "Meyar" (2008), "Arzulara dəyən güllə" (2008), "Dilimiz varlığımız" (2009), "Adı Şadiman olanın" (2009), müasirliyi, aktuallığı, mündəricə kamilliyi ilə seçilir, oxucuların diqqətini çəkir. Kitablar əhatəlidir, tutumludur, ayrı-ayrılıqda hər biri mənalı, nəfis tərtibatlıdır. Elə şair-publisistin böyük müəlliminin - atasının Zal Əziz oğlunun xatirəsinə həsr olunan "Meyar" kitabı

irihəcmlidir, yeddi yüz altmış yeddi səhifədir. "Meyar" kitabına son illərdə yazdığı portret-esselər, ədəbi qeydlər və əbədi məktublar salınmışdır. Müəllif "Meyar"a həm ön söz (Könül evindən sevinsin), həm də son söz əvəzi (Söz vaxtına çəkər) yazmışdır. "Ön söz" müəllifin atasının portreti bədii səciyyəsidir. "Könül evindən sevinsin"də və "Söz vaxtına çəkər" çox yığcam, aydın dildə, məzmunlu faktlarla şairanə yazılmışdır. "Könül evindən sevinsin" ailəyə, el-obaya qayğı və sədaqətdir, milli torpağa, vətənə məhəbbət pafosudur: “Atam döyüşçü idi. Sözün həqiqi və məcazi mənasında döyüşçü. Tərəkəmə həyatının, köçəri-maldar həyatının böyük bilicisi olduğu kimi, həm də elatın sərkarı idi.

...Mən deməzdim ki, atam yalnız Qarabağın ağrısını çəkir, torpaq ağrısı yaşadır canında. Sən demə əslində torpaq da, yurdda nəsillərin yaddaşını qoruması üçündür”.

"Könül evindən sevinsin"əsərində Ə.R.Xələfli dünyasını dəyişən Zal kişini söz-söhbətləri, bütün cizgiləri, xarakter və psixologiyasının təkrarsızlığı ilə xatırlayır. Atasının ağız deyimləri, öyüd-nəsihətləri, kəsərli didaktik misal və məsəlləri ilə düşünür, hər kəsi təsirdə saxlayan ibrətamiz fikirlər söyləyir. Yaxın illərin söz-söhbətləri, hikmətamiz və müdrik xatirələr vətənpərvər məzmun daşıyır, el-obaya, millətə, torpağa daha dərindən bağlanmaq, onu sevmək duyğusu oyadır. Can verəndə, ölümlə həyat arasında qalanda, Zal kişi deyirdi: "Ayrı bir nigarançılığım yoxdu. Bircə bu torpaq məsələsi, qəbir nigarançılığım var. İnsanlar qəbirlərini dəyişəndə nəsillərin yaddaşı itir. Hər kəs öz qəbiristanlığında dəfn olunanda yaddaş olur, tarix olur. Nəsil də bilir ki, atası, babası kimdir".

Ə.Xələfi səmimi, ləyaqətli və bötöv adamdır. O, nə lirik, nə lirik-epik əsərlərində, nə də publisistikasında heç nəyi - gerçəkliyə münasibəti, müxtəlif həyat, cəmiyyət və məişət

hadisələrini bəzəmir, uydurmalara, artıq boyalara yer vermir, təsvir etdiyi lövhə və mənzərələri varlığa, varlığın axarına bənzər göstərir. Bu şair-publisist doğulduğu qol-qanad atdığı Xələflidən, Qarabağ müharibəsində vuruşan, vətənpərvərlərdən, özünün anasının ocaq daşından, atası Zal kişinin xeyirxah əməllərindən, qohum-əqrəbasından tez-tez söhbət açır. Amma reallıq necə varsa, şair-publisist onu eləcə də təsvir edir, elə də canlandırır. Sənətkarın məntiqinə inam oyansın deyə sitatın həcmindən çəkinmədik: "Atamın çoxlu bədxahları vardı. Fürsət düşəndə pislik üçün əllərindən gələni əsirgəməzdilər. Necə olsa da, bircə kəsərli sözü bəs eləyərdi bədxahları sındırmağa. Ömrünün harasınacan, atamda da günah axtarmaq meyli olub məndə. Dünyanı anlayandan sonra, özümü qanandan, atamı başa düşəndən sonra özüm də nə qədər bədxah qazandığımı gördüm və anladım ki, bu, mənim həyatımın mənasıdır. Və onu da başa düşdüm ki, dünyanın dəyəri bu qazancla - bədxahlıq qazancı ilə də çox bağlıdır".

Amma mənim bir qazancım da var. Atam öz bədxahlarını mənə deməsə də, sözünü əsirgəmirdi. Hamısını götürə bilməsəm də, bacardığımı əxz elədim, mənəvi dünyama-gözümə yığdım bu sözləri, dilimin altında saxladım. Söz mənə dost oldu-çox böyük dost. Və gördümki, elə mənim bədxahlarım özümdən çox sözümdən qorxur. Ən kinli bədxahlarım əlinə imkan düşsəydi gözümü çıxarmaqdan qabaq dilimi kəsərdi...

***Sözümlə fəxr elədim.***
***Sözümdən qürur duydum.***
***Sözümü atamın sözü kimi gördüm.***

***(Ə.R.Xələfli)***

"Meyar" geniş məzmun, faktik məlumatlar tutumlu, müəyyən mənada ensiklopedik səciyyəli əsərdir. Burada təkcə onlarca sənətkarın ədəbi mühitindən, həyat və fəaliyyətlərindən, öz

dövrlərində yer və mövqelərindən danışılmır, məqamı gələndə, həm də bədii mədəniyyətin və incəsənətin nəzəri-estetik problemlərindən, ağız ədəbiyyatından, zəruri ictimai-siyasi və tarixi hadisələrə münasibət bildirilir, elmi şərhlər verilir, bunlar da ədəbi şəxsiyyətlərin mühitlərini, bədii əsərlərinin istiqamət mahiyyətlərini dərki asanlaşdırır, tədqiqatın əhəmiyyətini artırır.

"Söz vaxtına çəkər" ("Son söz əvəzi") təzə yazılmamışdır. "Məişətin ekologiyası" və "Fənayənin sualları" kitablarından "Meyar"ın ümumi istiqamətini bir qədər şərtləndirən parçalar götürülmüş və bu parçaları Ə.Xələlfi fraqmentlər adlandırmışdır. "Fraqmentlər"i müəllif bir sənətkar dərk və duyumunun həssaslığı, bədii zövq kamilliyi ilə seçmiş, qiymətləndirmişdir. “Fraqmentlər”də ifadələr sadə olduqları qədər də lakonik və dolğundurlar, bədii-fəlsəfi mahiyyətlidirlər, aktualdırlar, bütün dövrlərdə müasirliyini saxlaya bilən yöndədirlər: “Azərbaycan ədəbiyyatında baş verən dəyişiklər həyatdan gələn dəyişmələrdir. Yeni iqtisadi-siyasi təfəkkür tərzi mənəviyyatlara nüfuz edir, bir çox hallarda daxili-mənəvi mühiti dağıdır və öz prinsiplərini diktə edir. Dağılan, sökülən mənəviyyat sarayları sözsüz ki, faciələr törədir. Bu sarayların dağıntıları altında qalan hisslərin və həyəcanların dilsiz fəryadları hamı tərəfindən eşidilməsə də, yazıçılar tərəfindən, sənət adamları tərəfindən yaxşı eşidilir. O başqa məsələdir k, kim bu fəryadları necə, bütün qloballığı, bütün dəhşətləri ilə görə bilir. Və kim bu dəhşətləri, bu fəryadları sözə çevirə bilir".

“...Üstündə gəzdiyimiz, suyunu içdiyimiz, havasını udduğumuz məkan, doğulub boy atdığımız yer-yurd ruhumuzu qidalandıran mənəvi mühit Vətənimizdir. Bu vətən adlanan məfhumun özünü təkcə torpaq, hava, su kimi xarakterizə etmək düzgün olmazdı. O, həm də əsrlər boyu formalaşmış, mənəvi dəyərləri hifz edib, qoruyub-saxlayan ənənələrə çevrilib. Bəzən şəklini dəyişərək, daxili məzmununu saxlayaraq bizim adımıza, ün-

vanımıza çevrilən elə bir ruhi aləmdir ki, öz kökündən, soyundan ayrılmayan hər kəsin varlığnda yaşayır. Deməк, bu aləmin üstündən ötən hər cür qara yel, elə bizim içimizdən əsir. Ona dəyən hər bir zərbə bizə dəymiş olur".

Ə.R.Xələfli zəkalı, kamil məzmunlu, yüksək mədəni səviyyəli ziyalıdır. O, elmin bir çox sahələrini, xüsusən Azərbaycan ədəbiyyatını inkişaf mərhələləri ilə mükəmməl mənimsəmişdir. Buna görə də "Meyar"da klassik və müasir ədəbiyyat, ədəbiyyatşünaslıq-ədəbi tənqid, incəsənət xadimləri, ayrı-ayrı elm, maarif və mədəniyyət adamları haqqında yazılar verilmişdir. Ə.R.Xələlfi kitaba salınan əsərlərin əlli beşini "Portret-esselər", qırx ikisini "Ədəbi qeydlər", iyirmi üçünü isə "Ədəbi məktublar" adlandırmışdır. Əslində, bunların hamısı gərəklidir, mənzmunludur, oxunaqlı məqalələrdir və "Portret-esseləri", "Ədəbi qeydlərdən" və "Ədəbi məktublar"dan ifadə, yazılış tərzləri fərqləndirir. "Meyar"da elə məktublar, elə də ədəbi qeydlər var ki, onlar "Portret-esselər" qədər bədii fəlsəfidir, yığcamdır, tutumludur, mənalıdır. ("Musa Yaqubun buynuzu var", "Həyatın və poeziyanın canlı obrazı", "Vətən bağının qədir ağacı", "Ağəddin Mansurzadə möhürü", "Sözün heykəltəraşı", "Ruhumun əzizi şair Şahmar Ələkbərzadəyə məktub", "Xalq artisti Canəli Əkbərov haqqında düşüncələrim", "Qarabağ etnomənəvi tarix", "Dərdlərin qovuşduğu yerdə") ölçüyəgəlməz dərəcədə dəyərlidir.

Ə.R.Xələfli Qarabağ mühitində böyümüş, orta təhsilini Cəbrayılda almış, bir neçə kənd məktəblərində müəllim işləmişdir. Azərbaycan tarixinin bütün parçalarında Qarabağın zəngin mədəni, elmi-ədəbi mühiti olmuşdur. Bu məmləkət həmişə böyük söz ustalarının, alimlərin, xanəndə və sazəndələrin vətəni kimi şöhrət tapmışdır.

Hələ orta məktəbdə oxuduğu illərdə Ə.R.Xələfli Qarabağ ədəbi mühitindən təsirlənmiş, nağıllara, bayatılara, aşıq şeirinə, dastanlara maraq göstərmişdir. Sonralar ağız ədəbiyyatı bu şair-

publisistin həyatından, məişətindən üzülməmişdir. O, özü də təbii istedadla, daxili mənəvi tələblə bayatılar, qoşmalar, ümumiyyətlə, lirik-şeirlər yazmışdır. Ermənilərin ölkəmizə xəyanətkar təcavüzü bu görkəmli şair-publisistin vətənpərvərliyini, elə-obaya sevgisini qat-qat artırmışdır. Qarabağ mövzusu, erməni qəsbkarlarına nifrət və qəzəb ideyası onun şeirlərinin əsas istiqaməti olmuşdur. O, bədii sözün gücünə, bədii sözün insanları təsirləndirə, daxilən hərarətləndirəcəyinə, Vətəni qorumağa səfərbər edə biləcəyinə inanmışdır. Bu səbəbdən də düşmənə kin-küdurət və nifrət pafoslu şeirlər, publisistik əsərlər və məqalələr yazmaqla kifayətlənmiş, həm də xalq deyimlərini, aşıq şeirlərini, dastanları öyrənmiş, onların haqqında geniş fikirlər söyləmişdir. Bunun nəticəsidir ki, bu böyük sənətkarın "Əfzələddin Xaqani "Şiniyyə"si", "Babək-milli quruq qaynağı", "Yenə şimşək çaxacaq", "130 yaşlı əkinçi", "Qurbani yurdu: topominləri, təbiəti", "Aşıq Ələsgərli düşüncələr", "Ozan ölməz, sazı sınmaz", "Ruhlar kompleksi-dahi", "Böyük faciənin baş qəhrəmanı", "Murad quşu əfsanəsi", "Müəllimlər iftixarı", "Qərib adlar, kövrək duyğular", "Yaqut işığı", "Balakişi Vəliyevin Zabul segahı", "Xalq artisti Canəli Əkbərov haqqında düşüncələrim", "Tanrı möhlətini havayı vermir" məqalələri ümumi maraq doğurur, mənəvi dünyamızı zənginləşdirir ədəbiyyat və incəsənət haqqında təsəvvürümüzü genişləndirir. "Qurbani yurdu: toponimləri, təbiəti" adlı məqalə iri həcmlidir, faktik tarixi materiallar bolluğu ilə yazılmışdır. Məqalədə Ə.R.Xələfli Qurbaninin yaşadığı tarixi, siyasi, iqtisadi və ədəbi-mədəni mühiti faktlarla səciyyələndirir, alim-tədqiqatçılara etinasız qalmır. M.Təhmasibin, Vaqif Vəliyevin, Paşa Əfəndiyevin və Azad Nəbiyevin Qurbaninin dünyaya gəldiyi, formalaşdığı məkan haqqında söylədikləri qeyri-dəqiq fikirlərə aydınlıq gətirir, hər hansı əhvalatı mənbələrlə əsaslandırır: "İlk dəfə 1971-ci ildə professor Paşa Əfəndiyevin", "Azərbaycan şifahi xalq ədəbiyyatı", professor Vaqif Vəliyevin "Azərbaycan şifahi xalq ədəbiy-

yatı" kitablarında Qurbani Cənubi Azərbaycanın Diri kəndində doğulub-faktına rast gələndə gözüm kəlləmə çıxdı".

Ə.Xələflinin səbrli və təmkinli elmi axtarışlarında Qurbani XV-XVI əsrlər Azərbayxan poeziyasının, xüsusilə, aşıq poeziyasının, sazın müşayiətilə oxunan şeirlərin ən qüdrətli müəllifi kimi Azərbaycan ədəbiyyatı tarixində önəmli yer tutur. Hiss olunur ki, Qarabağı, eləcə də Cəbrayılı Ə.R.Xələfli dağları, dərələri, kəhrizləri, qəsəbə və kəndlərilə tanımış Qurbaninin ayağı dəyən yerləri gəzmiş, müşahidələrini, gözlərinə yığmışdır. Bunlardan və yazılı mənbələrdən hünərlə istifadə məqalənin tarixi-elmi dəyərini artırmışdır. "El arasında Qurbani yurdunun hər dərəsinin, hər təpəsinin, bulağının, çalasının-çökəyinin adı var. Dem dağından üzüaşağı Qurbani qəbiristanlığına tərəf... bu qəbiristanlıqda Qurbaninin qəbri var, ən başlıcası çay daşlarından çəkilmiş hasarın içində qoşa qəbir-Qurbani və Pəri məzarlığı kimi tanınır, ocaq kimi həmişə ziyarət olunurdu. Şair-publisist Ə.R.Xələfli Cəbrayıl mühitindən, toponimlərdən, "Qurbani" dastanından, haqq aşığının, zəngin poetik irsindən danışmış şeirlərindən nümunələr vermişdir:

***Qurbanam Diriyə mən,***
***Ölüyə, diriyə mən.***
***Dağılaydı qürbəti.***
***Dönəydim Diriyə mən.***

***Qurbanam Diri dağı,***
***Duman gəl, bürü dağı.***
***Ölüm Allah əmridi.***
***Zülümdü diri dağı.***

***Arazın o yan tayı,***
***Dirinin Gəyən tayı.***
***Daşı qürbətə salar,***
***Öküzün əyən tayı.***

Qurbani Ə.R.Xələflinin təhlilində kövrək hissli, zərif duyğulu aşıq-şair idi. O, bayatılarında, qoşma və divanilərində zamanın ruhunu duyurdu, fikir aforistik, boyalar, rənglər zənginliyi ilə bədii müqayisələrin sadəlik, aydınlıq və fəlsəfi dərinliyi ilə ifadə olunurdu. Onun bayatı və qoşmaları öz dövründə belə çox oxunurdu, ağızdan-ağıza gəzirdi, toy-düyün məclislərində əzbər söylənirdi. Xalq şeirinin, aşıq ədəbiyyatının tarixini, ənənə və təcrübəsini mükəmməl bilən şair-publisist-Ə.R.Xələfli "Koroğlu" dastanına "Yenə şimşək çaxacaq", aşıq Ələsgərin poeziyasına "Aşıq Ələsgərli düşüncələr", "Ruhlar kompleksi" - dahi Üzeyir Hacıbəyovun yaradıcılığına, Aşıq Əhməd Sadaxlının-sazlı sözlü dünyasına "Ozan ölməz-sazı sınmaz" və daha neçə-neçə incəsənət adamının ideya-estetik fəaliyyətinə bu istiqamətdən yanaşır. Şair-publisistin "Aşıq Ələsgərli düşüncələr" adlı məqaləsi yaddaş-xatirədir, poetik təəssüratdır. Yazıda Aşıq Ələsgərin bu vaxta qədər heç bir floklorşünasın diqqətini çəkməyən, narahat etməyən "Dağlar" qoşmasının dördüncü misrasında işlənən "Alalı", ya "Aralı" sözlərinin hansının dəqiq yerinə düşüb düşməməsini dəqiqləşdirmək şair-publisistin niyyəti olmuşdur. O, inkar olunmaz məntiqlə sözün "Aralı yox, Alalı" olduğunu sübuta yetirmişdir.

***Bahar fəsli, yaz ayları gələndə,***
***Süsənli, sünbülü, lalalı dağlar.***
***Yoxsulu, ərbabı, şahı gədanı,***
***Tutmaz bir-birindən alalı dağlar.***

"Aşıq Ələsgərli düşüncələr" kiçik bir məqalədir, çox ifadəli, lakonik və şairanə yazılmışdır. Burada Aşıq Ələsgər də, onun sazı da, səsi də Ə.R.Xələflinin ruhundadır, fikir və xəyalındadır, mənəvi yaddaşının özül daşıdır, bünövrəsidir". Aşıq Ələsgər heyrətamiz bədii güc, istedad idi. Onun yaşayışının məzmunu, varlığının gözəlliyi, işığı, şamı və sevgisi sazı-sözü idi. Aşıq hərarətlə, ürəyinin bütün yanğısıyla sevirdi, xalqını, vətənini, el-oba-

sını sevirdi, insanlara vətənpərvərlik hissləri aşılayırdı. Haqq Aşığı şeir dünyasında zirvə idi, təmiz məhəbbətin, təbii gözəlliyin, insani münasibətlərin pərvanəsi idi". Ə.R.Xələflinin söylədiyi bu fikirlər Aşıq Ələsgərin şeir aləminin məzmunudur, poetik mündəricəsidir. Elə şair-publisistin özünün də, mənəviyyatı, ruhu, ürəyi sazla, hikmətlə, bədii sözlə çırpınır. O, ev-eşiyini, çörəyinin dadını-duzunu sazsız ağlına sığışdırmır. "Elə bilirəm, hansı evdə saz varsa, o evdən xata-bala qaçaq olar". "Ən çətin məqamda, ən dar ayaqda kimin qulağına sazın sədası gəlirsə, onu Tanrı özü qoruyar".

"Qədim Ozanın, Qayım Ozanın övladını", ozan sənətinə sədaqət heykəlini ("Ozan ölməz, sazı sınmaz") Ə.Xələfli yaxşı tanıyırdı, onların ilk görüşü əbədi dostuluğa çevrilmişdi. Yəqin şair-publisist aşıqla çörək kəsmiş, onun saz-söz, toy-düyün məclislərində iştirak etmişdir. Ona görə də Ə.Xələfli Aşıq Əhmədi, "Xalqın özü kimi görmüş", millətin səciyyəvi cizgi və keyfiyyətlərini onun varlığında - əməllərində və sazında tapmışdır. O, Aşıq Əhməd Sadaxlını sevmiş, bu sənətkarda səmimiyyətə, el-obaya, ucu-bucağı gözlə ölçülməyən Borcalıya ehtiraslı sevgi olduğuna inanmış, onun parlaq obrazını, nurlu cöhrəsini mənəvi dünyasına həkk etmişdir.

Adlı-sanlı, çox böyük nüfuzlu sənətkar-Aşıq Hüseyn Saraçlı 20 il Aşıq Əhməd Sadaxlıya təlim vermiş, ona sazın sirlərini öyrətmiş, uzun müddət toy məclislərində bərabər iştirak etmişlər. Aşıq Əhməd Sadaxlı Gürcüstanda və Azərbaycanda dastançı kimi şöhrət qazanmışdır. O, məclisləri şən, gur və oynaq aparırdı, çox şirin, canlı, ibrətamiz danışırdı. Ə.Xələfli Aşıq Hüseyn Saraclı ilə Aşıq Əhməd Sadaxlının toy məclisinin dinamik sujetini vermişdir. "Xəbər gəldi ki, Hüseyn Saraclı məni gözləyir. Doğrusu, əvvəlcədən məni şəyirdliyə götürmək haqqında razılığa gəlmişdik. Həmin gün toyda elə bil dörd yaşar bir ürkə üstündə idim. Ustadım isə on yaşar köhlənə suvar olmuşdu. Asta-

gəlliyi, yolun uzaqlığını gözünün altına necə alması bugünkü kimi yadımdadır. Mən elə bil həmin gecə ilhamımı "yığa" bilmirdim. Səsimin şövqü mağarı başına götürmüşdü. Gecə yarıdan keçəndə ustad sazın "qulağını burdu". Elə bil dalağım sancdı. İlahi, "Misiri" üstə necə oxudu. Bəlkə də oxudu yox, məni nə günə qoydu deməliyəm. Həmin gün yan-yana bizə yer açmışdılar. Qabırğa söhbətini başladı: Hə, bala bu günkü toydan ağlın nə kəsdi. Mən qəbahətimi başa düşmüşdüm. Və 20 ildən çox müddət ərzində o qəbahət bir də təkrar olunmadı. Mən ömrüm boyu ustadımın yolunu saxladım. Ə.Xələfli müasir mətbuatda, söz sənətində, incəsənətdə, sözü və aşıq şeirini duymaqda, dərk etməkdə, mənalandırmaqda istedaddır, tapıntıdır, heyrətamiz ədəbi şəxsiyyətdir. Xalqa, xalqın sənətinə, xalqın bədii ədəbiyyatına sevgi onun düşüncəsidir, mənəviyyatıdır, nəbz döyüntüsüdür, qanıdır. O, xalqdan, millətdən, torpaqdan yazmayanda, danışmayanda rahatlıq tapmır, şair-publisist Ə.Xələfliyə oxşamır. Xalqdan danışanda mənən, fikrən zənginləşir, əzəmətli görkəm alır: “Ustadın "Mansırı", "Qaraçı" havalarını özünəməxsus bir üslubda ifa etməsi redaksiyanın nəinki əməkdaşlarını, elə divarlarını da yandırır. Hiss edirəm ki, bu çalğı, bu xallar, bu güllər nəinki məni, səni, onu, bütün Azərbaycan xalqnı, Dərbənddən, Borçalıdan, Təbrizdən-hamımızı Vətən yanğısına tutuşmağa çağırır". Söz sənətini şəxsi taleyindən, yaşayış və məişətindən ayırmamaq, vəhdətləşdirmək, Vətəndaşın vətəndaş mahiyyətini bütün çalarları ilə mənalandıra bilmək, yaradıcılığında gerçəkliyi həyatın özünə bənzər göstərmək, Qarabağ-faciəsindən ayrılmamaq, onu düşüncələrinin məzmununa çevirmək şair-publisistin - Ə.Xələflinin səciyyəsidir. Yüksək şeiriyyətlə, canlı həyatı çırpıntılarla yazılan "Sədaqət heykəli" qoşması təkcə Aşıq Əhməd Sadaxlının sazına-sözünə, sənətinə heyranlıq yox, həm də Vətənə və xalqa sevgidir, Qarabağ faciəsinin qəmidir, kədəridir, nisgilidir, ancaq ümidsizlik, inamı itirmək pafosu deyildir:

***Köksümə dağ boyda dağ basdı mənim,***
***Mizrabın dilləri, Əhməd Sadaxlı.***
***Sinəmə od qoydu, yandırdı məni,***
***Sazının telləri, Əhməd Sadaxlı/.***

***Arazın suları bulanır, axır,***
***Nisgili qəlbimi dolanır, axır...***
***Qürbətdən yurduna boylanır, baxır,***
***Qarabağ elləri, Əhməd Sadaxlı.***

***Körpünün həsrətdən bağrı çatladı,***
***Dözmədi dərdinə, tağı çatladı***
***Dağların dizini ağrı qatladı,***
***Sayıram illəri, Əhməd Sadaxlı.***

***"Kərəmi", "Mansrı" sinəmə oydu,***
***"Qaraçı" yol üstə dərimi soydu***
***Neçə-neçə yurdu xaraba qoydu,***
***Bu dərdin selləri, Əhməd Sadaxlı.***

***Xələfli sözündən, dilindən yandı,***
***Sadaxlı gözündən, elindən yandı,***
***Asta vur mizrabı, qana boyandı,***
***Xalların, güllərin, Əhməd Sadaxlı.***

Ə.Xələfli ədəbiyyatşünas-tənqidçidir. Şair-publisist, peşəkar jurnalistdir, o ehtiyac duyanda iqtisadi-siyasi, elmi-mədəni həyatın, maarif və mədəniyyətin müxtəlif sahələrindən, Qarabağın dərd və acılarından düşündürücü məqalələr yazır. Tanıdığı, fəaliyyətlərinin məzmununu bildiyi sənət adamları haqqında söz deyir, fikirlər söyləyir. Görkəmli bədii söz ustası Ə.Xələflinin "Ruhlar kompleksi-dahi", "Yaqut işığı", "Mən sənin Məcnununam", "On gözəlliyin sahibi bu gün Dədə Süleymandır". “Bala-

kişi Vəliyevin "Zabul seygahı", "Xalq artisti Canəli Əkbərov haqqında düşüncələrim", "Sağlam mənəvi prinsiplər bütün iddialardan üstündür"-həmişə müasirliyini saxlaya bilən orijinal istiqamətli, oxunaqlı məqalələrdir. Çünki Ə.Xələfli sənətkarların yaradıcılığını-ya ifadə tərzlərini, ya səhnə-ekran mədəniyyətlərini davranışlarını, ya da bəstələrini dərk edə-edə, bədii mətnlərin məzmununu yaşaya-yaşaya yazmışdır. O, hər sənət ustasına fərdi yanaşmış, onların yaradıcılığana xas olan səciyyəvi xüsusiyyətlri nəzərə çarpdırmışdır. Ədibin "Ruhlar kompleksi-dahi" məqaləsində Üzeyir Hacıbəyovun yaradıcılıq yoluna nəzər salır. çünki o, dünya şöhrətli bəstəkardır, musiqişünas-akademikdir, dramaturq-milli operanın banisidir, pedaqoq, ictimai xadimdir. O, Qori müəllimlər Seminariyasında oxuyanda (1899-1901) çox fəal olmuş, Avropanın, Rusiyanın musiqi mühitini yaradıcı öyrənmək istəmişdir. Azərbaycan xalq mahnılarının bəzisini nota almışdır. Bu qeyri-adı fitri istedad sahibinin "Leyli və Məcnun" operası 1908-ci ildə Tağıyev teatrında tamaşaya qoyulmuşdur. Bu, Şərqin və Azərbaycanda ilk opera və ilk operanın ilk səhnə təfsiri idi. Musiqili komediyanın janr yaradıcısı Üzeyir Hacıbəyov operalarının sujetlərini dinamik, axarlı qururdu, xalq-aşıq musiqisindən, xordan, muğam və təsniflərdən istifadə edirdi. Ə.Xələfli doğru deyir: "Ü.Hacıbəyovun özü qədər onun Koroğluları, Leyliləri, Məcnunları, Əsgər bəyləri, Gülçöhrələri, Məşədi İbadları... ölümsüzdür, əbədiyaşarılıq haqqı qazanmış sənət ulduzlarıdır... Ü.Hacıbəyov dünyanın elə sənətkarlarındandır ki, onun istedad işığı, onun naləsinə gələnlərin, onun işığına gələnlərin hamısını pərvanəyə çevirir, hamısını yandırır, hamısını şölələndirir və bu işığı öz millətinin üstünə səpələyir... Üzeyir bəyin dahi adlandırılması yenilik deyil. Ölümsüzlük qazanmışdır bir dahi olaraq, onun mənəvi aləmin çoxqatlılığı, zənginliyi və ən müxtəlif istiqamətlərdə müvəffəq olması onun dahiliyini şərtləndirən amillərdir. Bəlkə də hər birimiz bir ruhun

daşıyıcısıyıq. Ancaq Üzeyir bəy bir neçə ruhun daşıyıcısıdır. Onun daxili aləminin nizamı ruhlar kompleksidir".

Ə.Xələfli bədii yaradıcılığın müxtəlif sahələrində uğurla fəaliyyət göstərir, istəyəndə oxucunu heyrətləndirə, həyəcanlandıra, sevindirə, kədərləndirə, qayğı və narahatlığını artıra, fikir və düşüncələr aləmində saxlaya bilir. Sənətkar güclü istedad və dərin məntiqlə, zəngin fakt, müşahidə və təəssüratlarla lirik şeirlər, lirik-epik poemalar, publisistik və ədəbi-tənqidi məqalələr, xatirə-düşüncələr, ədəbi-məktub və ədəbi qeydlər yazır. Bütün hallarda yaradıcılığın ahəngini, asanlıqla seçilən və tanınan fərdi - bədii, ya elmi-publisistik üslubunun bütövlüyünü qoruyub-saxlayır. Faktlarla düşünmək və düşündürmək, canlı müşahidələrlə fikir söyləmək sənətkarın publisistik məqalələrinə ilhamla yazılan şeirin gur axarına bənzər bir axar, ahəng və bədii-fikri bütövlük gətirir. Bu baxımdan "Unuda bilmirəm"("Xatirələr, düşüncələr"), "Xəzan oldu baharı", "Əzabın şairi", "Dağ uçar, çeşmə çağlar", "Əsrin son dalğası", "Xəyalımdan reportaj", "Bir çinar körpüsü, bir bulaq suyu", "Yaxşıların axıra qalmışı", "Bir ağrı var", "Zəlimxan Yaqub-Azərdən Turanacan", "Vətən bağının qədir ağacı", "Ramiz Qusarçaylının mənəvi dünyası", "Boyaqçı həyatın özüdür", "Müqəddəslik və heyrət", "Halal şöhrətin sahibi", "70 ilin Qaçay Köçərlisi", "Söz toxuyur, əfsun oxuyur" və başqa məqalələri səciyyəvidir.

Ə.Xələfli bəzi portret-esselərində, ədəbi qeyd və ədəbi məktublarında fikir söyləyir, mühakimələr yürüdür, haşiyələrə çıxır, lakin elmi və bədii faktları yerli-yerində işlədir, digəl ki, məqalə bədii mühakimə və ricətlərlə, didaktik rəvayət və əhvalatlarla, yüklənir, niyyətin açılması, bədii ifadəsi ləngiyir. Bunlar isə alim-şairin özünə və məntiqinə inamıdır, ötəri halıdır, üslubi əlamət, səciyyə deyildir. Çünki o istəyəndə tutarlı faktlarla mükəmməl təhlillər aparır, həmişə dəyərini saxlaya bilən əsərlər yazır. Onun "Ömrün hər anı", "Tarix daha ədalətlidir", "130 yaşlı

Əkinçi", "Dərdi-mehnətin...eşq ilə çəkən", "Sözümüzün məhək daşı", "Azərbaycanın Bəxtiyarı-bizim Bəxtiyarımız", "Anar-meyar", "Söz vaxtına çəkər", "Yaqut işığı", "Mən sənin Məcnununam", "Balakişi Vəliyev-Zabul segahı", "Geçikmiş məktublar", "Böyük sevginin baş qəhrəmanı", "Müqəddəs sevginin şairi", "Hər şeyi bilən adamın dastanı", "Səsin üç rəngin", "Qövsi-qüzeh üstə yeriyən səs"... məqalələrində elmi ədəbi şəxsiyyətlər mühitlərində, yaradıcı fəaliyyətlərində görünür, özlərini xalqa, vətənə, ölkənin milli bütövlüyünə həsr edirlər. Ə.Xələflinin inamında 130 il bundan əvvəl Həsən bəy Zərdabi "Əkinçi" qəzeti ilə milli mətbuatı yaratdı. "Əkinçi"nin yarandığı dövr çox mürəkkəb, çox çətin idi, insanlar feodal-patriarxal dövr yaşayırdılar; "birbirinə düşmənçilik eləyən bir kökün, bir soyun, bir vətənin, bir torpağın övladları" heç nəyə məhəl qoymurdular, didişirdilər. Milli mətbuatı ərsəyə gətirəndə Böyük Vətənpərvər Həsən bəy Zərdabi öncə sözə, sözün gücünə, sözün dəyərinə, təsirinin hərtərəfliliyinə inanırdı.

Sözlə şüura, düşüncəyə, mənəviyyatına, psixologiyaya təsir etmək istəyirdi. Həsən bəy Zərdabinin niyyəti xalqda mədəni təssərrüfat anlayışı oyatmaq, gəncləri maarifə, mədəniyyətə və savada istiqamətləndirmək idi. "Dərdi-mehnətin...eşq ilə çəkən", "Tarix daha ədalətlidir və ömrün hər anı" məqalələri yenilik duyğusu, yaradıcı düşüncə və həssaslıqla qələmə alınmışdır. Həm “Dərdi-mehnətin...eşq ilə çəkən, həm də “ömrün hər anı”nda şair-publisist Ə.Xələlfli diqqəti orijinallığa, faktların təzəliyinə, fikirlərin dəqiq və sərrast ifadəsinə verir. "Dərdi-mehnətin...eşq ilə çəkən" adlı məqalədə “Xaki payin-taci sərim” divanının çapı Seyid Nigarinin anadan olmasının 210 illinə böyük hədiyyədir. Çünki Seyid Nigari yeni dünyabaxışlı, haqq və ədalət sevən, fitri istedadlı, həssas, kövrək qəlbli bədii söz ustasışair-filosof idi. O, klassik ədəbiyyatın ənənələrini, təkamül yolunu yaradıcı, dərindən-dərinə mənimsəmişdi. Özünü ancaq poezi-

yaya həsr edən bu nadir istedad ənənəni, ədəbi təcrübəni sadəcə öyrənməklə kifayətlənmirdi. Onu müasir çalarla, müasir ifadə üsulları ilə, müasir ahənglə, fərdi yaradıcı bədii tapıntılar üzərindən keçən forma ilə zənginləşdirirdi. Bütün şeirlərində özündən əvvəl bədii ədəbiyyatda işlənmiş məzmunlar Seyid Nigarinin ifadə tərzində təzə istiqamətdə, təzə rənglər, boyalar və bədii məcazlar silsiləsinin bolluğu və əlvanlığı ilə əksini tapırdı.

Seyid Nigari şeir yazmırdı, sözü-sözə nizamla çalamırdı, qafiyə və rədif axtarmırdı, şeiri yaradırdı. Bu ədibin şeirləri gur, ləngərli çay kimi axırdı, dörd tərəfində olan neçə-neçə xırda çayları və gölləri silib-süpürüb aparırdı. Onun şeirləri tərtəmiz dağ çayları kimi axırdı, dərinliklərdən gəlirdi, təskinlik, şəfa verirdi, nisgilləri ovundururdu, sevənlərin sevgisini şiddətləndirirdi, həyatdan küskünləri həyatın gözəlliyini duymağa çağırırdı. Bununla belə, həyat, feodal-patriarxal mühit, yaşayış çətinliyi Seyid Nigarini sıxırdı, taleyi, qisməti üzünə gülmürdü. Çar Rusiyası, sonralar isə Kommunist Partiyası Seyid Nigarinin təsirli, nüfüzlu şəxsiyyətinə çox ehtiyatlı, ürkək yanaşırdı. Ə.Xələfli doğru deyir: "Ondan qorxurdular. Çünki qüdrətli söz sahibi idi. Sözü insanın varlığına hopur, iliyinə, qanına yeriyirdi, söz ilə insanları cuşa gətirir, sanki əqlini alır, çap olunan divanı ayrı-ayrı əllərdə gəzirdi".

Ə.Xələflinin yaxşı tanıyıram, ləyaqətli, vətənpərvər, xalqını sevən ziyalıdır. Onun zövqünə, dünyagörüşünün dərinliyinə bələdəm. Bu ədibə hər şeiri bəyəndirmək olmur. Lakin Nigarının "Dərdi-mehnətin...eşq ilə çəkən" şeiri haqda divanda toplanan digər şeirlərindən heyranlıqla danışır:

***Dərdi-mehnətin, ey sənəm, sənəm,***
***Eşq ilə çəkən bir mənm, mənəm.***
***Ari-varini rahi-mehrdə,***
***Tarimar edən bir mənəm, mənəm.***

***Çəkmişəm səfa, eylə bir vəfa,***
***Səndən ələta, can sənə fəda.***
***Rahi-mehrdə zari-binəva,***
***Tarikül vətən bir mənəm, mənəm.***

Hansı ədəbi növdə, hansı janrda yazırsa-yazsın birdir. Ə.Xələfli həyatı yaşayışı, münasibəti, sosial varlığın axar və istiqamətlərini, insanın mahiyyətini öyrənir. Yazacağı əsərin növünü, janrını, mövzunu varlığın hansı sahəsindən alacağını müəyyənləşdirir. Janrın tələblərinə, mövzunun xislətinə uyğun fakt toplayır. Ona görə ki, istedad Ə.Xələflidə hər şey demək deyildir. İstedad zəhmətə, zəhmət də istedada güc, istiqamət verir, biri o birini sərtləndirir. Yüksək bədii zövqlü şair-publisist Ə.Xələfli bilir ki, əvvəlcə hadisə, əhvalat və əməl, sonra fikir gəlir, yeni fikir proseslərdən təzahür edir. Müşahidə və təəssüratlarına inanıram. Ə.Xələfli istedadını, fikir və düşüncə aləmini, yaradıcı inamlarının hərtərəfliliyini hərəkətə gətirəndə, rənglərini gercəkliyə çəkəndə boy çiçəyi iyini verən lirik şeirlər və poemalar, dinamik, ifadəli, lakonik portret-esselər, ədəbi məktublar və ədəbi qeydlər yazır. Onun "Ömürün hər anı" real faktlarla mənalanan, məzmunun yeniliyi ilə diqqəti çəkən orijinal portret-essedir. Portret-essedə qeyd olunur: Əmin Abid qırx il ömür yaşamış, 1938-ci ildə repressiyanın qurbanı olmuşdur. O, alim, şair, tənqidçi, ədəbiyyatşünas-tədqiqatçı kimi fəaliyyət göstərmiş, qısa zaman ərzində "Ömrünün elmi dastanını" yaratmışdır. Ə.Xələfli onu da dəqiqləşdirmişdir ki, Əmin Abid ali təhsili Türkiyədə, İstanbul Universitetində almışdır. Tələbə Əmin Abid Türkiyədə Azərbaycan tüklərinin ədəbiyyat tarixi tədqiqatını yazmışdır. "Ömrün hər anı" portret-essesində deyildiyi kimi Əmin Abidin fitri intellektual səviyyəsi, güclü elmi təfəkkürü, hərtərəfli tədqiqat aparmaq istedadı olmuşdur. O, ilk dəfə Məhəmməd Füzulinin "Söhbətül-əsmar" əsərini aşkarlamış, onu oxuculara çatdırmışdır. Əmin Abid Azərbaycan klassik söz sənətindən, ağız ədə-

biyyatından, M.F.Axundovun bədii irsindən xeyli məqalə yazmış, onun "Kitabi-Dədə Qorqud"un mətni haqqında məlumat "Türk ədəbiyyatına elmi bir baxış (Ogüznamə) Azərbaycan ədəbiyyatının qədim abidələrindən Bayatının türk xalqları ədəbiyyatında mövqeyi, “Türk ədəbiyyatında bayatı-mani növü” monoqrafiyaları yayılmış, bizim dövrümüzdə hər biri elmi dəyərini saxlamışdır.

"Meyar" orijinal kitabdır, ədəbi faktlarla zəngin kitabdır, hamının kitabıdır. Filoloqların-tədqiqatçıların, ali məktəb müəllim və tələbələrinin, orta məktəb şagirdlərinin kitabıdır. Liseylərdə və texnikumlarda humanitar yöndə təhsil alanların dəyərli, çox gərəkli kitabıdır. Kitabda iki yüzə yaxın şəxsiyyət, o sıradan Seyid Nigari, Həsən bəy Zərdabi, Üzeyir Hacıbəyov, Hüseyn Cavid, Səməd Vurğun, Süleyman Rüstəm, Əmin Abid, Yusif Məmmədəliyev, İlyas Əfəndiyev, Bəxtiyar Vahabzadə, Anar, İsmayıl Şıxlı, Əkrəm Cəfər, Bəkir Nəbiyev, Yusif Səmədoğlu, Hüseynbala Mirələmov, Nəriman Həsənzadə, İsa İsmayılzadə, Nüsrət Kəsəmənli barəsində dolğun, mənalı və idrak-tərbiyəvi əhəmiyyətli məqalələr verilir.

Şair-publisist Ə.Xələfli sənətşünas deyildir. Nə incəsənət universitetində, nə də musiqi məktəblərində təhsil almamışdır. Cəbrayılda doğulmuş, bir neçə il Cəbrayılda müəllim işləmişdir. Qarabağda-Cəbrayılda vaxt tapanda fürsət düşəndə xanəndələri, aşıqları, bayatı deyənləri dinləmiş, onların ifa tərzlərini, sənətin xüsusiyyətlərini müəyyən qədər öyrənmək üçün "qulaq kəsilmiş", Yaqut xanımın "yeri-göyü titrədən" məlahətli səsinin Məcnunu olmuşdur. Balakişi Vəliyevin "Zabul-segahı", "Xalq artisti Canəli Əkbərov haqqında düşüncələrim", "Səsin üç rəngi", "Qövsi-guzeh üstə yeriyən səs", "Yaqut işığı", "Mən sənin Məcnununam" məqalələri sənətə milli-novator bir şairin həvəsilə ehtirası ilə qəlmə alınmışdır. Məqalələrdə hər sənətkar-müğənni səciyyələndirilir, fərdi ifadə tərzlərinə münasibət bildirilir: “Xalq

artisti Canəli Əkbərov haqqında düşüncələrim"də, Ə.Xələfli səmimidir, təbiidir, özünü və mənəviyyatını yüksək tutan Canəli Əkbərov həyata da, məişətə də, şəxsi münasibətlərdə də şəxsiyyətdir, səhnədə, rola girəndə, hər hansı obrazın səhnə təfsirini verəndə, özünü unudur, deyək ki, elə Məcnuna bənzəyir, səhnədə Məcnun kimi yaşayır. Müəyyən bir mahnını-muğamı oxuyanda onun varlığı da, səsi də özünəməxsusdur, şair-publisist Ə.Xələfli demişkən, tamam xəlqidir, orijinaldır, səsi xalq ruhudur. Azərbaycan-ruhudur. Çünki "Vüsalını xalqın taleyində axtaran, yanğısının həyatdan gəldiyini bilən sənətkar artıq səhnədə aktyor deyil, özüdür... Onun son Məcnunu artıq, filosofdur. Faciəsini dərk edən, duyan müdrik, idrak sahibi, məcnunluğun daha məntiqi, daha inandırıcı sonluğunun şəhidi olan ürfan sahibi... Xalq artisti Canəli Əkbərov istedadlı, təcrübəli, özünü incəsənətə həsr edən, muğamın ənənələrini şaxələndirən mahir sənətkardır. Ona görə də, nə qədər Canəli Əkbərovun ənənələri yaşayacaq, Məcnunluq da yaşayacaq. Nə qədər Məcnunluq yaşayacaq, şərqililik da yaşayacaq. Nə qədər şərqililik var, kapitala güvənən Qərb ondan müdriklik dərsi öyrənəcək".

Zahirən, şair-publisist Ə.Xələfli həyatda "Öz ağrısını, acısını, sevincini, şadlığını, sıxıntısını, yurdsuzluğunu, həsrətini, vüsalını" unudur. Gülərüz, məğrur, vüqarlı görünür. varlığın bütün sahələrindən bədii və publisist əsərlər qələmə alır. Bu, onun həyata, Qarabağın sabahına nikbin baxışından, xalqın gücünə inamından irəli gəlir, şair-publisist Ə.Xələfli "kapitala, şou biznesə" güvənən müğənniləri unudur, sənəti ucaldan. Sənəti hərarətlə sevən Balakişi Vəliyevlərdən, Yaqut xanımlardan, Məhəbbət Kazımovlardan, Ağalar Bayramovlardan danışır. "Meyar" əsərində Balakişi Vəliyev "Azərbaycan klassik sənət örnəklərinin müasir daşıyıcılarından" biridir. O, nüfuzlu, özü öz yaradıcılığına yüksək tələbkarlıqla yanaşan yeni səciyyəli muğam ustasıdır, sayılan-seçilən incəsənət xadimidir. Onun adını Azərbaycanın Cə-

nubunda, Türkiyədə və Orta Asiyada hörmətlə çəkirlər. Şair-publisist Ə.Xələfli Balakişi Vəliyevin həyatından, fəaliyyətinin ilk dövrlərindən fraqmentlər verir: 1940-cı ildə Neftçala rayonunda anadan olduğunu, Azərbaycan Dövlət İncəsənət İnstitutunda ali təhsil aldığını, 1979-cu ildən Azərbaycan Dövlət Opera və Balet Teatrına dəvət olunduğunu söyləyir. Teatrda özünəməxsus fərdi üslublu, səhnəyə dərin həvəsli, istedadlı bir sənətkarın "Leyli və Məcnun", "Şah İsmayıl", "Əsli və Kərəm", "Aşıq Qərib" operalarında uğurla müxtəlif obrazlar yaratdığı bildirilir.

Şair-publisist Ə.Xələfli doğma xalqı, vətəni, milli dili və milli mədəniyyəti ürəyinin bütün hərarəti, bütün telləri ilə sevən-sənətkardır: Qarabağ dərdlidir, Qarabağ nisgillidir, Qarabağ həsrətlidir. Onu Qarabağ daxilən alovlandırır, qaçqınların öz doğulduqları mahallarda, eləcə də böyük müəllimi atası Zal kişinin Xələflidə dəfn oluna bilməməsi sənətkarı yandırıb-yaxır, dərdinin üstünə qalaq-qalaq təzə qəm-qüssə gətirir. Balakişi Vəliyevin vətənpərvərliyinə, həyatını xalqın həyatına qatmasına şübhə etmirəm. Xalqa, Vətənə qızğın sevgidə duyğularını böyük sənətkar şair-publisist Ə.Xələfli ilə bölüşdüyünə inanıram. "Biz Vətən mülkünü həqiqətdə sevən aşiqlərik... “Vətən mülkünü sevməyin nə olduğunu vətəni əldən çıxmış olanlar bilər, yurdunu itirənlər bilər. Yurdu itirənin başına hava gəlibsə, onu qınamayın, onu sinəsindən geri itələməyin". Ayrı nəyi var ki, yurdundan ötə. Sevdiyini, varlığını, ruhunu itirib. Vətəni ilə birgə "vətən mülkünü" həqiqətdə sevən aşiqlər haqqındakı o nəğmə Balakişi Vəliyevin oxuduğu "Zabul-segah" muğamının əksər variantlarında həmişə bir proloq kimi, bir giriş kim səslənir və əbədi yaddaşlara köçür.

O, mürəkkəb və şərəfli yaradıcılıq yolu keçən, muğamı incəliklərinə qədər duyan və yaşayan onu məharətlə oxuyan ustad sənətkardır. O, muğamı məharətlə, hər sözün, hər ifadənin mənasını yaşaya-yaşaya, dinləyiciləri dərin təsirdə saxlaya-

saxlaya oxuyur. Yazıçı-publisist Xeybər Göyyallı yanılmır, sərrast fikir söyləyir: "Mən Balakişi Vəliyevin timsalında canlı klassik görürəm.

O, tarixdən gəlmiş adama bənzəyir. O, muğamı öz taleyinə hopdurub. Yeni nəsil üçün belələrinin nümunəsi əvəzsizdir".

Şair-publisist Ə.Xələfli sevdiyi, yaradıcılıq məziyyətlərini yaxşı duyduğu, uca tutduğu sənətkarlardan həmişə yazmağa, fikir söyləməyə ehtiyac duyur. Balakişi Vəliyevin "Zabul segahı" adlı məqalə istedadla, muğam yanğısı, muğam sevgisi ilə qələmə alınmışdır. Çünki Ə.Xələfli Balakişi Vəliyevin səhnəni sevdiyini, özünü muğama həsr etdiyini bilir. Bilir ki, bu böyük aktiyor bütün həyatını, bacarığını musiqi mədəniyyətinin inkişafına istiqamətləndirmişdir. Onu şöhrətləndirən, öncə "Zabul-segahı olmuşdur". Ə.Xələflinin inamında: "Muğam "Zabul-segahı" sızıltı ilə danışır, elə təqdim edir ki, insan öz həyatını muğamın ifası boyu təzədən yaşayır. Ruhda, ürəkdə, mənəviyyatda yaşayan yaralı xatirələr dilə gəlir".

Bədii əsərlərini, xüsusən lirik və lirik-epik şeirlərini oxumayanlar, mənimsəməyənlər şair-publisist Ə.Xələflini dərk edə, qiymətləndirə bilməzlər. Çünki bu sənətkar dərin bədii fəlsəfi fikirlər, nisgilli, kədərli, nigaran və həsrətli duyğu və təəssüratlar, mənəvi-pisixoloji çırpıntılar, insana sevgi və qayğı, insanı bütöv görmək, onun ürəyini "sıxıb", duyğu və düşüncələrini açıb-göstərmək şairidir. Təbii bir şairin yaradıcılığını bütöv yaşamayan oxucalar bilməyəcəklər. Ə.Xələfli niyə belə bir hissiyyatla, quş ürəyi kimi çırpınır. "Ürəyim həyəcanla döyünür. Hiss edirəm ki, bu səs nə isə danışır" Ə.Xələfli yaradıcı şəxsiyyətini, vətənpərvərliyni bilməyənlər niyə Ə.Xələfli belə düşünür deyərlər: "Oxu Yaqut xanım, oxu sən oxuyanda aləm cənnətə dönsə də, yaddan çıxmır Qarabağ".

Havayı söz deməyən, özü-öz təəssüratlarını çox ucatutan yazıçı-publisist Elçin Kamal ustad müğənni Yaqut xanımı belə sə-

ciyyələndirir: “Ə.Xələfli bu yazını oxumaq üçün mənə təqdim edib deyəndə ki, Yaqut xanım haqqındadır, elə bildim ki, Yaqutu tapmışam. Bir nəfəsə oxudum. Yaqut xanımı iki dəfə toy məclislərində görmüşəm. Yaqut xanım oxuması ilə məclisi hərəkət gətirdi. Dinləyicilərin üz-gözlərindən heyranlıq ifadəsi açıq-aydın seçilirdi. Bir dəfə də illərlə Araz qırağında dayanıb karvanın Xudafərindən keçməsini həsrətlə gözləyən və nəhayət "Karvan körpüdən keçir" qənaətinə gələn, millətin faciələrini, ağrılarını qəlbində yaşayıb onu. "Baş daşımın yazıları"na əbədilik həkk edən Ə.Xələflinin oğlu Anarın toy məclisində. Yaqut Abdullayevanın səsi torpaq itkisindən əyilmiş qəddimizi dikəltdi. Mən təkcə Yaqut xanımın səsini eşitmədim. O, səsin işığına üzü dağlara doğru yol getdim. O səs əlimdən tutub məni Diridağda, Qarabağda gəzdirdi. Oxu, Yaqut xanım, oxu! Sən oxuyanda adam milliləşir”.

Əməkdar artist Yaqut Abdullayeva əsilli-nəsilli xanım-ziyalıdır, coşğun istedadlıdır. Onun mükəmməl, təkrarsız ifa tərzi, üslubu vardır. Həqiqəti deməkdən çəkinməyən Ə.Xələflinin inamını bir qədər dərinləşdirsək: Cəbrayıl-təbiətinin zənginliyi-Yaqut xanım. Təbii, canlı gözəllik, əxlaqi-mənəvi saflıq, insanı heyrətləndirən, ürəyini yerindən oynadan qeyri-adi səs-zərif, incə-Yaqut xanım, ayrılıq, dözüm, səbr, müdriklik, yerqulacı, ruhun səsi, həyatın isti nəfəsi, mənim şəxsən tanımadığım-Yaqut xanım Abdullayeva. “İndi yırtıcı ermənilərin işğalından illər keçir. Yaqutun da yaşının üstə yaş gəlir, ayrılığın da yaşının üstünə yaş gəlir, amma mənim yuxularımda qalmış o Cəbrayıl, gözümün həsrətini çəkdiyi o Cəbrayıl Yaquta çox oxşayır”.

Ə.Xələflinin görümündə Cəbrayıl kəhrizlər diyarıdır. Təkcə təbii sərvətlərin timsalı suyun-kəhrizin yox, həm də mənəvi kəhrizlərin diyarı idi... Bəli, bir Yaqut kəhrizi də var. Yaqut milli, məğrur, vüqarlı, əzəmətli, zəngin əxlaqi-mənəvi keyfiyyətli muğam ustasıdır. Yaqut xanım oxuyur. Hətta, insaf elə "Boyun

qurbani", "Mən bir solmaz yarpağam ki" "Yar gəldi", "Sevəydin barı" mahnılarını gənclik həvəsi, gənclik etirası ilə oxuyur. Dinləyicilərin önündə lirik, şən, şüx görkəm alır. Tamaşaçıların əhvali-ruhiyyəsi kədərə bürünməsin deyə, daxilində Diridağ ağırlığında həsrət, nisgil və qəm gizlədə bilir. Mahnıları təsnifləri, muğamları ilə könüllərdə, düşüncələrdə özünə dərin Yaqut xanım sevgisi oyadır.

Təəssüflənirəm, düşüncələrimi də yığıb-yığışdıra bilmirəm. Bir ölkədə, bir şəhərdə yaşayırıq, amma səsləri yeri-göyü titrədən, dinləyiciləri davamlı təsir və heyrətdə saxlayan Yaqut xanımla Məhəbbət Kazımovu şəxsən tanımıram. Təəssüfümü xeyli dərinləşdirən böyük vətənpərvər Ə.Xələflidən "giley-güzarımdır". Çünki Ə.Xələfli iti, tutarlı qələm sahibidir, məzmunlu, xəlqi-novator lirika ustasıdır. Bilmirəm, Ə.Xələfli niyə Qarabağ kədərini, Qarabağ nisgilini, Qarabağ həsrətini mahiyyətcə inamla kədəri vəhdətləşdirən hissləri mahnılara, lirik nəğmələrə "köçürmür", yəni imkanı, istedadı ola-ola nəğmələr yazmır. Belə mahnıları Yaqut xanım da, Məhəbbət Kazımov da daxili yanğı ilə oxuyardılar. Ona görə ki, Məhəbbət Kazımovun səsi həzindir, nisgilləri, dərin kədəri oynaqlıqla, şirinlik və çağırış qarışıq hisslər, dinləyiciləri yerlərindən tərpədən səsdir. Bu səs sirlidir, sehirlidir, qaynardır, tamaşaçıları harasa-fikrə, xəyala, düşüncəyə, yarı dramatik-fəci, yarı romantik bir aləmə aparan səsdir. Belə bir qeyri-adi səs, təbii Məhəbbət Kazımovun həyatı hərtərəfli, bütün çətinlikləri ilə görümü, duyumu və dərki ilə bağlı məziyyətdir.

Məhəbbət Kazımovun hərəkətlərindən, səhnə mədəniyyətindən gözəllik-musiqi yağır. O, yaralı-yaralı, dinləyicini göynədə-göynədə oxuyur, xəyalım harasa yol ala-ala özümü qınayıram. Elə bilirəm ki, onun səsi Qarabağdan - Şuşadan, Xankəndindən, Laçından gəlir, erməniləri - qəsbkarları qorxu və vahiməyə salır,

ekranda bu böyük müğəninin boz-sərt sifətinə baxıb çaşbaş qalırlar, heyrətə düşürlər. Ə.Xələflinin qeyri-adi, dəqiq görümündə: "Məhəbbətin sifətində qəribə cizgilər var. Bu cizgilər qırışlara bənzəyir. Məhəbbətin üzündəki bu qəribə qırışlar Laçın dağlarının arasından dolanır. Bu qırışlar boyu səs sanki dağların arasından keçir, bu qırış dərələrin içindən keçir zirvəyə can atır". Mənə isə sonuncu sözləri demək qalır: “Meyar” bizim kitabımızdır və eləcə də, müəllifin tale kitabıdır.

Bir sözlə, “Meyar sözün ölçüsüdür... Bunu Seyid Nigari də deyərdi.”

***31.12.2009***

# HƏYAT - YARADICILIĞIN QAYNAĞI

## *Dördüncü məqalə*

Əli Rza Xələfli istedadlıdır, milli-vətənpərvərdir, təmkinli və dözümlüdür, yaradıcı ədəbi şəxsiyyətdir. Deyəsən, bu ədib yorulmaq bilmir, gecəni-gündüzə qatıb işləməkdən doymur. Lirik şeirlər, lirik-epik poemalar, monoqrafiyalar, portret-esselər, ədəbi qeydlər, ədəbi məktublar, ədəbi-tənqidi və publisist məqalələr yazır. Müəyyən əsərləri tərtib və redaktə edir. Çoxsəhifəli bir qəzetin - "Kredo"nun baş redaktoru vəzifəsini tutur. Geniş yaradıcılıq imkanlı bu şair-publisist rahatlığı, dincliyi, istirahəti oxumaqda və yazmaqda tapır. O, ancaq 2008-2009-cu illərdə "Arzulara dəyən güllə", "Dilimiz - varlığımız", "Adı Şadiman olanın..." və "Meyar" kitablarını yazmış, çap etdirmiş, "Bu dünyanı belə gördüm" əsərinin tərtibçi redaktoru olmuşdur. "Meyar" tarixi, elmi və ədəbi-tənqidi məqalələr toplusudur, mahiyyət-məzmun baxımından əhatəlidir, oxucunu hərtərəfli məlumatlandıra, zənginləşdirə bilən kitabdır. Özünün şəxsiyyətinə və yaradıcılığına ciddi qayğı və hörmətlə yanaşan Ə.R.Xələfli "Meyar"da doğrudur, Azərbaycan klassik bədii mədəniyyətinə, folklora, incəsənət xadimlərinin yaradıcılığına tutumlu yer ayırır, onların ifa tərzlərinə, bənzərsiz üslublarına münasibət bildirir. Amma "Meyar" əsərində diqqət müasir ədəbi prosesə, daha çox şeirə, ədəbi topluların şərhinə, təhlilinə verilir. Görünür, bu, Ə.R.Xələflinin sayılan-seçilən bəlkə də böyük şöhrət tapan şair olması ilə bağlıdır. Düzdür, söz sənəti onun taleyidir, qismətidir, həyatının, yaşayışının mənasıdır. Bu qüdrətli ədəbi şəxsiyyət bədii mədəniyyətlə yaşayır, nəfəs alır. Balıq sudan çıxarılarsa, nəfəs ala, yaşaya bilməz. Ə.R.Xələflinin ruhu da, nəbz döyüntüsü də şeirdir, onun aləmində şeirsiz həyat tamam adiləşir, gözəllik gözəlliyini itirir.

Ə.R.Xələfli daha çox məzmununa həsrət, nisgil və qəzəb duyğuları axıdılan lakonik, oynaq, dinamik və hissi-emosional lirik şeirlər yazır. O, yazı masasının arxasına keçəndə məzmun

axtarmır, sanki bədii həllini gözləyən bir məzmun onu gözləyir, onu tapır. Və bu mövzunu zorla, özünü sıxa-sıxa qələmə almır. Şeiri ilhamla, daxili həvəs və ehtirasla birnəfəsə yazır. Ə.R.Xələfli fasilə vermədən mənalı, yayılqan publisist məqalələrlə düşünür, dövrün istəyinə uyğun ideyalar yayır. Həssas oxucular diqqət yetirsələr görərlər və inanarlar ki, Ə.R.Xələfli monoqrafiyaları, portret-esseləri, ədəbi qeydləri və əbədi məktubları təsvir olunan hadisə və əhvalatlarla, ədəbi şəxsiyyətlərlə həmahəng lirik haşiyələrlə, canlı və ifadəli poetik, bədii fəlsəfi mühakimələrlə başlayır. Belə bir üsul-yazı tərzi oxucunu çəkir, bədii publisist əsərdən marağı yayınmağa qoymur. Dilin xəlqiliyi, şirinliyi, yığcamlığı, konkretliyi bədii təsiri artırır. Ə.R.Xələfli sətirdən-sətirə, abzasdan-abzasa lakonikliyi, şairanə ifadə tərzini dərinləşdirir. Bu baxımdan şair-publisist "Azərbaycanın Bəxtiyarı - bizim Bəxtiyarımız", "Unuda bilmirəm", "Əzabın şairi", "Ucalmağın bircə yolu var", "Qarabağ: etnomənəvi tarixi", "Müqəddəslik, bənzərsizlik və heyrət", "Sən elə döyüşdəsən", "Ramiz Qusarçaylının mənəvi dünyası", Həyatın və poeziyanın canlı obrazı, "Ölməz ruhun axtarışında", "Gözlə məni körpüdə", "Tarixin əmanəti", "Sevincin və kədərin arasında elegiya", "Tanrı möhləti havayı vermir", "Anar-Meyar", "On gözəlliyin sahibi", "Ömrün qırx ili və qırx ilin təfsiri" adlı məqalələri zəngin dildə yazılmış, fikirlər sərrast, ibrətamiz faktlarla ifadə olunmuşdur: "İndi daha qəlbimi tənhalıq sıxmır. - Bircə cümlə ilə deyilən fikirləri bütün aydınlığı ilə duyub, hələ yenicə ömürdən qanad istədiyim illərdə özünün ruhu ilə mənə qanad vermək istəyən və qısaca, bircə görüşlə o qanadı əsirgəməyən İsa İsmayılzadənin parlaq, aydın görünən obrazı mənim yadımdadırsa, mənim qəlbimdədirsə, demək tənha deyiləm, doğmalarımın yanındayam. İndi bizdən uzaq Qarayazıdan özü ilə birgə gətirdiyi qara yazını süd kimi bizə içirdi. Dilimizin, mənəvi tariximizin süd kimi dili canlıdır, şəffafdır, rəvandır, ahəngdardır; dağ çayına bənzər ləngər vura-vura axıb gedir, ruhu oyadır, ürəyə su çıləyir, insanı ovundurur, əsəblərə dinclik gətirir, oxucular əsərləri nəfəs dərmədən

oxuyurlar. Bəstəkarlar onun misraları, müğənnilər şeirlərini tutiya kimi qəbul edir, musiqisi, ruhu-rəvanlığı öz içində olan bu şeirləri nəğmələrə çevirirlər. Nəğmələr şirin su kimi, dağ çeşmələrinin abi-həyatı kimi ürəklərə hopurdu, könüllərə dolurdu, xalqın mənəvi sərvətinə çevrilirdi".

"Nüsrət Kəsəmənli məhəbbət şairi kimi-müqəddəs sevgilərin şairi kimi yaddaşımızda qalıb. Əbədi gəncliyin əbədi sevgi şairi kimi yaddaşlarda yaşayacaqdır". Reallıqdır, Ə.R.Xələfli dramatik və epik növlərdən, onların janrlarından yararlanmır. Bunlar isə hərtərəfli yaradıcı imkanları olan bir ədibin epik və dramatik növləri, bu növlərin janrlarının mahiyyətini, estetik şərtlərini zəif bilməsi demək deyildir. Ə.R.Xələfli kamil, yetkin, dərin elmi mündəricəli filoloqdur, ədəbiyyatşünas-tənqidçidir, təbii istedad sahibidir. O, lirik-epik poemalarında böyük bir sənətkar hünəri ilə gərgin dramatik-psixoloji lövhələr, səhnələr və mənzərələr yaradır, heyrətamiz qaynar mükalimələr qurur, obrazları həyatın mürəkkəb axarında təhlil etdiyi bədii əsərlərə bu istiqamətdən yanaşır, qiymətləndirir. B.Vahabzadə akademik, Xalq şairi, professor və ictimai xadim idi. Onu bütün Azərbaycan, bütün türk aləmi, bütün dünya tanıyırdı. Bütün dünyaya səpələnən azərbaycanlılar bu ədibi sevirlər, yaradıcılığını bilirlər, adını hörmətlə çəkirlər.

Çoxcəhətli yaradıcılıq imkanlarına malik olan B.Vahabzadə zərif, oynaq, hikmətli, məzmunu, insanın insani mahiyyətini, fikri-mənəvi aləmini təhlil edən bədii-fəlsəfi lirika ustası idi. Bu milli mündəricəli şair-dramaturq fəaliyyətinin ilk illərindən yaradıcılığı xalq həyatına, tarixi qəhrəmanlıq ənənələrinə çəkmiş, xalqın, vətənin, milli özünəməxsusluğunun təsviri onun əsərlərinin ideya-estetik istiqaməti olmuşdur.

Müasir - səciyyəli, yeni tipli bir sənətkar - Bəxtiyar Vahabzadə elmi-pedaqoji fəaliyyətini və poeziyasını dramatik yaradıcılığı ilə yan-yana, biri o birini tamamlaya-tamamlaya inkişaf etdirmişdir. O, "İkinci səs" pyesində mürəkkəb, gərgin psixoloji dramatik konfliktlər yarada bilməmiş, obrazlar fərdi ümumi cizgiləri ilə bir-birindən az fərqlənmişdir. Ancaq "Yola iz

düşür", "Yağışdan sonra", "Fəryad" və "Hara gedir bü dünya" pyesləri Xalq şairi Bəxtiyar Vahabzadənin nüfuzunun üstünə nüfuz gətirdi. Ona görə ki, pyeslərdə surətlər qızğın hərəkət edir, iş görür, konfliktə inamla girir, amal uğrunda mübarizə aparırdılar. Bəxtiyar Vahabzadə bədii mədəniyyətə həyatdan gəlmişdir. O, yaşayışın bütün çətinliklərini görmüş və yaşamışdır. Bu böyük sənətkar zəhmətdən, hərtərəfli fəaliyyətindən qorxmamışdır. Ömrünü söz sənətinin, az qala bütün növ janrlarında yazmaqla mənalandırmışdır. Bunun nəticəsidir ki, çox tez, 1951-ci ildə Səməd Vurğunun lirikası adlı tədqiqat əsəri yazmış, filologiya elimləri namizədi alimlik dərəcəsi almışdır. Bu alim-şair ömrü boyu Səməd Vurğun cazibəsindən üzülməmişdir. Dönə-dönə Səməd Vurğun adı ilə bağlı kitablar çap etdirmişdir.

Böyük sənətkar Bəxtiyar Vahabzadə Ə.R.Xələflinin inamında xalqın, həyatın, milli varlığın, Bütöv Azərbaycanın bədii ifadəsini verirdi. Bu istedad əsərlərinin məzmununu daha çox müasir həyatdan, müasirliyin bənzərsiz təzahürlərindən alırdı. Gerçəkliyin çox adi, çox sadə ifadəsini Bəxtiyar Vahabzadədə görmək olardı. onda səciyyəvini qeyri-səciyyəvidən ayırmaq, hərtərəfli mənalandırmaq istedadı güclü olmuşdur. Bu şair, xüsusən lirikanı bədii fəlsəfi məharətlə, fitri istedadla yaradırdı.

Ə.R.Xələfli şairdir, düşüncəsi, arzusu, xəyal genişliyi, mənəviyyatı, hisslər və duyğular aləmi, soykökü, nəsil-nəcabəti ilə milli torpağa, el-obaya bağlı şair-vətəndaşdır. O, təkcə özünün yox, söz ustalarının şeir toplularına da yaradıcı, sənət qayğısı ilə yanaşır, onların məzmunlu təhlilini verir. Çünki Ə.R.Xələfli şeiri sevir bədii-poetik xüsusiyyətlərini bir yaradıcı kimi, bir şair kimi dərindən bilir. Onun həyatilik, xəlqilik, ənənə, novatorluq və bədiilik anlayışı genişdir. Bu dərin zəkalı ədibin, "Quş dilini Süleyman bilir", "Günyaz adlı bir qonağın yardımı", "Nəhənglər dövrünün Süleymanı" və "Əzabın şairi" adlı məqalələrində təhlillər sistemli, elmi-məntiqi ardıcıllıqla aparılır, bədii faktlar fikir və mülahizələri şərtləndirir. Yaxşı

tanıdığı, mənəvi-psixoloji aləminə dərindən bələd olduğu Zahid Xəlilin ("Quş dilini Süleyman bilir") pedaqoji fəaliyyətindən danışır, onun uşaq aləminin mahir bilicisi olduğunu söyləyir.

Z.Xəlil şairdir, nasirdir, yetkin filoloqdur, nüfuzlu ədəbi şəxsiyyətdir. Uşaqları, uşaq aləmini həssaslıqla yaradıcı duyur, onların istək və arzularını zəngin təbii boyalarla, gerçəkliyin özündən gələn, özünə bənzəyən real rənglərlə canlandırır. Onun əsərlərində "uşaqlar təbiət, təbiət də uşaqlar donunda təzahür edir", düşüncələrə köçən ibrətamiz bədii gözəllik yaranır:

***Göy çəmənlər yamaca,***
***Sərilmiş bir xalıdır,***
***Qızıl-qızıl lalələr,***
***Yanağının xalıdır.***

Bədii əsər yazanda Z.Xəlil özünü, özünün dəst-xəttini, fərdi bədii üslubunu qoruyur, uşaqların səviyyəsini, marağını nəzərə alır. İstər nəzm, istər nəsr əsəri olsun, fərqi yoxdur, müəllif bədii nümunəni aydın, sadə və ifadəli yazır, dili oynaq və lakonik yönə salır, sujet xətlərini əlavə faktlarla, poetik lövhə və rənglərlə yükləmir.

Ə.R.Xələfli şeirdən danışanda elə-belə söz demir, çox ciddi, kəsərli, mötəbər fikirlər söyləyir: "Z.Xəlil şeirlərini yalnız heca vəzni ilə yazır. Müəyyən istisnalar nəzərə alınmazsa, bu şair heca vəzninin kiçik bənd növlərindən yararlanır. Xırda bənd növləri də oynaqlığı, rəvanlığı, ahəngdarlığı, musiqililiyi, dilə asan yatımlılığı ilə səciyyələnir. Heca vəzninin kiçik bənd növləri asan və tez əzbərlənir, fikirlərin və rənglərin yığcamlığı, məcazların yalnız zəruri bədii tələblə işlənməsi məzmun-mənanın dərkini asanlaşdırır:

***Dan söküldü,***
***Səma güldü,***
***Gecə qaçdı,***
***Necə qaçdı?***
***Bulud qaçdı,***
***Duman qaçdı,***
***Yaman qaçdı,***

***Göy üzündə,***
***Günəş yandı,***
***Dəniz güldü.***
***Göy allandı.***
***Nur ələndi,***
***Çəmənliklər,***
***Sığallandı,***
***Gündü, çıxdı,***
***Gündü, çıxdı,***
***Kəhər ata,***
***Mindi, çıxdı.***

Parçaya diqqət yetirin, şeir heca vəzni ilə yazılmışdır; dörd hecalı şeirdir, hər misrada yalnız iki söz işlənmişdir. Təbii ki, bu səpkili şeirləri yazmaq bədii hünərdir".

Ə.R.Xələfli sadə, xoşniyyət, yumşaq, və təbii insandır, o ancaq elmi, bədii və publisist yaradıcılıqla məşğuldur. Başqa bir sahəyə maraq göstərmək, kammersiyaya əl atmaq, onun yaradıcı təbiətinə yaddır. O, istirahət etmək, dincəlmək, zəhmətsiz ömür-gün keçirmək haqqında düşünmür. Onun istirahəti kitabxanalarda yeni-yeni materialları araşdırmaq, oxucuları heyrətləndirə bilən əsərlər yazmaqdır. Ə.R.Xələflinin irihəcmli kitablarından biri "Meyar"dır. "Meyar" onun mənalı ömrünün bir parçasıdır. O, bu dəyərli kitabı səbrlə, təmkinlə yazmışdır. Müəllif "Meyar"ı elmi-tədqiqat əsəri kimi nəzərdə tutmamış, arxiv materiallarından istifadə üsulu ilə qələmə almamışdır. Buna görə də "Meyar" hamının, bütün oxucuların kitabıdır. Burada həyatına, ədəbi mühitinə, yaradıcı şəxsiyyətinə maraq göstərilən sənətkarlara ayrıca diqqət yetirilmişdir. Xalq şairi Nəriman Həsənzadəni Azərbaycanda sevməyən, adını xüsusi vurğu ilə söyləməyən, əsərlərini həvəslə oxumayan insan tapmaq çox çətindir. Nəriman Həsənzadə lirik-epik əsərlərini hərarətlə, ilhamla yazan, varlığı varlığın özünə oxşar canlandıran qüdrətli ədibdir. O, yeni səciyyəli xəlqi, novator, yaradıcılığı dərin fərdiləşdirmə, ümumiləşdirmə,

tipikləşdirmə və bədii tapıntılar üzərindən keçən təkrarsız fərdi bədii üslubdur. Nəriman Həsənzadənin əsərləri təbliğatsız, kitabları təqdimatsız yayılır, sərhəd tanımır. Taleyini Qarabağın taleyinə calayan vətənpərvər şair Ə.R.Xələfli Nəriman Həsənzadəni mənəviyyatın bütövlüyü, bədii zövqünün yetkinliyi ilə sevir, lirikasının humanist-bəşəri mündəricəsini zəngin çalarları ilə duyur. Bunların nəticəsidir ki, Ə.R.Xələfli Nəriman Həsənzadənin lirik-epik yaradıcılığını fasiləsiz izləmiş, onun çoxistiqamətli yaradıcılığı haqqında məzmunlu, orijinal məqalə ("Halal zəhmətin sahibi") yazmışdır. Məqalə "Meyar" kitabında yer almışdır. Məqalədə Nəriman Həsənzadə kamil, harmonik, əxlaqi-mənəvi aləminin saflığı ilə seçilən, ölkəmizdə böyük nüfuz qazanan, alim-şair, dramaturqdur. “O, insani bütövlüyü, bədii yaradıcılığının kütləviliyi, xəlqiliyi və novartorluğu ilə şöhrətin, mənəvi saflığın və şəxsiyyət kamilliyinin zirvəsinə yüksəlmişdir” - Ə.R.Xələflinin təəssüratı realdır. Nəriman Həsənzadənin keçdiyi həyat yolu həqiqətən əzablar yoludur. Bir yetim uşağın, bir kimsəsizin əyin-başı təhərində olmayan, cibi həftələrlə pul görməyən bir yeniyetmənin, gəncin, tufanlara düşmüş taleyin yoludur.

Çətinlik, güzəranın ağırlığı Nəriman Həsənzadəni sarsıda, onun əzəmətli vüqarını əyə bilmədi, ağrı-acıya dözdü, varlığın mürəkkəbliyini heç kimin görə bilmədiyi bir aləmdə - içində, əzizləyə-əzizləyə gizlətdi, varlığında əziyyətə, gərginliyə dözmək gücü və iradəsi formalaşırdı. Bu görkəmli ədib mübarizə apara-arara yaşayışını yeni istiqamətə saldı, həyatdan həyatı, gözəlliyin qanunları ilə qurmaq dərsi aldı. Və özünün canlı, ibrətamiz, nəsillərə nümunə ola biləcək tarixini yaratdı. Mahir bədii söz ustasının Ə.R.Xələflinin Nəriman Həsənzadənin bədii yaradıcılığı Azərbaycanın mənəvi mənzərəsidir. - Fikri müdrik bir sənətkarın bədii-fəlsəfi inamıdır, realdan da realdır.

Ona görə ki, Azərbaycanın Xalq şairi, Əməkdar incəsənət xadimi, professor Nəriman Həsənzadə sözün müstəqim mənasında oxuculara dərin təsir göstərən, onlarda təzə arzular,

fikir və meyillər oyadan lirika ustasıdır, sənət aləmində heç kimə oxşamayan, heç kimin təsirinə düşməyən istedaddır. "Onun yadına düşəcəyəm", "Könlüm şeir istəyir" və "Niyə demədiniz" kitablarında toplanan əsərlər ifadəliliyi, konkretliyi, təsvir səlisliyi, dinamikliyi, yüksək şeiriyyəti ilə seçilir, bədii nümunələrin hər birində zamanın ruhu müasirlərimizin, meyili, münasibəti və əhvali-ruhiyyəsi yaşayır.

Çünki Nəriman Həsənzadə yeni düşüncəli, yeni milli amallı sənətkardır və bədii əsəri müasirlik duyğusu, orijinal rənglər və boyalarla qələmə alır. Bunlar ona görə belədir ki, Nəriman Həsənzadə yüksək elmi-mədəni səviyyəli ziyalıdır, səbr, dözüm, iradə, müdriklik, kamillik və sadəlik timsalıdır. Ə.R.Xələfli N.Həsənzadənin yaradıcılığını yaxşı bilir və onun əsərləri haqqında aydın, tutarlı fikirlər söyləyir. Şair-publisist deyir ki, N.Həsənzadə "hər hansı bir dövrü" qələmə alarkən həmin dövrə səyahət edir. "Dövrü kifayət qədər dərindən" öyrənir. “Dövrün tək zahiri görkəmini yox, həm də mənəvi dünyasını mənimsəyir". "Günümüzün reallıqları fonunda tarixi həqiqətləri saf-çürük edir." Elə ona görə də N.Həsənzadənin tarixi əsərləri həm də müasirdir, bü günün həqiqətləridir. "Atabəylər", "Nəriman", "Kimin sualı var", "Rəsul Həmzətova məktub" və s. çoxlu sayda mənzum dramların, poemaların ruhu zamanları, tarixi mərhələləri bir-birinə bağlayır və keçmişimizi öyrənməyə çağırır".

Şair-publisist Ə.R.Xələflinin məntiqində N.Həsənzadənin tarixi dramlarında münaqişələr tez yaranır, tez şaxələnir, obrazlar hərəkətə gəlirlər, psixoloji-dramatik konfliktlər ətrafında cəmləşirlər, hadisədən-hadisəyə ideyalar uğrunda mübarizələr güclənir. Belə mürəkkəb proseslərdə pyeslərə faktlar gəlir, faktlar isə bədii həqiqət səviyyəsinə qaldırılır. Bunlar da pyeslərin reallığını artırır, bədii təsiri dərinləşdirir.

Çap olunan, yayılan şeir kitablarının hamısını Ə. R.Xələfli oxumuş, hansını bəyənmişsə, hansı bu ədibdə təsir oyatmışsa, onların haqqında məqalələr yazmış, yayılqan bir qəzetdə -

"Kredo"da çap etdirmişdir. Nüfuzlu, adı hər yerdə hörmətlə çəkilən ədib özü-öz imzasına, yazdığı məqaləyə bir sənətkar ciddiliyi ilə yanaşır. Hər kitabı, redaksiyaya gətirilən hər hansı bədii əsəri, ya məqaləni bəyənmir, çap olunmasını məsləhət görmür. Lakin əsərlərini dəyərləndirdiyini, yaradıcılığını dərindən mənimsədiyi sənətkarlar haqqında qiymətli söz deyir, əhəmiyyətli fikirlər söyləyir. O, Fikrət Sadığa həsr olunan məqaləyə poetik ad vermişdir. Məqalə səmimi hisslər və duyğular təmizliyi ilə yazılmışdır. Burada mənalı müqayisələrdən, həyati müşahidələrdən istifadə olunmuşdur. “Bir dəfə orqan musiqisini dinləyirdim. Mənə elə gəldi ki, həmin orqan musiqisi F.Sadığın şeirləridir. Bu musiqini tərcümə etmək olmaz. Onu öz pıçıltısı ilə bütün dillərdə oxumaq olar. Ona görə tərcümə etmək olmaz ki, F.Sadığın şeirləri millidir, bədii-fəlsəfi pıçıltılardır, xalq ruhunun, insanların mənəviyyat və psixologiyalarının ifadəsidir. Onun əsərlərinin böyük əksəriyyətinə varlığın, yaşayışın özündən gələn orqan musiqisinin pıçıltıları yaşayır. Amma belə pıçıltılar orqan musiqisinin oyatdığı kədər və təsirdən həzinliyinin oynaqlığı, heyrətamizliyi, düşündürücülüyü, pıçıltılara cavab istənilməməsi ilə daha insani mahiyyətli, daha bəşəri istiqamətdədir. Ə.R.Xələfli Fikrət Sadıqda dərin əxlaqi-mənəvi zənginlik tapır, deyir ki, bu milli-xəlqi şairin bugünkü görkəmi Dədə Qorqud görkəmidir. Dədə Qorduq dünyasına çatanacan gəldiyi yolun özü də qeyri-adidir. Fikrət Sadıq müasirlərdən heç kimə bənzəmir, həmişə sadə, təmkinli görkəmini saxlayır, ucadan danışmır, sözünü asta-asta pıçıltı ilə deyir.

Fikrət Sadıq fəlsəfi duyğular və düşüncələr, pıçıltılar şairidir. Cabir Novruz isə ("Torpağından göyünəcən") Qarabağ həsrətli, Qarabağ nisgilli şair-vətəndaşdır, Şuşa Məcnunu idi. Qarabağ düşüncələri, Qarabağ yanğısı onu rahat buraxmırdı, yuxusunu ərşə çəkirdi:

***Şuşa eşqi, Şuşa dərdi,***  
***Bütün dərdlərdən betərdi,***

***Bütün dərdlərdən əvvəldi,***
***Bütün dərdlərdən öndədi***
***Məni Məcnuna döndərdi.***

Şair-publisist Ə.R.Xələflinin təhlilində Cabir Novruz XX əsrin ikinci yarısında Azərbaycan poetik təfəkkürünün zirvələrindən biri idi və onun poeziyasının qüdrəti xalqın ruhundan gəlirdi. Çünki bu şair xalqı, milli özünəməxsusluğu sevirdi, müasirlərin istəyi, arzuları ilə nəfəs alırdı və mövzularını, obrazlarını xalq həyatından götürürdü. Ona görə də Ə.R.Xələfli deyirdi: - "Cabir Novruz poeziyası ləkəsiz bir mənəviyyat lövhəsidir".

"Alim zəkası-şair ürəyi" məqaləsində istedadlı ədib şair-publisist Ə.R.Xələfli söyləyir ki, Şahin Fazil tanınmış şərqşünas-tərcüməcidir, yaradıcılığı çoxistiqamətli şairdir. O, nəfəs dərmədən divanlar bağlayır, şeirlər və elmi əsərlər yazır. Onun Azərbaycan və Osmanlı imperiyası XV-XVI əsrlərdə və orta əsrlər Azərbaycan feodal dövlətlərinin tədqiqi əsərləri böyük maraq doğurur. Fasilələrlə on üç il Əfqanıstanda fəaliyyət göstərmiş, tərçüməci kimi formalaşmışdır. Bu alimin və bədii söz ustasının ərəb, fars və türk dillərindən ("Zəfər təranələri" (əfqan şeir və hekayələr) Fozef Tiflisinin "Vaqiatı Mir Veys və Şah Hüseyn", Y.T.Kruşinskinin "Xristian səyyahının tarixi" tərcümələri indi də tarixi və elmi dəyərini saxlayır, oxucularda hərtərəfli maraq oyadır. Şahin Fazil yalnız istedadlı, çox tez-tez çap olunan şair deyildir, həm də alimdir, fars, ərəb, rus və türk dillərini mükəmməl bilən ədəbi şəxsiyyətdir. Onun geniş mündəricəli alim olması bədii yaradıcılığına təsirsiz qalmır. Çünki Şahin Fazil mənən gerçəkliyi öyrənmək, yaradıcı müşahidədən keçirmək əvəzinə, güclü nəzəri fəlsəfi qənaətləri, mühakimə və təəssüratlarını şeirlərinə, öncə qəzəllərinə axıdır. Bunlar da əsərlərə solğunluq və mühakimələr gətirir. "Kredo"da böyük təcrübə qazanan, zəngin yaradıcılıq yolu keçən Ə.R.Xələfli Şahin Fazili belə səciyyələndirir: Bədii əsərlər

yazanda Ş.Fazil alim zəkasına güvənir. Sözün arxasınca gedir. Həm də elə sürətlə, elə dəyanətlə gedir ki, nəfəs dərmək ağlına də gəlmir, yoruldum demir. Bu qaçhaqaçda, bu qovhaqovda söz gülşəninin həmişə... əzilməmiş, nəfəs dərməmiş, üzülməmiş güllərini dərir. Dünyanın ən böyük sənətkarlarından biri-Səməd Vurğun belə "nəfəs dərmədən" qaçhaqaçla, qovhaqovla bədii əsər yazmışdır. Səməd Vurğunda heyrətamiz sənətkar hünəri, istedadı var idi. Bu böyük dühа həyatı, varlığın müxtəlifliyini, məzmunu duymadan, yaşamadan, xəyal və düşüncələrdən keçirmədən əlinə qələm almırdı. Ona görə də S.Vurğun şeiri asan, birnəfəsə hərarətli ilhamla yazırdı. Mənim elmi rəhbərim, müdriklər müdriki, professor Mir Cəlal Paşayev deyirdi ki, şeir yazanda S.Vurğun kağız korlamırdı. Məzmunlu, xəlqi-novator bir bədii əsərin "qaçhaqaçla", "qovhaqovla" yazıla biləcəyini ağlına sığışmırdı. Ş.Fazilin yazı masasının arxasına keçəndə, "zamanla atqulağı getməsi", "dabanbasdı yeri"məsi inandırıcı görünmür, elm və sənət adamlarının təcrübələrini tamamlamır.

Ş.Fazil mədəni, qayğıkeş ziyalıdır. O, elmi və bədii yaradıcılığa qanunauyğunluq gətirmişdir. Çünki o, alim-şərqşünasdır, əsərləri geniş yayılan, müxtəlif qəzet və jurnallarda onların haqqında məzmunlu söz deyilən şairdir. Bu şair-alim vəznlərin bədii-poetik xüsusiyyətlərini dərindən bilir, şeirlərini istedadla həm heca, həm də əruz vəznində yazır. Ş.Fazilin şeirləri məzmun dərinliyi, formanın dinamikliyi, söz düzümünün ahəngdarlığı ilə fərqlənir.

Ə.R.Xələfli belə düşünür: “Ş.Fazil sevgi xəzinəsi olan sinəsində nələr yetişir, vətəndaşlıq sevgisi ilə, sənət sevgisi ilə, atalıq sevgisi ilə, dostluq sevgisi ilə çırpınan ürəyi o xəzinənin qiymətli incilərini əbədiyaşar sözə çevirir.

Ş.Fazil tarixlə müasirlik, keçmişlə gələcək arasında mənəvi ağırlıq yükü daşıyan bir körpüdür. Vüsalla hicranın, o tayla bu tayın, yaxın ilə uzağın arasında körpü, Şahin Fazilsayağı sevgi sahiblərinin kərəmi böyükdür, səxavəti qədərsizdir.

İdealına sadiq, mənəvi dünyasına sədaqətli bir alim var - Ş.Fazil".

Bədii mədəniyyət həyatın hərəkət və inkişafından, yəni iqtisadi-siyasi tərəqqidən kənarda qalmır. Gercəkliyin, təfəkkürün, münasibətin təzə axara düşməsi söz sənətinin predmetinə, ədəbi meyillərə, istiqamətlərə üsul və vasitələrə dəyişdirici təsir göstərir, ədəbiyyat müasir məzmun və forma alır. Ə.R.Xələfli "Meyar" kitabında söz sənətinə, ayrı-ayrı sənətkarın mühitinə, yaradıcı mövqeyinə müstəqilliyin ideya-estetik istəyi baxımından yanaşır. Klassikləri yaxın müasirlərimizi iqtisadi-siyasi, ədəbi-mədəni mühitlərində öyrənir, yaradıcılıqlarını təhlil edir və qiymətləndirir. Bunlar ona görə belədir ki, şair-publisist Ə.RXələfli Azərbaycan tarixini, klassik fəlsəfəni, antik bədii mədəniyyəti dərindən bilir, onun ədəbi metodlar, ədəbi cərəyanlar, ədəbi meyillər, ədəbi məktəblər haqqında məlumatı genişdir. Bunun nəticəsidir ki, o müəyyən bir problemdən, hər hansı bir ədibdən danışanda zərurətdən haşiyələrə çıxır, ədəbi müqayisə və paralellər aparır, dünya mədəniyyətindən gərəkli sitatlar, misallar gətirir, məntiqi dərinləşdirir. Əsərlərini təhlil edəndə, araşdıranda ləyaqət və şəxsiyyətlərinə, hörmət və qayğı ilə yanaşdığı ədiblərinin yaradıcılığına ciddi, bədii mədəniyyətin qanunauğyun inkişaf səviyyəsindən yanaşır. Bir məclisdə Zəlimxan Yaqub, Ə.R.Xələfli, Mahmud Allahmanlı və Elçin Kamalla birlikdə Yusif Nəğməkarla görüşdük. Bu söz, saz ustası ilə ilk görüşüm idi. Demə, sadə, maraqlı orijinal xarakterli bu şəxsiyyət söz demək, aşıq Əhməd Sadaxlısayağı saz çalmağı ilə bizi ovsunlamaq, sirli-sehirli bir aləmə aparmaq istəyir. Çaldı, şeirlər oxudu, saza-sözə pənah gətirənlərin hamısının üz-gözünə nur səpələdi, yollarına işıq saldı. İnandım ki, görkəmli şair-publisist Ə.R.Xələfli ciddi, həssas adamdır, havayı söz demir: - Yusif Nəğməkarın "sözü əbədiyyət çeşməsindən qaynayan bulaq kimi sərindir, ürəklərə məlhəmdir. O, sözün Məcnunudur, sazın

cünunu" və ürəyindəki, sənət alovu hamını hərarətləndirir:

***Sözün atəşidir, qəlbimdə qalan,***
***İşığa bələyib onun üzünü:***
***Nəğməsi, mizrabı ürəklər çalan,***
***İlham pərisinin öpər gözünü.***

***Qanına bələyər girinə keçsən,***
***Zamanın əlində hər nə var əsir.***
***Zaman badəsini nuş edib içsən,***
***Zamanın özü də sözünə əsir.***

Ə.R.Xələfli "Zal ağacı" məqaləsində Yusif Nəğməkarın ədəbi şəxsiyyətini özünəməxsus tərzdə mənalandırır, fərdi bədii üslubunun təkrarsızlığını, rəng və boyalarının yeni olduğunu söyləyir. Müasir Azərbaycan ədəbiyyatında yeni ədəbi hadisənin Y.Nəğməkarın həssaslıqla yazdığı "Zal ağacı" poemasının mükəmməl elmi filoloji təhlilini verir. Və bildirir ki, Y.Nəğməkar safdır, daxilən zəngin və mübariz ədəbi şəxsiyyətdir. Səmimilik, qayğıkeşlik, zamana bac verməmək, haqsızlıq və ədalətsizliklə barışmamaq onun şeir və poemalarının məzmununda, nüvəsindədir. Bu görkəmli sənətkarın poeziyası xalqın milli adət-ənənənin, müasir həyatın, bədii-poetik ifadəsidir. Ə.R.Xələfli onun "Sizsiz"indən, "Şərşəmbə"sindən, "Ah naz - Şahnaz"ından, "Zal ağacı"na qədər yol gəlib onun qələmi. "Turan harayı" çəkir, "Sınıq güzgü"dən baxır gözlərimizə. "Alın yazım" - deyir türk dünyasını yazarı - şair yazdıqlarına. Türk dünyasının bağrına hoppub yaşarılıq haqqı qazanan sözlərin yaradıcısı Y.Nəğməkar, söz ilə nəfəs alır, söz ilə yaşayır" - deyir.

Y.Nəğməkarın lirik və lirik-epik əsərlərində xalq, millət və vətən sözləri az işlənir. Lakin Yusifin bütün poeziyasının vurğusu, ahəngi, nidası, həyatı boya və məcazları, nəbzi xalqa, vətənə sevgidir. O, xalqın, torpağın şairi-nəğməkarıdır. Xalq bu böyük vətənpərvərin hisslərinin, arzularının təmizliyidir,

ürəyinin çırpıntısıdır, həyatının, yaşayışının məzmunudur. O, sözü-sözə məhəbbətlə bağlayır, xalqa, vətənə ünvanlayır. "Zal ağacı" poemasından gətirilən dörd misra təkrarsızdır, ən güclü deyimdir:

***Tərəkəmə ellim, ey tərki-vətən,***
***Sənin ağacına qurban olum mən,***
***Baxma ad-sanıma, baxma yaşıma***
***Hərdən o ağacı endir başıma.***

Doğulduğu yurda həsrət qalan, Cəbrayıla köks ötürə-ötürə kərandan-kənara baxan, şair-publisist Ə.R.Xələfli "Meyar" kitabında belə bir məlumat verir: "Bir dəfə Azərbaycanın Xalq şairləri Nəriman Həsənzadə və Söhrab Tahir Zal kişinin görüşünə gedirlər. Soruşurlar: - Zal kişi, necəsən? O da bir bayatı ilə cavab verir:

***Məni görən ağlasın,***
***Zülfün hörən ağlasın,***
***İndi görən tanımaz,***
***Əzəl görən ağlasın.***

Mən o heyrətin şahidiyəm. İndi nəinki Azərbaycanın, bütün türk dünyasını məşhur, dünyanın kifayət qədər tanınmış böyük şairlərinin bu cavab qarşısındakı heyrətlərini burada sözə gətirə bilmərəm".

Yusif Nəğməkarın saz-söz məclisində Zal kişilə yan-yana oturmuşdum. Bu nurani kişi təmkinlə danışırdı, fikrini sadə, aydın və sərrast ifadə edirdi. Oturuşundan-duruşundan nəciblik, müdirklik yağırdı. Arabir Yusif Nəğməkar söhbətimizi qırırdı, gözlərini Zal kişiyə zilləyirdi. Deməli, bu güclü istedad sahibi bədii əsər yazmaq üçün Zal kişini müşahidədən keçirir, ona görə təsvir etmək istədiyi varlığı, insanı, ya insanları mənimsəyir. Ə.R.Xələflinin qeyd etdiyi kimi, “Zal ağacı” göstərdi ki, Yusif Nəğməkar sözün həqiqi mənasında şairdir, istedaddır, bədii söz onun lirikasında fikirdir, düşüncədir, meyildir, münasibətdir, hissdir, arzudur, istəkdir, dərin mənalı

məzmundur. O, yaşayışın müxtəlifliyini öyrənmədən, onun mahiyyətini yaşamadan əlinə qələm almır. Ona görə də bu ədibin poeziyasında səmimi, sevən-sevilən isti bir ürək çırpınır, arzu və diləklərlə, xəyallarla, təmiz duyğularla, həyati amallarla yaşayır.

Yaradıcılığlı yüksək bədiilik üzərindən keçən Yusif Nəğməkarın lirik şeirlərinin forması əlvan, rəngbərəgdir, daxili ritm güclüdür, hər misra, hər bənd həzindir, axarılıdır, şeiriyyətlə doludur. Bu sənətkarın yaradıcılıq zirvəsinə - "Zal ağacı" poemasına dərin etiraz pafosu, zamanla barışmamaq ruhu, heyrətamiz bədii təzadlar və məcazlar silsiləsi, güclü dinamizm gətirən bir də lirikadır. Yusif Nəğməkar təcrübəli sənətkardır, yaradıcılığının yüksəliş, kamillik dövrünü yaşayır. Onun poeziyasında ehtiraslı bir ədib ürəyi döyünr. Burada insan mənəviyyatı bütöv - mürəkkəbliyilə ifadə olunur, arzulayanda da, kədərlənəndə də, sevinəndə də, özünəməxsusluğu ilə görünür.

Həyatını qaynar və çoxcəhətli yaradıcılığını Azərbaycan mədəniyyətinə qatan, bu sənətə ömründən ömür calayan şair-publisist Ə.R.Xələfli "Meyar" kitabında bəzi yazarların əsərlərinin təhlilini vermir, tərcümeyi-hallarına yer ayırmır. Görünür, bu ustad ədib kitabın həcmini həddindən artıq böyütmək istəmir. Bir də Ə.R.Xələfli zəngin məlumatlı, dərin mühakiməli, çoxcəhətli elmi ümumiləşdirmələr apara bilən ədəbiyyatşünasdır. Yaxşı bilir ki, hansı sənətkarın haqqında nəyi və necə demək, necə yazmaq lazımdır. Bilir ki, Oqtay Rza bacarıqlı, hünərli, son zamanlar daha milli, daha vətənpərvər əsərlər yazan, şeirləri geniş yayılan şair-vətəndaşdır.

"Gündoğarın Oqtay Rzası" məqaləsində Ə.R.Xələfli Oqtay Rzanın tərcümeyi-halına konkret faktlarla nəzər yetirir, canlı didaktik-tərbiyəvi əhəmiyyətli söyləmənin məzmununu axarlı, bədii-poetik təsirlərlə açır. Şair-publisist Ə.R.Xələflinin təəssüratları bizə inam, müdrik fikirlər, səmimi düşüncələr təsiri

bağışlayır: “Oqtay Rza duyğulu, istiqanlı, qayğıkeş adamdır, ömrünü sənətə həsr etmiş sənətkardır". O həmişə öz xarakterinə, "mən"inə sadiqdir, təbiətinin ahəngini qoruyan, zənginləşdirən şairdir.

Maraqlıdır, gerçəkliyin özünəməxsusluğunu, zamanın ruhunu duya-duya məzmunlu, ifadəli və təsirli əsərlər yazan Oqtay Rza hansı ədəbi məktəbə, hansı ədəbi cərəyana, hansı yaradıcılıq metoduna mənsub olduğunu nə dilinə, nə də ağlına gətirmir. Sadəcə Azərbaycan klassik poeziyasının ənənələrinin yaradıcılığına axdığını söyləyir. Ənənədən yaradıcı bəhrələnmək Oqtay Rza lirikasının güclü, ən dəyərli istiqamətidir. Ya demir, ya da demək istəmir... Oqtay Rza yaradıcılıq metodlarından kənarda qala bilmir.

***Bir zərif çiçəyi bıcaqla kəsdin,***
***İçimdə tüstüsüz az yanmıram mən.***
***Bakıda yaşayan yerlipərəstin,***
***Təbriz həsrətinə inanmıram mən.***

Başqa bir məzmunlu bədii nümunə:

***Vicdan mayasıdır saf məhəbbətin,***
***Ürəyə bağlıdır, qana bağlıdır,***
***Sevginin, namusun, təmiz niyyətin,***
***Ən dərin kökləri ona bağlıdır.***

Misraların bütövlüklə şeirlərin məzmunu öyrənilən, yaşanılan, hissdən, duyğudan poetik "mən"in mənəviyyatından keçirilən əlaqə və münasibətdir, müasir liklə və bunların canlı, realist rəng və boyalarla bədii həqiqətə çevrilməsi, qələmə alınmasıdır. Bunlar o deməkdir ki, şeirlər realist yaradıcılıq metodu ilə yazılmışdır. Oqtay Rzanın yaradıcılığına dərindən bələdəm. Ötən əsrin 70-ci illərində "Gəlin şeir yazaq" məqalələr silsiləsində onun poeziyasına münasibət bildirmişdim. "Torpağı dinləyirəm", "Hara gedirəmsə", "Ürəyimi oxuyun", "Yasəmən çiçəkliyində", "Söz çırağın işığında", "Fəsil dəyişəndə", "Günəşin adından", "Vətən, daha yas saxlama " və digər kitablarında

toplanan şeirləri oxumuşam. Məndə belə inam oyanmışdır ki, O.Rza istedadlı bir şair yaradıcılığının ilk illərindən üzü bəri realist, bədii zərurət isə bəzən onu oynaq hissi-emosional, romantik şeirlər yazmağa aparır. Lakin bu təcrübəli sənətkarın şeirlərində çətinliklə sezilən naturalist yaradıcılıq metodunun təsiri də duyulur.

Özünü bədii yaradıcılığa həsr edən şair-publisist Ə.R.Xələflinin mütaliəsi heyrətamiz dərəcədə genişdir. O, oxumadığı əsərlərdən, ya hər hansı sənətkarın yaradıcılığından danışmır, fikir söyləmir. Hiss olunur ki, bu görkəmli ədib O.Rzanın şeirlərini dərindən oxumuş, sənətkarda müəyyən qənaət hasil olandan sonra, "Gündoğarın Oqtay Rzası" məqaləsini yazmışdır. O, məqaləni inamla, bir şair-publisistin ürəyinin hərarəti ilə, O.Rzanın yaradıcılığını realist yöndən qiymətləndirə-qiymətləndirə yazıya almışdır və müşahidələrini sərrast, dəqiq ümumiləşdirmişdir: "Azərbaycan poeziyasının klassik ənənələrini, təftiş oluna bilinməyən ənənələrini sənətində yaşadan Oqtay Rza vətən, torpaq şairidir. Nə qədər torpaq şairidisə, bir o qədər də dünya şairidir". O.Rza mənəviyyatı, psixologiyası, düşüncəsi, meyil və münasibəti ilə vətənpərvərdir, humanistdir. Bu şair insani yetkinliyi, mənəvi zənginliyilə bütöv Azərbaycanla, onun özünəməxsusluğu ilə, yeraltı-yerüstü sərvətlərilə qürurlanır, fərəhini Şirvanın, Milin, Muğanın və Qarabağın təkrarsız gözəlliyinə qatır. Onun 1993-cü ildə çapdan çıxan "Vətən, daha yas saxlama" kitabı canlı yaşanılan, təmiz hisslərə toxunulan, indi də ideya-estetikliyini itirməyən, nəsilləri çoxistiqamətli təsirdə saxlayan şeirlərdir. Topluda kədər, qəm, acı heyrət və misraları qatı qəzəb yaşasa da şeirlər həyati inamdır, hünəri məğrurluğa, əzəmətə, ənənəsi Cavanşirdən, Babəkdən, Dədə Qorquddan, Koroğludan, Səttarxandan süzülüb gələn qəhrəmanlığa, milli torpağı, milli qeyrətlə qorumağa poetik çağarışdır.

Məzmunlu şeirlər və publisist əsərlər müəllifi Ə.R.Xələfli inamı şairanədir: "Qobustan adamı günəşi qayığın ucuna həkk eləmişdi. Qobustan adamının düşüncəsinə görə gündoğar Xəzər idi. Oqtay Rza və gündoğar bu real həyati və utopik xəyali obrazlar arasında doğmalıq, yaxınlıq görürəm". Belə demək mümkünsə Əli Rza Xələflidə istedad şaxəlidir, müşahidə aparmaq bacarığı güclüdür, çoxistiqamətlidir. O, ötəri bir müşahidədən sonra "baxışdan söz götürür", "söz anlayır sözdən", müşahidə, baxış və görüm onu çaşdırmır, qeyri-adi qənaətə gətirmir. Dostum Bədirxan Əhmədov onunla birgə gələn adamı mənimlə tanış elədi: - Buyur, tanış ol, İslam Ağayev. Dümdüz, təvəllüdünə görə 75 yaşı tamam olan, amma heç də görkəminə görə bu yaşı ona vermək mümkün deyil, tamam işıqdan yoğrulmuş, çoxistedadlı bir heykəltəraş tərəfindən yoğrulmuş ahəngdar zahiri görkəm, nurlu gözlər, sufilərə məxsus üz işiğı, tamam çallanmış saçlar. Hər şey sanki bir-birini tamamlayır. Paltar, köynək, qalstuk, lap elə bunun bircəciyi tən-dürüst olmasa, o saat nəzərə çarpar. O saat başımdan belə bir fikir keçdi: Kitab kimi adamdır, mən belələrinə "aydın" deyirəm. Dupduru, tərtəmiz, dağlardan, daşların arasından süzülüb bulaq kimi şəffaf çox qısaca söhbətimiz olur. Ə.R.Xələfli həssasdan da həssas, heyrətamizdən də ədəbi şəxsiyyətdir. İslam Ağayevi çoxdan, 1953-cü ildən tanıyıram. Həmişə görüşmüşük, hal-əhval tutmuşuq. Ancaq İslamın boy-buxununa, sir-sifətinə diqqət yetirməmişəm. Və onun Ə.R.Xələfli kimi səciyyələndirə bilmərəm. Onu söyləyə bilərəm ki, İslam Ağayev çox sadə, kövrək, təmiz və ləyaqətli insandır. O, həyatını, ömür-gününü kitabxanalarda, arxivlərdə keçirir, samballı tədqiqat əsərləri yazır. Özünü elmə həsr edən filologiya elmləri doktoru, professor İslam Ağayev satirik "Zənbur" jurnalı, "Molla Nəsrəddinin tarixi hünəri", "Əliqulu Qəmküsarın həyatı və

yaradıcılığı", "Molla Nəsrəddinin poetikası", "Əli Razi Şamçızadə", "Əliqulu Abbas Müznib: həyatı, yaradıcılığı mübarizəsi", "Tarixi yaddaşımızın böyük yadigarı" adlı elmi-tədqiqat əsərlərini gərgin yaradıcı zəhmətlə, tarixi sənədlər əsasında yazıya almışdır.

Bir sıra tədqiqatların şərikli müəllifi olan İslam Ağayev həm də şair və nasirdir. Elə o, bədii yaradıcılığa 1953-cü ildə çap olunan "Arzu" adlı şeirlə başlamışdır. Şair-publisist Ə.R.Xələflinin "Meyar" kitabında deyilir:-İslam Ağayev orijinal üslubu, öz dəst-xətti olan, öz müşahidələrini, yaşadığı hissləri qələmə alan incə ruhlu bir şair və nasirdir.

Tanınmış alim İslam Ağayev elmi və bədii yaradıcığını yan-yana inkişaf etdirir, şeirlər, mənsur şeirlər, hekayələr, bədii lövhələr yazıya alır. Onun "Dostunu yaxşı tanı", "Tez böyümək isəyirəm" "Tale çiçəkləri", "Xəzan yarpaqları", "Ayrılıq düşüncələri" kitablarında toplanan bədii əsərlər, həm də İ.Ağayevin tərcümeyi-halı, şirinli-acılı, kədərli-sarsıntılı taleyidir, alın yazısıdır.

Həyatının, yaşayışının bütün mərhələlərində İ.Ağayev portretində oturuş-duruşunda, insanla insani münasibətlərində yox, düşüncələrində, mənəviyyatında, psixologiyasında nisgil, həsrət ayrılıq hissləri-deportasiya yaşamışdır. Ayrılıq -qardaş-bacı, qohum-əqraba dərdi ondan indi də üzülməmişdir. Böyük sənətkar, şair-publisist Ə.R.Xələflinin çox ifadəli təsviri insani təəssüfləndirir, onu ağır düşüncələrə, kədərə aparır. İslam Ağayev atası 1939-cu ildə, 20-ci illərdə İrandan gəlmiş Cənubi Azərbaycan vətəndaşı miyanəli Məhəmməd Mirağa oğlu Şimali Azərbaycandan deportasiya olunur. Bütün sovet dövrü boyu İslam Ağayev ata həsrətilə, o taydan ara-sıra xəbər gələn bacı və qardaş arzusu ilə alışıb yanır. Ta əsrin son illərinəcən. Axır ki, böyük rejimin çöküşündən sonra o, Miyanəyə gedir. O taydakı qardaş və bacıları ilə görüşür, atasının qəbrini ziyarət edir.

Ziyarətə qədər onun qəlb çırpıntıları ancaq özünə bəlli olan könül baltalansa da, yenə göyərir, göyərir.

Ləyaqətli və qayğıkeş folklorşünas Seyfəddin Rzasoy İslamın həyatını və ömür yolunu İslama layiqli təhlildən keçirmiş və onun qənaəti belə olmuşdur. İslam Ağayev alim-tədqiqatçıdır, şair və nasirdir. Onun taleyi bənzərsizdir. İslam Ağayev gərgin zəhmət, iradə, dözüm, səbr və müdriklik timsalıdır.

"Meyar" yeni-müasir kitabdır, ədəbi-elmi faktlarla, çoxcəhətli filoloji təhlillərlə zəngin və orijinal kitabdır. Ə.R.Xələfli kitab üstündə illər boyu işləmiş, neçə-neçə sənətkarın siyasi, iqtisadi və mədəni mühitini, yaradıcılığını, onların Azərbaycan ədəbiyyatında yerlərini, mövqeyini səbr və təmkinlə öyrənmiş, yeri gələndə ədəbiyyatın və incəsənətin nəzəri, ideya-estetik problemlərindən qiymətli mülahizələr yürüdür, orijinal söz deyir. "Meyar"da ən səciyyəvi, diqqəti daha çox çəkən onun milli vətənpərvər ruhunda yazılmasıdır. Kitabda "Qarabağ etnomənəvi tarixi", "Susmağın səsini eşidirəm", "Dağlar yenilməyən qalalardır", "Sən elə döyüşçüsən", "Zəlimxan Yaqub-Azərdən Turanacan", "Babək milli qürur qaynağı", "Hər şeyi bilən adamın dastanı", "Azərbaycan ədəbiyyatının milli qəhrəmanı", "Ölməz ruhun axtarışında", "Gözlə məni körpüdə", "Ömrün qırx ili və qırx ilin təfsiri", məqalələrində istiqamət xalqa, vətənə, el-obaya məhəbbətdir, özünü milli torpağa həsr etməkdir, sərhəd bütövlüyü uğrunda ölümdən çəkinməməkdir. Orijinal məqalələr toplusunda - "Meyar" kitabında Ramiz Duyğun fərdi bədii üslubdur. "Sən elə döyüşdəsən" xitabı ilə müəllif Ramiz duyğun haqda dəqiq qənaətə gəlir. Özünü sənətdə çoxdan təsdiq edən söz ustasıdır. Şair-publisist Ə.R.Xələfli buyurur ki, Ramiz Duyğun öncə vətəndaşlıq elmini öyrənir, vətənə vurulur, bu vətəndaşlıq elminin, bu vətənpərvərlik duyğularının qanadları altında ədəbiyyata gəlir, şöhrətlənir, sevilir, ümumxalq hörməti qazanır, əsərləri çap olunur. Çünki

bu ədib bədii mədəniyyəti əzəli və əbədi döyüş meydanı kimi yaşayır.

Ə.R.Xələfli bütün hissləri, duyğuları, mənəviyyatı, psixologiyası, düşüncə və amalı ilə böyük vətənpərvərdir. Vətən onun həyatının, yaşayışının mənasıdır. O, gecə də, gündüz də Qarabağa getmək, vuruşmaq, yağıdan öc almaq, Qarabağı azad etmək niyyəti ilə yaşayır.

Taleyini xalqın taleyinə qatan, səadətini vətənin gücündən və inkişafından ayırmayan insanları milli ədib Ə.R.Xələfli qayğıya alır, barələrində məqalələr yazır, yazılarına "Kredo" qəzetində yer ayırır. O, bilir ki, ağır döyüşlərdən keçən, yırtıcı erməni güllələrindən bir neçə yara olan Ramiz Duyğun artıq şeirlərini "lövhə-lövhə", "misra-misra, vərəq-vərəq Vətən torpağına səpələyir". Ramiz Duyğunun vətənpərvərlik ruhu onun özünün canına, qanına və mənəviyyatına hopan ruhdur. Bu ruh şairin poeziyasına təbiilik, ideya-estetik yetkinlik, aydınlıq, oynaqlıq, gur ahəng və çağırış gətirir, oxucunu zənginləşdirir, gənclərdə səfərbərlik əhval-ruhiyyəsi oyadır.

Ramiz Duyğun təcrübəlidir, hərbi təlim görmüş həkim-polkovnikdir, tərcüməçidir. Şair-nasirdir, bədii yaradıcılığa 1959-cu ildə "Yaşa Azərbaycanım" şeiri ilə başlamışdır. 1985-ci ildə çap olunan "Vətən beşiyim mənim" oçerklər kitabının tərtibatçısı və müəlliflərindən biridir. Sonralar o, müxtəlif yönlü jurnal və qəzetlərdə çap olunan, yayılan onlarca şeirlərindən əlavə, "Vətən kimi şirin", "Mənim unudulmaz məktəbim", "Göy üzü damar-damar", "Məni döyüşə burax" və digər kitablarını çap etdirirmişdir. Ramiz Duyğun müasir gerçəkliyin müxtəlif sahələrindən məzmun alır, xırda bir əhvalatda hikmətamiz lirik-poetik mətləb tapır, onu vətəndaşlıq qayğı və narahıtlığı ilə ümumiləşdirir, əxlaqi-mənəvi ideyalar yayır. Və sənətkarın lirikasında, hətta şərikli bədii oçerklərində, xalqa qızğın sevgisi ilə milli torpağa, milli qəhrəmanlıq adət-ənənələrinə, milli dilə,

el-obaya məhəbbətlə vəhdətləşir. Ona görə ki, xalqa, vətənə, sərhədlərimizin toxunulmazlığına sevgisi adi sevgi deyildir, sönməyən, fasiləsiz alovlanan ehtirasdır.

"Meyar" kitabında Ramiz Duyğun və onun əsərləri haqqında çox təsirli, təkrarsız ümumiləşmiş söz deyilir, hər biri bir qurşun olan, mərmi olan sözləri, misraları ayaq tutub yeriyir. Özü demiş, "göylə gedən düşmənin tükünü salır" *"Mən inanıram ki, yağı düşmən Azərbaycan Ordusunun gülləsindən, mərmisindən, fiziki gücündən qorxduğu kimi, erməni faşizminin ideoloqları sənin od püskürən nəfəsindən, sonsuz ilhamla coşub-çağlayan poeziyadan, şeiriyyətindən, nitqindən, danışığından qorxur. ...Vətən sənin çap olunmayan kitablarındır. O kitablar ki, nəşrini gözləyir, o kitablar ki, hər biri ordu qədər nəfəsdir, gücdür.*

*Sənin hər bir misranı, hər bir şeirini oxuyanda özümü əsgər kimi təsəvvür edirəm. Mən inanıram ki, uzaq bir səngərdə silahının arxasında yatıb düşmən hədəflərini qarovula alan əsgər əgər o, misraları duyğuları ilə yaşasa, əgər səsin, sədan, sözün səmanı yarıb ona çatsa, qışın qarında belə onun canına istilik gələr, qoluna qüvvət, dizlərinə təpər gələr".*

Əli Rza Xələfli klassik Azərbaycan şeirinin və bədii publisistikasının ənənələrini yaradıcı inkişaf etdirən, onları təzə çalarla zənginləşdirən, xəlqi-novator şair-publisistdir, yüksək elmi-mədəni səviyyəli ziyalıdır, zəngin və müdrik vətənpərvərdir. O, orijinal, müasir məndəricəli bir kitabı "Meyar"ı bu ruhda, vətənpərvərlik istiqamətli ruhda yazmışdır.

**2009**

# GÜLLƏLƏNMİŞ ARZULARIN ELEGİYASI

*Beşinci məqalə*

Üzülürəm! Qorxu-hürkü bilməyən, cəsarətlə hünərlə düşmən gülləsinin üstünə gedən, qızğın gənclik istəyi, ehtiraslı tələbə arzuları güllələnən Fuad Qəriboğlu Əsədovu tanımırdım, üzünü görməmişdim, təəssüf tülünə bürünürəm. Böyük bir vətənpərvəri böyüdən, tərbiyə edən, formalaşdıran atası Qərib Əsədovla üz-üzə oturmamışam, söhbət etməmişəm, hal-əhval tutmamışam. El-obanın, milli torpağın, Vətən və xalq fədaisinin - Fuadın "Mən artıq əsgərəm, Vətənin yolunda, elin yolunda köksünü sipər edən ər oğlu, ərəm"- sözlərini şüuruma, düşüncəmə yazdım, ayağa durdum, yazı masasından ayrıldım, gah kədərə büründüm, gah da qürurlandım, öz-özümə dodaqaltı pıçıldadım, ilahi, kaş ölkəmizdə yüz minlərlə Fuada bənzər gənc formalaşaydı-söylədim.

Bütün varlığı, hissləri, duyğuları xalqa və Vətənə sevgidən yoğrulan şair-publisist Ə.R.Xələflinin "Arzulara dəyən güllə” adlı məzmunlu, orijinal, sarsıdıcı və ibrətamiz, faktlarla dolu sənədli povest kitabını yenidən oxumağa daxili mənəvi-psixoloji ehtiyac duydum. Ə.R.Xələfli çətin düşüncələr içində qaçqın həyatı yaşayan, el-obadan ayrı düşən, Zal kişinin-müdrik bir insanın varlı-hallı ocağının həsrətini çəkən bənzərsiz bədii söz ustasıdır. Düşdüyü sosial-ədəbi mühit onu həmişə yeni-yeni faktlarla, canlı müşahidələrlə, qaçqınların yaşayışından aldığı kədərli görüşlərlə zənginləşdirir. Bir ədəbiyyatşünas-tənqidçi kimi mənim inamım belədir: şair-publisist Ə.R.Xələfli heç zaman məzmun qıtlığından gileylənmir, təzə, aktual məzmun sorağına düşmür, maraqlı və orijinal məzmunun özü onu axtarır, özü onu tapır. Qarabağ faciəsi-qanlı qadalı reallıq onun saysız-hesabsız şeirinə bədii istiqamət, məzmun vermişdir. Vətənpərvər mahiyyətli poemanın - "Bir Xələfli var imiş"in məzmunu Qarabağ həqiqətlərinin aydın, konkret və bədii ifadəsidir.

Kiçik bir parçaya diqqət yetirək:

***Bir parça qəbir yerim vardı,***
***Əmanət verdim dostuma,***
***Qardaşıma.***
***Deyirdim saxlayar,***
***yazarlar yaddaşıma.***

***...Laçın həmin selə getdi,***
***O sel ağzına aldı-***
***Qubadlını, Zəngilanı,***
***Xəyanət toruna saldı***
***Külli Qarabağ***
***məkrli yelə getdi.***
***Ağdam qəbir yerim***
***Baş daşım Şuşa.***
***İndi oğulsan get,***
***adını yaz bu daşa.***
***Beləcə əyalət-əyalət öldük,***
***Xəyalətə gömüldük.***

Görkəmli şair-publisist Ə.R.Xələfli "Arzulara dəyən güllə" sənədli povestini yazmaya bilməzdi. Ona görə ki, amansız yağının gülləsi yalnız mərd, mübariz, yenilməz bir qəhrəmana, onun ata-anasına, millətə, xalqa, vətənə yox, həm də böyük düşüncələrə, böyük arzulara, böyük diləklərə dəymişdi. Ə.R.Xələfli Fuad Əsədovun "İzlər" mənzum şəcərəsini və Fuadın - Qərib Əsədovun "Fuad dünyası" kitabını oxumuşdu. O, Fuadı da, Fuadın ata-anasını da, nəsil -nəcabətini də hərtərəfli tanıyırdı. Bu nəslin təmizliyi, saflığı, ləyaqətini uca tutması, cəsarət və məğrurluğu Ə.R.Xələfliyə dərindən bəlli idi. O, Fuadın qara mərmər örtüklü məzarını iki dəfə ziyarət etmişdi: “Mənə Fuadın döyüş yerlərində olmaq, onun təkrarolunmaz tale yolunun son günlərini görmək qismət olub, bu, 16 il bundan əvvəl, iyunun son günlərində Sur aşırımı ərazisində qanlı döyüşlərin, güllə yağışlarının altında yazılan bir tarix idi.

...Və bir də Fuadın qəbrini ziyarət etmişəm: Cəbrayıl rayonunun Quyçaq kəndində. Qara mərmərin üstündəki sözlər indi də gözlərimin qağbağındadır: Güllə arzularıma dəydi".

Şair-publisist Ə.R.Xələfli ciddi, tələbkar, həssas və dərin duyumlu ədəbi şəxsiyyətdir. Hisslər, duyğular, müşahidələr və təəssüratlar onu çaşdıra, heç zaman məqsəddən, amaldan yayındıra bilmir. O, gördüyünü, müşahidədən keçirdiyini, eşitdiyini dönə-dönə saf-çürük edir, reallığı, yalnız həqiqəti yazır. Zərif, yumşaq, hərarətli və ürəyəyatımlı lirika ustası Ə.R.Xələfli doğru söyləyirdi. Orta məktəbdə təhsil aldığı illərdən Fuad Əsədov çevik və fəal idi, həyatın, yaşayışın mənasını anlaması, dövrün ziddiyyətlərinin axar və istiqamətlərini duyumu ilə yaşını qabaqlayırdı. O, həmyaşıdları ilə mübahisələr aparırdı, zamanı səciyyələndirirdi, mühakimələr yürüdürdü. Öz dünyasının, düşüncəsinin səviyyəsində elmdən, mədəniyyətdən, incəsənətdən və ədəbiyyatdan məzmunlu söhbətlər aparırdı. Yəqin memar olmağı da özü arzulamışdı, İnşaat Mühəndisləri İnstitutunda oxumağı da özü bəyənmişdi. Dəqiq bilirəm, səmimi və istəkli dostum Ə.R.Xələfli şeirlər, poemalar, ədəbi-publisistik əsərlər, ədəbi-tənqidi məqalələr yazanda güclü məntiqlə düşünür, oxucunu inandırmayan söz demir, fikir söyləmir.

Şair-publisist Ə.R.Xələflinin ədəbi-publisistik təhlilində Qarabağ döyüşləri gedəndə, Fuad Əsədov tələbə-rəssam idi. O, orduya, ön cəbhəyə getməyə bilərdi, əyani-şöbədə oxuyurdu. IVkurs tələbəsi idi: özü də bacarığı, istedadı ilə nüfuzlu, adlı-sanlı alimlərin diqqətini çəkirdi. Onlar da nurlu gələcəyi aydın görünən bu ehtiraslı, bir qədər çılğın gəncin təhsildən ayrılmasını istəmirdilər. İpə-sapa yatmayan Fuad Əsədovu heç kim, heç nə od-ocaq, yurd-yuva sevgisindən, humanist-vətənpərvər diləklərindən, bəşəri arzularından ayıra bilmədi. Çünki Fuad Əsədov, imanlı, inamlı, sədaqətli, hünərli və cəsarətli gənc idi. O, qaynar döyüş xəttinə nəsil-nəcabətin məzarlarını, halal duz-çörəyi, əli silah tuta bilməyən ixtiyar

ərənlərin qeyrət və ləyaqətlərini, ana-bacıların ismətini qorumağa getmişdi. Tələbə dost və yoldaşları ilə görüşüb-ayrılanda alnını qırışdırmamışdı, üzünün cizgiləri dəyişməmişdi. Cəbhəyə türk ərənlərinə məxsus əzəmətli görkəmlə, sarsılmaz vüqarla, yalnız qələbə, qəsbkarı əzmək, məhv etmək əqidəsi ilə yola düşmüşdü. Fuad Əsədovun gələcəyə inamı öz ifadəsini gündəliyində tapmışdı. "Bizdə belədir, gərək ölmək üçün də ərizə yazasan" - fikri üstə köklənmiş sənədli povestində həyatını, yaşayışını dəyərli bədii sözlə mənalandıran Ə.R.Xələfli "Arzulara dəyən güllə" əsərində Fuad Əsədovu sevə-sevə, duya-duya, onun qəhrəmanlığını qeyri-adiliyi ilə, nəsillərə nümunə göstərə-göstərə yazmışdır. Sənədli povestdə qanlı hadisə və əhvalatlarla, Sur aşırımından verilən real faktlarla böyük bir vətənpərvərin portreti yaranır, qəhrəmanlığı haqqında bütöv təsəvvür və anlayışı formalaşır. Ona görə ki, Ə.R.Xələfli Qarabağ müharibəsinin səciyyəsini, ermənilərin yırtıcılığını, qəsbkarlıq müharibəsi apardıqlarını bilirdi. Bu görkəmli ədib müəyyən mənada hərbçi döyüşçü idi. O, dönə-dönə ən çətin döyüşlər gedən Sur aşırımında olmuşdu, yaralıları və şəhidləri ön cəbhədən çıxarmaq istəyənlərdən ayrılmamışdı: "Növbəti təcili yardım maşınında Sur aşırımına yollandım. Sözün həqiqi mənasında müxtəlif istiqamətlərdə qırğın edirdi. Hərbi həkimlər də burada idi. Mübariz Məmmədov, Qaçay Şahmarov.. mən özümü onların yanına çatdırdım. Sürünə-sürünə Qaçay həkimlə birlikdə güllə yağışı altından aşağı endirilən bir yaralı götürdük. Ətrafda kimisə görmək, tanımaq mümkün deyildi.

Elə həmin vaxt başqa bir dəstə ilə güllə yağışı altına yeriyən Qərib həkimi də gördüm. Demək, o da başqa maşınla təcili döyüş yerinə gəlmişdi. Qaçay həkimlə mənim götürdüyüm yaralının sinəsi parçalanmışdı. Ağır-ağır nəfəs alırdı... Birdən aşağıda dəhşətli mərmi partlayışı oldu. Partlayışdan sonra qalxıb yaralını götürmək istədim. Qaçay həkim dedi ki, getmək olmaz. Elə bu dəqiqə birini də atacaqlar, həmin dəqiqə biz yaralı ilə birlikdə bir dərənin dibinə çəkildik və dəhşətli partlayış səsini

eşitdik. Qaçay həkim dedi ki, narahat olma, indi bizdən uzağa-başqa yerə atacaqlar.

....Yaralını yola saldıq. Mən bir də geri qayıtmaq istədim. Şübhəsiz rəngimizdə dəyişikliyi ətrafımızdakılar da görürdü. Komandir Vaqif Məhərrəmov üzünü mənə tutub: - Müəllim, necədir, müharibə səni qorxutmayıb ki? -dedi.

- Yox, - desəm də səsimdə sayı-hesabı bilinməyən yaralının, həlak olanın, gördüyüm dəhşətli mənzərənin təsiri duyulurdu"...

Sazlı-sözlü bir məclisdə Zal kişini bircə dəfə görmüşdüm, ixtiyar vaxtında çox təmkinli, çox vüqarlı dayanırdı, əzəmətli görkəm alırdı, istəyini, düşüncələrini sərrast, müdrükanə ifadə edirdi. Zəmanəmizin böyük, təkrarsız milli, navator sənətkarı Zəlimxan Yaqub söz deyəndə də, saz çalanda da, Yusif Nəğməkar məclisi bir az da qaynarlaşdıranda da Zal kişi qulaq kəsilirdi, xəyalı uzaqlarda, ancaq uzaqlarda qərar tuturdu. Ömür-gününü qaçqınlıqla keçirdiyini, doğma yurddan, el-obadan ayrı düşdüyünü qətiyyən hiss etdirmirdi. Qaçqınlığın amansız dərd-bəla olduğunu Zəlimxan Yaqub mənə pıçıldayanda Zal kişi eşitmirdi, lakin pıçıltının mənasını-məzmununu duyurdu, hiss edirdi. Sir-sifətinə kədərli çizgilər gəlirdi. Amma sarsıntı ani çəkdi, yəqin Zal kişi məclisin əhvali-ruhiyyəsinin, ahənginin dəyişəcəyindən ehtiyatlandı.

Şair-publisist Ə.R.Xələfli atası Zal kişidə çox zəngin, təkrarsız keyfiyyətlər - kişi xarakteri, kişi dözümü, kişi mərdliyi, kişi qüruru və cəsarəti görmüş və zaman-zaman bunları mənəviyyatına axıtmışdır, atasına oxşamaq, atası kimi bütöv, kamil, yetkin insan olmaq istəmişdir. Amansız Sur döyüşlərində həkimlərlə bərabər ikinci dəfə güllə-mərmi yağışının altına getmək, şəhidləri və yaralıları arxa cəbhəyə gətirmək Ə.R.Xələflidə istək, çılğın, ehtiras idi. Komandir Vaqif Məhərrəmovun və bəlkə başqa komandirlərin təcrübələri, cəbhənin məntiqini yaxşı bilmələri Əli Rza Xələflini yağının gülləsindən xilas etmişdir. Ədib Fuad Əsədovun sorağına, izinə düşməyin gec, faydasız olduğuna inanmışdır.

"Neçə kilometrlik ölümün, qanın yağdığı dağların sırsırası indi gözlərinin qabağına" gələn şair-publisist Ə.R.Xələflinin "Arzulara dəyən güllə" adlı kitabında Fuad Əsədov rəssamdır, sənət adamıdır, demək, filosofdur, mütəfəkkirdir. Qüdrətli şairdi. Onun istedadlı, bacarıqlı, ciddi, yüksək sənət zövqü dərkli və duyumlu olmasını heç kim inkar edə bilməz. Di gəl ki, bu gənc hələ nə rəssam, nə şair, nə də nasir kimi fərdi üslubunu müəyyənləşdirməmişdi, söz demək, fikir söyləmək üçün onun yüksək mündəricəli əsərlərini təqdir etdiyimizdə bir şərtilik var. Ə.R.Xələflinin başqa bir fikri ibrətamizdir, düşündürücü faktdır, danılmaz reallıqdır: Andrey Bolkonski bacarıqlı, nüfuzlu və istedadlı gənc rus zadəganı idi. O, Borodino döyüşünə getməyə bilməzdi, özünəməxsus qürur və nüfuz onu rahat buraxmır. Onun düşüncəsinə görə, zadəganlar dura-dura kasıbların Vətəni qoruması Vətən üçün həqarətdir. Bəli, Vətəni və xalqı yalnız kasıblar, yoxsullar deyil, həm də hamı qorumalıdır.

Fuad Əsədovun Andrey Bolkonski haqqında məlumatının olub-olmadığını deyə bilmərəm, inamla onu söyləyə bilərəm ki, güclü ehtiras, coşğun vətənpərvərlik ona ata-ana tərbiyəsindən, nəsil-nəcabətinin qanından keçmişdi. Vətənə, xalqa, milli torpağa, el-obaya qaynar sevgisi onun ruhunda, mənəviyyatında, istəyində, psixologiyasında, ürəyinin və nəbzinin döyüntüsündə idi. Əgər belə olmasaydı, qan içən yağının namərd gülləsi onun sinəsinə yox, kürəyinə dəyərdi, kürəyini parçalayardı. Bu, o deməkdir ki, Fuad Əsədov düşmənin gücündən, silahından qorxmamış, çəkinməmiş, son anda düşmənin gözlərinin içinə baxmışdır. Onun könüllü, ailədən xəbərsiz qaynar döyüş xəttinə göndərilməsi istəyi taborun komissarı N.Yusifova ərizəsində də ifadəsini tapmışdı. "Bu ərizəmlə sizdən məni ən qaynar nöqtələrə - posta göndərmək üçün sərəncam verməyinizi yazılı surətdə xahiş edirəm." Bu, elə-belə xahiş deyildi, Böyük bir vətənpərvərin sərhəd bütövlüyünə, elə-obaya davamlı, qarşısıalınmaz məhəbbəti idi. Fuad Əsədov qəhrəmanlıqla, millətin ürəyində

bitib-tükənməyən sevgi qoya-qoya, tarixdə tarixin bir parçasına çevrilə-çevrilə, adını əbədiləşdirə-əbədiləşdirə dünyasını dəyişdi.

Söz deyəndə, fikir söyləyəndə müəyyən bir problemin elmi, ya bədii həllini vermək istəyəndə şair-publisist Ə.R.Xələfli ciddi-ciddi düşünür-daşınır, yüz ölçür, bir biçir. Bədii əsər yazanda tələsmir "söz üstündə yanır", həyatı həyatın özündən, insanı insanın insani mahiyyətindən öyrənir, müşahidəni yaradıcı və davamlı aparır. O, məzmunu gerçəkliyin özündən alır, onu aydın, konkret və zəngin boyalarla ifadə edir. Bu ədibin bədii həllini verdiyi məzmunlar müasirliyi, idraki-tərbiyəvi əhəmiyyətin böyüklüyü, təsirinin hərtərəfliliyi ilə seçilir, oxucuları-zənginləşdirir. Çünki Ə.R.Xələfli xalq, el-oba adamıdır, bədii əsərlərlə ideya yaymaq onun istəyinin, yaşayışının mənasıdır. Bu görkəmli ədib Fuad Əsədovu necə görmüş, necə tanımışsa, elə də səciyyələndirmişdir. Onun görüm və müşahidəsində Milli Ordunun Cəbrayıl ərazi alayında döyüşçülər Fuad Əsədovu sevirlər, baracığını və istedadını yüksək qiymətləndirirlər. Qəhrəman bir gəncdə - Fuad Əsədovda tez görmək, ən mürəkkəb vəziyyətlərdən asan çıxmaq, düşməni müşahidədən dəqiq keçirmək bacarığı hərtərəfli idi. O, bütün silahların dilini çox gözəl bilirdi. Rəsmi sənədlərdən birində deyilirdi: - Hərbi texnikadan, hava telefonlarından baş çıxarırdı. Gecə əməliyyatlarında fəal iştirak edirdi. Gözəl kəşfiyyatçı idi. Kəşfiyyatdan heç vaxt əliboş qayıtmazdı. Ən qaynar nöqtələrdə postda dayanardı. Məşhur Şayaq yüksəkliyi və Sur döyüşlərində qəhrəmanlıq və fədakarlıq nümunəsi göstərmişdir. Qışlaq, Doşulu kəndlərinə düşmən hücumlarının dəf olunmasında iştirak etmişdir.

"Fuad dünyası" adlı ciddi, yayılqan bir kitabı "Səda" nəşriyyatı çap etmişdir. Kitaba Fuad Əsədovu yaxşı tanıyanların faktlarla zəngin xatirələri böyük vətənpərvər - humanist gündəliyindən qeydlər, onun publisistik yazıları, şeirləri, rəsmləri salınmışdır. "Fuad dünyası" əsərini dərdini-kədərini heç kimin görmədiyi bir aləmə-ürəyinə axıdan şəhidin

atası Qərib Əsədov redaktə etmişdir. O, kitaba el-obaya, xalqa sevgi, vətəndaşlıq qüruru ilə "Ön söz" yazmışdır: “Fuadın şərəfli, vüqarlı və heyrətamiz ölümü, həyatı dərindən dərk edən, doğmalarını, dostlarını, xalqını, Vətənini, bəlkə də bütün bəşəriyyəti ilahi məhəbbətlə sevən kamil bir insanın özüçün müəyyənləşdirdiyi bir taledir. Bu sakit, ağır təbiətli, bir az da xəyalpərvər olan bir gəncin zirvəyə gedən şərəfli həyat yoludur. Bu - həqiqət axtarışında olan, zəmanənin eybəcərlikləri ilə barışmayan, az yaşında el-oba qeyrətli, millət dərdi çəkən, son məqamda cihada üstünlük verən bir Vətən oğlu yanaraq nur saçmışdır".

Fuad Əsədov haqqında müəyyən faktların artmasında və dəqiqləşməsində, vətənpərvərliyinin, təkrarsız qəhrəmanlığının daha geniş miqyasda yayılmasında və öyrənilməsində, xalq məhəbbəti səviyyəsinə yüksəlməsində müdrik, ədəbi şəxsiyyət Ə.R.Xələflinin böyük və əvəzsiz xidməti olmuşdur. O, Azərbaycan xalqının böyük vətənpərvər-humanisti Fuad Əsədov haqqında irihəcmli orijinal, tamam yeni faktlarla zəngin "Arzulara dəyən güllə" adlı sənədli povest yazmışdır. Əsərə Fuad Əsədovun dilə-ağıza sığmayan cəsarətinin, cəbhə hünərinin, kəşfiyyatçılıq istedadının qeyri-adiliyi haqqında hərtərəfli bilgisi-məlumatı olan şəxsiyyətlərin məqalələri verilmişdir. Bu məqalələr - "Güllə arzularıma dəydi" (Əli Rza Xələfli), "Arzuların baş daşına", "Əbədi olan yalnız əməldi" (Xeybər Göyyallı), "Şəhidin xatirəsi" (Adilə Qocayeva), "Səfərdən əvvəl" (Daşdəmir Əjdəroğlu), "Kişiləri ağladan dərd" (Sona Xəyal), "Qısa ömrün əbədiliyi" (Qurban Bayramov), "Ağlama, şəhid anası" (Nəzirə Atayeva) Qarabağın taleyi ilə yaşayan, düşüncələri, hissləri, amalları Qarabağdan üzülməyən, Qarabağın gələcəyinə dərindən inanan insanların - müəllimlərin qeydləri də kitabda yer alıb. Bütün qeydlər Vətən yanğısı ilə yoğrulmuş, Ə.Xələfli də bu qeydləri diqqətlə toplayıb çox dəyərli əsərinə əlavə etmişdir. eyni zamanda həmin qeydlərdə Xələflinin obrazını da görə bilirik. Çünki müəlliflərin hamısı yüksək bədii poetik, istedadlı şair-publisist Əli Rza Xələflin

maraqlı, yeni səciyyəli, Vətəni sərhəd bütövlüyü ilə sevən milli ədəbi şəxsiyyət kimi təzahür edir. Özü demişkən, dünyaya "Xudafərin üstə göz açmış", bədii əsərlərinin bir qismini Xudafərini duya-duya, yaşaya-yaşaya yazmışdır. O, lirik şeirlərində Qarabağı nəbzinin döyüntüsü, ürəyinin çırpıntısı kimi mənalandırır. Varlığını, yaşayışının məna və məzmununu Qarabağsız təsəvvür edə bilmir.

Azərbaycanın hər yerində əsərləri geniş yayılan, çox oxunan şair-publisist Əli Rza Xələfli Fuad Əsədovu yalnız cəbrayıllı həmyerlisi kimi tanımır, yalnız buna görə adını hörmətlə çəkmir, həm də xalqın qəhrəmanlıq ənənələri yönündə yetişdirdiyi, formalaşdırdığı, Qarabağ döyüşlərində sarsılmaz və yenilməz övladı kimi sevir, onu ucadan-uca tutur, haqqında qiymətli söz deyir, fikirlər söyləyir, tez-tez məqalələr yazır. Ə.R.Xələfli böyük bir söz ustasının həyatını, ömür-gününü yaşayır, ancaq heç kim bilmir, heç kim soruşmur, necə güzəran keçirir. "Kredo" qəzetinin redaksiyasına gedəndə Əli Rza Xələflinin nələr çəkdiyini hiss edirəm, görürəm. Görürəm alnını turşutmadan, üzünün cizgilərini dəyişmədən redaksiyaya gələnlərlə hal-əhval tutur, işgüzar söhbətlər aparır, heç kimin könlünü qırmaq, heç kimə yox demək istəmir. Amma bu yumşaq, kövrək, oynaq şirin və zərif lirika ustası daxilən rahatlıq tapmır, özü-özünü üzür. Amansız düşmənin tapdağı altında qalan yurd həsrəti onun dərdinin üstünə dərd gətirir. Yaxşı tanıdığı Fuad Əsədovu, onun dönə-dönə gördüyü məzarını xatirinə gətirəndə dərdi-qəmi ürəyinə axır. Çünki Ə.R.Xələfli həssasdır, humanistdir, qayğıkeşdir, istedadlı, gələcəyi olan bir gənci görəndə bu ustad sənətkarı milli fərəh bürüyür. O, dünyasını çox tez, vaxtsız dəyişən Fuada, Fuadın istedadına, gələcəkdə onun nüfuzlu sənətkar olacağına inanırdı, bilirdi ki, Fuad Əsədov rəssam-heykəltəraş idi, şeirlər də, nəsr əsərləri də yazırdı:

***Sən mənə qulaq as, dinlə diqqətlə,***
***Qəlbim silahlanıb kinlə, nifrətlə...***
***Mən qoltuq altında yata bilmərəm,***
***Mən qadın ləçəyi örtə bilmərəm!***

***Namusdan, qeyrətdən məhrum olanın,***
***Fərəhə, qürura həsrət qalanın,***
***İnstitut diplomu nəyinə gərək?***
***Dünya Şuşa dərdin yaddan çıxarmış?***
***Xocalı fəryadı beynimi sarmış.***
***Deyirsən, komandir, indi neyləyək,***
***Kişilik sözünü lüğətdən silək?***

Parça Fuad Əsədovun "Komandirə məktub" şeirindən götürülmüşdür. Əsərin şeiriyyətinin, bədiiliyinin hansı səviyyədə olması yəqin heç kimi çox da maraqlandırmır. Oxucunu özünə çəkən "Komandirə məktub"un məzmun-mənasıdır, ideya istiqamətidir, şairin vətəndaş amalıdır, arzu və niyyətidir. Fuad Əsədov şeirin bədii məntiqində özünü, Vətən sevgisini xalqın həyatına, xalqın istəyinə qatan kamil, yetkin, müdrik bir şəxsiyyət kimi təqdim olunur. Yırtıcı düşmənə ürəyi kinlə, qəzəb və nifrətlə dolu olan bu cəsur gənc "qoltuqdan çıxanlara" ibrət dərsi vermək istəyirdi. Hərarətli və təbii zəngin lirika ustası şair-publisist Ə.R.Xələfli 7-8-ci siniflərdə oxuduğu illərdən Fuad Əsədovdu tanıyırdı, həmişə onu qayğıya alırdı, gələcəkdə nüfuzlu, adlı-sanlı insan olacağına inanırdı. Bu hünərli, bu milli qeyrətli şair-publisist Əli Rza Xələfli bilirdi ki, Vətən dünyanın timsalı idi Fuad üçün.Vətən övladı dünyanın övladı idi Fuad üçün.

Fuad Vətən üçün doğulmuşdu, Fuad dünya üçün doğulmuşdu. Tələbə-Fuad Əsədovda fitri qəhrəmanlıq cəsarəti, vətəni qorumaq, xalqın keşiyində dayanmaq hünəri var idi. Xocalı qırğını, Şuşanın işğalı, insanların qaçqın və köçkün düşməsi Fuadı qəzəbləndirirdi, heyrətə salırdı. O, dözə, rahatlıq tapa bilmirdi. İlk günlər Fuadı tanımayanlar Fuada inanmırdılar, onu Milli Ordunun könüllülər dəstəsinə yazmaq istəmirdilər... *"Evdə heç nə deməmiş 17 martda gedib Milli Ordunun könüllülər dəstəsinə yazıldım. Əvvəllər mənə etimad göstərmirdilər. (Əsgərlikdə olmamışdım). Çox xahiş-minnətdən sonra...məni imtahan edib, yoxlayıb, nəhayət, 28 martda ən*

*qaynar nöqtə olan Qışlaq kəndinə göndərdilər".*

Fuad Əsədov cəbhəyə-döyüşə getməkdən, hiyləgər və yağı düşmənlə üz-üzə gəlməkdən qorxmur. Şəhidlərin taleyi çoxluğu Fuad Əsədovu qorxutmur, vahimələndirmirdi, torpaq uğrunda, anaların, qız-gəlinlərin şərəf və ləyaqətlərinin saflığı yolunda ölümdən çəkindirmirdi. Buna görə də komandirlə ciddi, sərt, bir qədər də çılğın, ancaq məntiqi ardıcıllıqla, inkarı mümkün olmayan faktlarla danışırdı:

***Niyə göndərmirsən məni orduya,***
***Cavab istəyirəm mən bu sorğuya.***
***Deyirsən orduda olmamısan sən,***
***Uşaqsan, heç yaşa dolmamısan sən.***
***Deyirsən institut səni gözləyir,***
***Cəbhədə hər adam tab gətirməyir.***

Rəssam-heykəltəraşın - Fuad Əsədovun düşüncələri nəzmlə ifadə olunmuşdu. Şeirin bədiiliyi, hissi-emosionallığı, deyəsən, Fuad Əsədovu o qədər də maraqlandırmırdı, torpaqlarımızın işğalı, kəndlərin, qəsəbələrin, rayonların, şəhərlərin dağıdılması və talan edilməsi Fuad Əsədovun arzularını başqa yönə, başqa istiqamətə salmışdı. Düşməni əzmək, onu öz yuvasında məhv etmək Fuad Əsədovun sənətlə yaşamaq, ömrünü sənətlə zinətləndirmək istəyini zəiflətmişdi. Bu igidin böyük vətənpərvər şəxsiyyətini cəngavərlik, Qarabağı qaniçən düşmən tapdağından qurtarmaq, qaçqınları və köçkünləri öz od-ocaqlarına qaytarmaq arzusu səciyyələndirirdi. Komandir səbrli, dözümlü və təmkinli insana bənzəyir. Fuadın söz-söhbətini qırmır, diqqətlə dinləyir, cavan bir gəncin məntiqi, özünə inamı hərbçidə qürur, fərəh və qələbəyə inam hissi doğurur.

***Düşmən üstün gəlsə, qorxu törənsə,***
***İnan nifrət dolu od püskürərəm.***
***Patronum qurtarsa, gücüm tükənsə,***
***Dişim-dırnağımla cəngə girərəm.***

Təhsili, şeiri-sənəti Fuad Əsədov silahla əvəz etmişdi. Çünki o Xocalı nisgilli, Şuşa hallı idi. Bu qəhrəman torpaqlarımızın

tapdanmasına, torpaqlarımızın odlara qalanmasına, vətəndaşlarımızın fərəh və sevincə həsrət qalmalarına dözmürdü. "Semestr imtahanlarını odlu silahlardan verərəm, auditoriyam türk səngərimdir, düşməni öldürə bilərəm"- deyən, xəyalında ulu türkün qəhrəmanlıq heykəlini yapan, gecələr səngərlərdə türkün tarixini öyrənən Fuad Əsədovu xalqın milli vətənpərvər sənətkarı şair-publisist Ə.R.Xələfli əxlaqi-mənəvi dünyasının bənzərsizliyi, istək və arzularının kamilliyi ilə sevirdi, duyurdu, onu zəngin xəyalında, düşüncəsində gəzdirirdi, unuda bilmirdi. Ona görə ki, Ə.R.Xələfli zərif, həssas, yumşaq lirik səciyyəli, harmonik və kamil ədəbi şəxsiyyətdir. Onun sevgisi də, nifrəti də, coşğunluğu da, həlimliyi də təbiidir, yetkin və bütövdür. Bu görkəmli ədibin şeirlərində, poemalarında və ədəbi-publisistik əsərlərində ancaq bədii bütövlük, məzmuna, bədii həllini vermək istədiyi bir problemə coşğun, qaynar münasibət dərhal diqqəti çəkir. Çünki milli və novator bir şair Ə.R.Xələfli insanın insani mahiyyətini, onun hisslər və düşüncələr aləmini, müəyyən bir hadisənin məzmununu, ən xırda çalarlarını, rənglərini duymadan əlinə qələm almır. Bu ədəbi şəxsiyyətdə tez görmək, tez seçmək, həyati bir əhvalatı gərəkli olmayan əhvalatdan ayırmaq bacarığı, adi bir faktı ümummaraq səviyyəsinə qaldırmaq istedadı vardır.

Şair-publisist Ə.R.Xələfli geniş yaradıcılıq imkanlı ustad sənətkardır. O, böyük bədii təsirli, yüksək poetik amallı lirik şeirlər, lirik-epik poemalar, nəğmələr, ədəbi-publisistik məqalələr yazır, dərin məzmunlu ədəbi-tənqidi məqalələr düşünür. Bunlarla bərabər Ə.R.Xələfli hərarətli və mahir lirika ustasıdır. Onun lirik şeirlərində varlıq konkret, lakonik və dinamik axar tapır, hisslər, duyğular, əhvali-ruhiyyələr zahiri əlamətlərə, artıq rənglərə bürünmür, məcazlarla yüklənmir. Çünki bu ədibin lirik şeirlərinin çoxunda əsas obraz duyan, düşünən, hərəkət edən, mənalandıran, bədii yük-ideya daşıyan poetik "mən"dir.

Ona görə də Ə.R.Xələflinin lirikasında ürək çırpınır, ürək

döyünür, hisslərin və duyğuların nizamı, psixologiya və mənəviyyat ifadə olunur, ümumiləşir. Şeirlərində poetik "mən"görünür, səsi eşidilir, isti nəfəsi duyulur. Onun arzuları, istəyi, düşüncələri dərin təsir oyadır. Bütün bunlar da şair-publisist Əli Rza Xələflinin lirik "mən"inin müdrik, yetkin, xeyirxah, nəcib, fədakar, insansevər və vətənpərvər olmasından irəli gəlir. Bu milli-novator ədib surətlərini, ən adi rənglərini gerçəkliyin müxtəlifliyindən alır, təbiəti və insanı bütöv, özünəməxsusluğu ilə canlanır; bədii obraz onun lirikasında canlı gerçəkliyi, məişəti, adət-ənənəni, müasirliyini, yeni-təzahürlərini yaşayır, duyur, düşünür, sevinir, fərəhlənir, kədərlənir, özünün insani mahiyyətini özündə tapır. Şair-publisist Ə.R.Xələflinin insana, insanların yaradıcı imkanlarına etiqad və inamı müəyyən qədər Şekspirin real insana himn oxumasını xatırladır: *"İnsan! Təbiətin möcüzəsi, xeyirxah düşüncəli, sonsuz qabiliyyətli, mütənasib əndamlı, heyrətamiz davranışlı insan!.. Kainatın yaraşığı, bütün canlı varlığın tacı olan insan. Azad, hərtərəfli inkişaf etmiş insan, insana xas olan bütün keyfiyyətlərə biganə qalmayan insan".*

Milli-vətənpərvər sənətkar Ə.R.Xələfli satirik-yumoristik əsərlər yazmır. Ancaq onun onlarca lirik şeirində erməni canavarlarının-qəsbkarların iyrənc təbiəti qatı, şərt boyalarla açılır, bədii məntiqdə niyyətlərinə inkar-ölüm pafosu seçilir.

Şair-publisist Ə.R.Xələfli "Arzulara dəyən güllə" adlı çox məzmunlu, real faktlarla zəngin olan kitabı ədəbi-publisistik düşüncələr adlandırmışdır. "Arzulara dəyən güllə" kitabının bütün bölmələrinə məzmunun mahiyyətini, istiqamətini tamamlayan, yığcam, ifadəli və şairanə adlar verir. Başlıqların hər birində real bir əhvalat ya epik, çox hallarda isə lirik, hissi-emosional ifadəsini tapır, bir hadisənin təsviri digər əhvalatın təsvirinin davamına bənzəyir.

"Arzulara dəyən güllə"də hər bir hadisə elmi mühakimələrlə, elmi dəlillərlə, elmi ümumiləşdirmə və elmi məntiqlə hasilə, təsdiqə yetirilir. Fuad Əsədovun tərcümeyi-halı, heyrətamiz

cəsarətli hərəkətləri, özünü qaynar döyüşlərə həsr etmək istəyi böyük söz ustası Ə.R.Xələflinin canlı, rəvan və hikmətamiz ifadə tərzində ləngərlənir, dinamikləşir, bədii təsir bölmədən-bölməyə keçir və güclənir. Xalqın yenilməz, cəsur və qələbəyə ehtiraslı övladının - Fuad Əsədovun kamil, canlı, insanı təsir və düşüncələrdən ayrılmağa qoymayan obrazı yaranır. Bütün bunlar bədii məzmuna, bədii struktura, bədii poemaya, tapılan, işlənən neçə-neçə orijinal rəngə, təhkiyəyə, ifadə tərzinə ciddi təsir göstərir və "Arzulara dəyən güllə" insanda gah fərəh, gah vətəndaş qüruru, gah təəssüf, gah həyəcan, gah da kədər, nisgil və qəm hissləri oyadır.

"Arzulara dəyən güllə"nin əsas bölmələrində Ə.R.Xələflinin dinamik, həzin lirik bədii söyləməsi kədərə-qəmə bürünür, "Ölümün, qanın yağdığı dağların sırsırasında" "ulu türkün yenilməz türk nəvəsi dünyasını dəyişir, qəhrəmanlıq-şəhidlik amalına ucalır. Onu şəhidliyə xalqa, vətənə, doğma torpağa, Cəbrayılın təkrarsız gözəlliyinə sonsuz sevgi, insanlara nümunə olmaq istəyi aparır. Doğru deyillər, bu böyük vətənpərvər, vaxtından tez kamilləşən gənc ailəni özündən, vətəni ailəsindən uca tutur". Buna görə də Fuad Əsədov Azərbaycanın ərazi bütövlüyünü, xalqın heysiyyətini, ləyaqət və qürurunu qorumaq üçün inadla vuruşur, ölumlə üz-üzə dayanır. Cəsur bir döyüşçünün - Fuadın ölümü təsirsiz qalmır, düşüncələrdə, mənəviyyatlarda, ailələrdə, məişətlərdə yaşayır. Araz sahilləri, Cəbrayılın əlçatmaz, ünyetməz dağları, gözişləməz dərələri, bu diyarın yaşıl-yaşıl mənzərələri Fuadın ayaq izlərini qoruyur, nəsillərdən-nəsillərə yadigar saxlayır. Mübahisə doğurmayan həqiqətdir. Fuad təkrarsız yeniyetmə qəhrəmandır, yenilməz vətənpərvərdir, elin-obanın keşiyində qeyrət, səadət timsalıdır. Fuadın nənəsi Şəmsə müəllimə özündən ağır fəryadını, ağrı-acısını bayatı ağılarla ifadə edir:

***Sübh durar nənə ağlar,***
***Çırağı sönən ağlar,***
***Üstünü açıq qoyma,***
***Yaralı sinən ağlar.***

***Dəyişib zaman ellər,***
***İstərəm aman ellər,***
***Fuadım qəriblikdə,***
***Dərdliyəm yaman, ellər.***

Ağılar məzmunludur, bədiidir, düşündürücü və sarsıdıcıdır. Şəmsə xanım ağıları yana-yana, göz yaşına bürünə-bürünə söyləyir. Bu müdrik və nurani ana böyük kədəri və dərdi ağılarla deyəndə təbii görünür. Canlı portreti yaranır, heç kim onu qınamır. Amma el-obanın arasında formalaşan, əxlaqi-mənəvi dünyası, ruhu Azərbaycan torpağına hopan Fuadın kamil mündəricəsini hərbi-vətənpərvərlik marşları, insanları erməni yağılarından intiqam almağa çağıran nəğmələr, lirik qəhrəmanlıq şeirləri daha da tamamlayır.

Fuad Əsədov hərtərəfli hörmətə, böyük qayğıya, hər cür təbliğ olunmağa, həyatı, qaynar cəbhə fəaliyyəti dərindən araşdırılmağa, öyrənilməyə layiq qəhrəman - yaşını qabaqlayan şəxsiyyətdir.

Pedaqoji və əbədi fəaliyyətinin ilk illərindən Ə.R.Xələfli həyatın, yaşayışın və məişətin məntiqini tutur, zamanın axarı, müasirliyin tələbləri onun çoxcəhətli yaradıcılığına məna-məzmun verir. Ə.R.Xələflinin baş redaktor olduğu "Kredo", belə demək mümkünsə, hamının qəzetidir. "Kredo" da hamı - hələ imzası geniş yayılmayan yazarlar, tələbələr, müəllimlər, yazıçılar çap olunurlar. Onlar həyatın, yaşayışın, məişətin bütün sahələrindən yazırlar. Neçə-neçə gənclər ilk yazılarını "Kredo"da çap etdirmişlər. "Kredo" onların yazmaq, çap olunmaq həvəslərini artırmış, yaza bilmək bacarıqlarını oyatmışdır. Xeyirxahlığı bitib-tükənməyən, görkəmli ədib Ə.R.Xələfli onları sənət himayəsinə, sənət qayğısına almışdır. fuadları yetirən belə mühitdir.

Oğlu Fuad dünyasmını dəyişəndən sonra Qərib Əsədov təmkini az-çox saxlamış, müdrikliyini qorumaq istəmişdir: "Fuad dünyası" adlı məzmunlu, yayılqan və oxunaqlı kitab yazıya almışdır. Böyük söz ustası Ə.R.Xələflinin gerçəkliyin bağrından

doğan məntiqinə şərik olmuşdur: *"Fuadın ətri də, rəngi də həmişə cəzbedici olacaq, ahənrüba kimi insanları çəkəcək. Fuad obrazı, Fuadın mənəvi dünyası getdikcə söz içindən bitəcək, bar-bəhər gətirəcək, fikirlərə, düşüncələrə həyat şirəsi bəxş edəcək. Zəlzələlərin kurqanları dağıda bilmədiyi kimi".*

Fuad Əsədovun igidliyi, hünərlə erməni quzğunları ilə üz-üzə döyüşməsi və dünyasını dəyişməsi Azərbaycanda geniş yayıldı, Vətənin bir parçasını - Qarabağı hərarətlə sevənlərdə vətənpərvər əhval-ruhiyyəsini bir az da gücləndirdi. Fuadın qısa, amma mənalı ömür yolunu, şəxsiyyətini öyrənməyə maraq artdı. Güllə düz sinəsinə dəyəndə, canını tapşırmaq istəyəndə böyük vətənpərvər Ə.R.Xələfli qaynar döyüş xəttində olmuş, lakin təhlükə nəzərə alınmış, şairə Fuadın həlak olduğu yerə getməyə icazə verilməmişdir. *"Mən həmin gün heç olmasa, Fuadı görə bilərdim. Mən o istiqamətə gedə bilərdim. Bu, heç nəyi dəyişməzdi, amma mənim üçün bir təskinlik olardı. Döyüş isə ara vermirdi. Səhərisi gün də, o birisi gün də davam etdi və Qaçay həkim də həlak oldu. Onun ölüm diaqnozu infarkt qoyulmuşdu, bu adi infarkt deyildi. Bu Fuadların və Fuadların təmsil elədiyi torpağın hissə-hissə, parça-parça, oğul-oğul ölümünə etirazın, dözməzliyin infarktı idi".*

Yetkin və kamil insanları sevmək, qiymətləndirmək, uca tutmaq, onların dəyərli əməllərini, fəaliyyətlərini yaymaq Ə.R.Xələflinin şair-publisist fəaliyyətində, zəngin insani xislətindədir. "Fuad dünyası" və "Arzulara dəyən güllə" kitablarına qədər Ə.R.Xələfli erməni qəsbkarlarına sarsıdıcı zərbələr endirən Fuad Əsədov haqqında bir neçə məqalə yazmış, orijinal, çox dəyərli fikirlər söyləmiş, yenilməz igidin fəaliyyətinin yayılmasında əhəmiyyətli rol oynamışdır.

Mahmud Mahmudovun, Qurban Bayramovun, Xeybər Göyyallının, Nəzirə Atayevanın və Əlibala Zaloğlunun məqalələri, xatirələri, təəssüratları və şeirləri şair-publisist Ə.R.Xələflinin vətənpərvər-humanist qayğısı ilə öncə "Kredo" qəzetində gen-bol yer almışdır. Sonralar bu qiymətli yazılar

Ə.R.Xələflinin "Arzulara dəyən güllə" əsərinin "Əlavələr" bölməsinə salınmış, çap olunmuşdur. Məqalələrdə , xatirələrdə, müsahibə və təəssüratlarda Fuad Əsədovun zəngin, bənzərsiz, fərdi və ümumi keyfiyyətləri görünür, onun təhsilə, mədəniyyətə, incəsənətə, bədii ədəbiyyata marağından, cəbhə qəhrəmanlığından danışılır, hər yazıda yenilməz igidin bir səciyyəvi keyfiyyəti ümumiləşdirilir, Fuadın Cəbrayıla, el-obaya sevgisi qabardılır, vaxtsız-vədəsiz ölümü heyrət, bitib-tükənməyən kədər doğurur. Şairə Nəzirə Atayevanın "Fuad dünyası"na, Fuadın xatirəsinə həsr olunan şeirləri ("Fuad dünyası" "Ağlama, şəhid anası"), milli qüruru da, sərhəd bütövlüyünə sevgini də, qəmi, kədəri, fəryadı da dərinləşdirir, güclü təsir oyadır. Çünki şeirlərdə Nəzirə Atayeva gənc Fuadın faciəsini hərtərəfli duymuş, yaşamış, şeirləri kövrək, təbii hisslərlə yazıya almışdır. "Fuad dünyası" şeiri də sirli-sehirli bir aləmdir, ulduzlu kəhkəşandır, aylı bir gecədir. Fuad dünyası təpədən-dırnağa hünərdir, cəsarətdir, qeyrətdir, təkdir, ölümsüz həyatdır. Həm "Ağlama, şəhid anası", həm də "Fuad dünyası" şeirləri yüksək, bədii, axarlıdır, fikir məna yüklüdür, düşündürücüdür, səfərbərlik, intiqam istiqamətlidir:

***Söykəyib başını məzar daşına,***<br>
***Ağlama, ağlama şəhid anası.***<br>
***Qara şal yaraşmır cavan yaşına,***<br>
***Ağlama, ağlama şəhid anası.***

Xələfli yada salır: *"Kabardin Balkar şairi Qaysın Quliyev deyirdi ki, cəbhədə atılan hər güllə bir ana ürəyinə dəyir. Fuada dəyən güllə Vtənə dəyir. milli-mənəvi varlığımıza dəyir. güllənlənmiş arzular... Ülvi Bünyadzadə, Alı Mustafayev, Nizami Aydın, Fuad Qəriboğlu... onların atası da, anası da Vətəndir. başını məzar daşına söykəyən ana Qarabağın ruhudur..."* Ə.Rza Xələflinin bu sözlərinə heç nə əlavə etmək olmur.

Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda Qərib Əsədovun "Fuad dünyası" kitabının təqdimatının keçirilməsi təşəbbüskarı və ədəbi-bədii gecənin aparıcısı "Kredo" qəzetinin baş redaktoru, qüdrətli söz ustası Ə.R.Xələfli olmuşdur. Ədəbi-

bədii gecə qeyri-adi axara düşmüş, burada qürur və fərəh kədərə, göz yaşlarına qarışmış, təmkinli və müdrik kişilər belə ağlamışlar. Toplantı iştirakçıları bu qənaətə gəlmişlər: Qərib Əsədovun dəyərli "Fuad dünyası" kitabı bir yana qalsın: Fuad 19 yaşını qabaqlamış, Azərbaycanın hər bir yerində böyük bir şəxsiyyət-vətənpərvər kimi nüfuz qazanmışdır. Vətənpərvərlər Fuadı sevirlər, adını hörmət və ehtiramla çəkirlər, ona qibtə edirlər, həsəd aparırlar. Fuad Qışlaq, Doşulu və Şayaq döyüşlərində qəhrəmanlıqla vuruşdu. Sur kəndi uğrunda gedən döyüşlərdə isə qəhrəmancasına şəhid oldu.

Fuad Əsədov vaxtı-zamanı saf-çürük etmədi. Zamanı yaşadı. O, əsl qəhrəmandı, qəhrəmanlar zamanı götür-qoy etmir, sual-cavaba tutmurlar. Bu məqamda Fuadın intellekti, zəkası, təxəyyülü ilə qəhrəmanlığı arasında bir müqayisə apardım. Qənaətim belə oldu: Fuad özünü dərk etmiş qəhrəmandır. Onun qəhrəmanlığı təsadüfü, ötəri deyil. Əksinə, düşünülmüş və Vətən naminə edilmiş bir qəhrəmanlıqdır. Fuad Əsədov əbədiyyət ömrünü öz istedadı və öz əməli ilə qazanıb. O, ləyaqətli və şərəfli bir ömür yaşayıb. Fuad Əsədov ən böyük dəyərini-əbədiyyət ömrünü öz taleyi ilə, şəhidliyi ilə qazanıb. O, ölməzlik qazanıb. Çünki Fuadın Vətən üçün, gənclik üçün əbədi olan yadigarları var. Dəyərli və əvəzsiz rəsmləri, vətəndaşlıq mövqeyindən yazılmış şeirləri Fuadı əbədi yaşadacaqdır. Reallıqdır. Fuad Əsədov haqqında xeyli qəzet və jurnal məqaləsi, "Fuad dünyası" kitabı və bədii əsərlər yazıya alınmışdır. Bu yazılar əhəmiyyətlidir və bunların hər biri Fuadın həyatının müəyyən cəhətlərini açır, xalqın şəhid övladının şəxsiyyəti, cəbhə həyatı haqqında təsəvvür və anlayışlar genişləndirir. Bunlarla yanaşı, Ə.R.Xələfli Fuad Əsədovu nə bədii, nə də publisistik yaradıcılığından ardıcıl bəhs etmədən üzülmür, zaman-zaman onun ömür yolunu öyrənir, haqqında hikmətli, hamının diqqətini çəkən fikirlər söyləyir. Çünki Ə.R.Xələfli öz romantik xisləti, təbiətinin zənginliyi və özünəməxsusluğu ilə həmişə müasirliyə və yeniliyin müxtəlifliyinə yiyələnə bilir. Bunları ilhamla yaradıcılığına gətirir. Bu görkəmli ədibdə

ictimai-siyasi mühit təzə fikirlər, təzə düşüncələr, yeni həyəcanlar, qürur və fərəh oyadır. Bədii bütövlüyün nəticəsidir ki, onun yaradıcılığı "əxlaqi-estetik məktəb" (A.İ.Gertsen) təsiri bağışlayır, oxucunu düşündürür. Həyat mövqeyini gücləndirir, onu harmonik - ahəngdar inkişafa istiqamətləndirir. Ə.R.Xələflinin qaynar, xəlqi-novator lirikasında sabahımız, gələcəyimiz, bizə sağlam, gündən-günə inkişaf tapan orqanizm kimi görünür. Bu orqanizmdə şəxsi və ictimai münasibətlər üzvü surətdə bir-birilə birləşir. İnsan cəmiyyətdə öz təbiətinə uyğun böyüyür və ağacdakı yarpaqlar bir-birindən fərqləndiyi kimi, öz fərdi xüsusiyyətləri ilə başqalarından fərqlənməli və yeganə olmalıdır. Lakin hər yarpaqda nə isə başqalarına oxşayan ümumi bir cəhət vardır. Bu ümumilik budaqlardan, şaxələrdən keçərək gövdənin əzəmətini yaradır və bütün ağacın vəhdətini təşkil edir.

Ə.R.Xələflinin lirik və lirik-epik şeirlərinin bədii tutumundan və ideya-estetik istiqamətindən asılı olmayaraq obraz keyfiyyətlərin vəhdətində ifadə olunur. Poetik "mən" real mühitə düşür, bu mühitdə təhlil olunur, bu mühitdə görünür. Bu nəzəri-estetik problemin şərhi XVII əsr ingilis şairi Con Donnun yaradıcılığında ifadəsini aydın tapırdı. *"Ada kimi yalnız özü üçün olan adam yoxdur. Hər bir adam qitənin, qurunun bir hissəsidir, əgər dalğa dənizdə sahil qayasını yuyub aparsa, Avropa da kiçilər və habelə əgər o, dəniz burnun ucunu yuyub aparsa, yaxud sənin və ya sənin yoldaşlarının evini uçurtsa, hər bir insanın ölümü mənə də təsir edər. Çünki mən bütün bəşəriyyətlə vəhdət təşkil edirəm, ona görə də heç zaman soruşma ki, zəng kimin üçün çalınır, o sənin üçün çalınır".*

Bədii yaradıcılıqda Ə.R.Xələfli geniş düşüncəli, dərin ideya-estetik duyumlu, daxili əqidəli, ləyaqətli və xeyirxah fərddir, bənzərsiz ədəbi şəxsiyyətdir. O, cəmiyyətdə, insanların arasında yaşayır, onlara qaynayıb-qarışır, çoxcəhətli yaradıcı fəaliyyət göstərə-göstərə, özü də təsirlənə-təsirlənə bir vətənpərvər, bir humanist kimi yeni keyfiyyətlər alır, zənginləşir. Ə.R.Xələfli bilir ki, humanizmin mənası həyata, cəmiyyətə, insana sevgidir,

vətəndaş şair qayğısıdır, onun ləyaqətini - "mən"ini uca tutmaq və dəyərləndirməkdir. Böyük bir sənətkarın- Ə.R.Xələfinin yaradıcılığında nə vətənpərvərlik, nə də humanizm məhdud məzmun, səciyyə daşımır. Humanizm yalnız doğma xalqa, doğma mədəniyyətə, milli dilə deyil, həm də dünyaya, bəşəriyyətə - bəşərin yaratdığı elmi, texniki və əbədi-mədəni nailiyyətlərə sevgidir.

Müasir mündəricəli şair-publisist Əli Rza Xələfli "Arzulara dəyən güllə" sənədli povestində özünü xalqa, vətənin milli od-ocağına həsr edən gəncə-Fuada bu yöndən-vətənpərvərlik istiqamətindən yanaşır, onu şair, rəssam və heykəltəraş kimi səciyyələndirir.

**26.01.2010**

# ŞEİRİN ÇALAR ZƏNGİNLİYİ

*Altıncı məqalı*

Qarabağ qaçqın və köçkünlərinin sayının bir milyondan çox olduğunu deyirlər. Qaçqınların içində istənilən qədər adlı-sanlı, istedadlı alimlər, bədii söz ustaları-şairlər, nasirlər, publisistlər, habelə sevilən, adları hörmətlə çəkilən incəsənət ustaları vardır. Lakin bu böyük elmi, ədəbi-bədii qüvvə, elə də ölkəmizin saysız-hesabsız yazarlarının hamısı bitib-tükənməyən Qarabağ faciəsindən, erməni quldur-quzğunlarının işğalçı siyasətlərindən təsirli söhbətlər açmırlar, irihəcmli, geniş mündəricəli bədii əsərlər yazmırlar. Amma onların böyük əksəriyyətinin erməni işğalçılarının yırtıcı istəklərinin mahiyyətini açmaqla, faktlarla Qarabağdakı viranedici əməllərini ifşa etmək, beynəlxalq aləmə göstərmək imkanları böyükdür, hərtərəflidir. Qaçqınlığın kədər və acılarını, Qarabağın intizar və ayrılığını dərdlə, üzüntülərlə yaşayan görkəmli sənətkar Əli Rza Xələfli lirik, lirik-epik şeirlərini, çoxsaylı publisist əsərlərini daha çox baş redaktoru olduğu "Kredo" qəzetində çap etdirir. Çünki "Kredo" qəzeti ölkənin hər yerində yayılır, çox oxunur, maraq doğurur, hərtərəfli təsir oyadır. Şair-publisist Ə.R.Xələfli nə yayılqan bir qəzetdə - "Kredo"da fasiləsiz çap olunmaqdan, nə də mahiyyəti fəryada, qəmə-kədərə bürünən Qarabağ mövzusundan üzülmür. Ümumxalq faciəsini - müharibəni, müharibənin törətdiyi fəlakətləri müxtəlif yöndən, müxtəlif istiqamətlərdən özünün zəngin, xəlqi və novator yaradıcılığına gətirir.

Bədii təsvirləri, yaratdığı canlı, ibrətamiz lövhə və mənzərələr, obrazlarının situasiyaları tipik bədii kəşflər, tapıntılar üzərindən keçən Ə.R.Xələfli ustad sənətkardır:

***Bu gecə yuxuda qanad açmışdım,***
***Baxdım göy üzündən Dağ Xələfliyə.***
***Göyün qurşağında yeridim, getdim.***
***Qovsi-qüzeh üstə tağ Xələfliyə.***

***Qəlbimdə həsrətin qurulu taxtı,***
***Tutub saxlamadım dövranı, vaxtı.***
***Daha qınamadım taleyi, baxtı,***
***Görsən tanımazsan, bax Xələfliyə.***

***Bu daş tərəzidə mənim öz yaşım.***
***Yandı ürəyimdə, yandı köz yaşım.***
***Göllənib gözümdə qalan göz yaşım.***
***Araz ol, Araz ol, ax Xələfliyə.***

Şeiri Ə.R.Xələfli hünərlə-ifadəli, konkret və yığcam yazır. Bu ədibin şeirlərində fikir, hiss duyğular misradan-misraya, bənddən-bəndə axır, ləngərlənir, yeni-yeni çalarlar alır, hikmətli, güclü sosial-ictimai düşüncələr axarında, təbii his və duyğularla yazılan "Xələfliyə" şeirində ədib Qarabağ müharibəsinin-qanlı qadalı faciəsini, ermənilərin yırtıcı əməllərini, torpaq hərisliyini geniş, təfərrüatı ilə göstərmir: qeyri-etik ifadələrdən istifadə etmir. Bütün bunlar bədii lövhə və mənzərələrdə, səciyyəvi və tipik situasiyalarda, xırda, mənalı detallarda görünür, aydın təsəvvür olunur. Əsərlərində ona görə qeyri-etik kəlamlardan istifadə etmir ki, Ə.R.Xələflinin yaradıcılığında bunlar təsirsiz qalmır. Hikmət, müdriklik, həyatilik, xalqa qızğın sevgi, vətənpərvərlik, insana qayğı, düşmənə amansız nifrət, kin və qəzəb onun lirikasında şeirdən-şeirə parça-parça, detal-detal, lövhə-lövhə, boya-boya keçir. Bu keçidlər şeirlərə həyatın nəfəsini, insanın mahiyyətini, onun nəbzinin, ürəyinin çırpıntılarını və hərarətini gətirir. Şeirlərdə Qarabağın fəryadı, Xələflinin , bütövlükdə Cəbrayılın iniltisi eşidilir, Xudafərinin xalqdan imdad istəməsi duyulur, erməni qaniçənlərinə təbii nifrət misradan -misraya dərinləşir:

***Daha diləklərin amanı bitdi,***
***Yaxşısı ütüldü, yamanı bitdi,***
***Allahın Allahlıq zamanı bitdi.***
***Necə dağ çəkdilər - dağ, Xələfliyə.***

***Göndər, nə dərdin var, canıma göndər.***
***Göndər, mələyini yanıma göndər.***

***Apar öz yanına, buluda döndər***
***Məni yağış elə, yağ Xələfliyə.***

***Oyansın yuxudan yuxulu başlar.***
***Oyansın o dağlar, qayalar, daşlar.***
***Oyansın gözlərdə göllənən yaşlar,***
***Qəzəb qılıncını çax Xələfliyə.***

***Dağını, bağını quraq apardı,***
***Uzalı əllərdən soraq apardı***
***Yazdım, sözlərimi varaq apardı.***
***"Sinəsi bağcalı bağ Xələfliyə".***

"Xələfliyə" şeirini ixtisar etməyə qıymadım, əlim gəlmədi. Ona görə ki, şeir həssaslıqla, düşüncədə, xəyalda yaşanılandan, hisslər və duyğular aləmindən keçiriləndən sonra yazıya alınmışdır. Ümumiyyətlə, "Görsən tanımazsan, bax Xələfliyə" şeirlər silsiləsi məzmun-üslub, bədii deyim tərzi və orijinallığı ilə diqqəti çəkir, oxucunu fikir və düşüncə aləmində saxlayır. Burada yalnız - dinamik hadisə və əhvalatlar, bədii məzmun və məzmunun ünsürləri, poetik "mən" və onun mühiti deyil, həm də təsvir, bədii fəndlər və vasitələr, məcazlar, söz və ifadələr sənətkarın məharəti ilə ümumiləşdirilir, ideya-estetik yük daşıyır, həyatın "bir parçasını" və insanı ifadə edir. Reallıq, insanın özünəməxsusluğunu itirməsi milli-xəlqi şairi-Əli Rza Xələflini qatı sərt boyalar işlətməyə aparır. O, qısa zaman kəsiyində bəzi adamların başqalanmasına, onların olduqları kimi yox, göründükləri kimi görünmələrinə dözə bilmir.

***Çölü bəzək, içi təzək- göz oxşayır ismətimiz,***
***Soyundurum libasını, qoy görünsün xislətimiz.***

***Yavanlığı özgələrə, yavanı da bizə düşdü,***
***Göydən gəldik, yerdən çıxdıq, Vətənimiz-qürbətimiz.***

***Yük altında inildəyir, şələ basıb lələsini,***
***Aralıqda söz güləşir, başa çatmır höcətimiz.***

"Zamanın həcvi" şeiri əlvan bədii təsvir və ifadə vasitələri ilə zəngindir. Ancaq bədii üsullar zənginliyi - mübaliğələr, bədii xitab, sual və nidalar, təkrirlər, müqayisələr şeirə yük, ağırlıq gətirmir, onun əxlaqi-estetik dəyərini gücləndirir. Burada həyati təsirli bədii təzad zamanla insan, ya insanlar arasında yaranmır, insanın psixoloji, daxili əxlaqi-mənəvi aləmi ilə onun zahiri varlığı arasında yaranır. Şeirin hərarətli bədii məntiqində heyrət təəssüfə, təəssüf də heyrət və acı kədərə qarışır. Şeirdə zaman obrazı sanki idealından üz döndərmiş bir xanımdır. Bu zaman - xanım insan-vətəndaşdır. Zahirən harmonikdir, gözoxşayan və diqqəti çəkəndir. Di gəl ki, bu zaman - xanımın "çölü bəzək, içi təzəkdir". Onu soyundurub paltarsız baxılsa hər kəsi heyrət bürüyər, belə insanların ismət və ləyaqətləri haqqında aydın təsəvvür oyanır. Onlar görmürlər, ya da görmək istəmirlər:

***Gözü bağlı-sinə dağlı, yurda sarı yollar bağlı,***
***Ötən günlər ümid verir, qurtarmada möhlətimiz,***

***... Bircə udum sudan ötrü-suyumuzu çıxarırlar,***
***Ayaq üstə gəzə-gəzə torpağımız-mürbətimiz.***

Azərbaycannın hər yerində - şəhərlərdə, rayonlarda və qəsəbələrdə yaxşı tanınan, adı hörmətlə çəkilən, əsərləri çox oxunan Ə.R.Xələfli daxilən narahat, biganəlik və etinasızlıqdan uzaq sənətkardır. O, mövzularını, obrazlarını gerçəkliyin, yaşayışın və məişətin məhdud, bir axarlı və rəngli sahələrindən götürmür. Bu güclü istedad sahibi varlığı, varlığın ziddiyyətlərini, mürəkkəblik və çətinliklərini, yeniliyin bənzərsiz təzahürlərini adət-ənənəni çalarları ilə yaşayır və bunları parça-parça lirikasına gətirir. Belə gərgin, çox istiqamətli yaradıcılıq axtarışlarının yeni, müasir yöndən dinamik və ifadəli bədii poetik istedadının təravəti hünər və məharət ilə səciyyələnən Ə.R.Xələfli bədii dilin estetik gözəlliyini qoruyur, onun hərarət təsirini xeyli artırır. Bu milli ədibin "Quyudakı səsim", "Dan üzü sökülürdü", "Şeir Yazanda", "Qınağa çəkilməyəsən", "Demərəm", "Zəmanəni həcv", "Ocaqlara qalanma", "Vətən", "Araza

doğru", "Könlüm Ərzurumdu", "Dilim qənim olsun", "Xələfliyə", "Vəfadan qeyri", "Könlüm", "Ölər, axı" və "Gülüşlərin" şeirlərində canlı həyatı mövzuların cövhəri yüksək şeiriyyətlə açılır, əsərlər dərin təsir oyadır, insanı heyrətləndirir, əhvali-ruhiyyəsini dəyişir, səfərbər edir, ideya-estetik amala istiqamətləndirilir:

***Bıçaq sümüyə çatmasa,***
***Zillətə zillət demərəm.***
***Gün batıb, ulduz yatmasa,***
***Zülmətə zülmət demərəm.***

***Aranda tutdan eyləyən.***
***Dağda qurutdan eyləyən,***
***İndi yurddan eyləyən,***
***Qismətə qismət demərəm.***

***Köksünə dərd əkmədisə,***
***Gözünə ağ çəkmədisə,***
***Qəribə dağ çəkmədisə,***
***Qürbətə qürbət demərəm.***

***Öz qanına boyanmasa.***
***Ürəyində od yanmasa,***
***Axır bir gün oyanmasa***
***Millətə millət demərəm.***

Parça "Demərəm" şeirindən götürülmüşdür. Demərəm düşüncədə, xəyalda, psixoloji-mənəvi aləmdə yaşanılandan, hisslərdə və duyğularda detalları, rəngləri aydınlaşandan sonra yazıya alınan şeirdir. Heca vəznində qələmə alınan bu bədii-fəlsəfi şeir böyük bir sənətkarın tapıntısı, ümumiləşdirməsidir. Burada məzmun formaya, forma da məzmuna hopur, ideya-estetik amal misradan-misraya, bənddən-məndə, sözdən-sözə gözoxşayan dağ çayı kimi ləngərlənir, daxili istək və həyəcan insani davamlı təsirə salır, onu erməni yağıları ilə üz-üzə

dayanmağa, torpaqlarımızı azad etməyə səsləyir.

Şair-publisist Ə.R.Xələfli insanın xalq, vətən, cəmiyyət və bəşəriyyət haqqında mənəvi borcundan, vətəndaşlıq mövqeyindən danışmaq lirik, hissi-emosional şeirlər yazmaq istəyəndə məzmunu sənətkar təmkin və müdrikliyi ilə konkretləşdirir. Bütün məqamlarda məzmunun cövhərini, mahiyyətini tamamlayan, onu şərtləndirən dinamik, ifadəli və axarlı forma tapır. Sözü heyrətamiz həssaslıqla, zərgər, qənaət və xəsisliyi ilə işlədir, artıq sözə, yersiz kəlama ehtiyac duymur:

***Səmti yox küləklərin, izi də qalmır, Vətən***
***Sənin dilsiz dilini dili kəsilmiş bilər,***
***Dil-dil ötən şairlər dilini bilmir, Vətən***
***Kəsilməyən qolunda vurulmayan qandal var.***
***Əli titrək bir kövrək gözünü silmir, Vətən.***
***"Anan ölsün" dedilər, axır anasız qaldın***
***Qəm bürüyüb üzünü, üzün də gülmür, Vətən.***

İyirmi iki misradan ibarət qəzəl formasında qələmə alınan, on dörd heca ilə yazılan "Vətən şeiri" dərin məzmunludur. İrihəcmli bədii əsər tutumlu, mətləblidir. Çünki şeirdə hər söz, hər ifadə, hər işarə poetik fikir daşıyır. Şeirdə söhbət yırtıcı erməni işğalcılarından gedir. Lakin misraların heç birində, nə də şeirdə qəsbkarın-qaniçənin adı çəkilmir. Böyük sənətkar - Ə.R.Xələfli istedadlı, yaradıcı hünərlə az qala hər misrada yaddaşlardan silinməyən, ermənilərin iyrənc əməlləri görünən poetik təzadlar, ibrətamiz detal, lövhə və mənzərələr yaradır. Vətənin bir parçasının - Qarabağın üstündən keçən durna düşmənə - goreşən ermənilərə kin və qəzəblə baxır, onun Daşaltında, Xocalıda və Şuşada tökdüyü qan göllərindən vahimələnir, yerə bir lələk də salmır, lələk xoflanır, qan gölünə düşə biləcəyindən, qana batacağından ehtiyatlanır. Güllərisə pardax-pardax qana batır, zaman-zaman uyuyur, vaxt sərir. Vətənin ətrini, gözəlliyi saxlayır. İtkinlərdən səda-soraq gəlmir, yollar sozalı qalır səbr-ümid tükənir, küləklər saçını yolur, çöllərdə qurdlar ulayır. Gözləri yolçəkən, nişansız qalan bir

gözəlin ahı-fəryadı dağları titrədir. İnsanlar görürlər ki, ermənilər zəlidən-fərqlənmirlər, gör eşirlər, qəbirlərdən də pay umurlar. İşğalçılar Qarabağı talayırlar, şəhərləri, rayonları, kəndləri, maarif-mədəniyyət ocaqlarını talayırlar, ucsuz-bucaqsız zəmiləri, dağları-dərələri yandırırlar. Adamlığını itirən qəsbkarlar qəbirləri sökürlər. Başdaşlarını çıxarıb aparırlar, özlərinə evlər tikdirirlər. Qeyrəti, arı, namusu unudurlar, qəbrin daşlarından tikilən evlərdə yaşayırlar.

"Vətən" realist boyalarla yazıya alınan dərin fikirlərlə, şeiriyyətlə, tutarlı, hikmətamiz rəng və boyalarla dolu ədəbi hadisədir, həyatın səsidir, xalqın istəyidir. Qarabağı erməni qızğunlarının tapdağından qurtarmaq tələbidir. Qarabağ şəhidlərinin ruhuna sevgi, hörmət və qayğı əlamətidir. Şeir "Vətən"ə xitab, müraciətdir, işarə və rəmz deyildir, kamil, bitkin, hormonik, hərtərəfli təsir oyadan obrazdır.

Ə.R.Xələfli həmişə ideya-bədii gözəlliyini, fikir-məna siqlətini qoruyur, pafos onun novator lirikasında gerçəkliyin, obrazın əxlaqi-mənəvi, sosial-psixoloji təhlilindən təzahür edir. Təbriz dərdi, Qarabağın erməni qəsbkarlarının tapdağı altına alınması, Borçalı və Dərbənd həsrəti, eyni zamanda, ölkəmizdə baş verən ziddiyyətlər, mürəkkəblik və çətinliklər onu - qaynar daxili dramatizmə aparır, həyəcanlandırır. "Araza doğru" şeiri sakit, bir qədər də kədər yüklü bədii ahənglə başlayır. Ancaq söz-sözə, misra-misraya canlandıqca bədii deyim qaynarlaşır, daxili emosiya və həyəcan güclənir, böyük bir sənətkarın Ə.R.Xələflinin aydın və səmimi vətəndaş mövqeyi oxucunu düşündürür, təsirdə saxlayır. İstedadlı şair müdrik bədii məntiqlə bizi amala, hadisələrin çövhərini dərkə istiqamətləndirir. Milli qəhrəmanlıq ənənələrini - qan yaddaşını xatırlayır, hər kəsi "kölən dərdin" üstünə, kürək-kürəyə "Təbrizə və qarabağa" üz tutmağa çağırır.

"Araza doğru" müasirlik niyyəti ilə yazılan məzmunlu yüksək ideyalı şeirdir. Burada sənətkar bədii üsullardan sinonim və antonimlərdən, mübaliğə, epitek, müqayisə, metaforalardan sıx-sıx yararlanır, didaktik mühakimələr yürütməyə zəruri

ehtiyac duyurdu:

***Təbriz üstü Marağa, zülfün gəlməz darağa,***
***O, pərişan zülfünə daraq Araza doğru.***
***Qarabağdan qan seli doğdu Təbriz dərdi.***
***Haray salaq, hay salaq, varaq Araza doğru.***
***Boynumuzdan asılan zaman dəyirman daşı.***
***Sındıraq bu inadı, qıraq Araza doğru.***
***Hakimi tarix olan ədalətsiz divanı.***
***Söküb təzədən quraq, quraq Araza doğru.***
***Mərdlərin sinəsində qəzəb coşsun, kükrəsin.***
***Tuşlansın qəzəb, nifrət, yaraq Araza doğru.***

Şair-publisist Ə.R.Xələfli Araz ağrı-acısından, öncə Qarabağ faciəsindən tez-tez ideya-estetik məzmunlu siyasi-təbliği pafoslu əsərlər yazıya alır. Bu mövzu bənzərsiz fərdi bədii üslubun - Ə.R.Xələflinin çox istiqamətli milli və xəlqi yaradıcılığından üzülmür, ayrıca bir istiqamət, seçilən, güclü təsir oyadan bir şaxə kimi əsərdən-əsərə zənginləşir, təzə çalarlar alır. Qarabağ reallığının - qəm, kədər və fəryadın bir fərd - Ə.R.Xələfli Qarabağ həqiqətlərindən, qaçqın və köçkünlərin həyatından, məişət və güzəranından yazanda istedadının qaynarlığına, yaddaşın itiliyinə söykənir, özü-özünü təsvir və ifadə üsullarını təkrar etmir, seçdiyi məzmunun orijinal bədii həllini verir. İstər Arazdan, Arazın dərd və kədərindən, erməni yırtıcılarının işğalçılıq siyasətlərindən, istərsə də bizim günlərin müasir problemlərindən məzmun götürsün, fərqi yoxdur, ona yeni yaradıcılıq yönündən nəzər salır, təzə müşahidələrlə baxır, təzə mövqedən mövzunun cövhərinə enir, çalarları, rəngləri ilə kəşf edir. Lirik şeirlərində məzmun, əhvalat nə qədər maraqlı və əhəmiyyətli olsa da şair-publisist Ə.R.Xələfli mətləbi uzatmır, səciyyəvi hadisəni xırdalamır, bir faktı, bir əhvalatı, bir şəxsiyyətin fikri- mənəvi aləmini göstərir, onu yüksək səviyyədən ümumiləşdirir.

Ə.R.Xələfli aktual, müasir və səciyyəvi bir məzmun seçmək istəyəndə çətinlik çəkmir. Çünki bu gün istedad milli-xəlqi sənətkarı birinci halda bədii məzmunun gerçəkliyin zənginliyindən,

nəsillərdən-nəsillərə keçən qəhrəmanlıq ənənələrindən, adət-ənənədən, xalqın yaşayışından, məişətindən, müasirlərimizin cəmiyyətdə yer və mövqelərindən alır. İkinci halda Ə.R.Xələfli qayğıkeş və həssas insandır. Ə.R.Xələfli romantikdir, bir az da emosional və sentimental ədəbi şəxsiyyətdir. O, görür-götürür, arayıb-axtarır, geniş yaradıcı müşahidələr aparır, faktın, müəyyən bir əhvalatın məzmununu tez həssaslıqla duyur. Ə.R.Xələfli çoxcəhətli novatordur, yaradıcılığını hikmətli, xırda, lokonik ifadəli və dinamik lirikası şeirlərlər mənalandırır. Onun hissi-emosional, dərin sosial məzmunlu lirik ürəyi isidir. Düşüncədən, təzadlı fikirlərdən ayrıla bilməyən insanlara ümid, təsəlli verir, onları fəallaşdırır. Sabaha inamlarını gücləndirir:

***Ələm mənə layla deyər, qəm bələyi bələr, axı,***
***Həsrət mənim ürəyimi bölüm-bölüm bölər, axı.***
***Nadan mənə tənə vurar: bircə kərə üzün gülməz,***
***Bircə kərə üzüm gülsə, ellər mənə gülər axı.***
***Ürəyimi qaralayıb min bir yerdən bu dərd mənim***
***Bu dərdlərin loğmanısan, loğman dərdi bilər, axı.***
***Yaralanmış sinəm üstə qan süzülür, qan aparır,***
***Məlhəm yoxsa təbib əli, axan qanı silər axı.***
***Şahmar zülfün qıvrılmışdı yanağında xallar üstə,***
***İlan vuran diləyini bir ocaqdan dilər, axı.***
***Qan qırmızı lalə bitər dağlar üstə, dağ döşündə,***
***Xələflidən üz çevirsən, o dağlarda ölər, axı.***

İnsanları həyəcanlandıran, fikir və düşüncə aləminə aparan, zənginləşdirən, onu ideala, sabahın romantik gözəlliyinə aparan şeirlər yazmayanda Ə.R.Xələfli rahatlığını ("Şeir yazanda") itirir, gərgin psixoloji əhvali-ruhiyyə keçirir, özü-özündə olmur, gərgin ruhun yanında qərar tutur, çılğınlaşır, ocağa qalanır, istedadı ("Ocaqlara qalanma") sözlərin od-alovuna axır. Rahatlığı, daxili-mənəvi dincliyi, bədii yaradıcılığı estetik sevinc və fərəhini fərdi yazı laboratoriyasında tapır.

Şair-publisist Ə.R.Xələfli şeiri gur istedadla, yaradıcı hünərlə, insanı özünəməxsusluğu, gerçəkliyi çalar, rəng və plastik müx-

təlifliyi ilə yazıya alır. Onun lirik şeirlərində həyat həyata, insan insana bənzər görünür, bədii deyimdə Azərbaycan təbiətinin rəngbərəng gözəlliyi, təkrarsızlığını saxlayır, bunların ətri duyulur.

Adətən lirik "mən" onun şeirlərinin hamısında əlvan boyalarla, axarlı və ifadəli bədii təsvir vasitələri ilə, çox hallarda isə həyati müqayisələrlə açılır. O, fikri çox kəsərli, müdrikanə ifadə edir və təsviri uzatmır, yersiz və lüzumsuz mühakimələrə varmır. Tərcümeyi-hal vermir, müəyyən bir əhvalatı göstərir, ibrətamiz, lövhə, mənzərə və detallar yaradır. Poetik "mən" konkret zaman vermək daxilində hərəkət edir, iş görür, fəaliyyət göstərir. Çünki lirik qəhrəman müasir üslublu şairin-Ə.R.Xələflinin lirik poeziyasında varlığı duyan, düşünən, görən, göstərən, bunlara istiqamət verən, vətəndaş fəallığı ilə seçilən, sevən və sevilən, kamil, harmonik, ədəbi şəxsiyyətdir, elə yeni mündəricəli sənətkarın özündə - Ə.R.Xələfli varlığında, bənzərsiz əxlaqi-mənəvi dünyasında, düşüncəsində zamanın ibəratamiz əməlləri, insanların ümidləri, həsrət və nisgilləri cəmləşir. Ona görə ki, poetik "mən" məzmunun, ideya-estetik amalın daşıyıcısıdır, hisslərin, duyğuların, emosiyaların mənəviyyatın bədii ifadə üsuludur. "Lirika"da şairin şəxsiyyəti öndə durur, biz ancaq onun vasitəsi ilə hər şeyi duyub anlayırıq.

...Lirik şeir əsasən subyektiv, daxili "mən"in şeiridir, şairin öz-özünü ifadə etməsidir. Hər bir həqiqi şeir bədii ləyaqətin hansı pilləsində durursa-dursun, xüsusən hər bir böyük şair heç vaxt heç bir şeyi özündən uydurmur, canlı, ümumbəşəri formaya salır. Buna görə də şairin əsərlərindən zövq alanlar orada həmişə özlərinə məxsus bir şey tapırlar.(Belinski)

Ə.R.Xələfli istedaddır, bədii yaradıcılıqda cəsarətdir, təkrarsız ədəbi şəxsiyyətdir. Bədii əsər yazmaq istəyəndə yaradıcılıqla yaşayır, özünü şeirə qatır. Bu istedadlı şair, şeiri birnəfəsə yazır, çox sadə, çox adi bir məzmunu qaldırır, çalarlandırır, onu xalqın istəyi səviyyəsindən mənalandırır:

***Ümidi boylanır bar ağacına***
***Həsrəti güllənən var ağacına***

***Axır uçub gedəm dar ağacına,***
***Qurbanam, tutasan yon əvəz bilsən***

***Gələsən, gələsən sözüm evinə***
***Baxa gözlərinə gözüm sevinə.***
***Könül sarayımın zülmət evinə,***
***Çıraq ol, işıq ol, yan əvəz bilsən.***

***Baxsan eşqinə pünhan yoluma,***
***Dərdin hardan çıxdı bu ah yoluma.***
***Göl-göl qanım axsın günah yoluma,***
***Əlin cam-cam tuta qan, əvəz bilsin***

***Gəzdə gəzən könlüm qara qaş üstə,***
***Göndərsən edama-hara, baş üstə.***
***Xələflinin başı qara daş üstə,***
***Halallıq haqqına can, əvəz bilsən.***

Ə.R.Xələfli yaradıcılığını şaxələndirir, lirik və lirik-epik şeirlər, ədəbi-bədii publisistik əsərlər, ədəbi-tənqidi məqalələr, elm və sənət adamlarına ünvanlanan məktublar, xatirələr yazır. Milli bir sənətkar Ə.R.Xələflinin bu səpkili əsərləri çox yayılır, oxunur, hərtərəfli maraq oyadır. Çünki ədibin publisistikasında söz sənətinin, incəsənətin, maarif və mədəniyyətin, ayrı-ayrı yazarın bədii yaradıcılığının səciyyəvi xüsusiyyətləri haqqında çox qiymətli fikirlər söylənir. Bunlarla yanaşı, Ə.R.Xələfli elmi və ədəbi mühitdə, çoxminli oxucular arasında hərarətli, dərin ictimai-siyasi məzmunlu milli lirika ustası kimi tanınır, böyük sevgi və nüfuz qazanır. Məzmunu, rəngləri, boyaları, fikri-estetik mahiyyəti, poetik üsulları, bədii mənzərə, lövhə və detalları, məişətin, adət-ənənənin, qan yaddaşının və zamanın inkişaf istiqamətindən qidalanan Ə.R.Xələfli lirikasında varlığın təzahürlərini dövrün müxtəlif hadisə və əhvalatlarını, insanların əməllərini konkret obrazlarında göstərmir. O, lirik şeirlərində obrazın vəziyyətinin, mövqe və fəaliyyətinin yalnız bir

məqamını, bir anını düşüncəsinin, hiss, duyğu və ehtiraslarının nizamını, harmoniyasını, fikir, əhvalat və hissləri öz varlığına keçirir və bunları öz fərdi hissləri kimi canlandırır. Belə yüksək bədii məziyyətlər şair-publisist Ə.R.Xələflinin "Deməræm", "Zəmanəni həcv", "Ocaqlara qalanma", "Qınağa çəkilməyəsən", "Dan üzü sökülürdü", "Quyudakı səsim", "Vətən", "Araza doğru", "Könlüm Ərzurumdu", "Dilim qənim olsun", "Vəfadan qeyri", "Könlüm", "Ölər, axı", "Gülüşlərin" və digər şeirlərində özünü qabarıq göstərir. İstedadlı ədibin bu şeirlərində və bunlara bənzər digər lirik şeirlərində insanın mahiyyəti, istək və arzusu duyulur, hiss olunur, bədii pafos və təsir təbii yaranır. Şeirlər "İçəridən gələn səsə, ürəyin dilinə, hisslərin gözəl sözlərinə" oxşayır, insanı nəcibləşdir onu dünyəvi ideallara istiqamətləndirir:

***Ürəyimin parçasıdır, qaranlığa işıq salır,***
***Ulduzların arasından hilaləli gülüşlərin.***
***Yeddi dağın arxasından şimşək kimi çaxıb gələr***
***Göylər kimi şaqqıldayar o naləli gülüşlərin***
***Səhraları Vətən bilən xəyalımın xəyalında,***
***Nəğmə-nəğmə dillər gəzər təranəli gülüşlərin.***
***Yanağında xala dönən həsrət, hicran çəmənzarı,***
***Bir bülbüldü, bağrı-başı qan laləli gülüşlərin.***

Şair-publisist Ə.R.Xələfli müasir səciyyəli, zəngin xarakterli ədəbi şəxsiyyətdir. Onun lirikası səmimidir, sadədir, xəlqidir, orijinaldır, yüksək şeiriyyətlə, bədii tapıntılarla doludur.

# *ƏLAVƏLƏR*

## HƏYAT SƏNƏTKARIN TALEYİNDƏ

*(ixtisarla)*

Son dövrlər yeni ədəbiyyatın aktual problemlərinə tamam yeni istiqamətdən yanaşılır və tədqiq olunur. Ədəbi şəxsiyyətlərə, onların bədii yaradıcılıqda yer və mövqelərinə tutumlu yer ayrılır. Ayrı-ayrı əsərlərin ədəbi prosesdə yer və mövqeləri haqqında söz deyilir, fikirlər söylənilir.

“Kredo” mətbuat orqanlarının əksəriyyətindən fərqlənir və seçilir. Bu qəzet Əli Rza Xələfli yaradıcılığının təkrarsız məhsuludur. Bir çox elmi, ədəbi-bədii və publisistik üslubların üzə çıxmasında, ədəbi şəxsiyyətlərin tanınmasında “Kredo”nun, öncə qəzetin baş redaktoru Əli Rza Xələflinin əhəmiyyətli rolu olmuşdur. Bir tərəfdən Ə.Xələfli vətənpərvərdir, milli-ədəbi şəxsiyyətdir. Digər tərəfdən xalqın istək və arzularını, dünyəvi hiss və duyğularını ifadə edən şairdir, alimdir, jurnalistdir. Ə.Xələfli ədib kimi çox oxunur, sevilir və milli şair kimi tanınır. Bütün bunları nəzərdə tutub ilk dəfə bu qüdrətli bədii üslubun - Əli Rza Xələfli yaradıcılığının bədii poetika xüsusiyyətlərini, jurnalistlik fəaliyyətini açıb göstərməyə çalışdım.

Fəci və orijinal yaradıcılıq yolu keçən, taleyindən yarımayan İsa Sadiq qiymətli lirika və epik əsərlər müəllifidir.

Tale elə gətirib ki, mən həmişə ədəbi həyatın içərisində olmuşam. Hərdən deyirlər ki, 30-cu illərdə ədəbi döyüşlər daha sərt və kəskin olub. Ancaq mən qətiyyətlə bu fikirdəyəm ki, heç də 60-70-ci illərin ədəbi mübarizələri öz kəskinliyi ilə müqayisə olunan dövrdən geri qalmırdı. Doğrudur, bu ədəbi döyüşlər ideoloji müstəviyə çıxmışdı. Əslində, bunun qarşısı alınırdı. Ancaq həmişə nəsillər, ədəbi üslublar, cərəyanlar arasında ziddiyyətlər olub və hər kəs öz mövqeyini ardıcıllıq və prinsipiallıqla müdafiə etməyə çalışıb. Bu mənada 60-70-ci illərdə mənəvi mühitin dəyişməsi ilə mübarizənin motivi bir qədər də kəskinləşdi. Total quruluşun dağılmasının psixoloji köklərini də burada axtarmaq lazımdır. "Həyat və ədəbi

tale" adı ilə təqdim olunan bu kitabımda nəsillərin elə nümayəndələrini müxtəlif tərəflərdən təqdim etməyə çalışmışam ki, oxucuda ədəbiyyatın, sənətin varisliyinin, mübarizələrin qırılmazlığının təsəvvürü yaransın. Mən İsmayıl Şıxlı yaradıcılığından müasir dövrümüzə körpü görürəm. Bu mənada Ə.Xələflini də təsadüfi seçməmişəm, eləcə də digər müəlliflər haqqında da əsaslı mülahizələrim var.

Həyat sənətkarın taleyində mühüm təsir vasitəsi olur. Əslində, sənətkarın ədəbi taleyini həyat müəyyənləşdirir. Həyatla mübarizədə sənətkarın qələbəsi, artıq onun ədəbi taleyinə çevrilir.

Vaxtilə Azərbaycan ədəbiyyatının klassikləri olan Mirzə İbarahimov, Süleyman Rüstəm, İlyas Əfəndiyev, Mirvarid Dilbazi, Osman Sarıvəlli, Əhməd Cəmil, Elçin, Xəlil Rza Ulutürk, Nəbi Xəzri, Əliağa Kürçaylı, Ənvər Əlibəyli, Eyvaz Borçalı, Cabir Novruz, Nəriman Həsənzadə, Yusif Əzimzadə, Mir Cəlal və başqaları haqqında silsilə məqalələr yazmışam. Yəni demək istəyirəm ki, həmişə ədəbiyyatı ardıcıl və diqqətlə, sərraf gözü ilə izləmişəm. "Ədəbiyyat nəzəriyyəsi", "Ədəbiyyatşünaslığın əsasları", "Sənətkarın yaradıcılıq fərdiliyi" kimi nəzəri əsərlərin, saysız ədəbi-tənqidi məqalələrin müəllifiyəm. Bu gün ədəbi prosesi izlədikcə hiss edirəm ki, müasir dövrün fonunda daha yeni, bu günün mənəvi mühitini açan əsərlər yazmaq olar. "Həyat və ədəbi tale" bu zərurətin məhsuludur.

Müəlliflərin psixoloji durumu, mənəvi mühiti onların yaratdığı obrazların mənəvi-psixoloji durumu ilə qırılmaz bağlıdır və qarşılıqlı səsləşmələr səriştəli tədqiqatçını həmişə cəlb edir. Tədqiqatçı bu səsləşmələri vaxtında duya bilsə və zamanın özü ilə qarşılaşmalar və təzadlar anı diqqətə çəkilsə, tədqiqat obyetinə çevrilsə, tədqiqat əsərləri bədii əsərlərin özü qədər təsir gücünə malik olur. Hətta bəzən tədqiqatçının hiss və duyğularını ifadə etməsindən asılı olaraq daha təsirli və yaddaqalan olur.

Ədəbiyyatın müasir mərhələsi bir çox xüsusiyyətlərinə görə əvvəlki dövrlərdən fərqlənir. Janrların bir-birinə qovuşması, janrlar arasında kəskin hədlərin götürülməsi prosesi gedir. "Həyat və ədəbi

tale" kitabındakı ayrı-ayrı məqalələrdə tədqiqat obyekti kimi götürülmüş müəlliflərin yaradıcılığına bu yöndən yanaşılır.

Əlbəttə, son söz oxucunundur. "Həyat və ədəbi tale" arasındakı körpülər, bağlar, həm də oxucu qəlbindən keçir.

Oxuculara hörmətlə:

**A.HACIYEV, professor**
**("Həyat və ədəbi tale" kitabına (2008) "ÖN SÖZ")**

## MƏNƏVİ KAMİLLİYİN UCALIĞI

Məqalələrimin mahiyyəti haqqında son söz deməyə ehtiyac duymuram. Haqqında danışılan ədiblərin də yaradıcılıq məziyyətlərinə qayıtmaq niyyətim yoxdur. İsmayıl Şıxlı mənəvi tarixi abidədir. Müasirlərə gəldikdə isə məqsədim məni ilk növbədə çəkən "Kredo" qəzeti, onu hərəkətə gətirən, tamamilə yeni ruhda təqdim edən, ən başlıcası sakral milli vətənpərvər mündəricə aşılayan Əli Rza Xələflinin şair, alim, publisistik fəaliyyəti haqqında imkanım daxilində təsəvvür oyatmaqdır. Oxuculara demək istəyirəm ki, Ə.Xələfli kamil fərdi bədii üslubdur, yetkin şair-publisistdir. O, xalqımızın vətənpərvər duyğularından qopmuş və özünü xalqın həyatına, mənəvi yaşayışına həsr etmişdir.

Əziz oxucularım, danmıram, mən böyük vətənpərvər Əli Rzanı sevirəm, yaradıcılığını uca tuturam. Sizə də bu sevgi hisslərimi təlqin etmək istəyimi gizlətmirəm.

Son nəticədə məqsədim oxucuları ədəbi dəyərlərə, mənəvi dəyərlərə bağlamaq istəyidir. Mənəvi kamilliyin ən uca mərtəbə olduğuna insanları inandırmaq nə qədər çətin olsa da, mən buna bir daha cəhd etdim. Mənli-mənsiz... Ə.Xələfli tanınan və sevilən müasirimizdir.

...Və bizdən sonra gələnlər də var. Həyat və ədəbiyyat əbədidir. Görünür həyat, elə ədəbi tale problemi də əbədidir.

Sizə "Kredo" sevgisi ilə:

**A.HACIYEV, professor**
**("Həyat və ədəbi tale" kitabına (2008) "SON SÖZ")**

# "İKİ HÜNƏRLİ YAZAR"DAN FRAQMENTLƏR

..."Kredo" məzmunlu, samballı qəzetdir. Bu qəzet geniş yayılır, çox oxunur. Xırda istisnalar nəzərdə tutulmazsa. Burada zəif, maraq doğurmayan yazıların çapına imkan verilmir. Çünki qəzetin yaradıcı kollektivi, öncə şair-publisist Əli Rza Xələfli, yazıçı jurnalistlər-Elçin Kamal və Fariz Çobanoğlu hər məqaləyə, hər bədii əsərə, hər ədəbi qeyd və məktuba həssaslıqla, sənət qayğısı ilə, kamil bədii zövqlə yanaşırlar. "Kredo"da məqalə çap etdirmək istəyəndə tamam ciddiləşirlər, nüfuzlu bir qəzetin əməkdaşı olduqlarını "unudurlar", özləri-özlərinə tələbkarlığı bir az da dərinləşdirirlər. Çox gərəkli, ideya-estetik dəyərli, orijinal fikir və mühakimələrlə zəngin bir kitab-"Obrazlar aləmində" (Bakı, "Azərbaycan" nəşriyyatı, 2004) ürəyi Qarabağ həsrəti ilə çırpınan, rahatlıq tapmayan bir sənətkarın-Əli Rza Xələflinin yazı laboratoriyasında oxunmuş, redaktə olunmuş, yığcam və lakonik ön söz yazılmışdır. Onun "Obrazlar aləmində" kitabına ön söz yazması mənə təbii görünür. Ona görə ki, birinci halda, bədii söz aləminə Hüseynbala Mirələmov həyatın, ictimai-siyasi münasibətlərin və yaşayışın qaynar axarından gələn, yeni fikir və düşüncələrlə orijinal bədii əsərlər yazan; gerçəkliyi gerçəkliyin özünə bənzər canlandıran sənətkardır. Onun yaradıcılığı çox istiqamətlidir, yeni-yeni bədii tapıntılarla, orijinal obrazlarla zəngindir. Əli Rza Xələfli Hüseynbala Mirələmovun yaradıcılığını dərindən bilən, bədii hərəkətdə öyrənən, haqqında neçə-neçə əsərlər yazan kamil mündəricəli şair-publisistdir. İkinci halda, "Obrazlar aləmində" kitabını istedadlı, iti zəkalı, yetkin bədii dərk və bədii duyumlu, bədii əsərləri mükəmməl təhlil etmək hünərli yazıçı-jurnalistlər-Elçin Kamalla Fariz Çobanoğlu yazmışlar.

"Obrazlar aləmində" toplanan məqalələr Əli Rza Xələflinin "iştirakı və şahidliyi" ilə ağır sınaqdan-"Kredo" qəzeti redaksiyasında gedən ədəbi döyüşlərdən "keçən ədəbi-publisistik düşüncələrdir, Hüseynbala Mirələmov sənətinə əvəzsiz töhfə və heyrətdir. Çünki "müəlliflər bəzən təhlillərində ifrata varsalar belə, onları sözə qeyri-səmimi münasibətdə kimsə qınaya bilməz. Yanğı ilə qələmə

alınmış, bədii lövhələri Elçin Kamal da, Fariz Çobanoğlu da həssaslıqla duymuş, eyni yanğı ilə həmin hissləri yaşamağa çalışmış, elə bu səbəbdən də heç kimin yolu ilə getməyərək, orijinal tədqiqat əsəri yaratmışlar. Sərrast fikirlər, dəqiq ədəbi-nəzəri mühakimələrlə obyekt olaraq qəbul edilmiş yazıçının daxili-mənəvi aləmindən geniş oxucu audioriyasına körpü salmışlar. Burada zəngin insan qalereyası açılır. Burada dostlarımızı da, düşmənlərimizi də bütün əlvanlığı ilə görə bilərik" (Əli Rza Xələfli).

"Obrazlar aləmində" sadə, adi, asan, birnəfəsə yazılan kitab deyildir; mahiyyəti hərtərəfli yaradıcılıq axtarışlarından, məzmun-strukturu güclü ümumiləşdirmələrdən keçən, sözün hikməti uca tutula-tutula yazılan, ən tələbkar oxucunun belə həvəs və diqqətini çəkən tədqiqatdır, şaxəli və təsirli bir yaradıcılığa böyük sevgidir.

* * *

...Hüseynbala Mirələmovun həyatından, ədəbi fəaliyyətindən çox yazılır, ayrı-ayrı əsərləri haqqında söz deyilir, fikirlər söylənir. Di gəl ki, yazılan məqalələrin bir qismi diqqəti çəkmir, marağı hərarətləndirmir, yazıçı-dramaturq haqqında təsəvvürü genişləndirmir. Heç kim dana, inkar edə bilməz, Hüseynbala Mirələmovun ədəbi şəxsiyyətinin, fərdi bədii üslubunun necə formalaşmasının, inkişafdan inkişafa hansı çalarla, daha əlvan boyalarla zənginləşməsinin, ədibin ideya-estetik aləminin, məzmunlu obrazlar silsiləsi yaratmasının, seçdiyi, mükəmməl bədii həllini verdiyi mövzu müxtəlifliyinin tədqiqi, araşdırılması milli şeirin ən yaxşı ənənələrini dərindən-dərinə davam etdirən bir şairin-Əli Rza Xələflinin yaradıcılığından üzülmür, yeni istiqamətdə fasiləsiz hərəkət tapır. Bu şair-publisist dərin məzmunlu, irihəcmli tədqiqatlardan ("Sözə doğru", Bakı, 2003, "Dünyanın söz üzü" Bakı, 2007) əlavə Hüseynbala Mirələmov haqqında onlarca orijinal, yeni yönlü məqalələr yazmışdır. Ləngərli, tələbkar və həssas yazıçı-publisistlər Elçin Kamal və Fariz Çobanoğlu Hüseynbala Mirələmovun yaradıcılığını araşdıranda, ya Əli Rza Xələflinin əsərlərindən az-çox təsirlənir, fikirlərinə söykənirlər, ya da onun güclü elmi məntiqini dərinləşdirirlər.

* * *

..."Obrazlar aləmində" kitabına şair-publisist Əli Rza Xələfli yığcam, ifadəli və hikmətli ön söz yazmışdır. "Ön söz" təsirli, ibrətamiz şeir parçası ilə başlayır:

***Fikirlər içində qovruluram mən,***
***Bircə söz doğulub dünyaya gəlsin.***
***Min dərdin içində boğuluram mən,***
***Ümidim söz olub haraya gəlsin.***

Əli Rza Xələfli, Elçin Kamal və Fariz Çobanoğlu eyni taleli, eyni qismətli, "min dərdli"-Qarabağ fəryadı içində çırpınan vətənpərvərlərdir. Onlar ömürlərini, fəaliyyətlərini sözlə mənalandırırlar, sözü ümid sayırlar, qələmdən və mütaliədən ayrıla bilmirlər. Bunun nəticəsidir ki, bu sənətkarlar Hüseynbala Mirələmovun əsərlərini davamlı öyrənir, bəlkə də Əli Rza Xələfli, Elçin Kamal və Fariz Çobanoğlu yazıçı-dramaturqun yaradıcılığını onun özündən yaxşı bilir, istedadla yayır, təbliğ edirlər.

* * *

*"...Sənətkar bircə əsəri ilə də dünyanın sənət məbədində öz yerini tuta bilər. Və elə bircə əsəri ilə də əbədi yaşarlıq qazana bilər. Hüseynbala Mirələmovun zəngin və çoxcəhətli yaradıcılığında "Xəcalət" kitabında toplanmış əsərləri xüsusi əhəmiyyət kəsb edir. Bu əsərlərə yenilməz, fəqət ağrılı, yaşamağa haqqı olduğu üçün daim narahat və çox nigaran bir ruh hakimdir..." Qara qalxan dəqiq rəmzi xarakter alır. "Qara qalxan" yenilməz, nəhəng qalxan, uçulmaz müdafiə sipəri mənasındadır. Bizim xalqımızın mənəvi dəyərləri bizim üçün qara qalxandır".*

*Azərbaycan birliyi bizim amalımızdır. Bu amal H. Mirələmovun əsərlərindən əsas aparıcı xətt kimi keçir... Hüseynbala müəllimin əsərləri... başdan-başa dərin kədər və eyni zamanda, gələcəyə sarsılmaz inamla yoğrulmuş lirizmə bürünmüşdür. "Güllələnmiş heykəllərin fəryadı" əsəri faciələrimizin tarixi köklərinin tarixin dərin qatlarına uzandığını təsdiq edir".* (Əli Rza Xələfli) Ədəbi məclisdə milli-novator şair Əli Rza Xələflinin oxuduğu böyük həcmli şeir, elə yüz doxsan ilin bədii tarixi-həm də Qarabağın sabahına inam səsidir:

*...Zamanlar dəyişir, hakimlər köçür,*
*Tarixin basdığı möhür pozulmur.*
*Kimlər qılınc çalır, kimlər qan içir,*
*Əyrilər pozulmur, düzlər yazılmır.*

*Qəzəbli sularla döş-döşə durub,*
*Cəngavər ruhunu daşıyan tağlar.*
*Baxır dilsiz-dilsiz, boynunu burub,*
*Şəhidlik ömrünü yaşayan dağlar.*

**A.HACIYEV, professor**
**“KREDO”qəzeti, №53 (468) 10 noyabr 2007-ci il**

## SƏNƏTİN GUR İŞIĞINDA

Vaxtilə Azərbaycan ədəbiyyatının klassikləri olan Mirzə İbraimov, Süleyman Rüstəm, İlyas Əfəndiyev, Mirvarid Dilbazi, Osman Sarıvəlli, Əhməd Cəmil, Elçin, Xəlil Rza Ulutürk, Nəbi Xəzri, Əliağa Kürçaylı, Ənvər Əlibəyli, Eyvaz Borçalı, Cabir Novruz, Nəriman Həsənzadə, Yusif Əzimzadə, Mir Cəlal, İsmayıl Şıxlı, Əli Rza Xələfli və başqaları haqqında silsilə məqalələr yazmışam. Yəni demək istəyirəm ki, həmişə ədəbiyyatı ardıcıl və diqqətlə, sərraf gözü ilə izləmişəm. "Ədəbiyyat nəzəriyyəsi", "Ədəbiyyatşünaslığın əsasları", "Sənətkarın yaradıcılıq fərdiliyi" kimi nəzəri əsərlərin, saysız ədəbi-tənqidi məqalələrin müəllifiyəm. Bu gün ədəbi prosesi izlədikcə hiss edirəm ki, müasir dövrün fonunda daha yeni, bu günün mənəvi mühitini açan əsərlər yazmaq olar…

… "Həyat və ədəbi tale" bu zərurətin bəhrəsidir.

Sənətin gur işığında daha yeni yollar görünür.

**"Həyat və ədəbi tale" (2008)**
**kitabının üz qabığında müəllif qeydi**

# BAŞLIQLAR

**Dünya sənətin işığında *(Mahmud Allahmanlı)* ....................7**

**HƏYAT VƏ ƏDƏBİ TALE**

**Birinci hissə**

**Güclü fikir axarı ...................................................................23**

**Ruhlar dilə gələr... ................................................................31**

**Diri dağı aşan kişidi - Zaldı ................................................43**

**Arazı çağlar gördüm ............................................................53**

**Azərdən Turanacan ..............................................................67**

**Yeni yaradıcılıq axtarışları ..................................................89**

**SƏNƏTİN İŞIĞINDA**

***İkinci hissə***

**Gəl gedək Vətən sarı... .......................................................109**

**Lirik-epik şeirlər axarında .................................................125**

**"Meyar" sözün ölçüsüdür ..................................................153**

**Həyat - yaradıcılığın qaynağı ...........................................177**

**Güllələnmiş arzuların elegiyası ........................................199**

**Şeirin çalar zənginliyi ........................................................219**

***ƏLAVƏLƏR***

**Həyat sənətkarın taleyində ................................................232**

**Mənəvi kamilliyin ucalığı ..................................................234**

**"İki hünərli yazar"dan fraqmentlər ..................................235**

**Sənətin gur işığında ...........................................................238**

**ABBAS HACIYEV**
**(Hacıyev Abbas Məhəmməd oğlu )**

# *SƏNƏTİN İŞIĞINDA*

***(Əli Rza Xələfli - yaradıcılığın portret cizgiləri)***


Texniki redakor: Xaqani Kosayev
Operatorlar: Həkət Muradova
Türkan Rafiq qızı
Korrektor: Cəvahir Babaşova

Çapa imzalanmışdır 30.06.2010.
Kağız formatı 60x84 1/16
Şərti çap vərəqi 17.0
Uçot nəşr vərəqi 17
Tiraj 500. Sifariş 125

"Adiloğlu" nəşriyyatında çap edilmişdir.

*BAŞLIQLAR*